DÜNYA ƏDƏBİYYATI

ANTİK ƏDƏBİYYAT ANTOLOGİYASI

Ш6(0)
А 79

ANTİK ƏDƏBİYYAT ANTOLOGİYASI

245376

İKİ CİLDDƏ

II CİLD

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AVRASİYA PRESS"
BAKI-2006

Bu kitab "Roma ədəbiyyatı müntəxəbatı" (Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1959) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır

Tərtib edəni: **Əli Sultanlı**

880-dc22
AZE
Antik ədəbiyyat antologiyası. İki cilddə. II cild. Bakı, "Avrasiya press", 2006, 264 səh.

Oxuculara təqdim olunan "Antik ədəbiyyat antologiyası"nın ikinci cildinə qədim Roma ədəbiyyatından nümunələr daxil edilmişdir. Kitab iki bölmədən ibarətdir. "Respublika dövründə Roma ədəbiyyatı" bölməsində Tit Mak Plavt, Publi Terensi, Mark Tuli Siseron, Qay Valeri Katul, "İmperiya dövründə Roma ədəbiyyatı" bölməsində isə Publi Vergili Maron, Kvint Horasi Flakk, Ovidi Nazon, Seneka, Petroni, Fedr, Yuvenal, Tassit, Apuley kimi müəlliflərin əsərləri verilmişdir.

ISBN10 9952-421-40-9
ISBN13 978-9952-421-40-8

© "AVRASİYA PRESS", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ÖN SÖZ

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab antik ədəbiyyat antologiyasının ikinci cildidir. Bu cilddə qədim Roma ədəbiyyatı nümunələri toplanmışdır.

Roma ədəbiyyatı da, qədim yunan ədəbiyyatı kimi quldarlıq cəmiyyəti şəraitində yaranmışdır. Roma quldarlıq cəmiyyəti, qədim Yunanıstana xas olan eyni inkişaf mərhələlərini keçirmiş, lakin onun inkişaf və tənəzzülü başqa bir zamanda və coğrafi şərait içində cərəyan etmiş, tamamilə başqa bir sürətə malik olmuşdur. Bu cəhətdən Roma quldarlıq cəmiyyətinin tarixi, bəzi spesifik xüsusiyyətləri ilə yunan cəmiyyətindən fərqlənir. Roma bir dövlət kimi tarix meydanına çıxdıqdan sonra öz keçmiş mövqeyini itirən Yunanıstanı, vaxtı ilə onun və Makedoniyanın himayəsində yaşayan ölkələri, Karfageni işğal edib müstəmləkəyə çevirir, böyük dəniz dövləti olur. Sonralar Roma quldarlıq cəmiyyətində sinfi təzadlar o qədər gərginləşir ki, ən nəhayət dünya tarixi miqyasında antik cəmiyyətin məhvi və yox olması ilə nəticələnir. Qədim Roma ədəbiyyatında, həmin ictimai quruluşun inkişaf və tənəzzül prosesini və bunun ən əsas lövhələrini görmək mümkündür.

Roma ədəbiyyatı, qədim yunan ədəbiyyatı ilə Qərbi Avropa ədəbiyyatı arasında bağlayıcı rol oynamışdır. Uzun müddət yunan ədəbiyyatından xəbərdar olmayan Avropa yazıçıları və filoloqları antik ədəbiyyat naminə, ancaq onun bir hissəsilə, yəni qədim Roma ədəbiyyatı ilə tanış olmuşlar. İlk Avropa renessansçıları öz ideallarını Siseron, Vergili, Horasi, Ovidi kimi Roma klassiklərinin əsərlərində tapdıqları üçün bu əsərləri yerli dillərə tərcümə etmişlər və onlara nəzirələr yazmışlar. Lakin XV-XVI əsrlərdə klassik yunan dilini öyrənən renessansçılar, yunan ədəbiyyatına daha yüksək qiymət verərək aludəlik nəticəsində belə bir yanlış mülahizə irəli sürmüşlər ki, Roma ədəbiyyatı qədim yunan ədəbiyyatını təqliddən başqa bir şey deyildir. Ancaq, Roma ədəbiyyatının bir çox səciyyəvi xüsusiyyətləri həmin fikrin əsassız olduğunu sübut edir. Məlumdur ki, yunan klassik ədəbiyyatı, antik cəmiyyətin təşəkkül dövründə yaranmışdır. Bu dövr, yunan ədəbiyyatında "polis" dövrüdür ki, "İliada" və "Odisseya" kimi dastanların yaranması ilə başlayır. Halbuki Roma ədəbiyyatının ən klassik dövrü Romada polisin düşüb, imperiyanın vücuda gəlməsi illərinə təsadüf edir. Bu vaxt Roma cəmiyyət ilə vətəndaş arasında əmələ gələn yeni münasibət, subyektiv fərdi hisslərin, intim ruhi halların daha qabarıq bir şəkildə meydana çıxmasına səbəb olurdu. Həmin hissləri əks etdirən klassik Roma poeziyası öz motivləri, məfkurə istiqaməti

etibarilə olduqca orijinal idi ki, bu da ilk Avropa renessansçılarının zövqünə və əhval-ruhiyyəsinə daha çox uyğun gəlirdi. XIV-XVI əsrlərdə Avropada Vergili, Horasi, Ovidi, Seneka kimi yazıçılar İtaliya, Fransa renessansçıları üçün poeziyanın, dramaturgiyanın ən müqəddəs, əlçatmaz simaları olaraq ideallaşdırılır.

Dante, Vergilini "İlahi komediya" əsərində müdrikliyin bir timsalı kimi verir. F.Petrarka şeir yaradıcılığında Horasini öz müəllimi adlandırır. Horasinin "Pizonlara məktub" əsəri müqəddəs bir "poetika" kimi yaradıcılıq qanunnaməsi olur. P. Ronsar Vergili, Horasi və Ovidini poeziyanın dühası adlandırır, onlara nəzirə yazır. Senekanın tragediyaları həm məzmun, həm də formaca nümunə alınır, klassik tragediyanın babası hesab edilir. Roma qanunları və hüquqşünaslığı çox zaman, dəyişmədən məhkəmələrdə tətbiq olunmağa başlayır. Siseronun nitqləri müqəddəs ayələr kimi qəbul olunur. Hüquqşünaslar fikirlərini sübut üçün ondan tez-tez haşiyələr gətirirlər. Ümumiyyətlə qədim Roma, onun ədəbiyyatı, qanunları, tərzi-həyatı, adət-ənənələri təqlid nümunəsi kimi fikirləri məşğul edir. Eramızdan əvvəl III və II əsrlərdə yunan ədəbiyyatının bir sıra üslub ədaları və janr ünsürləri artıq köhnəlmişdi. Romalılar həmin janrlardan, üslub ədalarından istifadə edərkən onları islah yolu ilə müasirləşdirməyə və yeni həyatın tələbinə uyğunlaşdırmağa məcbur olurlar. Yunan tragediyasında, eləcə də yunan komediyasında xor janrın qanuni bir hissəsi idi. Dionis mərasimləri xorun olmasını tələb edirdi. Halbuki, sonralar xorun varlığına ehtiyac olmadığı halda, dramaturgiyanın lüzumsuz bir hissəsi kimi səsləndiyi vaxt belə xor ənənəyə uyğun olaraq saxlanmışdı. Roma dramaturgiyasında xor lazımsız bir ünsür kimi ixtisar edilir. Roma komediyasında və tragediyasında xor yoxdur.

Roma şairləri, qədim yunan və ellinizm poeziyasında işlənən bir çox şeir şəkillərini alıb onu mükəmməlləşdirmişlər, həmin şəkilləri öz hiss və ideallarını ifadə üçün bir vasitə etmişlər. Yunan ədəbiyyatından fərqli olaraq, Romada nəsr daha çox üstünlük qazanır. Elmi əsərlər, nitqlər, hüquqşünaslıq məsələləri, tarix bədii nəsr şəklində yazılır; daha sonralar Romada yaranmış hekayə və romanlar Qərbi Avropada nümunə kimi alınır. Bütün bunlar, antik ədəbiyyatın ikinci hissəsi olan Roma ədəbiyyatında yeni cəhətlər idi.

Qədim Roma ədəbiyyatı tarixini dövrlərə ayırarkən renessansçı filoloqlar Latın ədəbi dilinin inkişaf mərhələlərini əsas götürmüşlər. Həmin dövrlər uzun müddət aşağıdakı şəkildə qəbul olunmuşdur:

I. Q ə d i m d ö v r. Qədim dövrlərdən başlayaraq Romada yunan ədəbiyyatı səpgisində əsərlərin yaranmasına qədər olan dövr (e.ə. 240-cı ilə qədər).

II. A r x a i k d ö v r. Siseronun ədəbi fəaliyyətinə qədər olan dövr (e.ə. 240-81).

III. Roma ədəbiyyatının qızıl dövrü:

a) Siseron mərhələsi – Roma bədii nəsrinin çiçəklənməsi (e.ə. 81-43).

b) Avqust mərhələsi – Roma poeziyasının çiçəklənməsi (e.ə. 43-cü ildən b.e. 14-cü ilinə qədər).

IV. Roma ədəbiyyatının gümüş dövrü. İmperator Trayanın ölümünə qədər (b.e. 14-117).

V. İmperatorluq dövrü (b.e. 117-476).

Bu dövrləşdirmə Roma ədəbiyyatının əsas inkişaf prosesini əhatə etsə də, yalnız Latın ədəbi dilinin inkişafı ilə bağlandığı üçün birtərəflidir. Roma ədəbiyyatını aşağıdakı tərzdə dövrlərə ayırmaq daha dürüst olardı:

I. Respublika dövründə Roma ədəbiyyatı.

a) Ən qədim dövr (e.ə. III əsrin ortalarına qədər).

b) Roma ədəbiyyatının ilk əsri (e.ə. II əsrin ortalarına qədər. Quldarlıq respublikasının inkişaf illəri).

c) Respublikanın son mərhələsində Roma ədəbiyyatı (vətəndaş müharibəsi illəri, e.ə. II əsrin sonlarından 30-cu illərə qədər).

II. İmperiya dövründə Roma ədəbiyyatı (e.ə. 30-cu illərdən b.e. 476-cı ilinə qədər).

1. Respublikadan imperiyaya keçid illərində Roma ədəbiyyatı ("Avqust əsri", b.e. 14-cü ilinə qədər).

2. İmperatorluq dövründə Roma ədəbiyyatı:

a) Bizim eranın I əsrində Roma ədəbiyyatı (gümüş dövrü).

b) Roma ədəbiyyatının son illəri (II-V əsr).

RESPUBLİKA DÖVRÜNDƏ ROMA ƏDƏBİYYATI

XALQ ƏDƏBİYYATI

ARVAL QARDAŞLARININ NƏĞMƏSİ

Kömək ol bizə, ey Lar.
İmkan vermə o azar
Gələr dostluğu pozar.
Ey rəhmdil Mar-mar.
Ey böyük, qüdrətli Mars.
Mən bu paxlalar üçün
Ağlaram için-için.
Mən onları sənin üçün
Gətirmişəm ye, Mar-mar.
Ey qəddar, rəhmsiz Mars.
İstidir ver rütubət
Səndə varsa mərhəmət.
Çağır gəlsin ruhlar
Kömək bizə Mar-mar.
Eyvana çıx rəhmsiz Mars
Dayan sən də yerində Ber-ber.

AĞI

Sən ananı gözü yaşlı
Başı daşlı qoyub getdin.
Ölüm səni oğurladı,
Körpə quzum, sən nə etdin?
Gözlərimin son işığı,
Ey evimin yaraşığı...

EPİTAFİ

Qney oğlu Lüssi Korneli Sissipion
Saqqallı ləqəbidir onun, müdrik, qəhrəman.
Gözəl idi bu qəhrəman, mətanəti, rəşadəti tək
Konsul idi, senzor idi, edil idi; izləyərək
Haqqı, ədaləti çıxardı bizi xoş günlərə.
Samnit torpağında o, çox şəhərlər aldı
Lükaniyanı diz çökdürdü, dağıtdı hər qalanı.

SÜLH HAQQINDA AND

Dinləyin yerlər, ey ulu Tanrı.
Budur Allahın hökmü, qərarı.
Allah rizasıyla sizə gələrək,
Gətirdim Romadan xəbər, elçi tək,
Olsun bir həqiqət hər sözüm gərək.

PADİQRANI LƏNƏTLƏMƏ

Çağırdım burda səni
Qalx mənimlə ayağa.
Ağrını torpaq aldı,
Ürəyin döndü dağa.

BOĞAZ XƏSTƏLİYİNİ LƏNƏTLƏMƏ

Haradasan, çıx, ey Allah.
Sən varsansa dünyada,
Sən dünən, yaxud bu gün
Yaranmışsansa, ya da.

TİT MAKK PLAVT

E.ə. 251-184

Romanın ilk böyük milli dramaturqu Tit Makk Plavtdır. Ona qədər teatr işlərində olduğu kimi, yazılı dramaturgiyanın əsas yaradıcıları İtaliyanın cənubunda yaşayan yunanlar və yaxud da yarım yunanlar idi ki, onlar əsir kimi Romaya gətirilməndən sonra öz sənətləri ilə Roma zadəganlarını və patrisiləri məşğul etməyə çalışmışdılar. Belə ziyalı əsirlər romalıların əxlaq və insan heysiyyatı məsələlərində həddindən artıq ciddi olduqlarını duyaraq qədim yunan faciələrindən bir qisminin ixtisar şəklində tamaşaya qoymuşdular; komediyalarda isə siyasi kəskinliyi kütləşdirərək, ancaq məişət ilə bağlı səhnələri əsas almış, bəsit zarafat ilə başlayıb xoş sonluq ilə bitən əsərlər düzəltmişlər ki, buna kontaminassiya deyirdilər. Bu əsərlərdə hadisələrin cərəyan etdiyi məkan Yunanıstan, surətlər də yunanlar idilər. Yunan ailələrində baş verən bir sıra dolaşıq hadisələr həmin kontaminassiyaların əsas süjeti idi.

Romalıların ciddiyyəti onların ibtidai saflığından irəli gəlirdi. Ona görə də qul-ədiblərin Roma həyatını, Roma ailəsini tənqid etməyə cəsarətləri çatmırdı. Bəzi təşəbbüslər dərhal darmadağın edilmiş, müəlliflər isə ağır cəzalara məruz qalmışdılar. Bir sözlə, Aristofan komediya üslubunu Roma şəraitində bərpa və davam etdirmək olmazdı. Qərib qul-ədiblər isə Roma həyatını bilmirdilər. Bütün bunlar nəzərə alınarsa, bir sıra ənənələri hələ mühafizə edən, lakin yerli şəraiti gözəl bilən romalı Tit Makk Plavtın yaradıcılığına həqiqi qiymət vermək olar.

Tit Makk Plavt eramızdan əvvəl, təxminən 251-ci ildə Umbriyanın Sarsin adlı qəsəbəsində anadan olmuşdur. Roma şəhərinə gəlib aktyorlara köməkçi vəzifəsində, səhnə əmələsi vəzifəsində işləmiş; ilin böyük fəsillərində alverlə məşğul olmuş, alverdən ziyan çəkmiş Plavt dəyirmanda əmələ sifətilə işləmişdir. Burada işlərkən ilk komediyalarını yazmış, tamaşaçıların rəğbətini qazanan Plavt bundan sonra öz taleyini teatrla bağlamışdır. Bir rəvayətə görə, o 130, başqa rəvayətə görə 50-yə qədər komediya yazmışdır ki, onlardan ancaq 20-si tamam, biri isə natamam şəkildə bizə gəlib çatmışdır. Plavta isnad verilən digər əsərlər ya şübhəlidir və ya da məlum deyildir. Göründüyü kimi, Plavtın həyatı rəvayətlərdən ibarətdir. Ancaq əldə olan 20 komediya müəllifin istedadı, haqqında zəngin məlumat verdiyi kimi, həm də onun dünya şöhrətini təmin edən nəhəng bir bədii abidədir. Plavtın məlum komediyaları bunlardır: "Amfitrion", "Eşşəklər haqqında komediya", "Xəzinə", "Əsirlər",

"Kurkülionun kələkləri", "Kazina", "Sandıqca", "Epidik", "Vakxidlər", "Xortdan", "Əkizlər", "Lovğa zabit", "Tacir", "Psevdol", "Gənc karfagenli", "İranlı", "Ağalar və qullar", "Üç manat" və "Heyvərə".

Plavtın "Sandıqça" əsərindən müəyyən parçalar qalmışdır. Ümumiyyətlə, bu əsərlərin eramızdan əvvəl 210-184-cü illər arasında yazıldığını təxmin etmək olar.

Roma cəmiyyətinin həyatından mövzu alıb komediya yazmağın çətin və qorxulu olduğunu təcrübədə görən Plavt mövcud ənənəyə bağlı qalmış, öz mövzularını Yunan həyatından götürmüşdür. Yunan ədəbiyyatında yeni komediyanın görkəmli nümayəndələri olan Menandr, Filemon və Dafil ilk Roma dramaturqları üçün əsas mövzu mənbəyi idi.

Plavt da təvazökarlıqla həmin müəllifləri öz müəllimi bilərək, onlara pərəstişlə müraciət edir, əslində onun müraciəti ancaq müraciət olaraq qalır. Ədəbi müqayisələr göstərir ki, Plavtın komediyaları əsl mənbələrə uyğun gəlmir. Ona görə ədəbiyyatşünaslar haqlı olaraq, Plavtın komediyalarında Roma ünsürləri axtarmağa başlamışlar. İndi məlumdur ki, Plavt yaradıcılığında özünəxas bir sənətkarlıq üsulu ilə gedərək, yunan həyatını əksəriyyətlə bir vasitə kimi qəbul etmiş, heç bir zaman vətənin real həyat həqiqətlərini unutmamışdır.

Qonşu qəbilələri itaət altına aldıqdan sonra Yunan müstəmləkələrini və Yunanıstanı işğal edən qalib Roma öz tarixinin yeni mərhələsinə daxil olmuşdu. İşğal edilən ölkələrin bütün var-yoxu Romaya gətirilmişdi; əsirlər qul kimi işlədilirdi. İşğal edilən ölkələrdə latifundiyalar təşkil olunmuşdu. Zəhmətsiz, qarət yolu ilə əldə edilən bolluq, ailə həyatı, insan ruhu və ictimai əlaqələr üzərində öz təsirini buraxırdı. Buna görə də qalib gəlmiş Roma, məğlub olmuş Yunanıstanın mədəni təsiri altına düşür. Bir çox Roma xadimləri bu təsirlərə qarşı ciddi mübarizə aparsalar da, bu tarixi zərurət qarşısında aciz qalırlar.

Plavt komediyaları bu tarixi şəraitin ayrı-ayrı bədii lövhələrini, insanların və insan əlaqələrini real surətdə təsbit etmişdir.

Zadəgan atalar varlanmaq üçün cəhd edirlər. Az zaman içində varlananlar bu düdəmələr, əqli səviyyəcə bəsit, mədəniyyətsiz adamlar idi. Yeni nəsil, "zadəgan oğullar" həyatda ancaq eyş-işrətlə yaşamaq, qul-kənizlər alıb vaxt keçirməkdən başqa bir ehtiras bilmirdilər. Zadəgan oğullar, ümumiyyətlə, Roma ailəsində özünü göstərməyə başlayan əxlaq pozğunluğunun ilk real surətləridir. Qul-kənizlərin bir qismi zadəgan evlərində mürəbbiyə, bir qismi qarabaş kimi işləyirdilər. Kəniz alverçiləri isə pul qazanmaq üçün gözəl qızları baha qiymətə aşnalığa satırdılar. Miyançıların əsas müştəriləri zadəgan gənclər idi. Beləliklə, zadəgan ata, zadəgan oğul, qul-kənizlərdən çıxmış geteralar, satıcı miyançılar komediyalarda sabitləşmiş əsas surətlər olurlar.

Buraya hiyləgər, və ağalarının işini düzəldən, kələkbaz qulları da əlavə etsək, komediyaların ümumi mənzərəsi aydın olar. Bu komediyalarda küpəgirən qarılar, ara qadınları, mötədil görüşlü Roma vətəndaşları, lovğa zabitlər, müharibədə, döyüşdə olmayan, lakin yalandan öz qəhrəmanlığından danışan hərbi adamlar və sairə kimi həyati surətlər də vardır. Bunların adı yunan adıdır, əlbəsələri yunan əlbəsələridir. Məkan, yuxarıda göstərilən kimi, Yunanıstandır. Bunlar indiki oxucunu çaş sala bilməz. Çünki komediyalarda əsas məişət tərzi, Roma həyat tərzi idi; dövlət idarə adları, həmin idarələrin işi ilə hüquq məsələləri ilə, coğrafi və topoqrafik məsələlərlə bağlı istilahlar latın istilahları idi. Möhkəm və ciddi senzuraya qarşı Plavt, görünür, üstüörtülü, daxili mübarizə vəziyyətində öz komediyalarını yaratmalı olmuşdur. Gələcək tədqiqatlar Plavtın daha çox müsətqil yaradıcılıq yolu ilə getdiyini bir daha təsdiq edəcəkdir.

Plavtın komediyaları öz süjetləri ilə rəngarəng olmasalar da, bunlarda dövrün ən mühüm məsələlərinə toxunulmuşdur. Ailə və evlənmə məsələləri, cehizə görə evlənməyin ailə əxlaqi üzərində mənfi təsiri, əxlaqca yüngül qadınların müqəddəs ailə münasibətlərini pozması, sələmçiliyin, miyançılığın, cəhalətin xalqı sorub gəmirən bəla kimi Romada yayılması və onun qorxulu ictimai nəticələri, hərbi adamların böyük ictimai ideallar qarşısındakı zəifliyi, müharibənin xalqa gətirdiyi bəlalar, şəhər ilə kənd arasında əmələ gələn ziddiyyət və sairə bu kimi məsələlər komediyaların süjetini təşkil edir, bunların hamısı yeni tarixi mərhələyə daxil olmuş Roma ictimai quruluşunun təbii nəticələri idi.

Plavt bu süjetləri bəzən bütün dərinliyi ilə həll etməyə müvəffəq olduğu kimi, bəzən də dayaz komik şəkildə nümayiş etdirir. Dramaturq özü köhnə adət və ənənələrin, yazılmamış el qanunlarının təmizliyinə tərəfdar idi. Məlumdur ki, zadəganlar içərisində böyük bir qrup ictimai xadim də (məsələn, Katon) belə bir cəbhədən yunan təsirlərinə qarşı mübarizə aparırdılar. Plavt isə mürtəce ruhlu mühafizəkarlardan onunla ayrılırdı ki, o xalq mənafeyi nöqteyi-nəzərindən çıxış edərək, ümumiyyətlə, yunan təsirinin deyil, bəlkə pozucu və zərərli təsirlərin düşməni idi. Belə mənfi və zərərli təsirlər isə az deyildi. Onlar başlıca olaraq şəhərlərdə yaşayan gənc zadəganları aludə edib əxlaq və ailə pozğunluğu girdabına sürükləyirdi, gənc zadəganların vasitəsilə də Romaya yayılırdı. Plavt sələmçiliyi xalq üçün bir bəla sayırdı. Roma tacirləri, müharibələr dövründə külli miqdarda pul əldə edən adamlar pula sitayişlə varlanma ehtirasına düşmüşdülər. Romada sələmçilik, antik mənada kapital yığımı zamanı doğmuşdu. Plavt sələmçiliyin və xəsisliyin əxlaqi nəticələrini göstərib tənqid edirdi.

Plavtın komediyaları bütün mədəni xalqların dilinə tərcümə edilmişdir. Onun özünəxas üslubu vardır, bu da komediya tarixində xüsusi məktəb təşkil edir. Maraqlı orasıdır ki, Romanın və Avropanın bütün zadəgan yazıçıları Plavtı kobud, bayağı bir yazıçı adlandırmışlar, onun canlı, obrazlı üslubuna "küçə üslubu" adı vermişlər. Əksinə, dünya ədəbiyyatının Şekspir, Molyer, Lessinq, Ostrovski kimi dramaturqları Plavtı başqa Roma dramaturqlarından üstün tutaraq, onu ustad sənətkar adlandırmışlar. Tarix göstərir ki, böyük dramaturqlar öz qiymətlərində yanılmamışlar. Plavt böyük bir sənətkar kimi öz təravətini və şöhrətini indi də mühafizə etməkdədir.

XƏZİNƏ

İŞTİRAK EDİRLƏR

L a r – Evklionun ev allahı[1]
E v k l i o n – Qoca
S t a f i l a – Xidmətçi qarı[2]
M e q a d o r – Qoca; Evklionun qonşusu
E v n o m i y a – onun bacısı
L i k o n i d – Evnomiyanın oğlu
S t r o b i l – Qul
A n f r a q – Aşpaz[3]
K o n q r i o n – Aşpaz[4]
P i f o d i k – Qul
F e d r a – Evklionun qızı

Əhvalat Evklion ilə Meqadorun evləri qarşısında vaqe olur. Sədaqət ilahəsi məbədi, onun qarşısında bir qurbangah.

PROLOQ

L a r. Siz məni tanıyırsınızmı? Qısaca olaraq deyim ki, mən gördüyünüz kimi, içərisindən çıxdığım bu evin Larıyam. Mən bu evdə çoxdan yaşayır, hələ indiki ev sahibinin ata-babasını himayə edirdim. Onun babası evin ortasında basdırdığı qızıl xəzinəsini mənə inanıb, onu gizlin saxlamaq üçün mənə çox yalvarmışdı. Kişi o qədər səqqət idi ki, hətta öləndə belə həmin qızılı oğluna göstərmək istəməmişdi, onun yoxsul qalmasını rəva görmüşdü. Ağır zəhmət və böyük ehtiyac içərisində yaşasın deyə ona ancaq kiçik bir əkin yeri qoyub getmişdi. Kişi xəzinəni mənə tapşırıb öldükdən sonra, mən onun oğluna diqqət edirdim ki, görüm, o, mənə necə hörmət edir. Atası kimi, ya çox. Lakin o mənə atasından da az hörmət etdi. Mənə daha az qurban kəsdi. Bu

[1] L a r – Roma dini əsatirində ev allahı
[2] S t a f i l a – adın mənası üzüm salxımı deməkdir. Qoca dayə, şərabı sevdiyi üçün Plavt onu belə adlandırmışdır.
[3] A n f r a n k – kömür deməkdir.
[4] K o n q r i o n – balıq adıdır.

saymamazlığın əvəzində mən ona yaxşılıq etmədim. O da öldü. Yerində bu evə sahiblik edən oğlu qaldı. Bu da atası, babası kimidir. Ancaq onun bir qızı var. Onun mənə hörməti çoxdur. Hər gün mənə çaxır gətirir, çələng qoyur. Onun xatirinə mən də Evkliona xəzinəni tapmaq üçün imkan verdim ki, qızını ərə verəndə çətinlik çəkməsin, toy etsin, cehiz versin. Bir kübar oğlu qızın namusuna təcavüz etmişdir. Oğlan qızı tanıyır, qız onu tanımır. Atanın isə bu işdən heç xəbəri yoxdur.

Oğlan qızı alsın deyə mən elə edəcəyəm ki, qonşudakı qoca kişi onu istəsin. O zaman oğlan qızı almağa məcbur olar. Axı istəyən qoca, Sereri bayramında[1] qızın namusuna təcavüz edən oğlanın dayısıdır. Budur, yenə Evklion öz adəti üzrə qışqırıb qarını evdən qovur ki, bəlkə xəzinənin yerini bildi, qızılların yerində olub olmadığını yoxlasın.

BİRİNCİ AKT

BİRİNCİ SƏHNƏ

Evklion və Stafila

E v k l i o n. Rədd ol, rədd ol, buradan. Çıx bayıra. Gözün olan yerdə canın çıxaydı. Elə gözü orda, burdadır. Qarının gözləri oynayır, nə isə axtarır.

S t a f i l a. Niyə mən bədbəxti döyürsən? Axı mən nə eləmişəm?

E v k l i o n. Səni görüm doğrudan da bədbəxt olasan, yaramaz. Bədbəxtlik üzündən tökülür, belə doğulmusan, belə də öləcəksən.

S t a f i l a. De görüm, bax indi məni nə üçün evdən qovdun?

E v k l i o n. Yediyin kötək üçün sənəmi cavab verməliyəm? Qapıdan uzaqlaş, rədd ol buradan. Bir baxın necə gedir. Heç bilirsən bu işin axırı necə qurtarır. Mən bu saat ya kəndir, ya dəyənək götürüb səni o qədər kötəklərəm ki, addımların uzanar.

S t a f i l a. Sənə xidmət etməkdənsə allahlar məni dara çəkəydilər.

E v k l i o n. Əclaf, öz-özünə gör nə donquldanır. Dayan, nadürüst. Vallah mənim işlərimə göz qoysan, məni güdsən gözlərini çıxardaram.

[1] Sereri – Yunan allahı Demetradır. Demetra, yunanlarda münbitlik və əkinçilik allahıdır. Onun şərəfinə hər il qadın bayramı təşkil olunurdu. Bu bayrama fesmofori bayramı deyirdilər. Fesmofori (*latınca sereri*) bayramlarında aşiqanə macəralara açıq imkan var idi ki, Likonid də Fedranın namusuna bu bayramda təcavüz etmişdir.

Rədd ol. Uzaqlaş. Bir az da, bir az da. Bax belə. Hey, bax, orada dur. Əgər mən izin vermə mişəm bir qarış yerindən tərpənsən, səni cəlladın pəncəsinə təslim edərəm. Ömrümdə bunun qədər əclaf qarı görməmişəm. Ömrümdə. Doğrusu, mən ondan qorxuram, qəflətən yanıma gəlib, qızılın harada basdırıldığını öyrənə bilər. İfritənin peysərində də gözü var. Gedim görüm, qızıl gizlətdiyim yerdədirmi? O mənə nə qədər əzab və əziyyət verir (*Gedir*).

İKİNCİ SƏHNƏ

S t a f i l a. Mən başa düşə bilmirəm ki, ağaya nə olub. Bu nə bədbəxtlikdir. Tamam ağlını itirmişdir. O, məni bu tövrlə gündə on dəfə bayıra qovur. Mən heç cür başa düşə bilmirəm ki, bu nə dəlilikdir. Gecəni yatmır, gündüz də səhərdən axşama kimi evdə oturub. Çolaq pinəçi kimi, heç yana çıxmır. Bir də qızın namusuna təcavüz edildiyini necə gizlədim? Axı o, hamilədir, vaxtına az qalıb. Bircə yolum qalır: boğazıma möhkəm ip keçirib özümü asmaq.

ÜÇÜNCÜ SƏHNƏ

E v k l i o n. Hə, indi ürəyim sakit oldu; bir yana çıxa bilərəm, gizlətdiklərimin hamısı yerindədir. Qarı qayıt, evin keşiyini çək.

S t a f i l a. Necə, mən keşik çəkim? Yoxsa, evi oğurlayıb aparacaqlar. Axı, bizdə oğruya pay olacaq nə var. Bir boşluq, bir də küncbucağı basmış hörümçək toru.

E v k l i o n. İfritə. Yupiter[1] sənin mənə verdiyin xeyri nəzərə alıb məni Filipp[2] kimi, Dara[3] kimi varlı padşah edəcək. Mən istərdim ki, elə sən hörümçək torlarının keşiyini çəkəsən. Bəli, mən yoxsulam. Ancaq dözürəm. Bu, Allahın əmridir. Get, qapıları bağla, mən indi qayıdıram. Yad adamlardan ehtiyatlı ol, evə buraxma. Od istəsələr dərhal odu söndür ki, qonşular zəhləmizi tökməsinlər. Gəlib evdə od tapsam vayını verərəm. Su istəsələr de ki, su axıb gedibdir. Qonşular da adamın zəhləsini tökürlər – gah onlara qab-qacaq ver, gah bıçaq ver, gah balta, gah həvəngdəstə. De ki, oğrular gəlib hər şeyi aparıblar. Sözün

[1] Y u p i t e r – Zevs
[2] F i l i p p – Makedoniya hökmdarı; İsgəndərin atası
[3] D a r a – İran hökmdarı (e.ə. V əsr)

qısası, gələn kim olursa-olsun mənsiz cürət edib içəri buraxma. Möhkəm yadında saxla ki, Bəxtin özü bizə qonaq gəlsə belə, içəri buraxma.

S t a f i l a. Görünür Bəxt də heç bura gəlmək istəmir. Yaxın evlərdə olsa da bir dəfə bizim evə gəlməmişdir.

E v k l i o n. Sus, rədd ol. Evə get.

S t a f i l a. Susdum, gedirəm.

E v k l i o n. Qapıların cəftələrini vur, yaxşı bağla. Mən bu saat qayıdıram (*Stafila gedir*). Əldən düşmüşəm, getmək lazımdır. Ah, getmək də istəmirəm, ancaq işim də var. Kəndin kəttası xəbər verib ki, pul paylanacaq, əgər mən getməsəm o saat şübhələnərlər ki, mən evdə qızıl gizlətmişəm. Görülən işdirmi ki, yoxsul bir adam qəpik-quruş da olsa ianədən boyun qaçırsın. Doğrudur, qızılı hamıdan gizlətməyə çalışıram, yenə də mənə elə gəlir ki, hamı bilir; hamı məni hörmətlə salamlayır, yaxınlaşıb danışdırır, əlimi sıxır, işlərimi, əhvalımı soruşur. Halbuki əvvəllər məni belə qarşılamırdılar. Gedim, görüm nə oldu. Sonra mümkün qədər tez evə qayıtmalıyam (*Gedir*).

PƏRDƏ

İKİNCİ AKT

BİRİNCİ SƏHNƏ

E v n o m i y a v ə M e q a d o r

E v n o m i y a. İnanırsanmı, qardaşım, bütün dediklərim sənin xeyrinədir və ürək sözlərimdir. Yoxsa, doğma bacının başqa fikri olmaz. Nə gizlədim, biz qadınları sevmirlər, naqqal adlandırırlar. Nahaq yerə demirlər ki, dünyada bir nəfər də olsun lal arvad olmamış. Ancaq, qardaşım, bir düşün, sən mənə yaxın olduğun kimi mən də sənə yaxınam. Odur ki, ikimiz birləşərək məsləhətləşib bir iş görməliyik, gizlətmək, ya qorxmaq nəyə gərəkdir. Biz bir-birimizə ürəyimizi açа bilərik. Mən səni buraya çağırdım ki, göz-gözə bir az söhbət edək. Sənin ailə həyatından danışaq.

M e q a d o r. Ey, qadınların ən gözəli, əlini mənə ver.

E v n o m i y a. Kim? Kimdir gözəl?

M e q a d o r. Sən.

E v n o m i y a. Mən?

M e q a d o r. Yox deyirsən, yox?

E v n o m i y a. Lakin düzünü demək lazımdır ki, heç yerdə yaxşısını tapmazsan, onların biri o birindən pisdir.

M e q a d o r. Etirazım yoxdur, fikrinlə razıyam.

E v n o m i y a. Rica edirəm, qulaq as.

M e q a d o r. Dinləyirəm, bacı, mən sənin ixtiyarında.

E v n o m i y a. Gəldim sənə bir məsləhət verim. Məsələ çox vacibdir.

M e q a d o r. Elə işin də özünə oxşayır.

E v n o m i y a. Elə olsa, yaxşıdır.

M e q a d o r. Yaxşı, bacı, iş nə işdir?

E v n o m i y a. Qardaşım, sənin əbədi xoşbəxtliyin qoy özünü sənin nəslində göstərsin.

M e q a d o r. Qoy, sən deyən olsun.

E v n o m i y a. Mən istəyirəm ki, sən evlənəsən.

M e q a d o r. Oh, sən məni öldürdün ki...

E v n o m i y a. O nə üçün?

M e q a d o r. Bunlar söz deyil, daşdır, daş. Bacı, sən mənim beynimi yerindən oynatdın.

E v n o m i y a. Gəl, sən bacının məsləhətinə əməl et.

M e q a d o r. Evlənməyə həvəs qalmayıb.

E v n o m i y a. Bu ki, sənin xeyrinədir.

M e q a d o r. Evlənməkdənsə, ölmək yaxşıdır. Əlbəttə, əgər sabah gəlib, ertəsi gün qapıdan yola salınmalı bir arvad təklif etsin, mən də razı olaram. Bu şərtimi bəyənirsənsə toy eləməyə hazıram.

E v n o m i y a. Mən sənə cehizli bir arvad təklif edə bilərəm; ancaq gənc deyil, orta yaşlıdır. Razı olsan elçiliyini edərəm.

M e q a d o r. Qoy bir şey soruşum.

E v n o m i y a. Buyur, soruş.

M e q a d o r. Mənim bu yaşımda orta yaşlı arvad almağım ağıllı işdirmi? Birdən qoca ilə qarının bir uşağı oldu. De, görüm o "son beşiklik" adından özünü müdafiə edə bilərmi? Bu saat mən sənin yükünü yüngülləşdirə bilərəm. Allahların iradəsi ilə mən lazımınca varlıyam. Axı, dəbdəbəli cehiz, çığır-bağır, bafta-tafta, fil sümüyündən bəzəklər, dərzilərin gediş-gəlişi, əmirlər, zinət, atlas geyimlər, ziyafətlər, qadın inadları mənim nəyimə lazımdır? Bunların hamısı kişiləri qadınların quluna çevirir.

245376
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

E v n o m i y a. Yaxşı, de, görüm kimi almaq istəyirsən.

M e q a d o r. Bu saat deyərəm. Qoca Evklionu tanıyırsanmı? Bizim qonşumuzdur, özü yoxsuldur.

E v n o m i y a. Bəs necə, tanıyıram, tanıyıram, pis adam deyil.

M e q a d o r. Mən onun qızını almaq istəyirəm. Yox, bacı, etiraz etmə. Bilirəm deyəcəksən ki, yoxsuldur. Yoxsul olsa da, mənim xoşuma gəlir.

E v n o m i y a. Nə deyirəm, xoşbəxt olasan.

M e q a d o r. Mən əminəm.

E v n o m i y a. Daha nə deyim.

M e q a d o r. Xudahafiz.

E v n o m i y a. Xudahafiz (*Gedir*).

M e q a d o r. Evklion evdədirsə bir onu görüm. Budur o, özü haradansa evə qayıdır.

İKİNCİ SƏHNƏ

E v k l i o n, M e q a d o r

E v k l i o n. Heç evdən getmək istəmirdim. Elə bil ürəyimə bir şey dammışdı. Getdim, bir adama rast gəlmədim. Kətda da orada deyildi. İanə də vermirdilər. Tələsik evə qayıtdım, özüm burda, ürəyim evdədir.

M e q a d o r. Evklion, salam, səni görüm həmişə xoşbəxt və salamat olasan.

E v k l i o n. Salam, Meqador.

M e q a d o r. Yaxşı, de görüm işlərin necə gedir, salamatmısan?

E v k l i o n (*öz-özünə*). Varlının yoxsula ilişməsi təsadüfi deyil: görünür, qızıldan xəbəri var. Ona görə də mənimlə nəzakətlə danışır.

M e q a d o r. Kefin necədir, nə olub?

E v k l i o n. Bir təhər, ancaq bu pul işi...

M e q a d o r. Eh, nə danışırsan. Adamın qəlbi sakit olsun. Ömrümüzə çatar.

E v k l i o n (*kənara*). Aydındır, bu kaftar qarı qızılın xəbərini hamıya yaymışdır. Qoy evə qayıdım, dilini kəsəcəyəm. Gözlərini çıxaracağam.

M e q a d o r. Orada öz-özünə nə pıçıldayırsan?

E v k l i o n. Heç, yoxsulluqdan şikayət edirəm, qızım böyüyüb, heç bilmirəm cehizsiz necə ərə verim? Onu alacaq oğlanı haradan tapım?

M e q a d o r. Bəsdir. Gəl bu barədə danışmayaq, Evklion, bir az möhkəm ol. Cehiz üçün fikir eləmə, mən sənə kömək edərəm. Bir-bir de görüm nəyə ehtiyacın var?

E v k l i o n (*kənara*). Gözləri dörddür. Vədlər verə-verə hər tərəfə nəzər salır. Ağzını açıb, qızılımı udmaq istəyir. Bir əlilə çörək göstərib o birində daş tutanlara oxşayır. Varlının yoxsula bu qədər nəzakətli olmasına inanmıram. Əlimi dostcasına sıxa-sıxa axırını bilirəm, murdarlayacaq. Bu planları mən çoxdan bilirəm. Toxundunmu, o dəqiqə tutub buraxmaz.

M e q a d o r. Evklion, qulaq as. Bizim ümumi işimiz haqqında sənə bir iki söz demək istəyirəm.

E v k l i o n (*kənara*). Oh, fəlakət. Bilirəm, evdən qızıllarımı oğurlayıblar, indi onları mənimlə bölüşdürmək istəyirlər. Yox, gedim, bir evə baxım.

M e q a d o r. Sən hara?

E v k l i o n. Bu saat evə baş çəkib gəlirəm (*Gedir*).

M e q a d o r. Bilirəm, qızını istədiyimi söyləsəm, elə zənn edəcək ki, onu ələ salıram. Mən yoxsulluq üzündən bu qədər xəsisləşmiş adam görməmişəm.

E v k l i o n (*gəlir*). Şükür Allaha, hər şey öz yerindədir. Evə girəndə elə qorxdum ki, az qaldı ürəyim partlasın, nəfəsim kəsilsin. Meqador, mən hazır, nə deyirsən?

M e q a d o r. Mən çox məmnunam. Təvəqqe edirəm suallarıma cavab verəsən.

E v k l i o n. Nə soruşacaqsan. Ancaq, hər suala cavab verməyə həvəsim yoxdur.

M e q a d o r. Qulaq as, səncə mənim əslim, nəslim yaxşıdırmı?

E v k l i o n. Əlbəttə!

M e q a d o r. Pis işdə adım çıxmayıb ki?

E v k l i o n. Heç vaxt.

M e q a d o r. Bəs hərəkətlərim?

E v k l i o n. Gözəldir.

M e q a d o r. Neçə yaşım olar, bilirsənmi?

E v k l i o n. Yaşın pulun qədər az deyil.

M e q a d o r. Mən səni həmişə namuslu bir vətəndaş kimi tanımışam.

E v k l i o n (*kənara*). Deyəsən qızılın iyi burnuna dəyib. – Yaxşı nə demək istəyirsən?

M e q a d o r. İndi ki, biz bir-birimizi bu qədər yaxşı tanıyırıq: gəl sənin və mənim xoşbəxtliyimiz və qızının xoşbəxtliyi üçün onu mənə ver. Cavab ver ki, razısan. Vəssalam.

E v k l i o n. Ah, ah, Meqador. Bu heç sənə yaraşan iş deyil. Qarşında günahsız bir qoca dayanmışdır. Bəs sən onu niyə ələ salırsan? Axı mən sənə nə eləmişəm? Yox, mən məsxərəyə qoyulmalı adam deyiləm.

M e q a d o r. Mən istehza etmirəm. Səni məsxərəyə qoymaq üçün də bir səbəb yoxdur.

E v k l i o n. O zaman, nə üçün mənim qızımı almaq istəyirsən, hə?

M e q a d o r. Sizin vəziyyətinizi mən düzəldərəm, siz də mənimkini...

E v k l i o n. Ağlıma gələni deyim. Sən varlısan, adlı-sanlı adamsan. Mən isə kasıbların kasıbı. Tutaq ki, qızımı sənə verdim... Ağlıma gələni deyim. Sən öküzsən; mən – eşşək. Bizi heç bir boyunduruğa qoşarlarmı. Tutaq ki, qoşdular. Mən sənlə necə yük daşıyaram. Eşşək palçığa yıxıldı, budur yerindən dura bilmir. Öküz heç gözünün ucu ilə də ona baxmaz. Elə bil eşşək heç yox imiş. Sən mənə düşmən olarsan, mənim sinfim məni ələ salar. Nə yuxarı başda yerim olar, nə aşağı başda. Eşşəklər məni dişləri ilə parçalar, öküzlər buynuzu ilə didişdirər. Yox, eşşəkləri buraxıb, öküzlərin yanına getmək böyük cürət tələb edir.

M e q a d o r. Namuslu, kübar adamlarla qohum olmaq, hər kəs üçün şərəflidir. Qulaq as, təklifimi qəbul et, qızını mənə ver.

E v k l i o n. Axı, qızın cehizi yoxdur.

M e q a d o r. Mənə cehiz lazım deyil, xasiyyəti yaxşı olsun.

E v k l i o n. Birdən elə bilərsən ki, mən xəzinə zad tapmışam ha.

M e q a d o r. Bilirəm. Bizə öyrətmə. Razısanmı.

E v k l i o n. Qoy sən deyən olsun. Yupiter! Ölümüm yaxınlaşıb.

M e q a d o r. Sənə nə olub?

E v k l i o n. Nə? Elə bil dəmir cırıltısı eşidilir. Dayan, bu saat (*Qaçır*).

M e q a d o r. Tapşırmışam bağı belləsinlər. Bəs, bu harada qaldı. Bir söz demədən yox oldu. O, mənə heç yovuşmur. Nə isə elə bil, məndən iyrənir. Görür ki, mən onunla dost olmaq istəyirəm, o da hamı kimi hərəkət edir. Varlı bir adam yoxsul ilə yaxınlaşıb, dost olmaq istərsə, yoxsul yaxınlaşmağa qorxar. Öz qorxusu ilə işləri alt-üst edər. İş düzəlməyəndə, yoxsul özü yaxınlaşmaq istər; ancaq gec olar.

E v k l i o n (*evə tərəf dönüb, danışır*). Verməsəm dilimi kökündən qopararlar. Sən məni kimə verirsənsə ver, qoy məni xacə etsinlər.

M e q a d o r. Görürəm, məsxərəyə qoymağa daha ləyaqətli, daha yaxşı adam axtarırsan; lakin mən məsxərəyə qoyulmalı adam deyiləm.

E v k l i o n. Meqador, mən səni məsxərəyə qoymuram. İstəsəm də bacarmaram.

M e q a d o r. Hə, nə deyirsən, qızı verməyə razısanmı?

E v k l i o n. Bəli, dediyim kimi, cehiz məsələsini şərt qoyuram.

M e q a d o r. Deməli, verirsən.

E v k l i o n. Bəli, verirəm.

M e q a d o r. Allah axırını xoşbəxt eləsin.

E v k l i o n. Allah axırını yaxşı eləsin. Ancaq yadında saxla, mən qızımı verirəm, onun cehizi yoxdur, ha.

M e q a d o r. Düzdür, yadımda qalar.

E v k l i o n. Mən bilirəm, siz qarma-qarışıqlığı çox sevirsiniz. Olub – qərarsız, razılaşdırılıb – razılıq almadan, hər şey sizin xeyrinizə, siz belə şeyləri çox sevirsiniz.

M e q a d o r. Burada mən mübahisəli bir şey görmürəm. Gəl toyu uzatmayaq. Günü bu gün toyu başlayaq.

E v k l i o n. Çox yaxşı.

M e q a d o r. Demək ki, mən hazırlıq işi apara bilərəm. Daha deyəcək sözün yoxdur ki?

E v k l i o n. Yox.

M e q a d o r. Xudahafiz, mən getdim. (*Gedə-gedə*). Ey Strobil, dalımca gəl, bazara gedək.

E v k l i o n. O, getdi. Ey allahlar! Qızılın nə böyük qüvvəsi var imiş. Mənə elə gəlir ki, evdə xəzinə basdırdığımı hərif sezib. Ona görə də qarşımda diz çökub, mənimlə qohum olmaq istəyir.

ÜÇÜNCÜ SƏHNƏ

E v k l i o n, S t a f i l a

E v k l i o n. Ey qarı, hardasan? Qonşulara xəbər vermisən ki, guya mən qızıma cehiz verəcəyəm. Ey Stafila! Eşitmirsən, nədir? Mən səni çağırıram. Tez mənim qabımı yu. İndi Meqador ilə sözləşdim, qızımı ona verirəm.

S t a f i l a. Allah xoşbəxt eləsin. Ancaq bu mümkün olan iş deyil: birdən-birə...

E v k l i o n. Sən sus. Get mənə gələnə qədər hazırlıq gör. Bu saat gəlirəm (*Gedir*).

S t a f i l a. İndi mən nə etməliyəm. Bizim axırımızdır. Vay qızın halına. Ləkəni gizlətmək olmaz. Qızın vaxtı yaxınlaşıb, onu heç gizlətmək olmaz. İndiyə qədər bir təhər o yan, bu yan eləmək olurdu. İndi gedim o, gələnə qədər dediklərini yerinə yetirim. Başa gələn bəlanı bölüşməli olacağıq, mən lap qorxuram (*Gedir*).

DÖRDÜNCÜ SƏHNƏ

S t r o b i l, A n f r a q, K o n q r i o n

S t r o b i l. Ağa bazarda aşpaz tutdu. Bu fleytaçıları da tapdı. Lazım olan şeyləri də aldı. Əmr etdi ki, alınan şeyləri iki hissəyə ayıraq.

A n f r a q. Açığını deyim ki, məni iki yerə ayırmağa ehtiyac yoxdur. Mən bütövlükdə bu işlərin öhdəsindən gələrəm.

K o n q r i o n. Ey gözəl, abırlı fahişə, istəyən olsa özün iki hissəyə ayrılarsan.

S t r o b i l. Əşi mən başqa məsələdən danışıram, sizin də keyfiniz gəlib. Bizim ağa bu gün toy edir.

A n f r a q. Kimin qızını alır.

S t r o b i l. Qonşumuz qoca Evklionun qızını. Şeylərin yarısını, bir də ya aşpazı, ya da fleytaçını, ikisindən birini onlara verməliyik.

A n f r a q. Görürsənmi, yarısını ona, yarısını da bizə.

S t r o b i l. Belədir ki, var.

K o n q r i o n. Demək ki, qoca öz hesabına qızı üçün toy edə bilmir.

S t r o b i l. Eh!

K o n q r i o n. Necə bəyəm?

S t r o b i l. Necə bəyəm? Bu nə sualdır? Qoca qupquru qurumuşdur.

A n f r a q. Ola bilməz.

S t r o b i l. Bəli, bəli elədir ki, var. Bir özün düşün: çağırır, allahları, insanları özünə şahid çağırır ki, o məhv olmuşdur, kökündən kəsilib, qupquru quruyub; pulu yoxdur. Yatmağa gedəndə ağzını təlislə bağlayır.

A n f r a q. Nə üçün?

S t r o b i l. Ki, yuxuda artıq nəfəs verməsin.

A n f r a q. Bəs, aşağı boğazını necə, onu da bağlayır ki, boş yerə nəfəs çıxmasın?

S t r o b i l. Bunu ancaq zənn etmək olar. Mən sənə inandığım kimi, sən də mənə inan.

A n f r a q. Mən buna inanıram.

S t r o b i l. Bilirsən, daha nə eləyir. Üzünü yuyur gözünün yaşını tökür ki, artıq su işlətmişdir.

A n f r a q. Qocadan heç pul çəkmək olmaz. Heç olmasa bir talant[1], toy xərcliyi qınqırtmaq olmaz – deyirsən.

S t r o b i l. Olmaz. Lap acından öl, bir dinar da borc verməz. Dəlləyə dırnağını tutdurmağa getmişdi, tutulmuş dırnağı yığıb evə gətirib.

A n f r a q. Belə görünür ki, sizin qoca ən səqqət xəsisdir.

S t r o b i l. Bir düşün, gör o nə qədər səqqət xəsisdir. Bu yaxınlarda quzğun onun yeməyini götürüb göyə qalxmışdı. Məhkəmə sədrinin yanına gedib xahiş etmişdi ki, quzğunu məhkəməyə cəlb edib, cəza versin. Asudə vaxtda ondan sizə çox şey danışaram. Deyin görüm ikinizdən hansınız daha diribaş, daha əli itidir.

A n f r a q. Mən.

S t r o b i l. Mənə oğru yox, aşpaz lazımdır.

A n f r a q. Elə mən aşpazam.

S t r o b i l (*Konqriona*). Sən nə deyirsən?

K o n q r i o n. Mən qulluğunuzda hazır.

A n f r a q. O, ehsan aşpazıdır. Onu doqquz üçün çağırırlar.

K o n q r i o n. Üç hərifli ləqəb, məni söyürsən? Oğru sənsən. Sən üçqat oğrusan.

S t r o b i l. Bəsdir, sən sus. Yağlı quzu bir...

A n f r a q. Belədir ki, var.

S t r o b i l. Bunu sən götür, Konqrion, bax bu evə apar. Siz də onunla bərabər, qalanlar isə, bizim evə...

K o n q r i o n. Bölgü düz getmir. Onlara quzunun yağlısını verdin.

S t r o b i l. Onun əvəzində sənə ən yağlı fleytaçını verəcəyəm. Ey, Fraqiya, sən onlarla get. Elevsiya, bizim evə gəl.

Anfraq aşpazların bir qismi və bir fleytaçı Meqadorun evinə gedirlər.

---

[1] T a l a n t – pul vahidi

K o n q r i o n. Oh, hiyləgər Strobil, belə hə? Sən məni kimin hüzuruna göndərdin. Qoca xəsisin, hə? Bundan nə qınqırtmaq olar? Lap istəyirsən boğazın yırtılana qədər çığır...

S t r o b i l. Sən axmaqsan, yaxşılıq bilən deyilsən.

K o n q r i o n. Necə bəyəm?

S t r o b i l. Elə belə. Əvvəla, bu ev hay-küylü ev deyil, nə lazımdırsa özün evdən aparacaqsan. Xahişə vaxt sərf etməyəcəksən. Bizdə isə hay-küy, basa-bas, hər yer dolu adam. Qab-qacaq, gümüş, xalı, qızıl. Mən bilirəm, gözünə bir şey dəyməsə sənin əlin düzdür. Ancaq birdən bir şey itdi, deyəcəklər aşpazlar oğurladı; ey tutun, qollarını bağlayın, kötəkləyin, zirzəmiyə basın. Burada sənə nə olacaq? Oğurlamağa da bir şey yoxdur. Dalımca gəl.

K o n q r i o n. Gedək.

BEŞİNCİ SƏHNƏ

S t r o b i l, S t a f i l a, K o n q r i o n

S t r o b i l (*qapını döyür*). Ey Stafila. Qapını aç, eşitmirsən?

S t a f i l a. Qapını döyən, kimdir?

S t r o b i l. Strobildir.

S t a f i l a. Nə istəyirsən?

S t r o b i l. Aşpazları və fleytaçını gətirmişəm içəri burax; toya lazım olan ərzaq şeylərini də gətirmişəm. Ağam Meqador dedi ki, Evklionun evinə apar.

S t a f i l a. Serenrin toyunumu düzəldəcəyik?

S t r o b i l. Necə ki?

S t a f i l a. Bəs şərab hanı? Mən şərab görmürəm.

S t r o b i l. Ağam bazardan gələn kimi, özü göndərəcək.

S t a f i l a. Axı, bizim bir tikə odunumuz da yoxdur.

K o n q r i o n. Taxta-tuxta var?

S t a f i l a. Var.

K o n q r i o n. Daha odun nə lazım, onlar elə odundular da...

S t a f i l a. Vulkanlar[1] xidmətçisi olsan da, nadürüst adama oxşayırsan. Demək, nahar üçün, sənə zəhmət haqqı verməkdən ötrü olmaya evi yandıracağıq? Ah, nadürüst!

[1] V u l k a n – dəmirçi allahı Hefestə işarədir. Plavt onu latınlaşdırmışdır.

K o n q r i o n. Lazım deyil.

S t r o b i l. Bunları evə apar.

S t a f i l a. Dalımca gəlin.

Gedirlər.

ALTINCI SƏHNƏ

P i f o d i k. İşinizdə olun! Gedim, aşpazlara baş çəkim. Onların üstündə göz olmalıdır. Olmaz ki, onları məcbur edim ki, xörəyi zirzəmidə bişirsinlər, hazır olan kimi qablarda yuxarı gətirsinlər? Birdən aşağıda hazırladıqlarını içəri atdılar, basıb yedilər. Aşağıda xörək var, yuxarıda hamı xörəksiz. Nə çox danışıram, elə bil işim yoxdur, bikaram, evdə də o qədər əyri-üyrü adam var ki, gəl ki, görəsən (*Gedir*).

YEDDİNCİ SƏHNƏ

E v k l i o n, K o n q r i o n

E v k l i o n. İstədim ki, bu gün qızımın toyunda bir qədər gümrahlanam. Özümü tox tutam. Bazara getdim; balıq soruşdum – bahadır. Qoyun əti, mal əti, buzov əti, donuz əti, hansını soruşdum, biri-birindən bahadır. Pulum yox idi. Qəmgin geri qayıtdım, şey almağa pul yox idi. Beləliklə quldurların əlindən can qurtardım. Yolda öz-özümə fikirləşirdim ki, bayramlarda haqq-hesabsız, əliaçıq olsan, adi günlər xərcləməyə pulun çatmaz. Ürəyimə də, qarnıma da bu məsləhəti verdim, ruhum mənimlə razılaşıb qərar verdim: toya az pul xərcləməli! Bu çələngi aldım, bizim Ların qurbangahı üstünə qoyarıq. Qoy o da qızımın toyunu xoşbəxt eləsin. Bıy, bu nədir? Evin qapısı açıqdır, içəridən səs-küy gəlir. Fəlakət. Yoxsa evi soyurlar?

K o n q r i o n (*evdən səsi gəlir*). Sizin bu çölmək yaramır, balacadır, tutmur, qonşudan böyüyünü al.

E v k l i o n. Fəlakət, mən məhv oldum. Qızılları basdırdığım çölməyi axtarırlar. Qızılları aparacaqlar. Ey Apollon! Köməyimə gəl. Məni xilas et. Xəzinəmi oğurlayanı oxunla vur, məhv et. Keçmişdə sən özgələrə belə işlərdə kömək etmisən. Nə durmuşam, tələsik evə gedim. Yoxsa var-yoxum əldən çıxar (*İçəri qaçır*).

SƏKKİZİNCİ SƏHNƏ

A n f r a q (*Meqadorun evindən çıxır*). Dromon, balıqları təmizlə. Sən, Maxerion, ətin sümüklərini parçala. Mən gəlincəyə qədər bunları hazırlayın. Mən Konqriondan tava alım, gəlim. Sən də xoruzları təmizlə, elə təmizlə ki, üzü alınmış aktyorlardan da təmiz olsun. Qonşudan hay-küy gəlir. Bu nə qışqırıqdır? Belə görünür ki, aşpazlardır, bərk işləyiblər. Evə dönüm yoxsa, buradan da hay-küy, qışqırıq başlar (*Geri dönür*).

ÜÇÜNCÜ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

Konqrion (*qaça-qaça Evklionun evindən çıxır*). Vətəndaşlar, özümüzünkülər, özgələr! Ey qonşular, ey gəlmələr! Qaçıb gizlənmək üçün mənə bir yer göstərin. Küçələri boşaldın. Birinci dəfədir ki, vakxanalilərin əlinə düşmüşəm, vakxanaliya[1] düzəltmək üçün aşpazlıq edirəm. Uşaqlar da, mən yazıq da bərk kötəklənmişik. Hər yerimiz kötəkdən ağrıyır, vay mənim halıma. Qoca kaftar elə ustalıqla bizi kötəkləmiş ki, bütün bədənimiz zolaq-zolaqdır. Sonra da hamımızı küçəyə qovdu. Ay, ay, ay məhv oldum. Qudurmuş qapını açır. Budur. Özü də gəlir. Addım-addım izləyir, mən indi bilirəm nə etmək lazımdır. Hamısını o özü mənə öyrətdi.

İKİNCİ SƏHNƏ

E v k l i o n, K o n q r i o n

E v k l i o n. Geri, hara qaçırsan? Tez ol, dur.

K o n q r i o n. Ay axmaq, boğazını niyə yırtırsan?

E v k l i o n. Gedib səndən şikayət edəcəyəm.

K o n q r i o n. Nə üçün?

E v k l i o n. Əlində bıçağın var.

K o n q r i o n. Mən aşpazam, aşpazda da bıçaq olar.

[1] Konqrionun Vakxanaliya söhbəti, ikinci Pun müharibəsindən sonra Romada tətbiq edilməyə başlayan vakxanaliya mərasiminə işarədir ki, bu mərasim bir çox qalmaqallara, savaşlara, cinayətlərə səbəb olmuşdu.

E v k l i o n. Sən məni hədələyirdin.

K o n q r i o n. Pis elədim. Gərək bıçağı sənin böyürünə soxaydım.

E v k l i o n. Bu ki, quldurdur. Beləsi hələ dünyaya gəlməyib. Böyük həvəslə səni bir az da...

K o n q r i o n. Heç olmasa səsini çıxartma. Kürəyimə bax, hər şey göz qabağındadır. Ağaclar bədənimi əxlaqsız adamın incələşmiş bədəni kimi yumşaltmışdır. Ay dilənçi, nə bizə ilişmisən? Nə istəyirsən?

E v k l i o n. Suala bax. Yoxsa sizi az kötəkləmişəm? Bir az artırımmı?

K o n q r i o n. Dayan. Sənə də növbə çatar. Hələlik kəlləyə ziyan dəyməyib.

E v k l i o n. Axırına baxarıq. Hələlik sənin kəllən kötək yemişdir. Sənin burada nə işin var? Mən evdən gedən kimi, məndən soruşmamış niyə evimə soxulmusan? Cavab ver.

K o n q r i o n. Əl çək. Biz buraya toy üçün aşpazlıq etməyə gəlmişik.

E v k l i o n. Ay murdar. Mən xörəyi çiy yeyəcəyəm, bişmiş yeyəcəyəm, bunun sənə nə dəxli var. Sən yoxsa qəyyumsan? Başımın ağasısan?

K o n q r i o n. Açığını de görüm; bu gün sən bizi nahar hazırlamağa qoyacaqsan, ya yox?

E v k l i o n. De görüm, mənim var-yoxum salamat qalacaq, ya yox?

K o n q r i o n. Özümünküləri buradan salamat aparsam, böyük xoşbəxtlikdir. Mənimki mənə bəsdir, sənində gözüm yoxdur.

E v k l i o n. Yaxşı bilirəm, öyrətmə.

K o n q r i o n. Axı niyə qoymadın naharı hazırlayaq? Nə xoşuna gəlmədi? Yoxsa pis bir söz dedik?

E v k l i o n. Quldur. Bu nə sualdır. Bütün evi, künc-bucağı araşdıran siz deyilsinizmi? Ocaq başında dinc dursaydın, başın da çatlamayıb salamat qalardı. Lap yerində oldu. Mənim qərarımı bilməyə tələsirsən? Bilərsən? Əgər bir az da bura, qapıya yaxın gəlsən, onda səni insanların ən bədbəxti edərəm. İndi bildinmi nə istəyirəm? (*Evə gedir*)

K o n q r i o n. Bəri gəl, haraya gedirsən. Sənə oğrular ilahəsi Lavernoya and verirəm. Əgər mənim qab-qacağımı özümə qaytarmasan, səni öz evindəcə söyüb biabır edəcəyəm. İndi mən nə eləyim? Görünür mən bura gələndə tale üzümə gülməmişdir. Aldığım iki dirhəm əmək haqqından daha çox həkimə vermək lazım gələcək.

ÜÇÜNCÜ SƏHNƏ

Evklion, Konqrion

Evklion (*evdən çıxır əlində qızılla dolu çölməyi sığallayaraq*). Hamısı buradadır, öz yanımdadır. Bundan sonra hara getsəm onu da özümlə aparacağam. Daha mən onu bu qədər təhlükəli bir yerdə saxlamaram. İndi bütün aşpazlar və fleytaçı qızlar özləri ilə bir alay qız da götürüb gəlsinlər, eybi yoxdur. İndi nə qədər istəyirsiniz, bişirin, düşürün.

Konqrion. Bunu vaxtında eləmək lazım idi: əvvəlcə başımı deşik-deşik elədin...

Evklion. Evə get. Sən işə gəlmisən, boş-boş çərənləməyə gəlməmisən. Get şikayətini elə, amma yaxamdan əl çək. Ya nahar hazırla, ya rədd ol cəhənnəmə!

Konqrion. Cəhənnəmə özün gedəsən (*Gedir*).

DÖRDÜNCÜ SƏHNƏ

Evklion. O getdi. Ey allahlar! Yoxsulun varlıya yaxınlaşması üçün böyük cəsarət lazımdır... Hələ bu Meqador mən bədbəxtin başına nələr gətirir. Guya mənim şərəfimi müdafiə etmək üçün bu aşpazları buraya göndərib. Hələ bu qarının xoruzuna bax! O, da məni bədbəxt etmək istəyir. O, da qızılı basdırdığım yeri eşələyib aşkara çıxarmaq istəyirdi. Daha nə eləmək olardı. Bərk hirslənib dəyənəyi götürdüm, durma gəldim deyib oğru xoruzu birtəhər elədim. Yəqin ki, aşpazlar onu dilə tutub öz tərəflərinə çəkiblər ki, xəzinənin yerini onlara göstərsin. Düşmənləri tərk-silah edib, cinayəti qabaqladım. Budur, deyəsən qohumum Meqador da meydandan qayıdır. Yanından ötmək olmayacaq, durum bir az onunla danışım.

BEŞİNCİ SƏHNƏ

Evklion, Meqador

Meqador. Evklionun qızını almaq istədiyimi söylədikdə dostlarım fikrimi çox bəyəndi: hamı tərif edir. Çox yaxşı işdir, çox ağıllı işdir, – deyirlər. Məncə bütün varlılar cehizsiz, yoxsul qızlarına evlənsə idilər, onda vətəndaşlar arasında daha çox razılıq olar, bir-birinə qarşı olan paxıllıq aradan götürülər. İndi biz necə bir-birimizin paxıllığını

çəkirik. Əgər mən deyən olsaydı, arvadlarımız da bizdən qorxardı. Xərclərimiz də azalardı. Bu, çoxlarının ürəyinə yatardı. Bundan sonra əqəliyyəti təşkil edən acgözlərin öhdəsindən tez gəlmək olardı. Bu acgözlüyün qabağını heç bir qayda-qanunla almaq olmur. Deyirlər ki, yaxşı, yoxsul qızlara bu imtiyaz verilsə, o zaman cehizi olan varlı qızlar nə etsin? Bu onların öz işidir, cehizsiz gəlsinlər, təki ailəyə yaxşı xasiyyətlə gəlsinlər. İndi atlardan baha olan qatırlar o zaman Qalya merinlərindən[1] də ucuz olar.

Evklion (*kənara*). Onun sözləri mənə çox ləzzət verir. Qənaətdən yaxşı danışır.

Meqador. Arvadlardan heç biri öz ərlərinin üzünə ağ olmaz ki, mənim cehizim sənin dövlətindən çoxdur. Tez ol, əvəzində mənə bəzək al, qızıl ver, qarabaş, nökər tut. Qatır tap, araba düzəlt, gəzmək lazımdır. Daha sonra nə bilim nə ver, nə ver...

Evklion. Xanımları yaxşı tanıyır, hərif onların kələklərini çox yaxşı bilir. Ondan bacarıqlı arvad əxlaqi rəhbəri çıxardı.

Meqador. İndi hara baxırsan, hansı həyətə girirsən hər şeydən çox araba görürsən, başqa xərclərin yanında bu hələ yaxşıdır. Bir də görürsən ki, qapını bir yığın soyğunçu-mahudçu, zərgər, çəki çəkən, bal alverçisi, dərzi, ip hörən, suvaqçı, əlcəkçi, paltaryuyan, dilənçi, boyaçı, parça ayaqqabı, uzunboğaz ayaqqabı ustaları, səndəlçi kəsib. Onlarla haqq-hesab çəkəndən sonra deyirsən ki, bir az dincəlim, yox, onların yerinə yunçular, qotazçılar, sandıqçılar gəlir. Onları da yola salırsan, qapını rəng vuranlar kəsdirir və bu zirzibillər hey qapını kəsdirib gözləyirlər.

Evklion (*kənara*). Arvad işlərindən çox şirin danışır. Yanaşırdım, amma sözünü yarımçıq kəsmək istəmirəm, qoy bir az da danışsın.

Meqador. Hə, o, arvadlarla bütün haqq-hesab qurtardı. İndi də ac bir zabit gəlib, pul tələb edir. Sərrafın yanına gedirlər, onunla haqq-hesab çəkirlər, zabit bir şey yemir, maaşını gözləyir, sərrafla haqq-hesabdan sonra hələ zabit ona borclu qalır. Zabitin sabaha gümanı gəlir. Hə, cehizli qızın dərdi başdan aşır... Cehizsiz arvad kişidən asılıdırsa, cehizli arvad evi talan edir. Aha, deyəsən qohumumdur, qapıda dayanıb. Evklion, nə var, nə yox?

---

[1] Merin – axtalanmış at. Plavt Qalya (*Fransa*) merinlərini bir neçə pyesində yad edir.

ALTINCI SƏHNƏ

Evklion, Meqador

Evklion. Sənin söhbətindən ləzzət apardım.

Meqador. Eşidirdin?

Evklion. Başdan ayağadək.

Meqador. Evklion, əgər qızının toyuna paltarını dəyişdirsəydin çox yaxşı olardı.

Evklion. Kimin ki, varına görə şöhrəti, gəlirinə görə rifahı var, qoy yadından çıxarmasın ki, mən və ya mənim kimi yoxsullar başqalarının düşündüyü kimi varlı deyillər.

Meqador. Yox, qoy allahlar sənin dövlətini mühafizə edib qat-qat artırsınlar.

Evklion (*kənara*). "Sənin dövlətin", bu nə iyrənc ifadədir. Deyəsən o, mənim varım haqqında məndən də artıq məlumata sahibdir. Qarı sirri ağzından qaçırmışdır?

Meqador. Nə üçün söhbətdən boyun qaçırırsan?

Evklion. Fikirləşirdim ki, səni necə danlayım.

Meqador. Nə üçün?

Evklion. Nə üçün? Evimin bütün künc-bucağını oğrularla doldurmusan. Evimə beş yüz aşpaz göndərmisən. Hərəsinin altı əli var. Onlar lap Heronun[1] nəvələridir. Yunona tərəfindən İoya gözətçi qoyulmuş çoxgözlü Arqos[2] belə onları nəzarət altına ala bilməz. Hələ o fleytaçı qız – Korinfdəki Pirena[3] suları əvəzinə çaxır axsaydı inan ki, o, onun hamısını içərdi. Hələ yemək şeyləri...

Meqador. Yemək şeyləri bir alaya çatar. Sənə quzu göndərmişəm.

Evklion. Quzuya bax. Mən belə arıq quzu heç yerdə görməmişəm.

Meqador. Arıq quzu? Sən nə danışırsan?

Evklion. Bir sümük, bir dəri idi, arıqlığından ölürdü. Diri ikən bu üzündən baxsaydın o üzü görünərdi. Karfagen lampaları kimi şəffaf idi.

---

[1] Əsatirə görə hökmdar olan Heronun, guya üç bədəni, ona görə də altı əli var imiş. Herakl onun gözəl inəklərini sürüb aparmışdır.

[2] Əsatirə görə, yüz gözü olan Arşe qısqanc Hera tərəfindən Zevsin sevgilisi İoya gözətçi qoyulmuşdu.

[3] Çox suyu olan bulaqdır.

Meqador. Mən onu kəsmək üçün almışdım.

Evklion. Tez basdırmağa göndər, mənə elə gəlir ki, o artıq ölübdür.

Meqador. İndi nə içəcəyik?

Evklion. Doğrusu, mən heç içmək istəmirəm.

Meqador. Özüm dedim, bir boçka köhnə çaxır gətirsinlər.

Evklion. Şəraba həvəsim yoxdur. Mən su içəcəyəm.

Meqador. Ancaq su içirsən? Yox, mən bu gün səni yaxşıca içirəcəyəm.

Evklion (*kənara*). Bilirəm, hara nişan alır, içirdib sərxoş edəcək ki, qızıla yol tapsın... Ondan sonra qızıllar öz yaşayış yerini dəyişdirəcək. Ehtiyatlı olmalıyam, xəzinəni də evdən çıxarıb başqa yerdə gizlətməliyəm. Qoy ondan sonra çaxırını da, əməyini də boş yerə sərf eləsin.

Meqador. Gedim, qurban vaxtı üçün bir az yuyunub, təmizlənim. Salamat qal (*Gedir*).

Evklion. Mənim əziz çölməyim! Sənin düşmənin çoxdur. Onlar səndəki qızıla marıtlayıblar. İndi, gör mən nə edəcəyəm: səni sədaqət məbədinə aparıb, orada yaxşıca gizlədəcəyəm. Ey Sədaqət ilahəsi! Sən məni tanıyırsan, mən də səni. Gəl bu dəfə də öz adına xəyanət etmə. Mən varımı-yoxumu sənə tapşırıram. Sənin sədaqətinə inanıb, sənə pənah gətirirəm.

DÖRDÜNCÜ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

Strobil. Əgər bacarıqlı qulsan mənim kimi elə, nə buyururlar vaxtında, ürəklə yerinə yetir. Vicdanla qulluq göstərmək istəyirsənsə, əvvəl ağanı düşün, sonra da özünü. Yatıbsansa yuxuda da yaxşı yadında saxla ki, sən qulsan. Öz ağanın iradəsini öyrən, onun hər hərəkətindən, alnından, qaşından nə demək istədiyini başa düş. Əmr edən kimi ildırım tək işə cum. Əgər belə qayğıkeş olsan kötəyin dadını yadından çıxararsan. Buxovlar əl-ayağında şıqqıldamaz. Ağam kasıb Evklionun qızına vurulub, xəbər tutmuş ki, qızı Meqodora verirlər. İndi o da məni göndərib ki, öyrənim görüm işlər necə gedir. Şübhə oyatmamaq üçün burada, qurbangahda oturaram. Buradan baxıb, hər şeyi görmək olar.

İKİNCİ SƏHNƏ

Evklion, Strobil

Evklion. Ümidim sənədir, Allah! Sənə inandığım qızılın yerini heç kimə demə. Sən deməsən heç kəs onun yerini tapa bilməz. Yaxşı gizlətmişəm. Bu qızıl xəzinəsini kim tapsa onun arzusu lap göydən-düşmə olar. Ey Sədaqət ilahəsi özün muğayat ol! Hə, indi gedim, qurban kəsmək üçün təmizlənib, pak olum. Gərək kürəkəni yubandırmayım, ona mane olmayım. Qızımı aparmaq üçün indi adam gələcək. Ey Sədaqət ilahəsi, yalvarıram! Mənim xəzinəmi yaman gözdən saxla. Qızılımı sənə tapşırıram. Onu məbədin ağaclarında gizlətmişəm. Gözün üstündə olsun. (*Gedir*)

Strobil. Aman Allah mən nələr eşidirəm, o, nə danışırdı. Bir çölmək qızılı məbəddə gizlədib. Ey Sədaqət ilahəsi, ondan çox mənə kömək ol! Deyəsən bu kişi ağamın aşiq olduğu qızın atasıdır. Hələ onun başı qarışıq ikən mən məbədə girib, hər yanı ələk-fələk edərəm, görək qızılı tapa bilərəmmi? Tapsam allaha lazım gələn qədər şərab göndərərəm; sonra da özüm içib xudmani bir kef çəkərəm (*Məbədə daxil olur*).

ÜÇÜNCÜ SƏHNƏ

Evklion (*qayıdır*). Ah, fəlakət! Qarğa qarıldadı, işim yaxşı gətirməyəcək. Bundan xeyir gözləmək olmaz. O, dırnaqları ilə yeri eşir və ucadan qarıldayır. Ürəyim mahir bir rəqqasə kimi atılıb-düşür. Niyə dayanmışam, gərək tez gedim (*Məbədə girir*).

DÖRDÜNCÜ SƏHNƏ

Evklion, Strobil

Evklion (*qayıdır*). Rədd ol soxulcan, görünür, indicə palçığın altından çıxmısan. Əvvəl heç gözə görünmürdün. Səni görüm yox olasan, çıx buradan. Necəsən, ağız-burnunu əzim? Dələduz.

Strobil. Hansı şey tam sənin ürəyində yurd salıb. Üstümə niyə çığırırsan? Niyə məni sürüyürsən, niyə məni döyürsən?

Evklion. Meymunsifət. Hələ bir soruşursan da? Oğru, quldur.

Strobil. Axı mən nə götürmüşəm?

Evklion. Ver, bura.

Strobil. Nəyi?

Evklion. Ver.

Strobil. Mən nə götürmüşəm ki?

Evklion. Bu saat götürdüyünü. Bura ver. Hə, tez ol.

Strobil. Nəyi verim?

Evklion. Apara bilməzsən. Bicliyin baş tutmaz.

Strobil. Sənə nə olub?

Evklion. Dalındakı nədir, bura ver.

Strobil. Deyəsən daldan iş görməyi çox xoşlayırsan?

Evklion. Kələk gəlmə. Bax bunu bura ver, zarafat-zad eləmirəm.

Strobil. Nəyi verim? Açıq danış. Adını de? Mən bir şeyə əl vurmamışam, bir şey götürməmişəm.

Evklion. Əllərini göstər.

Strobil. Ala, bax.

Evklion. O birisini də.

Strobil. Hə, bu da o birisi.

Evklion. Görürəm, üçüncü əlini göstər.

Strobil. Qoca ağlını itirib, qəzəbli şeytanlar onu dəli-divanə eyləyib. İlahi, buna mən necə dözüm?

Evklion. Hələ ki, səni asmayıblar, döz, dözərsən. Boynuna almasan tez asılacaqsan.

Strobil. Axı nə üçün?

Evklion. Buradan nə çırpışdırdın?

Strobil. Dünya gözümə qaralsın, əgər bir şey götürmüşəmsə. Sənin şeyini götürmək heç ağlıma da gəlməyib.

Evklion. Dayan, dayan bir plaşını silkələ görüm.

Strobil. Ala, bu da plaşım. Silkələdim.

Evklion. Bəs altında nə var?

Strobil. Yoxla bax.

Evklion. Ax quldur. Özünü yoxlamağa gör necə həvəslə razılıq verir ki, şeylərimi oğurladığı ağlıma gəlməsin. Bu kələkləri bilirəm. Əllərini bir də göstər baxım, sağ əlini.

Strobil. Bax.

Evklion. Sol əlini.

Strobil. Al, ikisinə də bax.

E v k l i o n. Axtarışı bitirirəm, bura ver.

S t r o b i l. Nəyi verim?

E v k l i o n. Lağlağı burax. Çırpışdırmısan.

S t r o b i l. Nəyi çırpışdırmışam?

E v k l i o n. Demərəm. Hər şeyi bilmək istəyir. Məndən oğurladığını bura ver.

S t r o b i l. Sən sayıqlayırsan? Hər yerimi yoxladın, bir şey tapmadın.

E v k l i o n. Dayan, dayan. Sənin yanında kim var idi? Yoldaşın hanı? Mən batdım. O, içəridə yeri cızıb ələk-fələk edir. Bu hərifi də əldən buraxa bilmirəm. Əlqərəz, bunu axtardım bir şey tapa bilmədim. Rədd ol, buradan!

S t r o b i l. Özün rədd ol.

E v k l i o n. Təşəkkürünə əhsən. Bu saat gedib, yoldaşını boğazlaram. Rədd ol, gözümün qabağından!

S t r o b i l. Artıq gedirəm.

E v k l i o n. Bir də girimə keçməyəsən, quldur!

BEŞİNCİ SƏHNƏ

S t r o b i l. Ölməyə razıyam, qocanı gərək tələyə salım. Çox çətin ki, qızılı bir də orada gizlətməyə cəsarət etsin. Qızılı çıxartdı, deyəsən basdırmaq üçün təzə yer axtarır. Qapı cırıldadı; qoca qızılı bayıra aparır. Yavaşca qapıdan bu tərəfə gizlənim (*Gizlənir*).

ALTINCI SƏHNƏ

E v k l i o n, S t r o b i l

E v k l i o n. Sədaqət ilahəsinə etibar göstərdim. Amma o, az qala sıxıb suyumu çıxarmışdı. Qarğa olmasaydı mən batmışdım. Qarğa gəlib him eləsə, ona xoş gəldin deyərəm. Amma yemək verməklə aram yoxdur. Boş yerə niyə xərc qoyum. İndi bunu harada gizlədim? Şəhərin kənarında meşəlik kolluğunda yer tapa bilərəm. Sədaqət ilahəsindən isə Silvana[1] inanmaq lazımdır (*Gedir*).

[1] S i l v a n – Qədim İtaliyan dinində meşə allahı; sərhədləri, meşədə və çöldə olan əşyaları, xüsusilə sürünü qoruyan allah.

S t r o b i l. Bax buna varam. Allahlar mənə göydən nemət yağdırır... Qabağa qaçım, ağaca dırmaşım, görüm qoca qızılı harada gizlədir, hərçənd ki, ağam tapşırıb ki, onu burada gözləyim, amma eybi yoxdur. Əvəzində əlim xeyir görəcək.

YEDDİNCİ SƏHNƏ

L i k o n i d, E v n o m i y a, F e d r a səhnənin dalında

L i k o n i d. Mən olanı söylədim. İndi sən də mənim kimi Evklionun qızını yavaş-yavaş tanıdın. Ana, əvvəlki kimi yenə xahiş edirəm, o iş üçün dayımla yenə danışasan.

E v n o m i y a. Sənin arzuna çatmağını mən həmişə istəmişəm, ümid edirəm ki, qardaşımdan razılıq alaram. Əgər doğrudan da sən sərxoş olub qızı ləkələmisənsə, onda sən öz xahişində haqlısan.

L i k o n i d. Mən sənə heç yalan deyərəmmi?

F e d r a (*səhnə arxasından*). Ax! Dayə, dayə öldüm. Of, bu ağrıya dözmək olar? Yunona mənə kömək et.

L i k o n i d. Eşidirsənmi? Ağrısı başlayıb doğur. Elə bilirəm, hər şey sənə aydındır.

E v n o m i y a. Gəl içəri, bir yerdə gedib qardaşımdan icazə alaram (*Gedir*).

L i k o n i d. Sən get, mən də gəlirəm. Təəccüblüdür, bəs qulum Strobil hardadır? Ona tapşırmışdım ki, məni burada gözləsin. Amma deyim ki, gərək acığım tutmasın. Çünki, o da mənə görə özünü oda, közə vurur. Gedim, ya bəxt! (*Gedir*)

SƏKKİZİNCİ SƏHNƏ

S t r o b i l. Uzaq dağlarda qızıl ləkəli, ağacdələn quşu var. Mən təklikdə onlardan dövlətliyəm. Hökmdarlar mənim yanımda nəçidirlər? Məgər mən onlardan əskiyəm? Yox, mən varlıyam, onlar dilənçi. Əcəb gündür. Buradan gedən kimi, mən ondan qabaq ora çatım. Ağaca çıxdım ki, baxıb görüm qoca qızılı harada gizlədəcək. O gedəndən sonra, ağacdan düşüb qızılı çıxartdım. Əkilmək istəyirdim bir də baxıb gördüm ki, qoca qayıtdı, amma məni görmədi. Mən yoldan bir az o yana buruldum. Budur ey, qoca özü də gəldi. Bunu aparıb evdə gizlədim (*Gedir*).

DOQQUZUNCU SƏHNƏ

E v k l i o n. Mən batdım. Məhv oldum. Öldüm. Mən hara qaçım, hara qaçmalıyam. Dayan. Tut. Kim? Kimi? Mən anlamıram, mən görmürəm, mən karam. Mən hara gedim? Mən haradayam? Mən kiməm? Başa düşə bilmirəm? Kömək edin. Mənə göstərin, görüm onu kim çırpışdırdı? Nə dedin? Üzündən görürəm ki, yaxşı adamsan. Sənə inanıram. Bu nədir? Siz mənə gülürsünüz, hamınızı beş barmağım kimi tanıyıram, yaxşı bilirəm, çoxunuz oğrudur. Bəzəkli paltar geyib oturmuşsunuz, guya ki, düz adamsınız. Guya bunların heç birisi oğurluq eləməyib. Ah, sən məni öldürdün. Yaxşı, de görüm onu kim oğurladı? Bilmirsən? Bu da mənim bədbəxtliyim, mən nə fəlakətə düşdüm. Bugünkü gün nə nəhs gündür. Bu gün mənə ah, fəryad, dilənçilik, aclıq gətirdi. İndi mən dünyada ən aciz və ən bədbəxt adamam. Həyat mənə haram oldu. Qızıllarım batdı. Mən bədbəxt onu necə qoruyur, necə keşiyini çəkirdim. Ah, öz-özümü söydüm. Əcəb xoruza yük oldum. Hamı mənə güləcək, hamı sevinəcək. Mən buna tab gətirə bilmərəm.

ONUNCU SƏHNƏ

L i k o n i d, E v k l i o n

L i k o n i d. Bizim evin qabağında ah-fəryad edən kimdir? Aha. Bu ki, Evkliondur. Mənim işim bitdi. Məsələ açılmış, indi o, qızının hamilə olduğunu bilmişdir. Neyləyim? Gedimmi? Getməyimmi? Ona yanaşım, yoxsa əkilim?

E v k l i o n. Kimdir o?

L i k o n i d. Mən bədbəxt.

E v k l i o n. Yox, bədbəxt mənəm! Məhv olan mənəm. Mənim başıma gələn müsibəti Allah heç kəsin başına gətirməsin.

L i k o n i d. Sakit ol. səbir yaxşı şeydir.

E v k l i o n. Axı necə səbir edim?

L i k o n i d. Boynuma alıram, səni bu hala salan mənəm, səni mən dilxor eyləmişəm.

E v k l i o n. Sən nə danışırsan?

L i k o n i d. Bəli. Doğrudan da mən eləmişəm.

E v k l i o n. Sənə nə yamanlıq etmişəm. Nə üçün mənim uşaqlarımın evini yıxdın.

L i k o n i d. Allah məni vadar eylədi. Allah məni ona tərəf cəlb etdi.

E v k l i o n. Necə axı?

L i k o n i d. Eylədiyim işi boynuma alıram. təqsirim böyükdür. Gəldim səndən üzr istəyəm. Məni bağışla.

E v k l i o n. Axı, necə cəsarət edib özgəsinin şeyinə toxundun.

L i k o n i d. Belə oldu, iş belə gətirdi. Daldan atılan daş topuğa dəyər. Allahların işidir. Onlar istəməsəydi, belə olmazdı.

E v k l i o n. Yox, allahlar istəyib ki, səni zəncir altında köpənə qədər döyüm.

L i k o n i d. Yox, sən allah belə demə.

E v k l i o n. Mənsiz necə cəsarət edib mənim nemətimə toxundun.

L i k o n i d. Şərab ilə məhəbbət günahkardır. Onlar məni yerimdən oynatdı.

E v k l i o n. Vicdansız, həyasız, şax üzümə deyir. Əgər belə dillərlə bağışlanmaq istəyirsənsə, buyur gedək, günün günortaçağı arvadların qızıl-gümüşünü soyaq. Yaxalansaq deyərik: bağışlayın sərxoş olmuşuq, məhəbbətimiz günahkardır. Sərxoşlarla aşiqlər istədiklərini etsəydilər və buna görə cəzalanmasaydılar şərabla məhəbbətin qiyməti necə olardı?

L i k o n i d. Bağışla! Bir qələtdir, eləmişəm. Öz ayağımla gəlib üzr istəyirəm.

E v k l i o n. Nadürüst işlər görüb özünü safa çıxartmaq istəyən adamlardan zəhləm gedir. Sən bilirdin ki, o sənin deyil, ona görə də sən toxunmamalı idin.

L i k o n i d. Madam ki, toxunmuşam qoy elə mənim olsun.

E v k l i o n. Axı, necə ola bilər ki, mənimkini məndən icazəsiz mənimsəyib özününkü edəsən?

L i k o n i d. Yox, mən icazəsiz demirəm. Özün də yəqin edərsən ki, Evklion, o, gərək mənim olsun. O, elə mənim də olmalıdır.

E v k l i o n. Bu saat səni sürüyə-sürüyə məhkəməyə aparacağam. Verməsən şikayət edəcəyəm.

L i k o n i d. Nəyi, qaytarım, nəyi? Sən nə danışırsan?

E v k l i o n. Oğurladığını.

L i k o n i d. Mən? Sənin şeyini oğurlamamışam. Nə vaxt? Nə danışırsan?

E v k l i o n. Guya bilmirsən? Əgər bilmirsənsə, Allah bəlanı versin. Allah səni öldürsün.

L i k o n i d. Yaxşı, de görüm, axı sən nə axtarırsan?

E v k l i o n. Çölməkdənki qızılımı. İndicə özün boynuna aldın ki, çırpışdırıb aparmısan.

L i k o n i d. Yox, mən elə söz deməmişəm. Nə dəymişəm, nə də götürmüşəm.

E v k l i o n. Necə? İndi də inkar edib boynundan atırsan?

L i k o n i d. Nə qızılı görmüşəm, nə də çölməyi.

E v k l i o n. Silvan meşəsindən çırpışdırdığın qızılı deyirəm. Geri qaytar, yarıbayarı bölək, sən mənim nəzərimdə oğrusan. Ancaq zəhləni töküb ora-bura cəlb etmərəm. Yarıbayarı, xahiş edirəm, geri qaytar.

L i k o n i d. Mən oğruyam? Evklion, deyəsən ağlın çaş-baş olub. Mən elə bildim ki, ayrı məsələdən xəbər tutmusan. O daha mühümdür. Mən onu eləmişəm. Əgər boş vaxtın olsa ondan danışarıq.

E v k l i o n. Vicdanla de görüm, qızılı oğurlamısan, ya yox?

L i k o n i d. Yox.

E v k l i o n. Bəs kim oğurlayıb, bilmirsən?

L i k o n i d. Onu da bilmirəm.

E v k l i o n. Əgər xəbər tutsan, mənə deyərsənmi?

L i k o n i d. Deyərəm.

E v k l i o n. Oğrudan bir şey qoparıb, işi ört-basdır etməyəcəksən ki?

L i k o n i d. Yox.

E v k l i o n. Birdən yalan danışsan?

L i k o n i d. Onda qoy Yupiter mənə qənim olsun.

E v k l i o n. Kifayətdir. Hə, indi de görüm nə istəyirsən?

L i k o n i d. Bəlkə sən məni tanımırsan? Kimlərdən olduğumu bilmirsən? Mən Antiloxun oğluyam. Meqador mənim dayımdır. Adım Likonid, anamın adı Evnomiyadır.

E v k l i o n. Nəslinizi tanıyıram, de görüm nə istəyirsən?

L i k o n i d. Sənin qızın var?

E v k l i o n. Hə, evimizdədir, buradadır.

L i k o n i d. Sən də onu mənim dayıma verirsən?

E v k l i o n. Elə belədir ki, var.

L i k o n i d. Hə, mənə tapşırıb sənə deyim ki, bu işdən boyun qaçırır.

E v k l i o n. Necə boyun qaçırır? Toy üçün hər şey hazır olandan sonra? Qoy bütün allahlar onun evini yıxsın. Mən qızılımı onun ucbatından itirdim. Ah, fəlakət.

L i k o n i d. səbir et, qarğış etməyə tələsmə. Qoy bu iş səni və qızını xoşbəxt etsin. De ki, nə deyirəm, siz deyən olsun.

E v k l i o n. Allah bu işə əncam versin.

L i k o n i d. Allahlar mənim də işimi düzəltsin. Qulaq as, vicdansız adamların zatı puçdur. Yalvarıram Evklion, sənin də, qızının da qarşısında günahkaram, məni bağışla, bizi qanuni kəbinlə evlənmiş ərarvad bil. Boynuma alıram ki, Serer bayramında sənin qızının namusuna toxunmuşam. Məni ehtiras və şərabın təsiri əsir etdi.

E v k l i o n. Ah, müsibət! Nə yaman nəhs işə düşdüm. Mən nələr eşidirəm?

L i k o n i d. İztiraba ehtiyac yoxdur. Qızının toy günü nəvən olacaq. Məgər bu bədbəxtlikdirmi? Özün hesabla: Serer bayramından doqquz ay keçir. Dayım mənə görə bu işdən vaz keçdi. Get evdən xəbər tut, görərsən hamısı doğrudur.

E v k l i o n. Bu ki, lap ölümdür. Bədbəxtlik bədbəxtlik üstündən gəlir. Evə gedim, öyrənim: bu xəbər doğrudur, ya yox? (*Gedir*).

L i k o n i d. Mən də onun dalınca getdim. Deyəsən bu işə bir əncam tapdım canım xilas oldu. Bir şeyi başa düşə bilmirəm ki, mənim qulum Strobil haradadır. Onu bir az gözləyim, sonra oraya gedərəm. Qoy bir az Evklionun vaxtı olsun ki, dayədən hər şeyi öyrənsin. O, bütün işləri bilir.

BEŞİNCİ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

S t r o b i l, L i k o n i d

S t r o b i l. Allahlar məni necə sevindirdi. Aman nə yaxşı oldu, bir çölmək qızıl ələ keçirdim. Kim mənim qədər varlıdır? Deyin görək, allahlar Afinada kimə daha çox iltifat bəsləyirlər?

L i k o n i d. Deyəsən yaxında səs eşidirəm.

S t r o b i l. Hımm... Ağamdır.

L i k o n i d. Deyəsən bu mənim qulumdur. Strobil sənsən?

S t r o b i l. Özüdür ki, var.

L i k o n i d. Özgəsi kim ola bilər?

S t r o b i l. Bir az yaxınlaşım.

L i k o n i d. Deyəsən ona əmr etdiyim kimi eyləyib, qızın dayəsi qoca qarı ilə görüşüb.

S t r o b i l. Görəsən, çırpışdırdığım qəniməti ona deyim? Bax belə. Xahiş edirəm tapdığım çölməyin əvəzində məni azad eləsin. Bilirsən nə tapmışam?

L i k o n i d. Hə, nə tapmısan?
S t r o b i l. Uşaqlar demişkən "Noxutda bir şey tapmışıq" belə yox...
L i k o n i d. Yenə məsxərəyə başlamısan...
S t r o b i l. Ağa, dayan, bir qulaq as.
L i k o n i d. Hə, de görək nə var?
S t r o b i l. Bu gün böyük bir xəzinə tapmışam...
L i k o n i d. Hə, bəs hanı?
S t r o b i l. Bir çölmək qızıl... Dörd girvənkəlik bir çölmək.
L i k o n i d. Səndən qəribə xəbər eşidirəm.
S t r o b i l. Qoca Evklionundur, çırpışdırmışam.
L i k o n i d. Qızıllar hanı?
S t r o b i l. Mücrüdədir. İndi ağa, sən allah, məni köləlikdən azad et.
L i k o n i d. Necə, səni azad edim. Haramzada yenə başladın?
S t r o b i l. Ağa, bax ha. Mən bilirdim ki, sən nə cavab verəcəksən. Səni yaman sınadım əlimdən almaq istəyirdin. Əgər tapmış olsaydım, bəs onda?
L i k o n i d. Heç zarafatın yeridir? Get qızılı bura gətir.
S t r o b i l. Qızılı gətirim?
L i k o n i d. Əlbəttə gətir. Təkrar edirəm, bu saat qızılı geri qaytar.
S t r o b i l. Nə qızıl? Haradan gətirim?
L i k o n i d. Özün dedin ki, mücrüdən.
S t r o b i l. Mən elə həmişə lağ edirəm.
L i k o n i d (*əlini qaldırıb vurmağa*). Bilirsən... Səni necə...
S t r o b i l. İstəyirsən vur öldür... Məndən heç nə ala bilməyəcəksən.

***

Əsərin sonu itmişdir. Son səhnədə iştirak edənlərin arasında Evklionun adı olduğu üçün güman etmək olar ki, əsərin finalında o da iştirak edirmiş... Bundan başqa bizim e.ə. II əsrdə Roma qrammatiklərindən biri komediyanın məzmun xülasəsini yazmışdır. Bu xülasədən anlaşılır ki, sonra qızıllar Evkliona qaytarılır. O, böyük bir sevinc ilə qızını Likonidə ərə verməyə razı olur və qızılları da cehiz olaraq onlara bağışlayır.

Latın qrammatiklərinin əsərlərində, indiyə qədər az miqdarda qalmış parçalardan zənn etmək olar ki, Evklion qızılları verdiyinə çox sevinir. Çünki, ən nəhayət başı bəlalı xəzinədən canını qurtarmışdır. Yoxsa, hər gün onları on dəfə çıxarıb yeni yerdə basdırmaq üçün on çuxur qazmalı, onların keşiyini çəkməli idi. Gündüzlər rahatlıq ona haram idi, gecələr isə yata bilmirdi. Evklion çox sevinir ki, artıq bundan sonra şirin-şirin rahat yata bilər.

PUBLİ TERENSİ

E.ə. 195-159

Terensi Karfagendə, Libi tayfası içərisində anadan olmuşdur. Buna görə də ona Afr (afrikalı) ləqəbi verilmişdir. O, Karfagendən qul sifətilə Romaya gətirilmiş və burada satılmışdır. Onu satın alan senator Terensi Lukan bu qulun ağlına və zəkasına heyran olduğu üçün onu oxutmuş və köləlikdən azad edərək, öz ailə üzvü kimi evində saxlamışdır. Afr, hamisinin familiyasını qəbul etdikdən sonra zadəgan gəncləri ilə dostlaşmışdır. Yeni ictimai mühitin Terensiyə təsiri ondan ibarət olmuş ki, o, canlı latın dilinin bütün incəliklərini mənimsəmişdir. Saray latıncasına xas olan ibarələr, zarafatla dolu incə ifadələr Terensinin dramaturgiya dili üçün olduqca səciyyəvidir. Terensi yeni mühitdə, xüsusilə Romanın gələcək sərkərdəsi Kiçik Sispion və onun dostu Qay Leli ilə tanış və yaxın dost olmuşdur. Bu dostluqda əlaqədar olaraq Terensinin ədəbi rəqibləri belə bir şayiə yaymışlar ki, guya Terensiyə isnad edilən komediyaları Sispion ilə Leli yazmışlar. Lakin komediya yazmaq peşəsini özlərinə ar bildiklərinə görə komediyaları Terensinin adı ilə səhnəyə qoymuşlar. Terensi isə, əslində ədəbi muzdurdur. Terensi özü şəxsən bu şayiələri təkzib etmədiyi üçün rəvayət getdikcə yayılmışdır.

Lakin ən ciddi Roma ədibləri və filologları bu rəvayətə əsilsiz bir uydurma kimi baxmışlar, Terensinin müəllifliyini təsdiq etmişlər. İndi də onun müəllifliyini inkar edə biləcək ciddi bir sənəd yoxdur.

166-cı ildə Meqalezi oyunları vaxtında Terensinin ilk komediyası olan "Androslu qız" tamaşaya qoyulmuşdur. Qədim mənbələrdə deyilir ki, teatr başçıları əsəri qəbul etmədən əvvəl onu Stassi Sesilinin yanına göndərmişlər. Terensi komediyanı ona oxumuş və Sesili komediyadan heyran olduğunu bildirdikdən sonra əsər tamaşaya qoyulmuş, beləliklə Terensi bir ədib kimi şöhrət qazanmışdır.

İlk müvəffəqiyyətdən ruhlanan Terensi 163-cü ildə "Öz-özünə cəza verən", 161-ci ildə "Formion" və "Xacə", 160-cı ildə isə "Qardaşlar" və "Qaynana" komediyalarını yazmışdır. Ümumiyyətlə, Terensi 166-160-cı illər arasında altı komediya yazmışdır.

Yunan xalqı və onun mədəniyyəti ilə tanış olmaq məqsədilə Terensi 159-cu ildə Yunanıstana səyahət etmək qərarına gəlir. Lakin yolda ikən həmin ildə vəfat edir. Onun ölümü haqqında düzgün məlumat yoxdur. Bir rəvayətə görə, gəmi qəzası nəticəsində əldə etdiyi bir çox əlyazmaları məhv olduğu üçün ağır xəstələnmiş, Stimfal şəhərində vəfat etmişdir. Özündən sonra bir qızı və Roma yanında yaylağı qalmışdır.

Terensinin gənc zadəgan dostları Roma dövlətinin işğalçı xarici siyasətindən narazı idilər. Onlar istər xarici, istər də daxili məsələlərdə "insanpərvərlik" prinsipini şüar edərək ümumi razılıq, ümumi əmniyyəti müharibədən üstün tuturdular. Daxildə sinfi ziddiyyəti gərginləşdirməmək üçün bir sıra kiçik islahatlar tələb edirdilər və yunan adət-ənənələrinin geniş miqyasda Romada tətbiqini vacib görürdülər. Onlara görə, ictimai sülh, mütəqabil saziş ictimai həyatın əsasını təşkil etməlidir. Terensi belə bir məfkurəvi mühitə düşdüyü üçün bütün bu məsələlərdə dostları ilə həmfikir idi. Heç təəccüblü deyil ki, öz komediyalarında da Terensi dövrün gərgin sinfi ziddiyyətlərinə toxunmur və sanballı ictimai problemlər almır. O, sadəcə ailə dairəsindən xaricə çıxmayaraq, ailədə özünü göstərən bəzi anlaşılmazlıqları maraqlı intriqalarla, əyləndirici bir şəkildə tamaşaçılara təqdim edir. Onun əsas mövzu mənbəyi Menandrın, Apollodorun komediyalarıdır. Bu iki mənbədən aldığı mövzulardan elə kontaminasiyalar düzəldir ki, onlar əsillərindən o qədər də fərqlənmirdilər.

Hər iki yunan dramaturqunun komediyalarında ictimai ziddiyyətlər pərdələnmiş, həyat həqiqəti əyləncəli, sonu xoşbəxtlik, ümumi saziş ilə olaraq incə zarafat, yüngül, lakin dolaşıq intriqalarla həyat hadisələrini bəzəyir, bacardıqca kəskin ictimai satiradan uzaqlaşırdı.

Onun yaratmış olduğu qoca zadəgan atalar alicənab ruhi müvazinətini daima mühafizə edən adamlardır. Onun göstərdiyi əxlaqca yüngül qadınlar isə çox zaman əxlaq dairəsindən xaricə çıxmır, gözəl xasiyyətli, bəzən də fədakar insanlardır, ev xanımları istisnasız olaraq hörmətə layiqdirlər. Onun komediyaları sakit bir tərzdə inkişaf edərək, ən nəhayət, tanıma vasitəsilə, xoşbəxt nəticə ilə bitirlər.

Qədim Romada onu "Menandr", "Yarım Menandr" adlandırmışlar, hətta Terensinin ədəbi rəqiblərinin bir qismi onu ədəbi oğurluqda təqsirləndirmişlər. Menandrın bəzi səhnələri ilə Terensinin yaratmış olduğu səhnələr arasında oxşarlıq tapan bir qisim ədiblər Terensini müstəqil dramaturq saymamışlar. Şübhəsiz ki, bu mülahizələrdə şəxsi-qərəzlik və mübaliğələr yox deyildi. Terensi özü komediyalarının proloqunda düşmənlərinə inandırıcı cavablar verir.

Terensinin dramaturgiyası, yuxarıda qeyd olunan ictimai-siyasi ideyaları təbliğ etdiyi üçün, əsl həyat həqiqətindən uzaq idi. O çalışırdı ki, məlum yunan komediyalarında yaranmış mövzular əsasında həyatın ağır çətinliklərini bəsit anlaşılmazlıqlar şəklində verərək ümumi ictimai gərginliyi yumşaltsın. Zadəgan saraylarına bağlılıq, onun əsərlərindəki komizmi zəiflətmiş, ifadə üsullarını tikansız etmişdir. Bütün bu cəhətləri ilə Terensi və Plavt bir oxun iki ayrı-ayrı qütbləridirlər. Plavt xalq kütləsini nəzərdə tutaraq onu cəmiyyətdəki eybəcərlikləri ayırd edib görməyə çağırır, öz məqsədinə çatmaq üçün hətta qaba, kobud səhnələr yaradır və cəmiyyətin komik kolliziyalarını qabarıq şəkildə tamaşaçılara təqdim edirdi. Əksinə, Terensi zadəgan və saray adamlarının bədii zövqünü oxşamaq üçün cəmiyyətin tənqid və ifşaya layiq olan cəhətlərini nəzərdə tutmayaraq, ailə anlaşılmazlıqlarını əsas alıb, təsirli səhnələr yaradırdı. Belə təsirli səhnələr əksəriyyətlə, melodramatik xarakter daşıyaraq, ən nəhayət, tanıma vasitəsilə həll olunurdu. Məsələn, gənc zadəgan yetim bir qıza aşiqdir. Varlı ata onların evlənmələrinə razılıq vermir. Hadisələr intriqa yolu ilə dolaşıb mürəkkəbləşir. Axırda məlum olurdu ki, yetim qız varlı bir zadəganın qızıdır. Demək ki, məchul ata tapılmış, məsələ həm oğlun, həm də atanın arzu etdiyi kimi həll olunur. Belə çıxır ki, ata da haqlıdır, oğul da. Terensi istifadə etdiyi yunan mənbələrinə sadiq qalaraq, Roma cəmiyyətinin real problemlərinə toxunmurdu. Halbuki, Plavtın əsərlərində hadisələr Yunanıstan şəraitində cərəyan etsə də, Roma həyatının zəruri ictimai məsələlərini əhatə edir və Roma üçün olduqca səciyyəvi idi.

Plavtın üslubu canlı latın dilinə əsaslanırdı. O, xalq dilinin bütün zənginliklərindən istifadə edərək, geniş kütlənin ünsiyyət vasitəsi olan ifadə və ibarələrlə dialoqlarını qururdu. Terensinin üslubu həddindən artıq obrazlı, saray ifadə və ibarələrinə əsaslanırdı. Ona görə də kütləvi teatrlarda Terensiyə nisbətən Plavtın əsərləri daha böyük müvəffəqiyyət qazanırdı. Çünki onun əsərləri tamaşaçıya daha aydın çatırdı. Plavtın özünəxas üslubu var idi. Hətta sonralar filoloq Eli Stilon demişdir: "Əgər Muzalar latınca dilə gəlmiş olsaydılar, onlar hökmən Plavtın dili ilə danışardılar". Terensinin komediyaları ancaq saray teatrlarında müvəffəqiyyət qazanmışdı. Zadəgan ədəbiyyatşünaslar Terensi üslubunun gözəlliyindən, səlisliyindən və incəliyindən dönə-dönə bəhs etmişlər. Doğrudur, Terensi komediyaların kompozisiyasını məharətlə qurur, dramatik intiriqanı incə və ustalıqla inkişaf etdirir, hadisələr arasında bağlılıq möhkəmdir. Plavtın komediyalarında sıx-sıx hərəkət vəhdəti pozulur, hiss olunur ki, Plavt formal incəliklərdən ziyadə, məzmuna daha çox diqqət vermişdir. Plavt kəskin satirik idi və yaratdığı gülüş, dolğun ictimai məzmuna malik idi. Onun ən başlıca gülüş və tənqid hədəfləri varlı təbəqələrin nümayəndələri idi. Halbuki Terensinin gülüşü incə zarafat xasiyyəti daşıyırdı. Gülüş əksəriyyətlə ifadələrdə və ibarələrdə idi. Gülüş keçici idi. O, yeni yunan komediyasının ən ciddi nümunələrini alıb kontaminasiyalar yaratmış və çalışmış ki, orjinalların arxitektonikasını, xarakterlərin əsas xüsusiyyətlərini mühafizə etsin. Komediyalardakı mübarizə xətlərinə gəlincə burada müəllif ədəb və alicənablıq yolundan kənara çıxmır. Hər iki tərəf öz niyyətlərində xeyirxahdır. Çox zaman mübarizə bəzi qurbanlara səbəb olur, ancaq uydurulmuş şərti sonluq hər iki tərəfi barışdırır və razı salır.

Saray adamları Terensini Plavtdan yüksək tuturdular. Halbuki Plavt öz komik istedadı ilə həm Sesilidən həm də Terensidən yüksəkdə dayanırdı. Qədim Roma filoloqları Sesili, Plavt və Terensini qədim Roma komediyasının triumviratı, yəni üçlüyü adlandırırdılar.

ANDROSLU QIZ

5 pərdəli komediya

İŞTİRAK EDİRLƏR

S i m o n – qoca
P a m f i l – onun oğlu
X r e m e t – qoca
X a r i n – cavan oğlan
Q l i k e r i y a – Pamfilin sevgilisi
S o s i – Simonun azad olunmuş qulu
D r a m o n, D a v – Simonun qulları
B i r r i y a – Xarinin qulu
M i s i d a – Qlikeriyanın kənizi
L e s b i y a – mamaça qarı
K r i t o n – androslu qoca

Əhvalat Afinada, küçədə Simonun və Qlikeriyanın evləri arasında vaqe olur.

PROLOQ

Yaradıcılığa ehtiyac duyan şair qarşısına belə bir məqsəd qoyub ki, onun əsəri tamaşaçılara xoş gəlsin; ancaq görür ki, tərsinə olur. O, proloqlara bütün qüvvəsini sərf etməklə heç də pyesin məzmununu dəyişmək istəmir, əksinə, bununla qəzəbli söyüşlərə, düşmənə, qoca şairə cavab vermək istəyir. Qulaq asın, görün ona nə kimi nöqsan tapırlar. Menandr "Androslu qız" və "Perinfiyanlı qadın" pyeslərini yazmışdır ki, onların birini siz tanıyırsınız – hər ikisini tanıyacaqsınız. Onlar məzmunlarına görə bir-birindən ayrılmasalar da, dili və üslubları etibarilə çox fərqlidirlər. Şair etiraf etməyə hazırdır ki, "Perinfiyanlı qadın"dan öz əsəri kimi istifadə etmiş və münasib bildiyini "Androslu qıza" köçürmüşdür. Buna görə onu məzəmmət eləyib etiraz edirlər ki, iki əsərdən bir komediya düzəltmək olmaz. Məgər onlar həddindən artıq müdriklik göstərməklə axmaqlığa gəlib çıxmırlarmı,

məni təqsirləndirməklə bizim bu şairin nümunə saydığı və onların qeydsiz azadlıqlarına tez təqlid etməyə hazır olduğu Plavtı. Nevini, Enneyi müqəssir etmiş olmurlarmı? Yaxşı olar ki, onlar sakitləşib, söyüşdən əl çəksinlər. Onlar öz xüsusi qüsurlarını bilməyəcəklər.

Sakitcə və lütfkarlıqla qulaq asın. Özünüz qərar verin: vaxtından əvvəl güman edə bilirsinizmi, bizim şair yenə elə komediyalar yaradacaq ki, onlar səhnədən qovulmaq əvəzinə, tamaşa edilməyə layiq olsunlar.

BİRİNCİ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

S i m o n, S o s i

S i m o n (*azuqə aparan qullara*). Hə, tez tərpənin, şeyləri evə aparın. Sosi, iki kəlmə sənə sözüm var.

S o s i. Hesab elə: onların ikisini də demisən. Yaxşı bir şey hazırlamaqmı lazımdır.

S o s i. Bəs nəyi deyirsən? Mən öz sənətim ilə bundan başqa nə edə bilərəm?

S i m o n. Mənə bu dəfə sənin sənətin lazım deyil, həmişə səndə görməyə alışdığım sədaqəti və susmağı görmək istəyirəm.

S o s i. Əmrini gözləyirəm.

S i m o n. Sən özün yaxşı bilirsən ki, mən səni satın alandan sonra uşaqlıqdan ədalətlə rahatlıqda yaşamısan. Səni mən qul kimi yaşamaqdan azad etdim ki, mənə azad xidmət edəsən. Bu sənin üçün böyük mükafatdır.

S o s i. Yadımdadır.

S i m o n. Mən bu işi etdiyimə heç də peşman deyiləm.

S o s i. Mən keçmişdə olduğum kimi, indi də sənə xidmət etdiyimə şadam. Çox sağ ol, ancaq bu mənim üçün ağır olsa da, belə başa düşürəm ki, sənin bunu yada salmağın danlaq və yaxşılıq bilməyə işarədən başqa bir şey deyil. Müxtəsər, de, görüm nə buyurursan?

S i m o n. Həə, deyirəm. Birincisi budur ki, sən elə zənn etmə ki, bu toy həqiqi toy olacaq.

S o s i. Axı, bu riyakarlıq nə üçündür?

S i m o n. Sən oğlumun həyatını, mənim bütün niyyətlərimi və bu işdə səndən nə tələb etdiyimi – bir sözlə hamısını biləcəksən. Sosi, axı o səncə uşaqlıq dövrünü keçirib, tamam azad yaşamaq imkanı əldə etmişdir. Onun xasiyyətini əvvəllər necə öyrənmək olardı? Mürəbbisi, yaşı, cəsarətliliyi buna imkan vermirdi.

S o s i. Belə.

S i m o n. O bütün kənizlərdə olduğu kimi bir şeyə, məsələn, at və ov itləri saxlamağa, ya da fəlsəfəyə xüsusi meyl göstərmirdi. O həmişə özünü sakit və mötədil aparırdı ki, bu da məni daima sevindirirdi.

S o s i. Düzdür. Həyatda israfçılıq əsas deyil və heç bir xeyir vermir.

S i m o n. O belə yaşayırdı. Hər şeyə asanca dözür, səbir edirdi. Kiminlə bir yerdə olurdusa, dərhal onun təsiri altına düşür, onun zövqünə uyğun olaraq hərəkət edir, hətta qəsdən başqalarından heç cürə fərqlənmirdi. Biz bu yol ilə heç kimə həsəd aparmadan dost və yaxşı ad qazana bilərik.

S o s i. O, həyatını çox ağıllı qurmuşdur. İndiki zəmanədə dostları yaradan güzəştdir. Həqiqət isə, ancaq nifrət oyadır.

S i m o n. Üç il bundan əvvəl bizim qonşumuza Androsdan bir qadın köçüb gəlmişdir. Ehtiyac və qohumlarının biganəliyi ona əzab versə də, gözəl və təravətli gəncliyin çiçəyi kimi açmışdır.

S o s i. Axı deyəsən bu androslu qadından yaxşı bir şey gözləmək mümkün deyil.

S i m o n. Əvvəllər o burada ağır, çətin, lakin namuslu bir həyat keçirirdi. Parça toxuyur, paltar tikir, çörəyini qazanıb dolanırdı. Sonra isə aşiqlər və aşnalar tapıldı. Biri, ikisi... onlar hər cür hədiyyə, pul və başqa şeylərlə onun yanına yol tapdılar. O, hamının xahişini qəbul edir və əlbəttə, onları əyləndirirdi. Bütün insanlar, zəhmətdən azad olub kef çəkməyə meyl edirlər. Aşıqlar mənim oğlumu da özləri ilə bu işə cəlb etdilər. Dedim ki, daha əlim uşaqdan üzüldü, o tora düşdü. Onların qullarına göz qoymağa başladım: görüm buraya gəlirlərmi? Səhərmi buradan gedirlər? Soruşuram ki, "Ey, balaca! Bu gün Xrisidanın yanında kim var idi?" Androslu qadını belə adlandırırdılar.

S o s i. Başa düşürəm.

S i m o n. Cavabında deyirlər ki, "Klini, Fedr, ya da Nikaret". Onun yanında üç aşna var imiş...

Bəs Pamfil, "Şərikli pul verib nahar etdi", – deyə cavab verirlər.

Mən sevinirəm sabah isə bu hadisə yenə də təkrar olunurdu. Mən başa düşürdüm ki, bunu deyəsən, Pamfilə dəxli yoxdur. Mən ona təvazökar və inanılmış bir adam kimi baxırdım. Bu xasiyyətlərə malik adamlar belə işlərə rast gəldikdə tərəddüd etməzlərsə, həmin adamların öz həyatlarını öz qüvvələrilə quracağı yəqindir. Başqaları məni bir səslə tərifləyib sənin oğlun da bax belə adamdır deyəndə mən xoşhal olurdum. Nə deyim! Bu söhbət və şayiələrin təsirilə Xremet mənim yanıma gəldi və bircə qızını böyük cehizlə oğluma vermək istədiyini söylədi. Fikirləşdik, əlverişli olduğu üçün, bu gün toy etməyi qərara aldıq.

S o s i. Yaxşı, indi bu toya mane olan nədir ki?

S i m o n. Bilərsən. Bir gün keçmiş sonra birdən qonşu Xrisida ölür.

S o s i. Sən məni sevindirdin. Mənim də qorxum elə Xrisidadan idi.

S i m o n. Bu zaman mənim oğluma Xrisidanın aşnaları arasında olmaq lazım gəlirdi. Pamfil onun dəfn işlərilə məşğul olur, kədərlənir, dəfələrlə ağlayırmış. Onun bu halı mənə ləzzət verirdi. Düşünürdüm ki, bu cür yüngül tanışlıq nə üçün ona ağır təsir edir. O, qızı sevsə idi, necə olardı? Mənə necə hörmət göstərərdi? Bu onun ürəyinin nəcibliyini və xasiyyətinin mülayimliyini göstərir. Mən belə fikirləşirdim. Heç bir fəlakət gözləmədən oğlumun xatirinə dəfn mərasiminə gedirəm.

S o s i. Həə, bəs sonra?

S i m o n. Bax belə, biz gedirik, sonra cənazəni çıxarırlar. Bu halda birdən qadınlar arasında olan bir qız gözümə dəyir.

S o s i. Gözəl idimi?

S i m o n. Onun görkəmi, siması elə gözəl və təvazökar idi ki, bundan gözəl heç bir şey təsəvvür etmək olmazdı. O, başqalarından daha çox ağlayırdı, həm də başqalarından daha gözəl və lütfkar idi. Mən adamlara yaxınlaşıb "bu kimdir?" – deyə soruşdum. "Xrisidanın bacısıdır" dedilər. Elə bil ürəyimi bir şey dəlib keçdi. İndi mən bildim ki, bu göz yaşları və təəssüf kimin ürəyindən gəlir.

S o s i. Qorxuram, bilirəm, necə qurtaracaqsan?

S i m o n. Dəfn mərasimi davam edir və biz onunla bir yerdə gedirik. Sonra biz sərdabəyə yaxınlaşırıq, meyiti oda atırlar. Ağlamaq və fəryad səsi eşidilir. Birdən Xrisidanın bacısı ehtiyatsızlıqla oda yaxınlaşır. Bu zaman Pamfil qeyri-iradi olaraq ürəyində yaxşıca qoruyub gizlətdiyi məhəbbəti büruzə verib, ona sarı yönəlir. Qızı tutur

"Qlikeriya! Sən nə edirsən? Özünü niyə qurban verirsən?" – deyir. O zaman qız göz yaşları içərisində onun üstünə atılır və elə gözəl görünür ki...

S o s i. Sən nə danışırsan!

S i m o n. Qəzəbimi güclə saxlayaraq evə qayıdıram. Onu danlamaq istəyirəmsə də, buna bir əsas tapa bilmirəm. Əgər onu danlasam deyər ki, "mənim günahım nədir? Nə etmişəm ki? O, özünü oda atmaq istəyirdi, mən qoymadım, xilas etdim", çox ağıllı cavabdır.

S o s i. Əlbəttə, həyat xilaskarını danlamaq düz olmaz. O zaman sənə ziyan verən adamla necə rəftar edərsən?

S i m o n. Səhər Xremet narazılıqla mənim yanıma gəldi. O, Pamfilin bu xoşagəlməz nalayiq hərəkətindən qəzəblənmişdi. "Pamfil o yadelli qadınla əlaqədardır", deyə bu işə qəti etiraz etdi və dediyinin üstündə dayandı. Nəhayət, bizim işimiz düz gətirmədi. İndi o, qızını oğluma verməyə razı deyil.

S o s i. Demək, sən oğlunu...

S i m o n. Onu təqsirləndirmək üçün bəs səbəb yoxdur.

S o s i. Lütfən, de görüm, axı niyə?

S i m o n. O mənə... "ata, sən özün bu işə son qoydun. Tezliklə mən başqasının iradəsilə yaşamağa məcbur olacağam. Hələlik qoy istədiyim kimi yaşayım", – deyəcək.

S o s i. Bəs belə isə, sən onu nəyə görə danlayacaqsan?

S i m o n. O, qıza vurulduğu üçün mütləq evlənməkdən boyun qaçıracaqdır. Cəza üçün bu əsas səbəb olar. İndi qoy bu yalançı toyla o evlənməkdən boyun qaçırsın. Mənim də istədiyim budur. Qoy indi quldur Dav nə fikirləşirsə yerinə yetirsin. O, bu çətinliklərdən yaxasını qurtara bilməyəcəkdir. Bilirəm ki, o əlləri, ayaqları ilə çalışıb çapalayır. O, oğluma kömək etməkdən ziyadə mənə toxunmaq istəyir.

S o s i. Gör ha! O niyə?

S i m o n. Niyə? Onun ağlı da, ürəyi də qurdludur. Bir balaca bilsəm ki... Eh, bu sözlər nəyə lazımdır? Ancaq bircə istədiyimə nail olsaydım. Bircə Pamfil evlənməyə etiraz etməyəydi. O zaman yalnız Xremeti razı salmaq qalır və elə bilirəm ki, bunların hamısını düzəltmək olar. İndi sənin vəzifən odur ki, özünü elə göstərəsən guya toy məsələsi həll olunub. Davı qorxut və oğluma nəzarət yetir. Gör onlar bir yerdə nə kimi planlar hazırlayırlar.

S o s i. Hazıram.

S i m o n. İndi sən evə get, mən də sənin dalınca gəlirəm.

İKİNCİ SƏHNƏ

S i m o n, D a v

S i m o n. Buna heç şübhə yoxdur ki, oğlum evlənmək istəmir. Dav, o toy haqqında eşidərkən mən onun necə qorxduğunu özüm gördüm. Hə, budur, özü də gəlir!

D a v. Hə, bu iş belə qurtarsa, doğrudan da möcüzə olar. Mən çox qorxurdum ki, ağaların itaətkarlığı nə ilə qurtaracaqdır. Qızı ona verəcəklərini bilincə, bu haqda nə bizə bir söz dedi, nə də əsəbiləşdi.

S i m o n. İndi mən deyirəm ki, bu iş sənə ucuz başa gəlməyəcək.

D a v. İstərdim ki, bu yalançı sevincə uyub, qorxunun keçdiyini ümid edək. Birdən-birə qorxu üstümüzü alınca düşünməyə də vaxtımız olmasın. Bu daha maraqlıdır.

S i m o n. Nə danışırsan, yaramaz?

D a v. Ağa, mən görmədim!

S i m o n. Dav!

D a v. Buna bax!

S i m o n. Bura gəl!

D a v. O məndən nə istəyir?

S i m o n. Nə olub sənə?

D a v. Nə barədə sən...

S i m o n. Mən? Söz çıxıb ki, guya mənim oğlum aşiq olub, vurulub.

D a v. Eh, bu sözgəzdirənlər olmasa idi...

S i m o n. Sən eşidirsən, ya yox?

D a v. Əlbəttə ki, eşidirəm.

S i m o n. İndi bu saat bunu araşdırmaq, heç də mənim yaxşı ata olduğumu sübut etməz. Onun keçmişdə elədiklərinin mənə heç bir dəxli yoxdur. Yaşın tələbidir, başa düşürəm. Mən də ona əylənmək imkanı verdim, lakin indi vəziyyət başqadır. Həyat, əxlaq başqa şey tələb edir. Elə buna görə də Dav, səndən tələb edirəm, xahiş edirəm, əgər mümkündürsə, onu yenidən düz yola qaytar. Axı iş burasındadır ki, Pamfil kimi bütün sevənləri evləndirmək çox çətindir.

D a v. Hə, mən də eşitmişəm ki, çətindir.

S i m o n. Kim bu işdə özünə namussuz mürəbbi qəbul edərsə, o, öz xəstə ruhunu ağılsızlığa qədər aparıb çıxaracaqdır.

D a v. Mən ki, heç bir şey başa düşmürəm.

S i m o n. Hmm... Başa düşmürsən?

D a v. Yox, başa düşmürəm, axı mən Davam, Edip[1] ki deyiləm.

S i m o n. İstəyirsənmi hamısını sənə açıq, aydın başa salım?

D a v. Əlbəttə.

S i m o n. Əgər bilsəm ki. sən aranı bulandırıb bu toyu pozaraq özünü hiyləgər göstərmək istəyirsən, onda vay sənin halına. Dav, səni ölənə qədər dəyirmana verərəm və ömrü boyu orada qalmağa məcbur edərəm. Əgər səni azad etsəm, o zaman mən özüm sənin yerinə taxıl döyməli olaram. Başa düşdünmü, yoxsa hələ qanmırsan?

D a v. Tamamilə başa düşdüm. Sən indi müqəddiməsiz dediyin üçün lap aydın oldu.

S i m o n. Nə istəyirsən de, amma bu barədə mənə kələk gələ bilməzsən.

D a v. Yalvarıram, bir az xırdala.

S i m o n. Sən hələ bir gülürsən də? Yox, sən məni aldada bilməzsən. Bax, mənim sənə əmrim belədir: özünü ağıllı apar və ehtiyatlı ol. Heç ağlına da gətirmə ki, sonra deyəsən guya mən səni xəbərdar etməmişəm, tapşırmamışam (*Gedir*).

ÜÇÜNCÜ SƏHNƏ

D a v. Həə, Dav artıq arxayınlığa və tənbəlliyə yer yoxdur. Mən indi başa düşdüm ki, qoca toy etməyi qərara alıb, mən bir balaca geciksəm, ya özüm, ya da atam məhv olacaq, hansını seçim? Pamfiləmi kömək edim? Qocayamı qulaq asım? Kömək etməsəm qorxuram onun həyatı təhlükədə qalsın. Kömək etsəm də qocanın hədəsindən qorxuram. qocanı aldatmaq çətindir. O, oğlunun aşiq olduğunu bilir. Onsuz da ağa məndən narazıdır və məni izləyir ki, bu toyda bir kələk düzəldib aranı qatmayım. Bilsə – onda mən məhv oldum, əgər istəsə səbəbdə tapar. O zaman mənim düz olub-olmadığıma baxmayaraq, birbaş dəyirmana göndərər. Bəlanın böyüyü burasındadır ki, həmin androslu qız Pamfilin ya arvadıdır ya da sevgilisidir bilmirəm, ancaq hamilədir. Bax, buna mən cəsarət deyirəm. Sən hələ bunlara qulaq as. Özündən çıxmış sevgililərə kömək etmək olmaz. Onlar öz uşaqlarını böyütməyi qərara alıblar. Gör necə uydurma bir nağıl quraşdırıblar: guya

[1] "Tiran Edip" əsərinin qəhrəmanı Edip ağıllı verilmişdir.

bu androslu qadın afinalıdır. Burada kim bilir nə vaxt qoca bir tacir yaşayırmış, Andros adası yanında onun gəmisi batmış, özü ölmüş, yetim qalmış bu balaca qızı da dalğalar sahilə atmış. Xrisidanın atası onu qızlığa götürmüşdür. Gör bir nağıla bax ha... məncə bu heç olan iş deyil, amma bu uydurma onların zövqünə uyğun gəlmişdir. Odur bax, Misida onun evindən gəlir. Mən gedim meydana Pamfili axtarmağa, yoxsa atası gəlib onu iş üstündə tutar.

DÖRDÜNCÜ SƏHNƏ

M i s i d a. Eşitmişəm, lap çoxdan eşitmişəm. Sən Lesbiyanı çağırmağı əmr edirsən. Axı o, nadürüst, sərxoş bir arvaddır. Birinci uşağı ona inanmaz – bu heç mümkün olan iş deyil. Hər halda bəs necə olsun? Baxırsan ki, bu qarı heç vaxt içməyindən geri qalmır. Ey göylərin allahları, Siz ona rahat doğmağa imkan verin, qoy mamaça qarı başqalarında səhv etsin. Budur Pamfil. Görəsən ona nə olub? Elə qorxuram ki? Heç özündə deyil. Görəsən o yeni bir bədbəxtlik gətirmir ki?

BEŞİNCİ SƏHNƏ

P a m f i l, M i s i d a

P a m f i l. Heç bu insanlığa yaraşırmı? Doğrudanmı, atanın borcu bundan ibarətdir?

M i s i d a. Görəsən ona nə olub?

P a m f i l. Ey allahlar, bu təhqir deyil, bəs nədir. Bu gün atam məni evləndirir, guya mənə bunu bir az əvvəl demək olmazdı? Yəni, bunu mənə deməyə ehtiyacı olmayıb?

M i s i d a. Müsibət! Gör mən nələr eşidirəm?

P a m f i l. Bəs, Xremet necə adamdır? Əvvəlcə qızı verməyə razı deyildi. İndi isə mənim tərəddüd etdiyimi görüb fikrini dəyişmişdir. Gör necə də inadla məni Qlikeriyadan ayırmağa çalışır! Əgər buna müvəffəq olsalar, onda mən məhv oldum! Görəsən mənim kimi başı bəlalı, bəxtsiz insan varmı? Allahlara və insanlara and içirəm! – Xremetlə qohumluqdan qaçmağa məndə güc varmı? Onda mən bir səfil kimi rədd edildim. Bununla da iş qurtardı. Birdən bu səfili yenidən tələb edərlər? Axı o nəyə lazımdır. Mən belə zənn edirəm ki, eybəcərin, ifritənin birini doğub tərbiyə ediblər, indi verməyə adam tapmırlar, buna görə də mənə müraciət edirlər.

M i s i d a. Of, mən nə bədbəxtəm, bu sözlərdən elə qorxuram ki, az qalıram ölüm.

P a m f i l. Bəs atam haqqında nə deyə bilərəm? Belə mühüm bir işi bu cür yüngül görməkmi olar?

Atüstü mənə deyir ki: "Bu gün sənin toyundur, get hazırlaş". Elə bil bununla mənə: "Get dar ağacından özünü as" – deyir. Mən lap yerimdə dondum. Dilim bir kəlmə də söz tutmadı. Heç olmasa yalandan da olsa bu barədə boş, əhəmiyyətsiz bir bəhanə gətirəydim. Yox, mən lap lal olmuşdum. Əgər biri soruşsa ki: "sən əvvəlcə bunun belə olacağını bilsəydin nə edərdin?" Bunun belə olmaması üçün nə desən edərdim. Bəs axı mən indi nə edim? Kədər ürəyimi dəlir, parça-parça edir. Ona qarşı olan sevgi və mərhəmət, bu toyun yaratdığı həyəcanlar, ata qarşısında xəcalətli olmaq – bütün bunlar bu vaxta qədər istədiyimi etməyə mənə mane olmayan atama qarşı çıxmağa qoymur. Ona qarşı necə çıxım? Necə eləyim? Bilmirəm.

M i s i d a. Heç başa düşmürəm ki, bu "bilmirəmlər" nə ilə qurtaracaq? İndi gərək o xanımla söhbət etsin. Yoxsa mən özüm danışım. Ruh həyəcanlı olarkən hər boş şey üçün çırpınır.

P a m f i l. Bu danışan kimdir? Salam sənə, Misida.

M i s i d a. Salam sənə, Pamfil.

P a m f i l. Həə, o necədir?

M i s i d a. Niyə soruşursan ki, onsuz da o ağrıdan əzab çəkir, həm də bugünkü toyun dərdi onu daha da kədərləndirir. O çox qorxur ki, sən onu atıb gedəsən.

P a m f i l. Hmm... Mən bunu eləyə bilərəmmi? Yox, mən onu özümə görə rüsvay olmağa qoymaram. O, mənə inandığı üçün ürəyini və həyatını mənə verdi. Mən onu sevimli arvadım kimi qiymətləndirirəm. O, çox düz və həqiqi üsullarla tərbiyə olunmuşdur. Mən heç razı olarammı ki, o kasıblıq üzündən əxlaqını və tərbiyəsini dəyişsin. Yox, yox!

M i s i d a. Əgər bu iş səndən asılı olsaydı buna qorxu ola bilməzdi. Axı sən bu zor işlə bacara bilərsənmi? Bax, məsələ buradadır.

P a m f i l. Doğrudanmı mən belə qorxaq, insafsız, vəhşi və nadanam? Doğrudanmı nə sevgi, nə adət, nə də xəcalət hissi məndə sədaqətli olmağa kömək etməyəcəkdir?

M i s i d a. Mən onu bilirəm ki, o qız həmişəlik sənin yadında qalmaq imkanı qazanmışdır.

P a m f i l. Misida! Mənim yadımda qalmaqmı deyirsən. Xrisidanın Qlikeriya haqqında dediyi sözlər indiyə qədər beynimdə nəqş olunub

qalmışdır. O, ölənə yaxın məni yanına çağırmışdı. Getdim, sizin hamınızı o biri evə yola saldı. Biz ikimiz qaldıq. O, "Pamfil – dedi – onun gəncliyini, gözəlliyini görürsənmi? Bu sənə heç də gizlin deyil ki, gözəllik və gənclik onun namusu, həyası və xoşbəxtliyi üçün təhlükə törədir. Mən səndən rica edir, yalvarıram ki, sən o tək qızı atma. Sən o qızı tək buraxma. Mən səni qardaşım kimi sevirdim. O, isə həmişə səni başqalarından daha çox qiymətləndirir və sənə hər işdə itaət edirdi. Belə isə sən onun əri, müdafiəçisi, atası və dostu ol. Mən bütün əmlakımızı sənə tapşırıram". Bizim əllərimizi birləşdirdi və o anda da can verdi, öldü. Mən qəbul etdim və qəbul etdiyim qərarı da axıra qədər qoruyacağam.

M i s i d a. Güman edirəm ki, belə olacaq.

P a m f i l. Bəs sən onun yanından niyə gedirsən ki?

M i s i d a. Mamaça qarını çağırmağa.

P a m f i l. Onda tələs. Həə, toy haqqında ona bir kəlmə də... eşidirsənmi?

M i s i d a. Eşidirəm.

İKİNCİ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

X a r i n, B i r r i y a, P a m f i l

X a r i n. Doğrudanmı onu bu gün Pamfilə ərə verirlər?

B i r r i y a. Bəli.

X a r i n. Haradan bildin?

B i r r i y a. Forumda Davdan eşitdim.

X a r i n. Fəlakət! Bədbəxtlik! Bu vaxta qədər mənim ruhum qorxu və ümid arasında qaldığı üçün qayğılar onu qüvvədən saldı və arzularım əlimdən çıxdı.

B i r r i y a. Mümkün olmayan şeyi arzulamaqdansa, mümkün olan şeyi arzula.

X a r i n. Mənə Filumenadan başqa heç kəs lazım deyil.

B i r r i y a. Ehtirası ürəyindən çıxarmağı bacarsaydın, onu sözlə alovlandırmaqdan daha yaxşı olardı.

X a r i n. Sağlam adamlar xəstələrə çox asanlıqla məsləhətlər verirlər. Ancaq mənim yerimdə olsaydın tamamilə başqa cür düşünərdin.

B i r r i y a. Qoy olsun, özün bil, necə istəyirsən elə də et.

X a r i n. Hə, budur Pamfil də gəlir. Mən ölməmişdən əvvəl hər şeyi sınaqdan keçirməliyəm.

B i r r i y a. O nə fikirləşir?

X a r i n. Mən elə bu dəqiqə ona hər şeyi, məhəbbətimi danışıb xahiş edəcəm, yalvaracağam. Fikirləşirəm ki, bununla toyu heç olmasa bir neçə günlüyə təxirə saldırım. Güman edirəm ki, bir şey çıxar.

B i r r i y a. Heç bir şey çıxmaz.

X a r i n. Hə, sən necə zənn edirsən, mən ona yaxınlaşımmı?

B i r r i y a. Niyə də yaxınlaşmayasan, heç bir şey çıxmasa da qoy başa düşsün ki, onun aldığı qızın sənin kimi sevgilisi var.

X a r i n. Rədd ol başımdan, şübhəli həyasız!

P a m f i l. Xarin, salam!

X a r i n. Salamat ol, Pamfil. Mən elə indicə sənin yanına gəlirdim. Mənə kömək əlini uzat. Nicat ver, müdafiə elə.

P a m f i l. Mənim ehtiyatda nə məsləhətim, nə köməyim var. De görüm nə olub.

X a r i n. Sən bu gün evlənirsən?

P a m f i l. Hə, belə deyirlər.

X a r i n. Əgər belədirsə. Onda bu gün səninlə bizim axırıncı görüşümüzdür.

P a m f i l. Nə?

X a r i n. Of, mən deməyə qorxuram, Birriya, lütfən, sən de.

B i r r i y a. Mən deyərəm.

P a m f i l. Nə olub, axı?

B i r r i y a. O sənin aldığın qızı sevir.

P a m f i l. Belə, bizim zövqlərimiz müxtəlifdir. Xarin, onu mənə de görüm, sizin aranızda ciddi bir şey olmayıb ki?

X a r i n. Əlbəttə yox!

P a m f i l. Mən istərdim ki, olsun.

X a r i n. Mən indi sənə dostluq naminə yalvarıram ki, birincisi, evlənməyəsən.

P a m f i l. Çalışaram!

X a r i n. Yox əgər bu mümkün deyilsə və bu sənin ürəyindəndirsə...

P a m f i l. Ürəyimdəndir?

X a r i n. Onda heç olmasa təxirə sal ki, mən buradan çıxım gedim, görməyim.

P a m f i l. Bir qulaq as, mən elə zənn edirəm ki, layiq olmadığım bu nifrəti üstümə götürsəydim nəcib adam olmazdım. Mən bu evlənməyə sənin onu sevdiyindən daha çox nifrət edirəm.

X a r i n. Sən mənə həyatımı yenidən qaytardın!

P a m f i l. İndi sən ya da Birriya, fikirləşin, çalışın ki, nə təhər olur-olsun sən evlənəsən. Mən də evlənmək üçün necə lazımdırsa elə də ölçü götürərəm.

X a r i n. Çox gözəl!

P a m f i l. Yeri gəlmişkən deyim ki, mən Davı nəzərdə tuturam və onun məsləhətinə inana bilərəm.

X a r i n (*Birriya*). Sən ki, özgələrinin bilmədiyi fikri mənə başqa bir yolla deməyəcəksən, gedəcəksənmi?

B i r r i y a. Böyük məmnuniyyətlə.

İKİNCİ SƏHNƏ

D a v, X a r i n, P a m f i l a

D a v. Mən şad xəbər aparıram! Ey xoşbəxt allahlar! Pamfili haradan tapım ki, onun qorxusunu dağıdıb, ürəyini sevinclə doldurum.

X a r i n. O nəyə isə sevinir!

P a m f i l. Nahaq yerə. O, hələ mənim bədbəxtliyimi eşitməyib.

D a v. Əgər toy haqqında eşidibsə, onda yəqin bu saat...

X a r i n. Eşidirsən?

D a v. O, yəqin özünü itirib bütün şəhərdə məni axtarır. Axı onu haradan tapım və hansı tərəfə gedim!

D a v. Haa, bilirəm.

P a m f i l. Dav, dayan!

D a v. Kimdir məni?! Oho! Pamfil! Elə mən səni axtarıram. Ey! Xarin də onunladır. Necə yerinə düşdü, siz ikiniz də mənə lazımsınız.

P a m f i l. Mənim işim bitdi, Dav.

D a v. Hələ bir qulaq as...

P a m f i l. Mən öldüm...

D a v. Mən bu qorxunun səbəbini bilirəm.

X a r i n. Elə mənim də həyatım təhlükə altındadır.

D a v. Həə. O barədə bilirəm.

P a m f i l. Toy...

D a v. Guya mən bilmirəm.

P a m f i l. Bu gün?

D a v. Zəhləmi tökdün, xəbərin var. Sən ondan, ya öz toyundan qorxursan?

X a r i n. Elə belədir ki, var.

P a m f i l. Bu doğrudur.

D a v. Həqiqət budur ki, heç bir təhlükə yoxdur. İnan mənə.

P a m f i l. Ah, yalvarıram sənə, məni bu qorxudan qurtar.

D a v. Bu saat qurtararam. Xremet qızını sənə vermir.

P a m f i l. Haradan bilirsən?

D a v. Mən bilirəm. Bir az bundan əvvəl sənin atan məni burada tutub dedi ki, səni bu gün evləndirir. Bu haqda deyiləsi söz çoxdur, ancaq bu saat yeri deyil. Tez səni axtarmağa başladım ki, eşitdiklərimi danışım. Foruma getdim, orada səni tapmadım. Yuxarı çıxdım baxdım, orada da yoxsan. Təsadüfən orada Birriyanı, Xremetin qulunu gördüm. Onun arxasınca getdim. O isə məni görmədi, hirsləndim, bəs nə təhər eyləyim? Geri döndüm və beynimə şübhələr dolmağa başladı. Hm... azuqə az, kefim yox, toy da bir tərəfdən. İş-işə oxşamır.

P a m f i l. Sən axı nə barədə?

D a v. O saatda mən Xremetin yanına getdim. Qapıda heç kəsin olmadığına sevindim.

X a r i n. Çox gözəl.

P a m f i l. Sonra?

D a v. Qalxıb baxıram ki, oraya nə bir girən, nə də çıxan var. Evdə heç arvad da yoxdur. Nə bərbəzək, nə də səs-küy var. Mən yaxınlaşıb içəri baxdım...

P a m f i l. Aydındır, bu mühüm əlamətdir.

D a v. Heç bunlar toya oxşayırmı?

P a m f i l. Yox, inanmıram.

D a v. Nə fikirləşirsən, yoxsa anlamırsan ki, iş pozulub. Evdən geri qayıdanda Xremetin qulunu gördüm. O qocaya nahar üçün bir neçə kötüklü tərəvəz və xırda balıqlar aparırdı.

X a r i n. Sənin fədakarlığın məni xilas etdi.

D a v. Heç də yox.

X a r i n. Necə yəni. O, qızı ona vermir ki.

D a v. Sən nə qədər gülməlisən. Qızı ona vermirsə, demək sənə verəcək, get Xremetin dostlarını tap, onlardan soruş.

X a r i n. Ümid bəsləyib dəfələrlə aldansam da gedərəm, ağıllı sözdür, di xudahafiz (*Gedir*).

ÜÇÜNCÜ SƏHNƏ

D a v, P a m f i l

P a m f i l. Bəs atam nə istəyir, niyə özünü aldadır?

D a v. Qulaq as, məsələ belədir. Əgər o sənin toya nə cür münasibət bəslədiyini bilməsə, yəqin ki, hirslənəcək idi. Xremetin qızını verməməsi onsuz da insafdan kənardır. Əgər sən evlənməkdən boyun qaçırsan, bütün acığını sənin üstünə tökəcək, böyük hay-küy qoparacaq.

P a m f i l. Nəyə istəyirsən, dözərəm.

D a v. Asan deyil, o atadır. O da ki, tək bir qadındır. Tezcə bir bəhanə tapıb, onu Afinadan rədd edəcəkdir.

P a m f i l. Atacaq?

D a v. Həm də, lap tez.

P a m f i l. Bəs onda mən nə etməliyəm?

D a v. De ki, razıyam.

P a m f i l. Hm...

D a v. Bəs nə təhər olsun?

P a m f i l. Necə, mən deyim ki...

D a v. Bəs niyə deməyəsən?

P a m f i l. Mən elə edə bilmərəm...

D a v. Mübahisə etmə.

P a m f i l. Məni inandıra bilməzsən.

D a v. Bax, hər halda bir şey çıxar.

P a m f i l. Ondan ayırıb, buraya qatacaqlar (*Xremetin evini göstərir*).

D a v. Heç də yox. Əlbəttə, sənin atan belə deyəcəkdir ki, "bu gün evlən" sən də cavab verərsən ki, "mən hazıram". O zaman o, səni nədə təqsirləndirə bilər? Sən heç qorxmadan onun düzgün saydığı planları pozacaqsan. Axı, şübhə yoxdur ki, Xremet qızını sənə verməyəcək. Sən bacardığını elə ki, Xremet öz qərarını pozmasın. Atana "istəyirəm" de ki, qoy o, istəsə də sənin üstünə hirslənməsin. Yoxsa sən zənn etsən ki, "gəlini öz hərəkətlərimlə iyrəndirərəm, bundan sonra heç kəs mənə qız verməz". O zaman atan sənlə mübahisə etməkdənsə, tez bir kasıb qızı tapar. Əgər sən onu başa salsan ki, sən işə çox sakitcə yanaşırsan özünü onun diqqətindən yayındıracaqsan. O da heç bir qayğı göstərməyib başqa işlərlə məşğul olacaq. Beləliklə, əminəm ki, o vaxta qədər də işlər düzələr.

P a m f i l. Sən belə fikirləşirsən?

D a v. Buna heç şübhə ola bilməz.

P a m f i l. Bir bax gör sən məni haraya aparırsan?

D a v. Sən sakit ol.

P a m f i l. Yaxşı deyərəm, ancaq o uşaq haqqında heç bir şey duymasın. Mən sevgilimə söz vermişəm ki, uşağın məndən olduğunu etiraf edim.

D a v. Cəsarətə bax.

P a m f i l. Qlikeriya bu işə onu tərk etməyəcəyimə bir zəmanət kimi baxır.

D a v. Qoy olsun. Budur, atan gəlir, çalış ki, o səni kədərli görməsin.

DÖRDÜNCÜ SƏHNƏ

S i m o n, D a v, P a m f i l

S i m o n. Baxım görüm, nə eyləyirlər, nə plan hazırlayırlar.

D a v (*Pamfilə*). O sənin etiraz edəcəyinə şübhə etmir. İndi o təklikdə hazırlaşıb və ümid edir ki, hazırladığı sözlərlə qalmaqal düzəltsin. Bax başını itirmə ha.

P a m f i l. Mən bunu nə vaxt edə bilərdim, Dav.

D a v. İnan mənə, Pamfil, sənə deyirəm ki, razılıq verəndən sonra atan sənlə bir kəlmə də sözləşməyəcəkdir.

BEŞİNCİ SƏHNƏ

B i r r i y a, S i m o n, D a v, P a m f i l

B i r r i y a. Ağam buyurub ki, mən Pamfilə göz qoyum, mən də onun toy haqqında nə qərara gəldiyini bilmək üçün bütün işlərimi buraxdım. Buna görə də onun arxasınca gəzirəm. Budur, o, Davla bir yerdədir. Onlara yaxınlaşım.

S i m o n. Həə, görürəm ki, ikiniz də buradasınız.

D a v. Hm... bax ha!

S i m o n. Pamfil!

D a v. Onunla elə danış ki, guya təsadüfən rast gəlmisən.

P a m f i l. A! Sənsən, ata!

D a v. Çox gözəl!

S i m o n. Sənə dediyim kimi, istəyirəm bu gün evlənəsən.

B i r r i y a. Görəsən bizim işimiz necə olacaq, qorxuram. O, nə cavab verəcək!

P a m f i l. Mənim tərəfimdən buna heç bir etiraz ola bilməz, qətiyyən.

B i r r i y a. Sən bir bax ha!..

D a v. Dilini dişlədi.

B i r r i y a. O nə dedi?

S i m o n. Bu belə də olmalı idi. İndi mən tələb etdiyim cavabı özüm alıram.

D a v. Mən haqlı deyiləmmi?

B i r r i y a. Eşitdiklərimdən belə başa düşürəm ki, ağamızın toy işi qurtarmışdır.

S i m o n. Evə get. Lazım olan şeyləri hazır elə!

P a m f i l. Gedirəm.

B i r r i y a. Doğrudanmı heç kəsə inanmaq olmazmış. Xalq məsəli gör necə doğru imiş. Hər kəs özünü iki inəkli istər. Mən onu görmüşdüm, yadımdadır, gözəl qızdı. Pamfilin haqqı var. Gecələr qucaqlamaq istəyir. Başqalarına vermək xəyalında deyil. Gedim deyim, qoy o, mənə daha çox nifrət etsin.

ALTINCI SƏHNƏ

D a v, S i m o n

D a v. O, indi anladı ki, mən onu aldatmaq istəyirəm və ona görə də burada qaldı.

S i m o n. Buna Dav nə deyir?

D a v. Heç bir şey.

S i m o n. Çox qəribə, necə heç bir şey?

D a v. Sadəcə olaraq, heç bir şey?

S i m o n. Mən gözləyirdim ki, sən də bir şey deyəcəksən.

D a v (*öz-özünə*). Hesabı düz çıxmadı, bu onu əsəbiləşdirir.

S i m o n. Mənə düzünü deyə bilərsənmi?

D a v. Bu asan işdir.

S i m o n. Hər halda onun bir etirazı var, ya yox?

D a v. Ha! Sən bəlkə onun yadelli qız ilə olan dostluğu haqqında deyirsən. Bu hər halda iki-üç günlük qanıqaralıqdan başqa bir şey deyil. Nə eybi var. Özün bilərsən keçib gedər. O, özü vəziyyəti tamamilə fikirləşib.

S i m o n. Əhsən, əhsən.

D a v. Doğrudur. Yaşı ona imkan verincəyə qədər, o gizlində sevirdi və o öz sevincini başqalarından gizləyirdi, çünki bütün təmiz qəlbli, nəcib adamlar belə hərəkət edərlər. İndi də ona qanuni arvad lazımdır. Odur ki, o evlənmək istəyir.

S i m o n. O mənə bir qədər qəmli göründü.

D a v. Bunun səbəbi heç də o deyil, o, ancaq sənin əlindən hirslidir.

S i m o n. Niyə?

D a v. Mənasız şeydir.

S i m o n. Axı nə olub ki?

D a v. Mənasızdır.

S i m o n. Bir danış da.

D a v. Deyir ki, sən pul xərcləmək istəmirsən, xəsissən.

S i m o n. Kim? Mən?

D a v. Bəli, sən. Təxminən, on dirhəmlik yemək şeyləri almısan. Bu heç oğul toyuna oxşayırmı, öz yaşıdlarından kimi bu qonaqlığa dəvət edə bilər. Doğrusunu demək lazımdır ki, sən həddindən artıq xəsissən. Tərifləyə bilmərəm.

S i m o n. Sus, danışma!

D a v. Nə, toxundum deyəsən (*Gedir*).

S i m o n. Hər şeyi necə lazımdırsa, təşkil edərəm. Burada nə iş var ki? Bu çoxbilmişin məqsədi nədir? Əgər burada bir hiylə varsa, şübhəsiz, başçısı onun özüdür.

ÜÇÜNCÜ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

M i s i d a, L e s b i y a, S i m o n, D a v, Q l i k e r i y a
səhnə arxasında

M i s i d a. Görürsənmi bizim işlərimiz necədir, Lesbiya! İndi qadınlara sadiq bir kişi tapmaq olarmı?

S i m o n. Androslu qızın qulluqçusudur.

D a v. Doğrudanmı?

S i m o n. Özüdür.

M i s i d a. Bizim Pamfil isə...

S i m o n. O nə deyir elə?

M i s i d a. Öz sözünə sadiq qaldı...

S i m o n. Gör ha!

D a v. Ax, onu kar olsun, ya da elə yerindəcə lal olsun!

M i s i d a. O, uşağı qəbul edəcək!

S i m o n. Yupiter! Oh, nələr eşidirəm? Əgər bu doğrudursa, hər şey bitib!

L e s b i y a. Hə. O, yaxşı cavandır.

M i s i d a. Həddindən artıq. Gecikmədən Qlikeriyanın yanına gedək.

L e s b i y a. Mən də sənin dalınca.

Gedirlər.

D a v. Bəs indi işi necə düzəldəcəyəm?

S i m o n. Bu nə deməkdir? Ağılsıza bax! Hamısını bildim. Güclə öyrəndim, yaramaz!

D a v (*öz-özünə*). Nə öyrəndin?

S i m o n. Bax, bu birinci hiylə! Yalançı şeylərlə Xremeti qorxutmaq fikrindədirlər!

Q l i k e r i y a (*səhnə arxasından*). Yunona[1], mənə kömək et!

S i m o n. Belə tez? Bu lap qəribədir! Elə ki, eşitdi mən qapıdayam, o saat tələsdi. Hə, Dav, bu oyunda vaxtı yaxşı hesablamamısan.

D a v. Mən?

S i m o n. Yoxsa aktyorların hafizəsi yoxdur?

D a v. Mən səni başa düşmürəm.

S i m o n. Demək sən bu gözlənilməz hadisə ilə bərabər əməlli başlı toy eləmək istəyirdin. Hə, sən bu oyunla məni lağa qoymaq istəyirmişsən. Daha keçmiş ola! O özü fəlakət içərisindədir, mən isə sahilə yaxınlaşıram.

İKİNCİ SƏHNƏ

L e s b i y a, S i m o n, D a v

L e s b i y a. Hələlik belə görürəm ki, hər şey öz qaydası ilə gedir. Ümumiyyətlə, yaxşı əlamətlər görünür. Əvvəlcə onu çimdirin, sonra dediyim içməli dərmandan göstərdiyim qədər ona verin, mən tezcə qayıdaram. Canımçün, Pamfilin oğlu lap qəşəng uşaqdır. Allahlara yalvarıram ki, onu sağ və salamat eləsin. Atası kimi xoşxasiyyət olsun. Mərhəmətli və gözəl Pamfil bu qızı heç incitməyib (*Gedir*).

[1] Yupiterin arvadı. Yunanlarda Zevsin arvadı Gera

S i m o n. Səni tanımayan belə o saat anlayar ki, bütün bu işləri sən düzəltmisən.

D a v. Necə, yəni?

S i m o n. Hə, orada düz üzümə demədi ki, xəstə qadına nə lazımdır; amma bir balaca bayıra çıxan kimi küçədən içəridəkilərə qışqırır. Sən mənə bu qədərmi nifrət edirdin, demək mən alçaqcasına aldanmağa münasib adamam; heç olmasa bir ağıllanaydın. Barı özünüzü elə göstərəydiniz ki, guya mənim bu xəbəri bilmədiyimdən qorxursunuz?

D a v (*öz-özünə*). Öz-özünü aldadır, indi artıq məsələ aydındır.

S i m o n. Axı, mən ki, sənə demişdim, səni xəbərdar etmişdim! Səndə heç bir qorxu yoxdur. İşdə sən nə öyrəndin, indi qızın doğması haqqında daha mən sənə inanarammı?

D a v (*öz-özünə*). İndi mən bildim ki, o nədə səhv edir və nə etmək lazımdır.

S i m o n. Hə, bəs niyə susursan?

D a v. Axı burada nəyə inanmaq olar? Əvvəlcədən sənə dürüst deyilməmişdi ki, belə olacaq?

S i m o n. Mənə kim deyib?

D a v. Elə sənin özün. Guya bu oyunu sən özün başa düşmədin?

S i m o n. Ələ salır!

D a v. Hər şey aydınca deyilmişdi. Axı bu şübhə səndə haradan əmələ gəldi?

S i m o n. Haradan? Mən səni yaxşı tanıyırdım.

D a v. Belə çıxır ki, guya bu mənim göstərişimlə olub.

S i m o n. Mən buna inanıram.

D a v. Sən hələ məni lazımınca tanımırsan.

S i m o n. Mən?

D a v. Mən ağzımı açan kimi, sən o saat fikirləşirsən ki, yalandır.

S i m o n. Nahaq yerə.

D a v. Görünür bundan sonra mən heç cınqırımı da çıxartmamalıyam.

S i m o n. Bircə onu bilirəm ki, burada heç bir uşaq, doğum məsələsi yoxdur.

D a v. Əlbəttə, yox! Ancaq, hər halda deyim ki, tezliklə qapının ağzına oğlan uşağı atacaqlar. Bəli, ağa, ona görə əvvəlcədən deyirəm ki, sonra deməyəsən guya bu Davın göstərişi ilə olmuşdur. Xahiş edirəm mənim haqımda belə bir rəydə olmayın.

S i m o n. Sən bunu haradan bilirsən?

D a v. Eşitmişəm və inanıram. Bu cür vəziyyətdə belə şey çox olar. O, özünün Pamfildən hamilə olduğunu göstərməyə çalışırdı, lakin bu yalan oldu. Sonra görərsən. Eşitdi ki, toya hazırlaşırlar, o saat qulluqçunu göndərdi ki, mamaça qarını yanına çağırsın. Həm də bir oğlan uşağı gətirsin. Uşaq ortalığa çıxmasa toy dağılmaz.

S i m o n. Bir gör ha. Bəs sən bunu bilə-bilə niyə Pamfilə açıb demədin?

D a v. Axı, kim məndən başqa onu o qızla ayırmağa çalışıb. Biz bilirdik ki, Pamfil qızı qızğın ehtirasla sevir. Ancaq indi o, qanuni yolla evlənmək istəyir. Sən o toyu başladığın kimi də təşkil elə və güman edirəm ki, allahlar bu işdə bizə kömək olar.

S i m o n. Evə get, lazımi şeyləri hazırlayıb məni gözlə.

Dav gedir.

O məni çox inandırmağa çalışdı, ancaq mən ona inana bilmərəm. Ola bilər ki, bunların hamısı doğru olsun. Hər halda boş və mənasızdır. Oğlumun vədi mənim üçün daha mühümdür. İndi Xremeti görmək lazımdır. Xahiş edəcəyəm ki, qızını oğluma versin. Əgər mən bunu edə bilsəm, onda bugünmü toy edim və ya təxirə salım. Əgər oğlum vədini yerinə yetirmək istəməsə, o zaman onu məcbur etməyə hüququm var. A-a, nə yerinə düşdü. Budur, Xremet də gəlir.

ÜÇÜNCÜ SƏHNƏ

S i m o n, X r e m e t

S i m o n. Salam!

X r e m e t. Elə mən də səni axtarıram.

S i m o n. Mən də səni. Lap yerinə düşdü.

X r e m e t. İndi mənə rast gələnlər səndən eşitdiklərinə görə deyirlər ki, guya sən mənim qızımı öz oğluna alırsan. Sənmi ya oğlunmu dəli olub?

S i m o n. İcazə ver, ikicə söz deyim. O zaman bilərsən ki, sənin arzun nədir və mən səndən nə istəyirəm.

X r e m e t. Hə, de, mən sənə qulaq asıram.

S i m o n. Xremet! Allahlara yalvarıram, bizim uşaqlıqdan başlayıb möhkəmlənən dostluğumuz naminə öz oğlumla bərabər, sənin tək bir qızına yalvarıram, sənin indi onu müdafiə etməyə xüsusi qüvvən var, mənə bu işdə kömək et ki, qoy bu toy qərarlaşdığınız kimi də olsun.

X r e m e t. Xahiş etmə. Sanki bu işdə məndən xahiş etməklə, bir şey əldə etmək olar! Sən elə bilirsən ki, mən qızımı sənin oğluna təklif edəndən sonra dəyişib başqa adam olmuşam. Əgər bu toyun hər ikisinə xeyri varsa, onda qız sənin gəlinin olsun. Yox, əgər hər ikisinə xeyirdən çox ziyanı varsa, onda hər ikimizin vəziyyətini düşün. Təsəvvür elə ki, qız sənindir, mən də Pamfilin atasıyam.

S i m o n. Bu düzdür, Xremet, mən də elə bunu düşünürəm. Mən heç sənin yanına xahişə gəlməzdim, bil ki, işin özü bunu tələb edir.

X r e m e t. Niyə?

S i m o n. Oğlumla Qlikeriya arasında ixtilaf başlamışdır.

X r e m e t. Belə. Sonra.

S i m o n. Güman edirəm ki, bu böyük işdir, onların tamamilə ayrılmasına gəlib çıxa bilər.

X r e m e t. Boş sözdür.

S i m o n. Yox, belədir ki, var.

X r e m e t. Bilirsənmi nə var? Sevgidə ixtilaf – sevginin təkrar doğması deməkdir.

S i m o n. Nə qədər vaxt var, nə qədər qorxu ehtirası yəhərləyib saxlamışdır onları xəbərdar edək. Nə qədər ki, əfsunlu göz yaşları onun ağrıyan ürəyində təəssüf əmələ gətirməmişdir, onu evləndirək. Bəli, Xremet, mən belə güman edirəm ki, bütün bunlar adətə uyğun pak, doğru kəbinlə bağlıdır. Mən elə bilirəm ki, o, bu uçurumdan asanlıqla çıxar.

X r e m e t. Sənə belə gəlir, ancaq mənə görə, o bu vəziyyətin içindən çıxa bilməz. Belə isə, arvadla bərabər daimi olaraq məşuqə saxlamaq olmaz. Mən buna heç dözə bilmərəm.

S i m o n. Haradan bilim? Mənim ki, başıma belə iş gəlməyib.

X r e m e t. Ancaq bilirsən ki, belə işi qızın da həyatında təcrübə etmək olmaz.

S i m o n. Bir az yaxşı olmasa da deyim ki, iş düz gətirməsə onlar bir-birindən ayrılarlar. Əgər oğlan doğru yola gəlsə, sən özün bir fikirləş gör onlar necə xoşbəxt olacaqlar. Əvvəla, sən dostunun oğlunu ağır vəziyyətdən qurtarmış olarsan, ikincisi, özünə inanılmış bir kürəkən və qızına ər taparsan.

X r e m e t. Əgər sən buna inanırsan və bundan bir xeyir gələrsə, onda sənin xeyir işinə mane olmaram.

S i m o n. Mən həmişə səni və sənin xidmətlərini yüksək dərəcədə qiymətləndirmişəm, Xremet.

X r e m e t. Həə...

S i m o n. Bəs nə?

X r e m e t. Sən onların arasındakı ixtilafı haradan bildin?

S i m o n. Bu işin yaxın iştirakçısı olan Dav özü dedi. O, məsləhət gördü ki, toyu başlamaq lazımdır. Sən necə fikirləşirsən, əgər Dav oğlumun buna razılıq verdiyini bilməsə, təkbaşına belə iş görərmi hə, bu saat elə özün də eşidərsən. Budur, o özü evdən gəlir.

DÖRDÜNCÜ SƏHNƏ

D a v, S i m o n, X r e m e t

D a v. Mən elə sənin yanına gəlirdim.

S i m o n. Nə lazımdır?

D a v. Axı axşam düşür, gəlin niyə bu vaxta qədər görünmür?

S i m o n. Eşidirsən? Dav, mən qorxuram. Elə bilirdim ki, sən adətən başqa qullar kimi hiylə qurub, məni aldadacaqsan ki, oğlum bir başqasını sevir.

D a v. Kim? Mən səni?

S i m o n. Mən belə fikirləşirdim. Elə buna görə də qorxub bəzi işləri gizlətmişdim – indi isə deyəcəyəm.

D a v. Nə olub ki?

S i m o n. İndi mən sənə təxminən inanıram.

D a v. Axır ki, sən məni tanıdın.

S i m o n. Toy işimiz yaxşı həll olunmamışdı...

D a v. Necə? Yaxşı həll olunmayıb?

S i m o n. Mən sizi yoxlamaq üçün özümü belə göstərirdim.

D a v. Doğrudan?

S i m o n. Bəli.

D a v. Gör ha! Mən heç ömrümdə bunu düşünə bilməzdim. Gör necə hiylə və ustalıqla hazırlanmış plandır!

S i m o n. Qulaq as, mən səni evə göndərən kimi o, burada qarşıma çıxdı.

D a v (*öz-özünə*). Oy-oy! Doğrudanmı, bizim axırımızdır?

S i m o n. Mən o saat hamısını ona danışdım.

D a v. Gör nə eşidirəm!

S i m o n. Güclə yalvardım ki, qızı versin.

D a v. Məhv olduq!

S i m o n. Sən nə dedin?

D a v. Deyirəm ki, çox gözəl iş görmüsən.

S i m o n. İndi o, etiraz eləmir.

X r e m e t. Yaxşı, mən evə getdim. Tapşırıram ki, hər şeyi hazırlasınlar, sonra is əsənə xəbər verərəm.

S i m o n. Mənim səndən belə bir xahişim var, Dav, bu işi təkbaşına düzəldən sənsən...

D a v. Bəli, təkcə.

S i m o n. Onda oğlumun üstünə göz qoy, onun əxlaqına fikir ver.

D a v. Bəli, bəli. Məmnuniyyətlə.

S i m o n. Yaxşı, bir de görüm, o özü indi haradadır.

D a v. Harada olacaq? Əlbəttə, evdə.

S i m o n. Gedirəm onun yanına, dediklərimi ona da deyim (*Gedir*).

D a v. Nəhayət, məhv oldum! İndi heç şübhə ola bilməz ki, mən düz yolla dəyirmana gedib çıxacağam. Duanın yeri deyil! Hamısını özüm dolaşdırmışam. Qocanı özüm qızışdırmışam. Gənc ağanı mən toya razı saldım. Onun arzulamadığı, gözlənilməyən toy, birdən mənim günahlarım üzündən bu günə təyin olunmuşdur. Qoca bizə kələk gəldi. Mən sakit olsaydım, bu bəla heç cürə baş vermədi. Həə, bu da özü, daha mən öldüm! Ayağımın altında dərin bir uçurum olaydı, özümü ora ataydım.

BEŞİNCİ SƏHNƏ

P a m f i l, D a v

P a m f i l. Hanı o satqın, alçaq?

D a v. İşim bitdi.

P a m f i l. Etiraf etməliyəm ki, mənim kimi axmaq tənbələ elə yerində olur. Mən niyə öz taleyimi avara bir qula tapşırmışam. İndi mən səfeh, buna cavab verəcəyəm. Hə, bu ona ucuz oturmayacaq.

D a v. Əgər bugünkü bəladan qurtarsam, daha mənə zaval yoxdur.

P a m f i l. İndi mən o qızın atasına nə cavab verəcəyəm. Güc-bəla ilə razılıq verib, necə boyun qaçırım, mən bu cəsarəti haradan alım. Bilmirəm ki, öz-özümə neyləyim?

D a v. Mən möhkəm fikirləşsəm də deyəcəyəm ki, bir şey tapmışam. Heç olmasa kötəkləməyi bir qədər təxirə salaram..

P a m f i l. Ey!

D a v. Gördü!

P a m f i l. Dostcığaz, görürsənmi sənin məsləhətin məni necə tora salıb.

D a v. Elə o toru quran mən özüməm.

P a m f i l. Tor qurursan?

D a v. Əlbəttə ki.

P a m f i l. Elə əvvəlki kimi?

D a v. Ondan da yaxşı...

P a m f i l. Of! Quldura inanmaq? Hər şey pozuldu, qarışdı! İşi düzəldə biləcəyinə inanmışdım, işlər sakit gedirdi. Bu gün məni yenə toya mıxladın. Məgər sənə deməmişdim ki, belə olacaq?

D a v. Demişdin.

P a m f i l. Onda bəs sən nəyə yararsan?

D a v. Dəhşətli cəzaya; ancaq imkan ver, bir balaca özümə gəlim. Bir şey fikirləşib, taparam.

P a m f i l. Müsibətə bax! İstədiyimə baxmayaraq, mənim sənlə məşğul olmağa vaxtım yoxdur! İndi səndən intiqam almaqdansa, özüm haqqında düşünməliyəm.

DÖRDÜNCÜ PƏRDƏ

BEŞİNCİ SƏHNƏ

X a r i n, P a m f i l, D a v

X a r i n. Bu heç mümkün olan şeydirmi? Bu heç ağla gələrmi? Əvvəldən belə kinli olmaq. Dostu dərd içərisindədir. O isə sevinir ki, onun dərdindən bir şey qazansın. Bu yaxşıdırmı? Belələrindən pisi yoxdur. O, sizin üzünüzə etiraz etməmək üçün, tez özündə ləkə tapar. Lakin vəd etdiyi şeyi yerinə yetirmək vaxtı çatanda, o, mütləq gərək üzündəki maskanı çıxarsın. Bu onun üçün qorxulu olsa da, o hər halda boyun qaçırıb utanmaz-utanmaz danışmağa başlayacaq: "sən kimsən və mənim nəyimsən", hansı əsasa görə özümünkünü sənə verim. Eh, sən! Özüm-özümə hamıdan çox yaxınam". Soruşanda ki, bəs bu mərdlikdirmi? Lazım olan yerdə utanmırlar. Orada ki, lazım deyil, utanırlar. Necə eləyim? Onun yanına gedib acığımı üstünəmi töküm? Söyüb biabır edimmi? Deməzlərmi ki, bundan sən nə qazanacaqsan? Necə olsa da deyib ürəyimi boşaldaram.

P a m f i l. Əgər Allahların bizə qəzəbi tutmasaydı, mən – Xarin səni də, özümü də ixtiyarsız olaraq öldürərdim.

X a r i n. İxtiyarsız olaraq? Beləmi? Axır ki, çarə tapdın? Ancaq yamanca sözünün üstündə dayandın!

P a m f i l. Necə yəni axır ki?

X a r i n. Sən hələ məni sözlərlə aldatmaqmı istəyirsən?

P a m f i l. Necə?

X a r i n. "Sevirəm" – deyən kimi ürəyinə yatdı? Bədbəxtlikdən aldanıb sənin ürəyini öz ürəyim kimi qiymətləndirmişəm.

P a m f i l. Sən səhv etmisən.

X a r i n. Məgər bu sevinc az idimi ki, sən yalançı ümidlə sevgilimi aldadaraq, öz tərəfinə çəkməyə başladın. Elə isə, qoy sənin olsun.

P a m f i l. Mənim olsun? Sən bilirsən ki, mənim üstümə nə qədər dərd tökülüb, bu xəbis adam məni necə pis işlərə sövq edir?

X a r i n. Niyə təəccüb eləyirsən, görünür o səndən dərs alıb.

P a m f i l. Sən əgər məni tanısaydın, mənim sevgimi bilsəydin, belə deməzdin!

X a r i n. Hə, mən bilirəm. Sən bu saat öz atanla vuruşub, dalaşmısan. Buna görə o sənin əlindən qəzəblidir və səni bu gün heç cürə evlənməyə məcbur edə bilmir.

P a m f i l. Heç də yox, bədbəxtliyimin hamısını sən həll edə bilmirsən. Kimsə mənim toyuma hazırlanmırdı və heç kəs də onu mənə verməyə razı deyildi.

X a r i n. Mən onu bilirəm ki, sən özün razılıq vermisən.

P a m f i l. Dayan, sən tamamilə xəbərsizsən.

X a r i n. Mən ancaq bunu bilirəm ki, sən qızı alırsan.

P a m f i l. Sən lap ürəksıxansan ha! Bir qulaq as. O, gah məcbur edirdi ki, "Atana de ki, evlənirsən", məsləhət görür, xahiş edir axır ki, dediyini yerinə yetirirdi.

X a r i n. O, kimdir axı?

P a m f i l. Dav!

X a r i n. Niyə?

P a m f i l. Bilmirəm. Ona qulaq asmaqla mən allahlarımı qəzəbləndirmişəm.

X a r i n. Dav, beləmi olub?

D a v. Belə olub.

X a r i n. Ax, alçaq, qoy buna görə allahlar sənə qənim olsunlar. Özün bir fikirləş: əgər o, bütün düşmənləri kəbinlə tora salmaq istəsəydi, o zaman onlar bunun haqqında nə kimi məsləhət verə bilərdilər?

D a v. Səhv etmişəm, ancaq hələ uduzmamışam.

P a m f i l. Yox, bir hələ də.

D a v. Bu yol ilə bir şey çıxmadısa, başqa yol təyin edək. Ancaq bircə şərtlə. Əgər sən fikirləşirsən ki, əvvəldən biz müvəffəq olmamışıqsa, demək müsibəti azadlığa çevirmək olmaz!

P a m f i l. Yox, mən inanıram ki, əgər çalışsan, bir toydan mənə iki toy düzəldərsən.

D a v. Pamfil! Sənin qulun kimi mənim borcum odur ki, sənin xeyrinə əllərim, ayaqlarımla gecə-gündüz həmişə çalışım, səni təhlükədən qoruyum. Sənin də borcun odur ki, işdən arzu olunan nəticə çıxmayanda məni bağışlayasan. İşlərimdə müvəffəqiyyət olmamışmı? Buna baxmayaraq, hər halda mən vicdanla çalışıram. Özün həll et, hansı yaxşıdır, ancaq məni rahat burax.

P a m f il. Qoy olsun! Onda əvvəlki vəziyyətimi təzədən geri qaytar.

D a v. Qaytararam.

P a m f i l. Tezmi qaytaracaqsan.

D a v. Dayan! Qonşunun qapısı səsləndi.

P a m f i l. Sənin nəyinə lazımdır?

D a v. Axtarıram.

P a m f i l. Hələ indi axtarırsan?

D a v. Tapan kimi, verərəm.

İKİNCİ SƏHNƏ

M e s i d a, P a m f i l, X a r i n, D a v

M i s i d a (*Qlikeriyanın evinə müraciətlə deyir*). Harada olsa taparam. Bu saat Pamfili sənin yanına gətirirəm.

P a m f i l. Misida!

M i s i d a. Bu kimdir? Pamfil! Sən vaxtında gəlmisən...

P a m f i l. Nə olub?

M i s i d a. Xahiş etdi ki, əgər sevirsənsə, onun yanına gedəsən, səni görmək istəyir.

P a m f i l. Ah, məhv oldum. Yenidən əzab, sənin üzündən bizi nə böyük müsibət gözləyir. Ona görə də məni çağırır, yəqin ki, toy haqqında eşidib.

X a r i n. Sən sakit ol Dav, siz də sakit ola bilərsiniz.

D a v. Sən də onu əsəbiləşdirirsən. O, ağlını itirir, hələ bu da azdır.

M i s i d a. Əlbəttə ki, yazıq ondan ötrü çox kədərlənir.

P a m f i l. Əgər yer üzünün bütün insanları mənə düşmən də olsa, Allaha and olsun ki, mən onu aldatmaram. Mən axtardım, istədim, məqsədimə çatım, bizim xasiyyətlərimiz də uyğun gəlir. Bizim aramıza ixtilaf salmaq istəyənlər rədd olsunlar. Ancaq ölüm onu məndən ayırar.

X a r i n. Mən yaşamağa başlayıram, Allah!

P a m f i l. Mənim cavabım, Apollonun cavabından doğrudur. Əgər atamı inandıra bilsəm ki, bu toyu pozan mən deyiləm, çox gözəl olar. Yox, inandıra bilməsəm, mən onu inanmağa məcbur edərəm. Bu mənim üçün çətin deyil (*Xarinə*). Hə, görürsən. Məni başa düşdün?

X a r i n. Sən də mənim kimi bədbəxtsən.

D a v. Amma, hər halda mən plan axtarıram.

X a r i n. Ay qoçaq!

P a m f i l. Mən sənin hara meyl etdiyini bilirəm.

D a v. Hə, indi yəqin ki, düzəldərəm.

P a m f i l. Vaxtdır.

D a v. Tapdım.

X a r i n. Nə?

D a v. O sənə aid deyil – yolundan azma!

X a r i n. Mənim üçün elə bu kifayətdir.

P a m f i l. De görüm, bu necə plandır.

D a v. Qorxuram ki, bu iş üçün gün çatmasın. İndi bunu danışmağa mənim vaxtım haradadır? Sizin ikiniz də gedin, yoxsa mənə mane olarsınız.

P a m f i l. Gedim, onu görüm (*Gedir*).

D a v (*Xarinə*). Bəs sən, bəs sən hara gedirsən?

X a r i n. Düzünü deyimmi?

D a v. Deyə bilərsən (*öz-özünə*), indi nağıl başlayacaq!

X a r i n. Görəsən, mənim işim nə olacaq?

D a v. Utanmaz! Hələ bu sənə azdırmı ki, toyu bir gün təxirə salmışam.

X a r i n. Hər halda.

D a v. Nə olub?

X a r i n. Mənim işimi düzəldəydin.

D a v. Gülüncdür!

X a r i n. Əgər kömək edə bilsən... onda bizə gəl...

D a v. Nə var orda, yox, orda mənim işim yoxdur.

X a r i n. Hər halda!

D a v. Hər halda, elə isə gələrəm.

X a r i n. Mən evdəyəm (*Gedir*).

D a v (*Misidaya*). Gözlə məni, bu saat gəlirəm.

M i s i d a. Nə üçün?

D a v. Belə lazımdır.

M i s i d a. Di tez ol.

D a v. Dedim ki, bu saat burda olacağam.

BİRİNCİ SƏHNƏ

M i s i d a, D a v

M i s i d a. Of, allahlar, yer üzündə möhkəm olan şey nədir? Mənim xanımım Pamfildə nə görüb, bilmirəm. O, bunun dostumu, ərimi, aşnasıdırmı, ancaq hər bir işdə arxasıdır, indi elə yazıq onun üzündən bu qədər əzab çəkir, görünür ki, buradakı bədxahlıq, oradakı xeyirxahlıqdan daha çoxdur. Hə, budur, bu da Dav! Mənim əzizim! Yenə bu nədir belə. Uşağı hara aparırsan?

D a v. Misida, indi sənin hiyləgərliyin və diribaşlığın lazımdır.

M i s i d a. Yenə kələk qurmusan.

D a v. Budur, tezcə götür, bizim qapıya qoy.

M i s i d a. Sən nə deyirsən, yerə qoyum?

D a v. Qurbangahdan yaşıl budaqlar götürüb yerə sər.

M i s i d a. Bəs sən özün? Niyə özün eləmirsən?

D a v. Ona görə ki, əgər bu barədə ağanın qarşısında and içməli olsam ki, onu mən qoymamışam, andım düz olsun.

M i s i d a. Hamısı aydındır. Baxın bunda vicdan əmələ gəldi. Bəri ver.

D a v. Di tez ol, tez tərpən ki, mən fikirləşim görüm daha nə edəcəyəm. Oh, Yupiter!

M i s i d a. Nə?

D a v. Gəlinin atası! Birdən gəlib çıxmışdır! Onda mən onların əleyhinə düzəltdiyim birinci planı ləğv etməliyəm.

M i s i d a. Sən nə haqda danışırsan? Heç başa düşə bilmirəm.

D a v. Bax, yalandan mən sağ tərəfdən girəcəyəm, sən isə mənim uydurduğuma cavab verməyə hazırlaş.

M i s i d a. Heç başa düşmürəm ki, bu nə işdir sən başlamısan, yox, əgər sizə bir köməyim lazımdırsa, işə xeyri varsa, mən burada qalaram. Təki sizin işiniz düzəlsin.

İKİNCİ SƏHNƏ

X r e m e t, M i s i d a, D a v

X r e m e t. Qızımın toyuna nə lazımdırsa, hazır etmişəm. Gedirəm ki, oğlanı çağırsınlar. Bu nədir? Uşaq? Bunu bura sənmi qoymusan, arvad?

M i s i d a (*Davı axtararaq*). Axı hanı bəs o?

X r e m e t. Cavab vermirsən?

M i s i d a. Yox, heç yerdə yoxdur. Of, mən yazığın bir dərdi artdı. O məni atıb getdi. Getdi, qoçaq!

D a v. İlahi! Gör meydanda nə qədər adam var! Nə qədər mübahisə var! Şeylərin qiyməti bahalaşır (*Bilmirəm daha nə deyim*).

M i s i d a. Bəs sən niyə məni burda tək...

D a v. E-he-hey, bu nə əhvalatdır? Ey, bu uşaq burda hardandır? Kim onu gətirib?

M i s i d a. Sənin ağlın başındadırmı? Bu haqda məndən soruşursan.

D a v. Bəs mən kimdən soruşmalıyam, ətrafda heç kəsi görmürəm.

X r e m e t. Çox qəribədir, bu uşağı kim bura atıb?

D a v. Sən mənim sualıma cavab verəcəksən, ya yox?

M i s i d a. Of!

D a v (*yavaş*). Hünərin varsa mənim suallarıma mustəqim cavab verməyəsən (*Bərkdən*). Elə deyirsən ki, başa düşmək olmur, bu uşağı kim atıb? Aydın de.

M i s i d a. Biz.

D a v. Ha-ha! Qadın belə həyasızcasına hərəkət edirsə, burda qəribə nə var ki?

X r e m e t. Belə zənn edirəm ki, androslu qızın qulluqçusudur.

D a v. Demək, biz sizin üçün məsxərəyə qoyulmalı ən münasib adamlarıq?

X r e m e t. Mən elə vaxtında gəlmişəm.

D a v. Di tez ol, uşağı qapının ağzından götür (*yavaşca*). Dayan bir sən! Bir addım da yerindən tərpənmə!

M i s i d a. Ay səni batasan! Yazığı necə qorxudursan.

D a v. Mən sənə deyirəm, ya yox?

M i s i d a. Sənə nə lazımdır?

D a v. Sən hələ bir soruşursan da? Mənə bir de görüm sən kimin uşağını bura atmısan?

M i s i d a. Guya özün bilmirsən?

D a v. Mən bildiyim qoy qalsın, nə soruşuram, ona cavab ver.

M i s i d a. Uşaq sizindir.

D a v. Necə bizimdir?

M i s i d a. Pamfilin...

X r e m e t. Belə ha!..

D a v. Nə? Necə? Pamfilin?

M i s i d a. Məgər belə deyil?

X r e m e t (*öz-özünə*). Hə, mən elə bu toya pəl vuranda düz iş görmüşəm!

D a v. Ah... cinayətdir!

M i s i d a. Nə bağırırsan?

D a v. Dünən axşam sizə onumu gətirirdilər?

M i s i d a. Gör necə həyasızdır!

D a v. Hə, hə, bu doğrudan da doğrudur. Onun paltarlarının altından mən özüm kantoranı[1] görmüşəm.

M i s i d a. Allahlara təşəkkür edirəm ki, xoşbəxtlikdən zahını, azad şahidləri vardır.

D a v. O adamın ki, xatirinə qız bu işə razı olub, qız onu tanımır. Zənn edirlər ki, guya Xremet qapının ağzında uşağı görüb qızını verməyə razı olmaz. Sizi inandırıram ki, daha həvəslə verər.

X r e m e t (*öz-özünə*). Sizi inandırıram ki, o bunu etməyəcək.

D a v. Hə, indi sən başa düş, sənə deyirəm ki, uşağı götür apar. Yoxsa küçəyə vızıldadaram, səni də onun dalınca düz palçığın içinə.

M i s i d a. Sən, qardaş, sərxoşsan.

D a v. Bir fırıldağın dalınca başqası gəlir; eşidirəm pıçıldaşırlar ki, "O, Afina vətəndaşıdır".

X r e m e t. Belə!

D a v. "Qanun onu qızla evlənməyə məcbur edəcəkdir".

M i s i d a. Ey, bir mənə de görüm məgər o vətəndaş deyil?

X r e m e t. Bax, təsadüfən az qala əcaib bir əhvalat içinə düşmüşdüm.

---

[1] Vakxaliya zamanı şərab içmək üçün iki qulplu qab

D a v. Sən kimsən? Xremet! Lap vaxtında gəlmisən, qulaq as!

X r e m e t. Mən hamısını eşitdim.

D a v. Doğrudan? Hamısını?

X r e m e t. Təkrar eləyirəm: hamısını başdan eşitdim.

D a v. Eşitdin? Bax yaramaz qadın? Yox, bu qadını yaxşıca kötəkləmək lazımdır! Budur, o da gəldi! Belə zarafatları mənimlə etmək olmaz!

M i s i d a. Fəlakət. Hörmətli adam, mən yalan deməmişəm.

X r e m e t. Hamısını bilirəm. Simon evdədir?

D a v. Evdədir.

Xremet gedir.

M i s i d a. Çəkil, əl çək! Yaramaz! Hamısını bu saat Qlikeriyaya...

D a v. Ay səfeh! Bilirsənmi bu işdən nə çıxacaq?

M i s i d a . Yox, mən haradan bilim ki...

D a v. Bu qayınatadır. Bizə lazım olan şeyi ona başqa cürə deyə bilməzdim ki.

M i s i d a. Bunu əvvəldən deyəydin də.

D a v. Sən elə bilirsən ki, təbii, səmimi ifadə ilə əzbərlənmiş sözlər danışmaq arasında az fərq var?

BEŞİNCİ SƏHNƏ

K r i t o n, M i s i d a, D a v

K r i t o n. Deyirlər ki, Xrisida bu küçədə yaşayır. O, qürbətdə namussuz, dövlətli olmağı, vətəndə namuslu, kasıb olmaqdan üstün tutdu. Onun ölümündən sonra qanuna görə əmlakı mənə çatır. Kimdən soruşum? Hə, görürəm, salam.

M i s i d a. Bax gör mən kimi görürəm. Sən Kriton, Xrisidanın əmisi oğlu deyilsən, özünsən!

K r i t o n. Salam.

M i s i d a. Salamat ol.

K r i t o n. Xrisida bəs...

M i s i d a. O bizi bədbəxt eləyib getdi.

K r i t o n. Doğrudanmı? Necə? Hər şey öz yerindədirmi?

M i s i d a. Biz, elə birtəhər dolanırıq. Bir gün ac, bir gün tox. Birtəhər başımızı girələyirik.

K r i t o n. Qlikeriya burda öz ata-anasını tapa bildimi?

M i s i d a. Ah!!..

K r i t o n. Doğrudanmı bu vaxta qədər tapa bilməmiş. Görünür mən heç xoş saatda gəlməmişəm! Belə bilsəydim, ayağımı bura basmazdım. O, Xrisidanın bacısı sayılırdı və əmlakının da varisidir. Ancaq başqalarından bilirəm ki, mənim kimi başqa yerdən gəlmiş adama buradan məhkəmə dəsgahı açmaq asan və xeyirli iş deyildir. Bununla bərabər yəqin onun burda dostu və müdafiəçisi var. O, axı bizdən gedərkən lap uşaq idi. Miras ardınca qaçanlar dilənçilər və nadürüst adamlardır. Mən özüm də onu talan edib, küçəyə atmaq istəmədim.

M i s i d a. İstəkli qonaq! Kriton! Sən elə əvvəl gördüyümüz kimi də qalmısan.

K r i t o n. Məni onun yanına apar. Mən bura onu görmək üçün gəlmişəm.

M i s i d a. Mən hazır. Gedim onların dalınca, bu saat qoca ilə görüşməyə məndə həvəs yoxdur.

BEŞİNCİ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

X r e m e t, S i m o n

X r e m e t. Mən ikiqat artıqlaması ilə sənə dostluğumu sübut etmək üçün hər şeyə göz qoydum. Bəsdir məndən xahiş etdiyin. Səni sınamaq üçün az qaldım əziz qızımın səadətini məhv edəm.

S i m o n. Yox, indi mən xüsusi olaraq xahiş edib yalvarıram ki, sözdə vəd etdiklərini işdə sübut edəsən.

X r e m e t. Hiddət səni ədalətsizliyə aparır. Öz məqsədinə nail olmaq üçün etdiyin xahişi və mənim xidmətlərimi nəzərə almırsan. Əgər sən bu haqda fikirləşsəydin, mənə belə ədalətsiz təkliflər etməzdin.

S i m o n. Nə təkliflər?

X r e m e t. Bu nə sualdır! Axı sən özün məni dilə tutdun ki, öz qızımı evlənməyə hazır olan, gənc, sevən oğluna verim. Bu belə olsaydı, qeyri-qanuni kəbin və narazılıq qızımı öz əzabları ilə oğlunun dərdlərini müalicə etməyə məcbur edərdi. Xahiş etdin. Nə qədər ki, imkan var idi, mən güzəştə getdim. Ancaq indi mümkün deyil. indi özün bir fikirləş. Deyirlər ki, qız buranın vətəndaşıdır. Bir oğlu da olub. İş belədir, xahiş edirəm bizi rahat buraxasan.

S i m o n. Mən allahlara yalvarıram, onlara inanma. Bu onların xeyrinədir. Bacardıqca onu alçaltmaq istəyirlər. Bunların hamısı toyu pozmaq xatirinə uydurulmuşdur. Bu xəbis məqsədi yox etsək, hər şey qurtarıb düz yoluna düşəcək.

X r e m e t. Yox! Mən gördüm ki, Dav necə qulluqçunu töhmətləndirdi.

S i m o n. Hə, mən bilirəm.

X r e m e t. Həqiqətən onlar bilmirdilər ki, mən yaxında dayanmışam.

S i m o n. İnanıram. Dav mənə əvvəlcə demişdi ki, elə belə də edəcəklər. İstədim sənə deyəm, ancaq nədənsə yadımdan çıxdı.

İKİNCİ SƏHNƏ

D a v, X r e m e t, S i m o n, D r o m o n

D a v (*evə tərəf deyir*). Mən sizə deyirəm igid olun.

X r e m e t. Budur, bu da Dav.

S i m o n. O haradan gəlir?

D a v. Qonaq da, mən də sizin arxanızda dayanmışıq...

S i m o n. Nə? Bu nə qaravəllidir, yenə başlamısan?

D a v. O, çox gözəl adamdır, lap vaxtında gəlib çıxmışdır.

S i m o n. Yaramaz! Bu kimi tərifləyir?

D a v. Artıq bütün işlər düzəldi...

S i m o n. Dayan, onunla bir danışım.

D a v (*öz-özünə*). Ağa! İndi nə edək?

S i m o n. Dost, salam!

D a v. Simon! A, Xremet! Evdə hər şey hazırdır.

S i m o n (*istehzalı*). Çox yaxşı hazırlamısan.

D a v. İstəyirsən, qonaqları dəvət et.

S i m o n. Çox gözəl. Elə bil, hər şey bircə buna bənd imiş. İndi isə cavab ver, sənin burda nə işin var?

D a v. Mənim?

S i m o n. Bəli, sənin.

D a v. Mənim?

S i m o n. Sənin.

D a v. Mən elə ora təzəcə girmişdim ki...

S i m o n. Elə bil soruşuram ki, sən çoxdanmı oradasan.

D a v. Sənin oğlunla bərabər...

S i m o n. Nə? Pamfil oradadır? Bax, bu da bir dərd. Ey, yaramaz! Özün demirdinmi ki, onların arasında narazılıq var.

D a v. Bəli.

S i m o n. Bəs niyə, axı o, ordadır?

X r e m e t (*məsxərə ilə*). Yəqin ki, dava eləməyə gedib...

D a v. Yox, Xremet, heç belə deyil. Bu saat sənə ürəkbulandırıcı bir hadisə danışacağam. Onlara həyasız və diribaş bir qoca gəlib çıxıb. Görkəmindən hörmətli, ciddi, namuslu adama oxşayır. Onun sözləri adamı tamamilə inandırır.

S i m o n. Sən bizə nə sırıyırsan?

D a v. İndicə ondan eşitdiklərimi.

S i m o n. Axı, nə?

D a v. O bilir ki, Qlikeriya həqiqətən buralı, afinalı vətəndaşdır.

S i m o n. Ey, Dromon! Dromon!

D a v. Nə olub?

S i m o n. Ey, Dromon!

D a v. Bir dayan!

S i m o n. Əgər bir söz də desən, onda... Dromon!

D a v. Qulaq as bir.

D r o m o n (*Simona*). Nə buyurursunuz?

S i m o n. Onu tut, evə apar.

D r o m o n. Kimi?

S i m o n. Davı.

D a v. Axı nəyə görə?

S i m o n. Kefim belə istəyir. Təkrar edirəm ki, tut onu!

D a v. Mən nə etmişəm?

S i m o n . Tut!

D a v. Əgər mən bir söz də yalan demişəmsə, lap öldür!

S i m o n. Heç nə eşitmirəm, səni kötəkləyə bilərəm.

D a v. Hər şey düz olsa da?

S i m o n. Qoy olsun. Ey, əllərini, ayaqlarını bur! Eşidirsənmi, onu yaxşıca kötəklə. Dayan bir! Əgər sağ qalsam sənə göstərərəm ki, ağanı necə aldadarlar. O da əlimdən qurtarmayacaq, bir dayan!

X r e m e t. Bu nə mərhəmətsizlik, nə amansızlıqdır?

S i m o n. Gör, oğul məhəbbəti nə deməkdir, Xremet! Doğrudanmı sənin mənə ürəyin yanmır? Belə bir oğulun üzündən belə dərd çəkməyə məcbur oluram. Ey, bura, Pamfil! Gəl Pamfil! Yoxsa sən bütün abrını itirmisən?

ÜÇÜNCÜ SƏHNƏ

Pamfil, Simon, Xremet

P a m f i l. Məni çağıran kimdir? Məhv oldum! Atam!

S i m o n. Nə? Ah! sən... ah...

X r e m e t. Dayan, yaxşısı budur töhmətdən əvvəl de görüm nə olub?

S i m o n. Elə bil ki, buna bir ağır söz demək mümkündür. Sənin sözlərindən belə çıxır ki, Qlikeriya buralıdır, bizim vətəndaşımızdır.

P a m f i l. Deyirlər ki, belədir.

S i m o n. Ah, deyirlər, bax, bu tamam həyasızlıqdır. O, heç danışdığını bir düşünürmü? Məgər o, eşitdiklərindən xəcalət çəkirmi? Heç utanıb qızarırmı, belə də iradəsizlik olar? Bədbəxtlikdən onunla əlaqəyə girib qanuni vətəndaşlıq hüququnu və atasının arzularını pozdu.

P a m f i l. Of! Mən nə qədər bədbəxtəm.

S i m o n. Pamfil! Sən elə indicəmi hiss etdin? Sən bu bədbəxt adını lap əvvəlcədən öz ehtirasını nəyin bahasına olursa satmağı qərarlaşdırdığın gün qazandın. Bəs mən? Nədən ötrü özümü didib əzab çəkim? Qoca vaxtımda özümü ağılsızcasına həyəcanlandırmalıyammı? Niyə? Onun dərdləri ilə ölməliyəm? Qoy qızı əldə edib onunla yaşasın! Mənimlə həmişəlik vidalaşsın! Canı sağ olsun!

P a m f i l. Ah, atam!

S i m o n. Atan, guya atan sənə çox lazımdır. Arvadı, uşağı, evi sən atansız tapdın. Yalandan saxta şahidlər qaçırdın ki, onu yerli vətəndaş adlandırsınlar. Sən belə istəyirsənsə qoy belə də olsun.

P a m f i l. Ata! İcazə ver, iki kəlmə söz deyim.

S i m o n. Mənə nə deyə bilərsən?

X r e m e t. Hər halda qulaq as!

S i m o n. Qulaq asım, nəyə qulaq asım?

X r e m e t. Bir dayan! Qoy sözünü desin.

S i m o n. Yaxşı, buyur.

P a m f i l. Mən onu sevdiyimi tamamilə etiraf etməyə hazıram. Əgər bu cinayət də olsa, bunu boynuma alıram. Hansı cəzanı verirsən ver. Mən sənin iradənə tabeyəm. İstəyirsənmi evlənim, onu tərk edim, eybi yoxdur, bacardığım kimi bu əzaba dözərəm. Ancaq bir şey xahiş edirəm: sən elə zənn etməyəsən ki, guya qocanı mən yollamışam. Dediklərimə bərəət qazandırmaq üçün imkan ver, qocanı şəxsən buraya gətirim.

S i m o n. Bizim yanımıza?

P a m f i l. İcazə ver, ata.

X r e m e t. Bu çox haqlı xahişdir. İcazə ver.

P a m f i l. İcazə ver, ata.

S i m o n. Qoy olsun. Mən hər şeyə razıyam, Xremet. Ancaq o, məni məsxərəyə qoymaq istəsə, mənim üçün rəzalət olar.

X r e m e t. Böyük bir günahı yüngül bir işlə yumaq ata üçün kifayətdir.

DÖRDÜNCÜ SƏHNƏ

Kriton, Xremet, Simon, Pamfil

K r i t o n (*evə müraciət edərək*). Bəsdir xahiş etdiyin. Belə etmək üçün üç şey mülahizə etmişəm: birinci sənin xeyrin, ikincisi həqiqətin tələbi, sonra – Qlikeriyanın səadəti.

X r e m e t. A-a! Androslu Kriton, həqiqətən odur.

K r i t o n. Salam sənə, Xremet!

X r e m e t. Səni gözlənilmədən Afinada gördüyüm üçün təəccüb edirəm.

K r i t o n. İş belə gətirdi. O, Simon deyil ki?

X r e m e t. Özüdür.

K r i t o n. Sən mənimi axtarırsan, Simon?

S i m o n. Qlikeriyanın afinalı olduğunu isbat etmək istəyən sənsən?

K r i t o n. Bəs sən təsdiq etmirsən?

S i m o n. Elə buna görəmi, bizim yanımıza gəlmisən?

K r i t o n. Nəyə görə?

S i m o n. Bu nə sualdır? Belə zənn edirsən ki, bunu cəzasız edəcəksən, yaxşı tərbiyə almış hələ ləkələnməmiş, lakin təcrübəsiz gəncləri öz yalanlarınla sarımaq, vəd etmək, yoldan çıxarıb tovlayaraq pis yola cəlb etmək istəyirsən?

K r i t o n. Sən nə danışırsan, ağlın başındadır?

S i m o n. Sən onları məhəbbət və qanuni nikah ilə əxlaqsız qızlara bağlamaq istəyirsən?

P a m f i l. Fəlakətə bax! Çox qorxuram, görəsən bizim qonaq bu sözlərə davam gətirə biləcəkmi?

X r e m e t. Sən belə fikirləşmə, Simon, sən onu heç də tanımırsan. O yaxşı adamdır.

S i m o n. O yaxşı adamdır? Niyə bəs bu vaxta qədər o bura gəlməmişdi. Axı bəs nə üçün o lap birdən elə toyun başlanğıcına gəlib çıxdı. Heç buna inanmaq olmur.

P a m f i l. Atamın qorxusu mane olmasaydı, mən bu barədə yaxşı məsləhət verə bilərdim.

S i m o n. Hiyləgər!

K r i t o n. Hm...

X r e m e t. Sən ona fikir vermə! O elə belədir!

K r i t o n. Onun necəliyi öz işidir. Əgər sözümün dalısını danışmaq imkanım olsaydı, demək istərdim ki, o, məndən istəmədiyi şeyi necə eşidə bilər. Sən yaxşı görürsən, məgər mən qarışdırıb özümü çaş salıram? Ya da özün dərdinə tamam soyuqqanlılıqla dözə bilmirsən? Mən həqiqətmi, yalanmı deyirəm, bunu bilmək asandır. Gəmi fəlakətə uğrayandan sonra Attika vətəndaşlarından birisi bizim Androsa üzüb çıxmışdı. Onun yanında kiçik bir qız da vardı. Burada ehtiyac üzündən birinci olaraq o Xrisidanın atasına müraciət etdi.

S i m o n. Nağılı başladı.

X r e m e t. Qoy görək.

K r i t o n. Axı, o niyə sözümü kəsir?

X r e m e t. Davam et.

K r i t o n. Onu qəbul edən adam mənim qohumum idi. Mən qohumumdan eşitdim ki, o kişi Attika vətəndaşıdır. O, elə orda, bizim yerdə öldü.

X r e m e t. Adı nə idi?

K r i t o n. Elə birdən-birə adını soruşursan?

P a m f i l. Ah, mənim müsibətimə bax.

K r i t o n. Elə zənn edirəm ki, adı Fanidir. Bu da yəqindir ki, o həmişə özünü ramnuntavlu adlandırırdı.

X r e m e t. Yupiter!

K r i t o n. Androsda bunu çoxları eşitmişdir.

X r e m e t. Of! Bircə öz arzuma çatsa idim. Nə? Onu qızım deyə çağırırdı?

K r i t o n. Xeyr.

X r e m e t. Bəs kimin qızı?

K r i t o n. Qardaşımın qızıdır deyirdi.

X r e m e t. Yəqin mənim qızımdır.

K r i t o n. Sənin qızındır?

S i m o n. Sənindir!

P a m f i l. Qulaqlarını səfərbərliyə al, yaxşı qulaq as, Pamfil.

S i m o n. Sən nə üçün belə fikirləşirsən?

X r e m e t. Həmin Fani mənim qardaşım idi.

S i m o n. Bilirəm, mən onu şəxsən tanıyırdım.

X r e m e t. Burada o, müharibədən qaçıb, mənim dalımca Asiyaya üz qoydu. Qızı isə burada qoymağa qorxdu. O zamandan bəri birinci dəfədir ki, onun başına gələnləri eşidirəm.

P a m f i l. Özümü güclə saxlayıram. Arzu məni həyəcanlandırmış, sevinc, qorxu və gözlənilməz səadət məni heyrətləndirmişdir.

S i m o n. Mən çox şadam ki, sən öz qızını tapdın.

X r e m e t. İnanıram.

P a m f i l. Ah, ata!

S i m o n. Ancaq məni kədərləndirən kiçik bir şey buna mane olur.

P a m f i l. Bir bəhanə tapmaq üçün əlləşməyin heç mənim xoşuma gəlmir.

K r i t o n. Nə barədə?

X r e m e t. Axı, ad ada oxşamır.

K r i t o n. Qızı ayrı adla çağırırdılar.

X r e m e t. Kriton, qızın adı nə idi? Sənin yadındadırmı?

K r i t o n. Bu saat yadıma salım.

P a m f i l. Onun huşsuzluğuna necə dözüm, huşsuzluğu mənim sevincimə mane olur. Amma hər halda özüm öz köməyimə çata biləram. Gözləməyə səbrim yoxdur. Xremet, onun adı Pasibulaya idi.

X r e m e t. Odur!

K r i t o n. Odur!

P a m f i l. Mən onun özündən min dəfə eşitmişəm.

S i m o n. Biz hamımız buna şadıq. Elə bilirəm ki, sən buna inanırsan.

X r e m e t. İnanıram! Bəli!

P a m f i l. Bəs, axırı necə olsun, ata!

S i m o n. Bu fakt özü məni barışmağa vadar edir.

P a m f i l. Mənim əziz atam! Bəs qız haqqında Xremet fikrini dəyişmir? Axı, o mənim arvadımdır.

X r e m e t. Hər şey öz qaydasındadır. Bəs atan necə?

P a m f i l. Hə, o razıdır.

S i m o n. Şübhəsiz.

X r e m e t. Mən on talant cehiz verirəm.

P a m f i l. Mən qəbul edirəm.

X r e m e t. Di, mən qızımı görmək üçün tələsirəm. Xahiş edirəm mənimlə gedək, Kriton, axı o məni tanımır.

S i m o n. Yaxşı olardı ki, sən deyəydin onu bura gətirəydilər.

P a m f i l. Bax, bu doğrudur. Mən bu saat Dava deyərəm ki, gətirsin.

S i m o n. O, eləyə bilməz.

P a m f i l. Niyə?

S i m o n. Onun özünün vacib işləri var.

P a m f i l. İşi, hansı iş?

S i m o n. Onun əl-ayağı bağlıdır.

P a m f i l. Bu heç yaxşı deyil, ata!

S i m o n. Nə lazımdırsa, elə də olacaq.

P a m f i l. Xahiş edirəm, buyur, azad etsinlər.

S i m o n. Nə olar ki, etiraz etmirəm.

P a m f i l. Özü də tez.

S i m o n. Gedirəm.

P a m f i l. Bu gün mənim ən xoşbəxt, ən gözəl günümdür.

BEŞİNCİ SƏHNƏ

X a r i n, P a m f i l

X a r i n. Baxım görüm Pamfilə nə olub? A! Budur! Bu da o!

P a m f i l. Belə adam ola bilərmi ki, mənim bu işə inandığıma inanmasın. Axı mən istərdim ki, bu həqiqət olaydı. Mən allahların həyatını ona görə əbədi sayıram ki, onların zövqləri əbədidir. Əgər bu sevinc kədərə çevrilməsə, mənə də ölməzlik qismət olmuşdur. İndi hanı elə bir adam ki, bütün bunları ona danışım?

X a r i n. Nə olub? Nə üçün belə şadsan?

P a m f i l. Dav gəlir, indi ondan başqa mənim ən çox arzu etdiyim adam yoxdur. Mən yəqin bilirəm ki, mənim sevincimə mənim kimi sevinəcəkdir.

ALTINCI SƏHNƏ

D a v, P a m f i l, X a r i n

D a v. Pamfil, hardasan?

P a m f i l. Dav.

D a v. Kimdir o?

P a m f i l. Mən.

D a v. Pamfil?

P a m f i l. Bilirsənmi mənə nə olub.

D a v. Xeyr, ancaq özümə nə olduğunu bilirəm.

P a m f i l. Mən də bilirəm.

D a v. Bütün adamlarda olduğu kimi, ilk dəfə sən mənim bədbəxtliyimdən xəbər tutdun, sonra isə mən sənin müvəffəqiyyətini eşitdim.

P a m f i l. Mənim Qlikeriyam isə ata-anasını tapmışdır.

D a v. Nə böyük xoşbəxtlik!

X a r i n. Demək belə?

P a m f i l. Onun atası bizim ən yaxın dostumuzdur.

D a v. Kimdir?

P a m f i l. Xremet.

D a v. Mən çox şadam.

P a m f i l. Bizim evlənməyimizə də etiraz yoxdur.

X a r i n. O, yuxuda deyil ki, yoxsa göydə axtardığını yerdə tapıb!

P a m f i l. Uşaq isə...

D a v. Burax, səni allahlar sevib.

X a r i n. O-o! Mən arzuma çatmışam. Əgər bu doğrudursa onunla danışım, öyrənim.

P a m f i l. O kimdir? A-a! Xarin! Lap vaxtında gəlmisən.

X a r i n. Təbrik edirəm.

P a m f i l. Sən eşitmisən?

X a r i n. Hamısını. Amma, bu xoşbəxtlikdə məni də unutma. İndi Xremet sənin əlindədir, nə istəsən yerinə yetirəcəkdir.

P a m f i l. Yadımdadır. Lakin onu çox gözləmək lazımdır. Burada, evə mənim arxamca gəl. O, burada Qlikeriyanın yanındadır. Dav tərpən, evə get, tez əmr et ki, onu gətirsinlər! Nə dayanmısan? Nəyi gözləyirsən?

D a v. Gedirəm. Siz onların bura gəlməsini gözləməyin. Danışıq evdə olacaq, həm də başqa şeylər də evdə, öz aramızda həll ediləcək.

MARK TULLİ SİSERON

E.ə. 106-43

Bizim eradan əvvəl I əsrə qədər Romada natiqlik sənəti olsa da, qədim Yunan natiqləri və onların əsərləri ilə tanışlıq onu həm məzmun, həm də ritorika sənətkarlığı nöqteyi-nəzərindən zənginləşdirmişdir. Bu sahədə Mark Tulli Siseronun xidməti olduqca böyükdür. O, yunan natiqlərindən dərs almış, Roma şəhərində, Afinada nitq sənətinin nəzəriyyəsini dərindən öyrənmiş və bu barədə "Natiq" adlı nəzəri əsərini yazmışdır. Siseronun yaradıcılığında yunan nitq sənəti ilə Roma natiqliyinin birləşib inkişaf etdiyini görmək mümkündür.

Mark Tulli Siseron bizim eradan əvvəl 106-cı ildə Arpin şəhərində varlı bir ailədə anadan olmuşdur. Atası Mark Tulli mərkəzdə işləyən bəzi dövlət adamları ilə tanış olduğu üçün onların təhriki ilə Roma şəhərinə köçmüş böyük oğlu Siseron ilə kiçik oğlu Kvintin təhsil almalarına xüsusi diqqət yetirmişdir. Siseron ən məşhur müəllimlərdən dərs almış, yunan dili ilə yunan ədəbiyyatını mükəmməl öyrənmişdir. Hər gün Forumda natiqlərin çıxışlarını dinləmiş, özünün dediyi kimi, Forum gənc Siseron üçün təcrübə məktəbi olmuşdur. Xalası əri Akuleon Roma qanunlarını və hüquqşünaslığını yaxşı bildiyi üçün Siseron ona müraciət etmiş, Roma hüquqşünaslığının əsasları ilə dərindən tanış olmuşdur.

Fəlsəfə müəllimi Fedr, Diodot, yeni Akademiyanın başçısı Filon kimi yunan filosofları və alimlərindən dərs alan Siseron yunan mədəniyyətinə məftun olur. Yunan dilindən latıncaya tərcümələr edir. Homerin dastanlarını və yunan dramaturgiyasını öyrənərək, bu əsərlərin gözəl və təbii üslubu onu heyrətə salır.

Bir natiq kimi onun ilk qələbəsi, Sekst Rossinin müdafiəsi üçün söylədiyi nitqindən başlayır. Bu nitq həm mülki, həm də siyasi əhəmiyyətə malik idi. Varlı Sekst öldürülmüşdür. Onun qohumları Rossiyə varis olmaq üçün onun oğluna şər atıb məhkəməyə müraciət etmişdilər. İftiraçıları müdafiə edən, dövrün böyük hüquqşünası Qortensi idi. Siseron isə həqiqəti meydana qoymaq üçün Rossinin debil oğlunu müdafiə etməyi öz öhdəsinə götürür. Siseronun möhkəm dəlilləri qarşısında ustad Qortensi məğlub olur. İftiraçılar cəzalanırlar. Lakin bu işin siyasi cəhəti də var idi. Belə ki, iftiraçıları Sulla kimi siyasi şəxsiyyət himayə edirdi. Siseron öz nitqində Sullanın adını çəkmədən Sulla idarə üsulunun qaranlıq və insan şəxsiyyəti üçün təhlükəli cəhətini qeyd edərək amansız surətdə ifşa etmişdi. Bu nitqindən sonra Siseron şöhrət qazanır. Romada yaşamağın qorxulu olduğunu başa düşərək qardaşı Kvint ilə Yunanıstana və Yaxın Şərqə səyahətə çıxır. Səyahət, adi səyahət deyildi. O, Yunanıstanda bir çox fəlsəfə və nitq sənəti məktəblərinin işləri ilə tanış olur. Rodos adasında məşhur natiq Apollon Molondan dərs alır. Dünyagörüşü etibarilə möhkəmlənir.

Siseron respublikaçı idi. Yunanıstanda respublika və demokratik idarə üsulunun bütün təferrüatını tədqiq edib öyrənmək zəruri idi. İki illik səyahət zamanı, o, öz üslubunda olan aziatik ünsürlərlə mübarizə aparır, Attik üslubun müsbət cəhətlərini mənimsəyir. Ümumiyyətlə, Siseronun yetgin üslubu, qədim tarixdə ən klassik üslub sayılır. Siseron buna birdən-birə yiyələnməmişdir. Uzun sürən tədqiq, məşq və öyrənmə yolu ilə Siseron klassik bir natiq olmuşdu. Səyahətdən qayıtdıqdan sonra o, maliyyə işləri üzrə kvestor seçilir. Bir az sonra, Siciliyaya vali təyin olunur. Az bir müddət içərisində əhalinin rəğbətini qazanan Siseron Siciliya tarixində xoş xatirə qoyub gedir. Belə ki, həmişə Siciliya əhalisinin müdafiəçisi kimi tanınır. 71-ci ildə siciliyalılar vali Veres haqqında ərizə verib onun qarətçiliyi, rüşvətxorluğu, ədalətsiz işləri haqqında məsələ qaldırdıqları vaxt, bu işi Siseron öz öhdəsinə götürür. O, Siciliyaya gedir və orada vəziyyət ilə tanış olur; dəlillər toplayır; şahidlərdən məlumat alır. Məsələ Senatın iki sessiyasında müzakirə ediləcəyi üçün Siseronun topladığı məlumat hər iki sessiya üçün kifayət idi. Məşhur vəkil Qortensi isə Verresi müdafiə edəcək idi. Veres, Siseronun hazırladığı nitq ilə uzaqdan-uzağa tanış olduqdan sonra, Romada olan qanuna əsasən, könüllü olaraq sürgünə gedir və vətəndaşlıq hüququndan məhrum olmağa razı olur. Ona görə də məsələ Senatda müzakirə edilmir, Siseronun nitqi də söylənməmiş qalır. Lakin Siseron sonralar nitqini elan etdiyi üçün, bizə gəlib çıxmışdır. Yenə qeyd etmək lazımdır ki, bu nitq həm mülki, həm də siyasi məzmun daşıyır. Nitqin əsas siyasi mənası, yerlərdə zadəgan valilərin özbaşınalığı, qarət və rüşvətlə varlanıb, yoxsul xalq kütləsinin hesabına eyş-işrətlə vaxt keçirmələrinin ifşası idi. Siseronun topladığı məlumat, Roma respublika idarə üsulunun tarixində qara bir ləkə idi. Respublika idarə üsulunun əsaslarını qorumağa çalışan Siseron, bir çox nitqlərini bu məsələyə həsr etmişdir. Əksəriyyətlə o, xüsusi və fərdi xasiyyət daşıyan bir məsələni alır, onu ümumiləşdirdi.

Siserondan əlli səkkiz nitq, fəlsəfə və ritorikaya aid bir silsilə risalə, səkkiz yüzə qədər məktub gəlib çıxmışdır. Bu əsərlərin çoxusu sonralar katibi Tiron tərəfindən toplanmış və intişar etdirilmişdir.

Siyasi bir sima kimi, Siseron Roma respublikasının son nəzəriyyəçilərindən və müdafiəçilərindən biridir. Onun fəaliyyəti, müəyyən və məsul bir mərhələni əhatə edir ki, buna Siseron dövrü deyilir. Şübhəsiz ki, belə bir ad nisbətən mübaliğəli olduğu üçün müəyyən məftunluğun nəticəsidir. Əslində, Siseron uzaqgörən, ardıcıl siyasi şəxsiyyət deyildi. Siyasi məsələlərdə sıx-sıx güzəştə getməsi, prinsipial olmaması, xüsusilə vətəndaş müharibəsi illərində göstərdiyi tərəddüd, onun respublikaçı görüşlərini ziddiyyətlərdən xilas edə bilməmişdir. Əksəriyyətlə, xalq adından çıxış edən natiq əslində Roma senatının varlı hissəsinə xidmət edirdi. Vətəndaş müharibələri illərində Pompeyə tərəf çıxması, onun siyasi prinsipiallığını şübhə altına almışdı.

Fəlsəfi görüşləri ilə də Siseron ardıcıl filosof olmaq dərəcəsinə yüksələ bilmir. Doğrudur o, öz dövrünün hərtərəfli bilikli, yüksək təhsilli bir şəxsiyyəti idi. Lakin müstəqil bir mütəfəkkir deyildi. Fəlsəfi əsərlərini mükalimə şəklində yazan Siseron həmişə başda bir müqəddimə verirdi. Müqəddimə müzakirə ediləcək fəlsəfi problem haqqında ümumi məlumat idi. Bu məlumat müəllifə aid olduğu üçün, Siseronun fəlsəfi görüşünü buradan öyrənmək olar. Ümumiyyətlə, Siseron zidd fəlsəfi görüşləri birləşdirməyə çalışır. Onun bütün fəlsəfi mülahizələri eklektik xarakter daşıyır. Epikürün materialist görüşlərinə qarşı Siseron daha ehtirasla hücum edir. Bizə məlum olmayan müxtəlif mənbələrdən götürdüyü fikirlər, haşiyələr, müddəalar indi olduqca qiymətlidir. Qədim yunan filosoflarının itmiş əsərlərinin məzmununu, burada müzakirə edilən fəlsəfi müddəaları ancaq Siseronun fəlsəfi risalələri vasitəsilə öyrənmək mümkündür. İdrak nəzəriyyəsində Siseron gah skeptik olur, gah aqnostik (Laadri) olur. Lakin o, xürafat və fövqəltəbii inamlara qarşı amansız mübarizə aparıb, həmişə ardıcıl olmuşdur. Cadu, qəza, tale, ali nemət, ali şər, fal və sairə kimi məsələlər haqqında Siseron tərəddüdsüz, inkar yolunu seçir. "Allah vardırmı?" sualına Siseron bəlkə də var, bəlkə də yoxdur, cavabını vermək, dövlət üçün dinin olmasını vacib görür.

Siseron, fəlsəfi risalələrində ən çox etika (əxlaq) məsələləri üzərində dayanır. Onun fikrincə, insan təbiətən pozğun deyildir. O, allahlardan heç bir mənfi xasiyyət almır. Mənfi xasiyyətləri insan həyatda əldə edir. İnsanın iradəsi azad olduğu üçün hər bir hərəkətinə cavabdehdir və məsuliyyət daşıyır.

"Dövlət haqqında", "Qanunlar haqqında" adlı risalələrində Siseron dövlətin əsas məsələlərini izah edir. Onun fikrincə, dövlətin ən əsas vəzifəsi, xüsusi mülkiyyəti mövcud qanunlar əsasında qorumaqdır. Bu vəzifəyə qarşı çıxanlar, onu təhrif edib pozanlar dövlətin təməlini sarsıdırlar. "Qanunlar haqqında" risaləsində isə o, bir-bir qədim Roma qanunlarını izah edir.

Dünya tarixində Siseron, bir natiq və nitq sənətinin nəzəriyyəçisi kimi şöhrət qazanmışdır. Siseronun nitqləri, onun bütün fəaliyyətini, yaradıcılıq yolunu işıqlandıran əsas mənbədir. İstər mülki məsələlər, istərsə də siyasi məsələlər münasibətilə söylədiyi nitqlər bədii nitqin ən gözəl nümunələri, Roma nəsrinin təməlidir.

Siseron öz nitqlərində elmi təfəkkürlə bədii təfəkkürü birləşdirmişdir. O, dəlillər, faktlar gətirir, cinayət və qanun pozuculuğu ictimai mənada təsnif edib sübuta çalışır, eyni zamanda həyat faktlarını bədii ifadələrlə verərək dinləyicilərin həm mühakiməsinə, həm də qəlbinə təsir göstərməyə çalışır. Şahidlərin rəvayətinə görə, natiq Siseron bir aktyor kimi hərəkətlərdən, mimikadan, səsdən geniş surətdə istifadə edərmiş... Heç təsadüfi deyildir ki, nəzəri əsərlərində o, Esop və Rossi kimi müasir səhnə ustadlarından öyrənməyi tövsiyə edir. Onun "Verres əleyhinə", "Roma vətəndaşının edamı", "Katilina əleyhinə", "Şair Arxiyanı müdafiə", "Anni Milonu müdafiə" və sairə kimi nitqləri şöhrət tapmışdır.

Siseron bir nəzəriyyəçi kimi, nitq sənəti qarşısında yeni məsələlər qoyur. Onun fikrincə natiq, deklamator deyil, kələkbaz məhkəmə vəkili deyil. Natiq hər şeydən əvvəl, dövlət xadimidir. Dövlət xadimi üçün zəruri olan biliklər, natiqdə də olmalıdır. Natiq nitq sənətinin öz spesifik cəhətləri ilə tanış olub bu qabiliyyətə yiyələndiyi kimi, bir sıra bilikləri də sistemli olaraq öyrənməlidir. Natiq hər şeydən əvvəl fəlsəfəni öyrənməklə bərabər, fəlsəfi mühakimə üsuluna yiyələnməlidir ki, xüsusi, fərdi hadisələri ümumiləşdirə bilsin. Çünki xüsusi hadisələr heç bir zaman ümumi hadisələrdən təcrid olunmuş şəkildə mövcud olmur. Müdafiə etdiyi şəxsin əxlaqı simasını öyrənmək, fikirlərini ağlauyğun dəlillər ilə sübuta çalışmaq, dinləyiciləri öz müddəalarına inandırmaq üçün etikanı, məntiqi və psixologiyanı bilmək lazımdır; bunlar isə fəlsəfənin əsas şöbələridir. Nitqi inandırıcı faktlar, olmuş hadisələrlə zənginləşdirmək zəruridir. Əks təqdirdə nitq inandırıcı olmaz, dinləyənləri şübhəyə salar. Bunu etmək üçün əlavə olaraq natiq tarixi bilməli və başqa xalqların tarixini öyrənməlidir. Həyatın özünü yaxşı müşahidə edərək, real həyat hadisələri ilə tanış olmalıdır. Dinləyicilərin qəlbinə, hissinə təsir etmək üçün isə natiq yaradıcılıq qabiliyyətinə malik olaraq, üslubiyyatı, poetikanı və poeziyanı öyrənməlidir.

Siseron vahid üslub tərəfdarı deyildi. Onun fikrincə, natiq bir neçə tipli üsluba malik olmalıdır. Çünki dinləyicilərin tərkibindən və auditoriyadan asılı olaraq, nitqin də üslubu dəyişməlidir. Natiqin kamilliyi onun bir neçə tipli üsluba yiyələnməsi ilə qiymətlənə bilər. Natiqin əsas məqsədi dəlilləri sübut etmək, dinləyicilərə bədii zövq vermək və onların iradəsini ələ alaraq özünə tabe etdirməkdir. Bunlarla birlikdə o, nitqin bol fakt və dəlillərlə zəngin olmasına xüsusi diqqət verirdi. Bu hökmlərində o, məşhur yunan natiqi Demosfeni nümunə göstərir. Birinci əsrin natiqlərindən Kvintilian, Demosfen ilə Siseronu müqayisə edərək yazır ki: "Demosfendən heç bir şey ixtisar etmək, Siserona isə heç bir şey əlavə etmək olmaz".

Onun nəzəri görüşləri, bir natiq kimi öz fəaliyyətindən, müşahidələrindən, əldə etdiyi müvəffəqiyyətlərindən çıxardığı nəticələr idi. Siseron hər məhkəmə prosesində sonda çıxış edirdi. Öz həyəcanlı, dolğun nitqi ilə dinləyiciləri heyran edir, ağladır, güldürür və öz tərəfinə çəkirdi. Nitq söyləyərkən suallara, nidalara, yalvarışlara, göylərə əl qaldırıb duaya müraciət edirdi. Nitqin arasında rəmzi surətlər yaradıb onların ifadəsində nitqlər verirdi. Misal üçün, vətən, xalq, dövlət, həqqaniyyət adından ayrıca nitqlər düzəldirdi. ("Vətən adından nitq" "Katalinaya qarşı nitq"də verilmişdir). O, bəzən müqəssirlərin mənfi bədii obrazını yaradır, dinləyicilərin diqqətini belə bir mənfi simaya tərəf yönəldir, sonra onun əməllərinə keçirdi.

Ümumiyyətlə, Siseronun bizə gəlib çatmış nitqləri göstərir ki, böyük Roma natiqi dərin fəlsəfi, zəngin tarixi biliyə malik olmaqla bərabər həqiqi mənada söz ustadı idi. Onun üslubu Roma ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

Heç təəccüblü deyil ki, Avropa darülfünunlarının hüquqşünaslıq fakültələrində Siseronu və onun irsini öyrənmək mərkəzi yer tutmuşdur.

Siseronun katibi Tironun öz şefinin irsini saxlamaqda və yaymaqda xidməti böyükdür. Siseronun özü, öz əsərlərinin yayılması üçün çox çalışmışdır.

"Brut" adlı əsəri avtobioqrafik xarakter daşıyır ki, bu əsər Siseronu öyrənmək istəyənlərə kömək edə bilər.

Siseron e.ə. 43-cü ildə Antoninin casusları tərəfindən öldürülmüşdür.

KATİLİNAYA[1] QARŞI BİRİNCİ NİTQ

Katilina, ən nəhayət sən bizim səbrimizdən sui-istifadə etməyinə nə zaman son qoyacaqsan? Özbaşına, heyvərə çıxışlarına nə vaxt hüdud qoyacaqsan? Doğrudanmı nə Palatinanın, Roma şəhərinin ətrafında olan yeddi təpədən birinin hərbi müdafiəsi, nə bütün şəhər boyu gecə gözətçiləri, nə xalq qorxusu, nə xoşbəxt vətəndaşların gur yığıncaqları, nə bu senatın əlçatmaz iclas yeri, nəhayət, nə də burada iştirak edənlərin qəzəbli sifətləri sənə heç bir təsir bağışlamadı? Məgər görmürsənmi ki, daha sənin hamıya məlum olan sui-qəsdin əl-qolundan buxovlanıb, zəncirlənmişdir? Keçən gecə və ondan qabaqkı gecə nə etməyin, harada olmağın, məsləhət üçün kimləri çağırmağın, hansı qərar qəbul etməyin, səncə, bizdən kimə məlum deyil?

2. Ey zəmanə, ey ürfi-ədalət! Bunların hamısını senat çox yaxşı bilir, konsul görür, o hələ sağdır! Sağdır! Bu azdır, o, senata gəlir, dövlət işlərinin müzakirəsində iştirak etməyi arzu edir; o bizlərdən gah birimizi, gah başqasını nəzarət altına alıb ölüm cəzasına məhkum edir. Biz isə qoçaqlıq edirmiş kimi, belə hesab edirik ki, əgər onun ağılsız hərəkətlərindən, sui-qəsdindən diqqətimizi yayındırmağa çalışırıqsa, dövlətin xilası üçün mümkün olan hər şeyi edirik! Katilina, konsulun əmrilə səni çoxdan ölümə göndərmək lazım idi; bizə qarşı hazırladığın ölüm zəncirini sənin öz boynuna keçirmək daha qanuni olardı.

3. Bizim dövlətdə bir vaxtlar belə cəsarətli hərəkət olmuşdur ki, qəti qərarlı vətəndaşlar cəmiyyət üçün zərərli ünsürləri ən qəddar xarici düşməndən daha şiddətli tədbirlərlə edam etməyə ürək etmişlər. İndi də bizdə, Katilina, sənə qarşı senatın böyük və mühüm qərarı vardır. Dövlətin əlində senatın müdrik göstərişi var. Biz, açıq deyirəm, biz ləngidirik. Budur 20 gündür biz gözləyirik, senatın iradəsinin qılıncı isə kütləşməkdədir. Doğrudur, onun qərarı qınına qoyulmuş qılınc kimi hələlik protokoldadır. Bu hökmün gücü ilə Katilina, sən ləngidilmədən edam edilməli idin. Lakin sən, hələ sağsan; həm də öz

[1] Lüssi Sergey Katilina (e.ə.108-62) – Dövlətə qarşı üsyan edən patrisilərin başçısı olmuşdur. Konsul seçkilərində məğlub olan Katilina tərəfdarlarını başına toplayaraq üsyana hazırlaşır. Siseronun senatda söylədiyi nitq, senatı Katilinaya qarşı hiddətləndirmiş və onu dövlət düşməni adlandırmışdır. Katilina açıq müharibəyə keçərək, Siserona müvəffəqiyyətsiz sui-qəsddən sonra, Roma şəhərini tərk etmiş və 12-ci ildə vuruşda öldürülmüşdür.

ehtiramsızlığından imtina etmək üçün yox, onu daha da artırmaq üçün yaşayırsan. Atamız senatlar, mən mərhəmətli olmaq istəyirəm: dövlət üçün belə təhlükəli vaxtlarda mən ruhi müvazinətimi itirmək xəyalında deyiləm. Lakin artıq mən öz-özümü qəti hərəkətsizlik və yaramazlıqda taqsırlandırıram. Respublika əleyhinə düşmənlərin düşərgəsi artıq İtaliyada Etruriya dərəsindədir, düşmənlərin sayı gündən-günə artır, lakin düşərgənin rəisini, bu düşmənlərin rəhbərini öz divarlarımız arasında, hətta senatın özündə görürük; o, burada, içərimizdə, respublikaya qarşı hər gün bir ölüm planı fikirləşir.

Katilina, əgər, indicə səni yaxalayıb, edam etdirsəydim, bəzilərinin məni lüzumsuz sərtlikdə məzəmmət etməsindən deyil, bütün ağıllı vətəndaşların bunun artıq çox gec olduğunu demələrindən qorxardım. Lakin çoxdan edilməli olan işi indi əsaslı səbəbə görə yerinə yetirməyə qərar verirəm. Mən səni edama ancaq o zaman göndərəcəyəm ki, yaramazlıqda, alçaqlıqda sənə bənzər bir adam belə olsa, bu cəzanın qanuni olmasilə razılaşmamış olmasın. Fəqət, hələ səni müdafiə edən bir nəfər belə tapılsa, sən yaşayacaqsan; indiki kimi çoxlu və möhkəm mühafizə dəstəsinin nəzarəti altında yaşayacaqsan və dövlətə qarşı barmağını da tərpədə bilməyəcəksən. Yüzlərlə göz və qulaqlar səni indiyə qədər olduğu kimi izləyəcəkdir – sən isə bunu heç hiss eləmirsən də!

VƏTƏNİN SÖZÜ

Onun ölümünə çalışdığını çoxdan bilən anamız – vətən sənə qarşı dəhşət və nifrət təlqin edir; doğrudanmı sən onun nüfuzundan xəcalət çəkmir, onun iradəsinə tabe olmur, onun gücündən qorxmursan? Katilina, vətən sənə müraciət edib, elə bil susaraq belə deyir: "Bir neçə ildə elə bir xəyanət olmamışdır ki, sənin iştirakın olmasın, heç bir iyrənc cinayət sənsiz sovuşmamışdır; cəzasını çəkmədiyindən, sənin tərəfindən vətəndaşların qətli, müttəfiqlərin sıxışdırılması və toplanması halları tez-tez baş vermişdir; səndə qanun və məhkəmələrə yalnız etinasız münasibət bəsləmək deyil, hətta onları ədəbsizcəsinə tapdalamaq cəsarəti də olmuşdur. Güzəştə getmək lazım gəldiyi halda, sənin keçmiş rəftarlarına mən mümkün qədər dözmüşəm, lakin artıq o niyyətdə deyiləm, çünki artıq bir sənin təqsirin ucundan daimi həyəcanda olmaq istəmirəm, mən daha istəmirəm ki, hər kiçik xışıltı ilə Katilinanın qəzəbli kabusu qarşımda dayansın, nəhayət, qoy sənin

cinayətkarcasına iştirakın olmadan mənə qarşı heç bir bədniyyət olmayacağı haqqında hamıda qəti bir fikir hasil olsun. Ona görə də, get və məni bu qorxudan rahat burax; əgər əsaslıdırsa mən qorxunun ağırlığından qurtarım, yalandırsa bir zaman narahatlıq hisslərini yoxlamağa nəhayət verərəm".

İKİNCİ NİTQDƏN PARÇA

KATİLİNA TƏRƏFDARLARININ SƏCİYYƏSİ

Ey Roma vətəndaşları, hər şeydən əvvəl, mən görkəmli Katilina dəstələrinin hansı növ adamlardan, kimlərdən ibarət olduğunu aydınlaşdırmağa çalışacağam; bundan sonra öz gələcək nitqimdə hər dəstəyə ayrılıqda, bacardığım qədər xeyirli məsləhətlər verəcəyəm. Birinci dəstəni çoxlu borcları olmasına baxmayaraq, hələ kifayət qədər torpağa sahib olan adamlar təşkil edir; həmin mülklərə başçılıq ucundan onlar öz borclarını verib canlarını qurtara bilmirlər.

Maddi vəsaitləri ilə mötəbər, xarici görkəmləri ilə cəmiyyətdə çox tərbiyəli görünən bu adamlar, məqsədləri, hərəkətləri ilə son dərəcədə iyrənc və həyasızdırlar. Sən çox böyük miqdarda torpaq, ev, mülk, nökər və başqa mallara maliksən; lakin yenə də öz mülkiyyətinin bir hissəsindən əl çəkmək istəmirsən; halbuki, bununla sən öz nüfuzunu artıra bilərdin. Əslində sən nə gözləyirsən? Müharibəmi gözləyirsən? Doğrudanmı belə fikirləşirsən ki, müharibənin doğurduğu xarabazarlıq içərisində sənin mülklərin toxunulmaz qalacaqdır. Yoxsa səni, borcların siyahısını yenidən tutmaq vədi şirnikləşdirmişdir? Bunları Katilinadan gözləyənlər səhv edirlər. Bax, mənim mərhəmətim ilə yeni siyahılar, lakin hərrac siyahılar dərc olunacaqdır, çünki iri torpaq sahiblərini iflasdan xilas etməyin başqa çarəsi yoxdur. Əgər onlar, öz mülklərindən əldə edilən gəlir ilə faizləri ödəmək kimi mənasız işlərə əl qatmasaydılar, biz onların şəxsində daha zəngin və daha ümidverici vətəndaşlar görə bilərdik. Buna görə də, məncə, bu adamlardan o qədər də qorxmaq lazım gəlmir, çünki onları öz baxışlarından imtinaya məcbur etmək asandır; əgər onlar öz dediklərinin üzərində israr etsələr, məncə, əllərinə silah götürməkdən ziyadə, dövləti lənətləməklə kifayətlənəcəklər.

İkinci dəstə borclarla yüklənmiş olduqları halda, hökmranlıq iddiasında olan adamlardan ibarətdir. Onlar ali hakimiyyəti ələ almaq

üçün çalışırlar. Hadisələrin adi gedişi ilə əldə edə biləcəkləri hörmətli vəzifələrə inqilabi yolla çatmağa ümid edirlər. Görünür, onlara da başqaları kimi eyni məsləhəti vermək lazım gəlir; qoy onlar cəhd etdiklərinə çatacaqları ümidindən əl çəksinlər; qoy onlar unutmasınlar ki, mən özüm mürgüləmirəm, öz vəzifə cəbhəmdə sayıq dayanmışam və dövlətin üzərindən gözlərimi çəkmirəm; həm də xoşniyyət vətəndaşlar ruhlanıb ayağa qalxmışlar, onların birlik səsi möhkəmdir, onların çoxlu partiyaları var, hərbi qüvvələri tükənməzdir; nəhayət, dəhşətli cinayət zorakılığına qarşı mübarizədə bizim məğlubedilməz xalqımıza, şanlı dövlətimizə və çiçəklənən şəhərimizə ölməz allahların özləri bilavasitə kömək göstərəcəklər. Lakin fərz edək ki, onlar öz vəhşi ağılsızlıqları ilə nəzərdə tutduqları məqsədə nail oldular; doğrudanmı onlar xarabazara çevrilmiş, öz həmvətənlərini qanı ilə boyanmış şəhərdə həqiqi konsul, diktator və ya çar olmağa ümid edirlər? Onlar başa düşürlər ki, çoxdan hazırladıqları puç arzuları həyata keçirdikləri zaman öz yerlərini bir qaçaq qula və ya qladiatora verməyə məcbur olacaqlar.

Üçüncü qrupu həyat əldən salıb usandırmışdır, lakin onlar çox bərkə-boşa düşdükləri üçün təcrübəli, həm də möhkəmdirlər. İndi Katilinanı əvəz etməyə gedən Manli[1] bu qrupa mənsubdur. Bu adamlar Sullanın[2] əsasını qoyduğu müstəmləkələrdəndir; onlar mənim yaxşı bildiyim kimi, ümumiyyətlə, xeyirxah və möhkəm vətəndaşlar sırasına aiddirlər, lakin onlar gözlənilməz və sürətli varlanma zamanında nə vasitə, nə də vəziyyətlərinə uyğun yaşamışlar. Əsl dövlətlilər kimi gözəl saraylar bina edərək cazibədar malikanələrdən çoxlu nökərlərin qulluğundan, israfçı qonaqlıqlardan zövq almaqla elə ağır borca düşmüşlər ki, bundan yaxa qurtarmaq üçün onlara Sullanı yenidən diriltmək lazım gələrdi; onlar bir sıra kəndlilərdə – yoxsul və kasıb adamlarda, köhnə zamanlarda olduğu kimi soyğunçuluğa, qarətə meyl oyatmışlar. Vətəndaşlar, mən, başqaları kimi onları da oğru və soyğunçuların dəstəsinə aid edirəm, lakin öz ağılsız ümidlərindən əl çəkmək,

[1] Manli Torkvat – 65-ci ildə konsul seçilmişdir. Siseronun dostudur. Siseron bir çox nitqlərində onu mədh edir.

[2] Sulla (e.ə. 138-78) – 82-ci ildə Romanın diktatoru olmuşdur. Əhali onun haqqında demiş ki, Sullanın yarısı tülkü, yarısı aslandır. Onun birinci yarısı daha qorxuludur. L. Sulladan başqa, Roma tarixində oğlu Favet Sulla və qardaşı oğlu Publi Sullanın da adları şöhrət qazanmışdır.

diktatura və proskripsiya haqqındakı fikirləri bir yana atmaq sayəsində onları xəbərdar etməyi lazım bilirəm. Çünki cəmiyyətdə elə dövrlər haqqında elə kədərli xatirələr hasil olmuşdur ki, zənnimcə, nəinki insanlar, hətta heyvanlar da o zamanın bir də təkrar olunmasına razı olmazlar.

Dördüncü qrup son dərəcə müxtəlif, dolaşıq və nizamsızdır; qismən tənbəlliyi, qismən də işə pis yiyəlik etmək ucundan ayağı altdan möhkəm zəminini itirib borcların yükü altında inləyənlər, məhkəmənin dəvətlərindən və hökmlərindən cana gələn, var-yoxları hərrac ilə satılan bu adamlar əksəriyyətlə şəhər və kəndlərdən Katilinanın düşərgəsinə üz qoymuşlar. Mən onları döyüşə qabiliyyəti olan əsgərlərin ziyadə borclarını müntəzəm ödəməyi bacarmayan borclular sırasına daxil edirəm. Madam ki, onlar öz borclarından xilas olmağı bacarmırlar, qoy ölsünlər; lakin belə ki, onların ölümü nəinki bütöv bir cəmiyyətdə, hətta yaxın bir qonşuda də öz təsirini buraxmasın. Mən heç cürə başa düşə bilmirəm ki, əgər onlar şərəflə yaşamağı bacarmırlarsa, nə üçün biabırcasına ölmək istəyirlər, yaxud nə üçün onlar elə fikirləşirlər ki, kompaniyalar təşkil edərək dəstə halında ölmək, tək-tək ölməkdən az əziyyətli olacaqdır.

Beşinci qrup, canilərdən, quldurlardan, bir sözlə, hər cür cinayətkarlardan ibarətdir. Onları mən Katilinanın yanından geri çağırmaq qərarında deyiləm, çünki onları Katilinadan ayırmaq heç cür mümkün deyildir. Həmin adamların quldurluqda ölmələri daha yaxşıdır; çünki onları cəmiyyətdən təcrid etmək üçün həbsxanalar lazımdır. Həbsxanalar isə azlıq edər.

Axırıncı qrup yalnız öz sayına görə deyil, həm də miqdar və həyat tərzlərinə görə Katilinanın daha sədaqətli tərəfdarları, onun seçiciləri, dostları və əzizləridir; siz onlara hər gün bığları, saçları yağlanmış, şıq daraqlanmış, saqqalları zərif və səliqə ilə düzəlmiş, uzunqollu tuniklərdə (alt köynəyi) toçi əvəzinə kətan parçalara bürünmüş halda rast gələrsiniz; onların bütün həyat enerjisi səhərə kimi davam edən axşam yeməyinə sərf olunur; bu quldur dəstələrində hər cür oyunbazlar, ziyankarlar, əxlaqsızlar və həyasızlar cəmlənmişlər. Bu nəfis bəzəkdüzəkli gənclər nəinki sevməyi və sevilməyi, rəqs etməyi və oxumağı, həmçinin xəncər əldə etməyi və zəhərli içkilər hazırlamağı da öyrənmişlər. Bilin, əgər onlar kökündən kəsilib məhv edilməzsə, hətta Katilinanın ölümündən sonra da, bizim dövlətimizdə yeni "katilinalar" yetişdirə biləcək bir zəmin kimi qalacaqdır. Bu üzdən iraq adamlar nə istəyirlər? Doğurdanmı, öz əxlaqsız aşnalarını da düşərgəyə

aparmaq fikrindədirlər? Bəli doğurdan da belədir; xüsusilə bu uzun gecələri aşnasız keçinmək olar? Məsələ burasındadır ki, onlar Apenindən, onun qarlı və qırovlu keçidlərindən necə keçib gedəcəklər. Bununla belə, onlar soyuğa qarşı dözəcəklərinə nahaq yerə ümid etmirlər, çünki öz məclislərində çılpaq rəqs edərək bədənlərini möhkəmlətmişlər...

"NATİQ HAQQINDA" RİSALƏDƏN

MÜLKİ-SİYASİ NATİQİN OBRAZI

1-20. Mənim fikrim belədir ki, ən vacib fənləri və elmləri öyrənməyən bir adam hər cəhətli mükəmməl natiq ola bilməz. Doğrudan da, nitq öz mövzusunun gözəl məhsulu kimi cazibəli olmalıdır; əgər natiq öz nitqinin mövzusunu dərk etməmiş və mənimsəməmişsə, belə bir nitqin şifahi forması sönük və uşaq boşboğazlığı kimi görünəcəkdir.

48. Kim, natiqi ancaq məhkəmə mübahisələrinin təşkili və gedişində ya xalq qarşısında və yaxud senatda çıxış edərək məzmunlu danışa bilən bir adam kimi müəyyən edirsə, o zaman onda kifayət qədər ləyaqət olduğunu etiraf etməlidir.

Məsələ burasındadır ki, ictimai işlərin müxtəlif sahələrində hər cəhətli təcrübəli olmayan, hüquq, adət və qanunları bilməyən, xarakterlər və insan təbiətilə yaxşı tanış olmayan bir natiq bu sahədə də kifayət qədər möhkəm və çevik hərəkət edə bilməz. Bütün bu biliklərə malik olan natiq ki, onlarsız məhkəmədə ən kiçik məsələləri düzgün müdafiə etmək çətindir, insan biliyinin ən ali nöqtələrini mənimsəyə bilər; buna şübhə yoxdur. Əgər natiqin gücü, ancaq, düzgün, gözəl və məzmunlu danışmaq qabiliyyətində isə, sizdən soruşuram: bəs bu zəngin bilik olmadan o, necə öz gücünü və qabiliyyətini göstərə bilər?

Seçdiyi məzmunu tamamilə mənimsəməyən natiqin söz sənətini təsəvvür etmək olmaz. Biliksiz soz sənəti ağla sığmaz.

Beləliklə, bəs fərq nədədir? Adını çəkdiyim yazıçıların ifadə gözəlliyi və kamilliyi ilə belə bir rəngarənglik və nəfislikdən məhrum olan bəzi yazıçıların ifadələrindəki quruluq və yeknəsəqlik arasındakı fərqi necə müəyyən etmək olar?

Əlbəttə, bir fərq var: fitri olaraq gözəl ifadə qabiliyyətinə malik olan adamlar nə isə özlərinə xas bir şey, daha doğrusu, müfəssəl, gözəl, bədii cəhətdən mükəmməl bir ifadə gətirirlər. Lakin mənası lazımi

qədər dərk edilməmiş məzmunsuz bir nitq həqiqi bir nitq olmayıb, ümumiyyət tərəfindən gülünc vəziyyətdə qarşılanar.

51. Doğurdan da, hətta ən seçmə və zərif ifadələrlə dolu olan bir nitq belə, bir fikrə və biliyə əsaslanmırsa, ibarələrin boş səs-küyündən başqa bir məna verməz.

Deməli, əgər natiq hər hansı bir məsələni, incəsənətin hansı növü olursa-olsun, hansı iş sahəsinə aid olursa-olsun, işi əsaslı surətdə öyrənərsə, onu işin ixtiraçısından və ustasından da yaxşı və gözəl ifadə edə bilər.

52. Əlbəttə, əgər bir sıra natiqlərə ancaq məhkəmə sərhədlərilə hüdudlanan xüsusi, özünəməxsus fikir, məsələ və müəyyən bilik dairəsi olduğunu desələr, mən razılaşaram; doğrudan da bizim nitqimiz ən çox bu sahədə dövr eləyir; lakin elə həmin bu məsələlər dairəsində də ritor adlanan müəllimlərimizin nə bildiyi, nə də tədris etdiyi çox şeylər vardır.

53. Məsələn, kimə məlum deyildir ki, natiqlərin gücü ən çox, dinləyicilərdə qəzəb, nifrət, kədər oyatmaq və əksinə, bu effektlərdən yumşaqlığı, şəfqətliliyə meyl hissi canlandırmaq bacarığında özünü göstərir. Müxtəlif səciyyəli insanların ürəyinə nüfuz etməyi bacarmayan, onları həyəcana gətirən və ya sakitləşdirən səbəbləri bilməyənlər öz nitqlərilə arzu etdikləri məqsədə çata bilməzlər.

54. Bütün bu sahə filosoflara aiddir və natiqlərə məsləhət görürəm ki, bu fikrə qarşı mübahisə etməsinlər. O, bu sahəni onlara güzəştə getməlidir, çünki filosoflar bu sahədə işləməyi arzu etmişlər; lakin bu bilik aləminin şifahi ifadələrini yaratmaq işini natiq öz xüsusi malı elan edəcəkdir, çünki ifadə məzmunsuz heçdir, axı məhz bu cəhət, dəfələrlə dediyim kimi, natiqin öz nailiyyətidir; nitq nüfuzlu, gözəl, dinləyicilərin anlayacağı və fikir tərzinə uyğun şəkildə olur.

55. Bu məsələlər haqqında Aristotel[1] və Feofrast[2] yazmışlar, mən bunu inkar etmirəm. Məgər Seevola[3], mənim bu sözlərimi təsdiq etmirmi? Onların natiqlə ümumi olan nələri varsa, mən onlardan istifadə etmirəm. Onların özləri bu sahədəki xüsusi tədqiqlərini natiqlərin işi hesab edirdilər. Buna görə də filosoflar bütün başqa

[1] Aristotel-Ərəstu (384-322) – Yunan filosofudur.
[2] Feofrast (390-305) – Yunan filosofu və nəbatat elminin babasıdır.
[3] Seevola – Siseronun müəllimidir.

kitablarını öz elmlərinin adı ilə adlandırdıqları halda, bu sahəyə aid olan tədqiqlərinə ritorika adı vermişlər.

56. Doğrudan da, əgər natiqlər, tez-tez baş verdiyi kimi, nitqin inkişafında ölməz allahlar, şərəf-namus, barışıq, dostluq, ümuminsan hüququ, ədalət hissi, təmkinlilik, böyük ürəklilik və ümumiyyətlə, hər cür xeyirxah əməllər haqqında söhbətə hücum çəksələr, mən əminəm ki, filosofların bütün gimnaziya və sairə məktəbləri səs qaldıracaqlar ki, bütün bunlar onların öz sahələridir, onun natiqlərə heç bir dəxli yoxdur.

57. Mən onlara bu məsələlər haqqında vaxtlarını keçirmək üçün hər hansı bir künc-bucaqda danışmalarına icazə verməyə hazıram, lakin natiqə yenə də onların haqqında quru və cansız dillə mühakimə yeritdikləri, həmin məsələləri bütün gözəllik və nüfuzluluğu ilə inkişaf etdirməyi lazım bilirəm. Afinada olduğum zaman mübahisədə bu fikrimi filosofların özlərinə dedim. Belə bir mübahisəyə məni oyunları təşkil edən və ticarət nəzarətçisi M. Marssel məcbur etdi; o şübhəsiz, oyun düzəltməklə məşğul olmasaydı, bizim bu söhbətimizdə də iştirak edirdi; o, hələ o zaman bütün öz gəncliyilə məşğələlərin bu növünə təəccüb ediləcək dərəcədə bağlanmışdı.

58. Məsələ ondadır ki, bütün gücünü onu dərk etməyə, işləməyə verənlərin öz müstəsna nailiyyətini təşkil edən məlum sahələrin nə olduğunu mən heç bir zaman inkar etməyəcəyəm; lakin mən yenə təsdiq edirəm ki, hər cəhətdən kamil və mükəmməl natiq hər cürə məsələ haqqında mənalı və rəngarəng danışmağı bacaran adamlardır.

XIV. 60. Mən soruşuram, hərbi işdə təcrübəsiz olub, quru və ya dənizlərin yerləşməsini bilmədən bir hərbi rəisin əleyhinə danışmaq və ya onu müdafiə etmək mümkündürmü? Dövlət işlərini dərindən bilib, başa düşmədən xalq qarşısında qanunların qəbul olunub-olunmamasından, senatda isə bütün idarə işləri haqqında danışmaq mümkündürmü? Filosoflar tərəfindən aydınlaşdırılmış insanların müxtəliflik və xarakterlərindəki şəxsi xüsusiyyətlərini incədən-incəyə öyrənmədən dinləyicilərin fikir və hisslərini alovlandırmaq və ya yumşaltmaq məqsədini daşıyan nitq qurmaq olarmı?

61. Bax, sizi inandırmağa az müvəffəq olduğum cəhət nədir? Mən bu barədə öz fikrimi söyləmək istəmirəm. Fizika, riyaziyyat və başqa elmlər və sənətlər indicə sən misal gətirdiyin sənətlər öz məzmununa görə mütəxəssislərin əldə etdikləri biliklərin mövzusunu təşkil edir; lakin onları gözəl bir üslubda ifadə etmək istəyənlər natiqin sənətinə müraciət etməyə məcburdurlar.

64. Buna görə də, məncə, bütün xüsusiyyətləri əks etdirən əsl natiq adına o adam layiqdir ki, ona tapşırılan nitqdə inkişaf etdirilməsi lazım gələn hər hansı bir məsələni, mövzunu başa düşərək gözəl, nəfis, heç bir şeyi unutmadan həm də ifa zamanı məlum qaydalara riayət edərək ifadə etsin.

65-69. Hər hansı predmetin mütəxəssisinin yanında (məsələn, hərbi işə, fəlsəfəyə, xüsusilə etikaya dair) məlumat toplayan natiq həmin predmeti öz mütəxəssisindən daha gözəl ifadə edir.

XVI. 69. Doğrudan da, əgər arif adamlar razıdırlarsa ki, məsələn, astronomiya ilə tanış olmayan Arat[1] gözəl və məlahətli şeir ilə göy və göy cisimləri haqqında mövcud olan nöqteyi-nəzərləri ifadə etmişdir, həmçinin kənd təsərrüfatı haqqında işə yad olan Nikandr Kolofonski[2] yüksək bir şeriyyətlə, lakin kənd təsərrüfatı işlərinə qabiliyyəti olmayan bir şəkildə yazmışdır, onda nə üçün natiq müəyyən iş üçün məlum vaxta kimi tanış olduğu predmetlər haqqında nitqin ən yüksək formasında danışmasın.

70. Axı şair natiqə çox bənzəyir; o, ancaq ritmə daha çox bağlıdır və sözləri sərbəst seçir; lakin nitqin gözəlləşdirilməsi üsulunda onlar müttəfiqdirlər, hətta az qala bir-birinin eynidirlər; əlbəttə, bir cəhətdən onlar, demək olar ki, bir-birinin eynidir: məhz nə şair, nə natiq, eyni üsula və eyni dərəcədə istədikləri aləmdə qanad çalmağa mane olan heç bir sərhədlə öz fəaliyyət sahələrini bir çərçivəyə salıb məhdudlaşdırmır.

NATİQ VƏ AKTYOR

Roma natiqlik sənəti aktyor sənətinə çox yaxın olmuşdur. Məlumdur ki, jestikulyasiya və tərzi-hərəkət yaratmaq bacarığını Siseron öz dövrünün ən görkəmli aktyorları olan Ezop və Rossiyadan öyrənmişdir: "Natiq haqqında" traktatda natiq və aktyorun bu yaxınlığı aydın izah olunur.

XI. 189. Əgər natiq tərəfindən, hakimlərdə onun yaratmaq istədiyi ruhi hərəkətlər onun özündə təsirli və aydın ifadəsini tapmasa, dinləyicilərin kədərlənməsi, nifrət etməsi, bədxahlığı hiss etməsi, qorxması, ağlamaq və iztirab həddinə çatması mümkün deyildir.

---

[1] Arat (e.ə. 315-240) – Qədim yunan şairidir. Antiqona Qanatın tapşırığı ilə astronomiya haqqında şeirlər yazmışdır.

[2] Nikandr Kolofonski – İskəndəriyyə natiqidir.

190. Doğrudan da, sən qəzəb oyatmaq istədiyin bir adama laqeyd münasibət bəslədiyini hiss etdirsən, ona qarşı hakimi qəzəblənməyə məcbur etmək asan deyildir; sənin nifrət hissi qaldırmaq istədiyin adama qarşı sənin özündə nifrət alovunu görməyən hakimdə həmin adama qarşı nifrət aşılımıq asan deyildir; sən hakimin qarşısında sözlər, fikirlər, səs, sifətin ifadəsi, nəhayət, göz yaşların ilə öz kədərinin əlamətlərini büruzə vermədən məhkəmə sədrini iztirab, həyəcan həddinə çatdırmaq mümkün deyildir.

191. İnsanın bu qədər qəzəblənməsi, kədərlənməsi, onda bu qədər ruhi hərəkətlərin baş qaldırması, xüsusilə işində qeyri-adi və təəccüblü görünməmək üçün nitqdə verilib inkişaf etdirilməsi lazım gələn fikir və ümumi üsulların gücü o dərəcədə böyük olmalıdır ki, hiylə və yalançı vasitələrə ehtiyac qalmasın. Başqalarını həyəcanlandırmaq məqsədi güdən bu nitqin öz təbiəti hər hansı bir oxucudan daha çox natiqin özünü həyəcanlandırmağa qabildir.

192. Hətta özünə yad olan adamı belə, insanların əhval-ruhiyyəsinə görə müdafiə edərkən, o özünə yad bilməməlidir.

193. Bu bizə təəccüblü görünməsin deyə soruşuram: şeirlər, şairanə səhnələr, pyeslər xəyalın məhsulu deyildir, nədir? Lakin buna baxmayaraq mən bu sahədə də çox görmüşəm ki, aşağıdakı şeri tələffüz edərkən maska arxasından aktyorun gözləri alovlanır:

Sən onu gözündən eləyib, fəqət,
Salaminə təkmi girmək istədin?
Ata baxışından çəkmədinmi xəcalət?

Aktyor "baxışından" sözünü heç zaman elə tələffüz etmədi ki, mən Telemonu qəzəblənməmiş və oğul kədərindən kənar görüm. Lakin həmin aktyor öz səsinə şikayət tonu verərək: "Uşaqlarından əli çıxmış bir adamı sən incitdin, yetim qoydun, məhv etdin; sən qardaşının ölümü və onun sənin himayənə etibar edilmiş kiçik oğlu haqqında düşünmədin" – sözlərini deyərkən, o, ağlaya-ağlaya, iztirab və göz yaşları içərisində tələffüz edirdi.

Natiq haqqında. 221. Bizim üzv adlandırdığımız tam bitkin dövr öz dövriyyəsində təxminən 4 hissədən ibarət olur: bu vəziyyətdə o, tələb olunandan nə qısa, nə uzun olmayaraq, eşitmə qabiliyyətinə lazımi məqbulluq verir. Bununla belə, bəzən, hətta, əksəriyyətlə bu və ya digər cəhətə meyl olur; belə ki, həddindən artıq qısalıq ilə dinləyicilərin zənnini aldatmaq və ya dövrün yersiz uzunluğu ilə onların diqqətini kütləşdirməmək üçün ya dövrü bir qədər uzatmaq, ya da tez fasilə vermək lazım gəlir. Lakin mən orta normanı nəzərə alıram; axı bizdə söhbət şeir haqqında deyil, daha əhəmiyyətli dərəcədə azad nəzərə çarpan proza qanunları haqqında gedir.

222. Beləliklə, tam dövr heksametr ölçülü şeir kimi təxminən 4 hissədən ibarət olur. Bu ayrı-ayrı şeirlərin sonu sonrakı hissələri birləşdirən qovşaqlar kimidir; biz də dövrədə bu qovşaqları birləşdiririk. Əgər biz ayrılmış şəkildə demək istəyiriksə, bu yerlərdə fasilə edirik; beləliklə də, lazım olduğu zaman, nitqin bu fasiləsiz axınının ciddi tələblərindən tez-tez və asanlıqla yaxa qurtara bilirik.

Natiq. 49 (164). Yalnız sözlərin qarşılıqlı yerləşdirilməsində deyil, həmçinin dövrün sonuncu üzvlərində də qanunauyğunluğu gözləmək lazımdır; çünki bu, yuxarıda göstərildiyi kimi, eşitmə qabiliyyətinin ikinci tələbidir. Lakin sonlarda qanunauyğunluq ya sözlərin, sanki qeyri-ixtiyari, öz düzülüş yolu ilə, ya sözlərin müəyyən həmcinsliliyi gücü ilə baş verir ki, öz-özünə onların simmetrik xarakterini şərtləndirir: onların eyni hal şəkilçiləri varmı, onlarla həmcins anlayışlar verilirmi və ya əks cəhətlər qarşılaşdırılırmı – belə qruplaşmalar, onlarda sünilik olmamasına baxmayaraq, öz təbiəti etibarilə ritmik görünəcəkdir.

50 (166). Yunanların antiteza adlandırdıqları, yəni müxtəlif anlayışların qarşı-qarşıya qoyulması ilə həmişə labüd, həm də hər cür sünilikdən azad, natiq ritmi yaranır.

168. Bunu hiss etməyənlərin, bilmirəm, qulaqları necədir və ümumiyyətlə, belələrini insan adlandırmaq olar, ya yox? Mənim zövqüm son dərəcə həm bitkin və tam dövrədək ləzzət alır, həm onun qısaldıldığını hiss edir, həm də çox uzunçuluğu sevmir. Lakin nə üçün ancaq elə məndən danışmalı? Mən, ifadənin gözəl bitməsini hamı tərəfindən bəyənildiyinə bütün yığıncağın gurultu ilə qarşılanmasına çox rast gəl-

mişəm. Axı bizim zövqümüz gözləyir ki, fikir sözlərdən don geyərək bitkin bir bütövə, tama çevrilsin.

Bu periodik dövretmə sonralar kəşf edilmişdir; inanıram ki, qədimdə də bu üsul məlum olsaydı, onu əməli işdə tətbiq edərdilər; kəşfindən sonra, gördüyümüz kimi, bütün böyük natiqlər ondan istifadə etmişlər.

170. Lakin məhkəmə və forum nitqində ritmdən danışanda artıq istilahın özü etiraza səbəb olur. Bu elə təsəvvür yaradır ki, dinləyicilərin zövqünə hakim olmaq üçün əgər nitq prosesində natiq doğrudan da ritm axtarıb tapırsa, onda, guya, natiq hiylə yoluna müraciət edir. Belə adamlar buna əsaslanaraq özləri qırıq-sökük ibarələrlə danışır, gözəl və bitkin cümlələrlə danışanlara isə tənə edir, onları məzəmmətləyirlər; əgər ifadələr boş sözlərdən, mənasız fikir yığnağından ibarət olursa, onların ədalətli məzəmmətinə səbəb olur; əgər bu sözlərdə ləyaqətli bir məzmun verilmiş və seçilmiş ifadələr varsa, nə üçün nitq büdrəməli və gözlənilməz fasilələrlə müşayiət olunmalıdır, fikirlə birlikdə rəvan cərəyan etməlidir. Axı bu "nifrətə layiq" ritm fikri sözlərlə gözəl şəkildə ifadə etməkdən başqa heç nə etmir; bunu qədim natiqlər də, əksəriyyətlə təsadüfi olaraq, bir çox hallarda isə təbii hisslər sayəsində edirdilər; lakin onların, xüsusilə yüksək qiymətləndirilən ifadələri məhz öz bitkin formasına görə qiymətləndirilir.

(185). Ümumiyyətlə, prozaik nitqi gözəlləşdirən iki ünsür mövcuddur: sözün gözəlliyi və ölçünün gözəlliyi. Sözlərdə nə isə bir material, ritmdə isə onun bədii yaraşığı mövcuddur. Ancaq, bütün başqa sahələrdə olduğu kimi, tələbatın doğurduğu kəşf, zövq əldə etmək üsullarından daha qədimdir. Burada da belədir: bu sahədə yalnız fikri ifadə üçün tətbiq edilən çılpaq və yaraşıqsız nitq bədii nitqdən əsrlərlə əvvəl kəşf edilmişdir.

(186). Çünki daha asan və daha zəruri olan şeylər həmişə daha əvvəl mənimsənilir.

(56). Buna görə də metaforalar, yeni düzəlmiş və mürəkkəb sözlər gündəlik məişətdən və danışıq nitqindən alındığı üçün asanlıqla mənimsənilmişdir; ritmə aid olanları isə adi yaşayış və danışıq nitqindən mənimsəmək olmazdı; onun prozaik nitq ilə yaxın və təbii əlaqəsi olmamışdır.

QAY VALERİ KATULL

E.ə. 87-54

Neoterik şeirin ən ustad, ən istedadlı yazarı Qay Valeri Katull olmuşdur. Katull İtaliyanın şimalında Verona şəhərində varlı bir ailədə anadan olmuşdur. Onun anadan olduğu və öldüyü illər dəqiq deyil. Alimlərin uzun-uzadı mübahisələrindən sonra təxmini illər qəbul edilmişdir. Məlumdur ki, o gənc yaşlarında, 30 və yaxud 33 yaşlarında ölmüşdür.

Veronada ibtidai təhsilini aldıqdan sonra iyirmi yaşlarında Roma şəhərinə gələrək paytaxtda yaşamışdır. Atasının Yuli Sezarla tanış olduğu təxmin olunur. Katull dövlət işlərində xidmət üçün yaşı çatmadığına görə gözləməyə məcbur olmuş, zadəgən gənclərlə birlikdə həyatını eyş-işrətdə keçirmişdir. Atasının onu yaxşı təmin etdiyi bəzi şeirlərindən məlum olur. O, dövlət xadimləri ilə, xüsusən Yuli Sezar ilə mehriban əlaqə saxlamışdır. Siseronu "Romul nəslinin ən gözəl natiqi" adlandırsa da, ona həmişə ironiya ilə yanaşırdı. Yuli Sezar və onun ən yaxşı adamlarından olan Mamurra kəskin həcv yazaraq, Sezarı "Romul nəslinin azğın oğlu" adlandırmışdır. Yuli Sezar bu həcvdən çox əzab çəksə də, onu bağışlamış, kəskin tədbirlərə əl atmamışdır.

Artıq dərəcədə sevdiyi qardaşı səyahət zamanı Troyada vəfat etdiyi üçün bir neçə il matəm saxlamış, ona mərsiyələr yazmışdır. Katull yazırdı ki, "onun ölümü ilə həyatın bütün zövqləri də öldü". 57-ci ildə həmin vilayətə yola düşür. Troyada qardaşının qəbri üzərində ehsan verib ona yenidən yas tutur. Bir qədər yeni vilayətdə qaldıqdan sonra Romaya dönür. Romada vəziyyət dəyişmişdi. Keçmiş tanışlar dağılmışdı. Katullun maddi vəziyyəti də ağırlaşmışdı. Ağır ehtiyac qapını kəsmişdi. O öz maddi vəziyyətini düzəltmək üçün təkrar həmin vilayətə dönür. Lakin əliboş geri qayıdır. Həyatının son illərində Katull Kallimaxın "berenikanın saçı" əsərini iqtibas edir və bu tipli epiliyalar (kiçik dastan) və "toy nəğmələri" (epitalamiya) yazır.

Valeri Katullun bütün ədəbi irsi 116 tamam şeirdən və hərəsi beş misradan ibarət iki parçadan ibarətdir. Bu şeirləri həm məzmun, həm də formaca üç hissəyə bölmək mümkündür: birinci hissə, kiçik formalı aşiqanə, subyektiv, lirik şeirlərdir (1-60 qədər). İkinci hissə, böyük formalı kiçik dastan, epitalamiya və başqa alimanə şeirlərdir (61-68). Üçüncü hissə, elegiya formasında yazılmış həcvlərdən, zarafatla dolu şeirlərindən ibarətdir ki, hamısı 3000 misradır. Bu şeir külliyyatı, birinci şeirdən göründüyü kimi, Korneli Nepota itihaf edilmişdir.

Valeri Katullun birinci qisim şeirlərinin əsas motivi, məhəbbətdir. Bu şeirlərdə şairin Lesbiyaya bəslədiyi məhəbbətin tarixi ifadə edilmişdir. Bütün bu aşiqanə şeirlərin lirik qəhrəmanı isə sevən, sevgidən cismən ləzzət alan

onun əzabını çəkən, qısqanan, küsüb sevgilisini rədd edən şairin özüdür. Lesbiya kimdir, sualına cavab vermək üçün filologlar çox axtarış aparmışlar. Nəhayət, təxmin belədir: Lesbiya əsl sevgilinin ləqəbidir. O, Siseronun düşmənlərindən olan dövlət xadimi Publi Klodi Pulxranın bacısı Klodiyadır. Ərli qadın olduğu üçün Katull onun əsl adını gizli saxlamış və Lesbiya adı ilə tərənnüm etmişdir. Antik və Avropa poeziyasında bu üsul bir ənənə kimi ta XIX əsrin sonlarına qədər davam edir ki, buna "qadın pərəstişkarlığı", (qadın kultu) deyilir. Klodiya, əldə olan sənədlərə və Siseronun dediyinə görə, əxlaqca yüngül, bir çox gənclərin aşnası olan, kişiləri özünə məftun etməkdən xoşlanan ehtiraslı bir qadın olmuşdur. Əri öldükdən sonra öz əməllərini daha çox açıq davam etdirmişdir. Bəziləri bu azğın gözəli öz qardaşı ilə əlaqədə də təqsirləndirmişlər.

V.Katullun ona həsr etdiyi şeirlər yan-yana qoyularsa, aşiqanə macəranın qısa tarixi göz qabağında dayanar. Şairin ona həsr etdiyi şeir şairə Sapfonun məşhur şeiri vəznində yazılmış və Katullun dəlicəsinə məftunluğunu ifadə edir. Yüksək həssasiyyətlə başlanan eşq, yavaş-yavaş qızğın ehtirasa dönür. Gözəlin hər şeyi, əl vurduğu, əziz tutduğu hər şey şair tərəfindən ideallaşdırılıb müqəddəsləşdirilir. Bu münasibəti ifadə edən şeirlər arasında gözəlin sərçəsinə yazılmış şeir diqqəti cəlb edir. Şair gözəlin ölmüş sərçəsinə yas tutur, onun iztirabları ilə şərik olur. Qızğın ehtirasını ifadə edən şeirlərində şair öz meyllərini, arzularını gizlətmir, öz şəhvani duyğularını daha açıq-saçıq ifadələrdə tərənnüm edir. Bundan sonra qısqanclıq anları gəlir. Məlum olur ki, sevgili yeni aşnalar tapmış, əhdü-peymanı unutmuşdur.

Yarın soyuq münasibətləri şairə daha çox əzablar verir. Küsüşmələr, yenidən barışmalar bu iztirabları azaltmır. Vifiniya vilayətinə gedib Romaya döndükdən sonra şairin sevgilisi ilə əlaqəsi kəsilir. Artıq Klodiya şəhərdə əxlaqsızlığı ilə şöhrət qazanmışdı. Klodiya hər nə qədər minnətçilər göndərirsə, şair rədd cavabı verib, yenə Sapfo ruhunda və Sapfo vəznində öz rədd cavabı şeirini yazır. Demək ki, Katull öz eşqini Sapfo tərzində yazdığı şeir ilə başlayır, axırıncı olaraq rədd cavabını həmin tərzdə yazdığı şeir ilə bitirir. Bu şeirlərin məzmunu belədir. Burada eşqin müxtəlif peripetiyaları öz əksini tapır. Hətta ilk şeirlərində Katull eşqi əbədi dostluqdan ibarət bilir. Sonralar, onun eşqi qızğın, şəhvani hisslərə dönür. Şair öz sevgilisinin aydın portiretini verə bilməmişdir. Rəssamlar onun surətini rəsm etməkdə güclük çəkmişlər. Bu da aydındır. Çünki şair öz məşuqəsinin surətindən ziyadə öz hissləri və duyğuları ilə məşğul idi. Onun hər şeirində öz şəxsiyyəti daha qabarıq bir şəkildə ifadə olunmuşdur. Katullun aşiqanə şeirləri, məna etibarilə, dövr üçün nisbətən səciyyələnir. Romada qadınlar Yunanıstana nisbətən daha azad idilər. Bu vəziyyət I əsrdə ailədə müqəddəs bağların zəifləməsi ilə əlaqədar

olaraq, daha qorxulu bir şəkil alır. Gənclər evlənməkdən, ailə qurmaqdan boyun qaçırırlar. Evlənməmək adətini ailə xəyanəti qorxusu ilə bağlayanlar yox deyildi. Əlbət ki, bunun daha başqa səbəbləri də var idi. Bu vaxt ailədə kişilərin öz qadınlarına həddindən artıq azadlıq vermək meylləri geniş surətdə yayılır. Bəzi kişilər öz arvadlarının xəyanətinə göz yumurlar. Belə kişilər cəmiyyətdə tanınır və get-gedə müstəsnalıq təşkil etmirlər. Hec təəccüblü deyil ki imperator Avqust belə kişilər (adyulter) əleyhinə dəhşətli qanunlar nəşr edir. Belə ki, adyulter kişilərin var-yoxu müsadirə, özləri isə ölkədən sürgün edilməli idilər. Lakin bu tipli qanunlar tarixin gedişinə az təsir buraxır. Katullun şeirlərində dövrün bu cəhətləri öz əksin tapmışdır.

O biri tərəfdən, şeirin ictimai motivlərdən uzaqlaşması, fərdi, xüsusi aşiqanə çərçivə içərisində qalması, ümumi düşgünlüyün aydın bir əlaməti idi.

Sənətkarlıq xüsussiyyətlərinə gəlincə, Katullun birinci hissəyə daxil olan şeirləri ifadə, şeiriyyət, vəzn oynaqlığı, ahəngdarlıq nöqteyi-nəzərindən onun şöhrətini təmin etmişdir. Şairin böyük formalı əsərləri, birinci növbədə İskəndəriyyə poeziyası ilə bağlıdır. Məzmunca ellinizm dövrünün şairlərinin kiçik dastanlarını xatırladır. Belə ki, Katull qədim yunan əsatirlərindən öz zövqünə uyğun əhvalatları alaraq, özünə xas əda ilə onları hekayə edir, lirik hekayələr verir. Rəvayətə görə, şair böyük formalı əsərlərini daha çox qiymətləndirirmiş. Halbuki, Katullu Roma ədəbiyyatında məşhur edən lirik şeirləridir.

"Attis" poemasında Yunanıstandan Troyaya yola düşən gözəl gənc Attisin taleyi tərənnüm edilir. Burada o, qəzəb "xəstəliyinə" tutulub dəliləşir. Özünü vakxanka bilir və Sibellanın kahinləri ilə meşəli İda dağlarına yollanır. Sibellanın xoru da həmin dağın başında toplaşır. Attis birdən-birə ayılır, səhvini başa düşür, dəniz kənarına gəlir. Dalğalanan dəniz, ona vətənini xatırladır; vətəndən ayrı düşmüş Attis dərdə düşür qüssələnir. Həmişəlik olaraq Sibellaya kahin və xidmətçi olmaq fikri onu dəhşətə salır. Bunu eşidən Sibella şirlərindən birini Attisin dalınca göndərir. Şir onu qova-qova dəniz sahilindən məbədə gətirir. Əsərin sonunda şair əl qaldırıb Allaha yalvarır ki, bu gözəl gənci ağır əzablardan xilas etsin. Mövzunun yunan əsatirindən götürülməsinə baxmayaraq, burada milli kolorit var. Dastancığın sonunda verilmiş yalvarışlar, Roma xalq ədəbiyyatının ifadə xüsusiyyətlərini yada salır. Əsər gözəl, lakin çətin olan qaliambik vəzndə yazılmışdır.

Şairin yüksək üslubda yazılmış ən görkəmli dastancığı "Peley ilə Fetidanın toyu" adlı əsəridir. Maraqlı kompozisiyaya malik olan əsər arqonavtiklərin səfəri ilə başlanır. Fesalliya hökmdarı Peley səfər zamanı dəniz pərisi Fetidaya rast gəlir. Yupiter pəri Fedtidanı ona ərə verir. Fesalliyada toy təşkil edilmiş, bütün fesalliyalılar toya gəlmişdilər. Gözəl bəzənmiş çarpayı al-qırmızı örtüklə örtülüdür. Burada şair haşiyə çıxaraq çarpayını, örtüyü,

xüsusən örtük üstündə rəsm edilmiş Ariada ilə Tezeyin əhvalatını hekayəyə başlayır. Əsərin yarısı bu əhvalata həsr olunmuşdur. Tezey Krit adasında Minotavrı öldürmək üçün labirintə daxil olur, Krit hökmdarı Minosun qızı Ariadna Tezeyi sevdiyi üçün ona iti qılınc və sap kələfi verir. Tezey həmin kələf vasitəsilə labirintə daxil olub, çıxış yorlunu itirmir. Minotavrı öldürdükdən sonra sağ-sağlamat labirintdən çıxır və bir çox yunan gənclərini də azad edir. Vətəninə dönərkən Ariadna da onun arxasınca gəlir. Yolda Dionis onun yuxusuna girir və xəbər verir ki, Ariadna allahların ifadəsi ilə onun nişanlısıdır. Tezey isə qızdan əl çəkməlidir. Tezey allahlara qarşı çıxa bilməzdi. O, matəm içində Afinaya dönür. Tezeyin atası Afina hökmdarı Egey gəmi yelkənlərinin qara olduğunu görüb zənn edir ki, oğlu Tezey öldürülmüşdür. O özünü uca qayadan dənizə atır. O vaxtdan həmin dəniz Egey dənizi adlanmışdır. Atasının matəmini tutduqdan sonra Tezey Afinanın hökmdarı olur.

Demək ki, əsərdə iki əsatir yan-yana verilmişdir. Peley ilə Fetida və Tezey ilə Ariadna əsatiri. Lakin Katullun əsas mövzusu birinci əsatirdir. Şair əsatirin bir çox yerlərini ixtisara salmış, əsəri bədbin bir sonluq ilə bitirmişdir.

Vaxtilə insanların təşkil etdiyi toylarda iştirak etməkdən çəkinməyən allahlar, cəmiyyətdə cinayət artdıqca insanlardan uzaqlaşmağa məcbur olmuşlar. Ellinist şairlər rəsm tablolarını təsvir edib, mövzu ilə bağlı psixoloji təhlillərə keçməyi çox sevirdilər. Bu üsul onlara məhəbbət macərasını təsirli boyalarla ifadə etməyə imkan verirdi. Əsərdə rəsm tablosunu təsvir edə-edə şair Ariadnanın son monoloquna gəlib çıxır. Monoloq faciələrin, dramların patetik xasiyyət daşıyan monoloqlarını yada salır.

Onun toy nəğmələri də bu hissəyə daxildir. Nəğmələrdən biri, xüsusi sifarişlə yazılmış, Romada toyun bütün mərhələlərini aydınlaşdırır. Başqa toy nəğməsi, oğlanların xoru ilə qızların xorunun müsabiqəsini təsvir edir. Şübhəsiz, oğlan xoru qalib gəlir, nəğmə qalibiyyət şənliyi ilə bitir. Bu nəğmələr göstərir ki, Katull yunan şairəsi Sapfonun yaradıcılığı ilə yaxından tanış imiş.

"Berenikanın saçı" poeması İskəndəriyyə şairi Kallimaxdan iqtibasdır. Hökmdarın gənc arvadı Berenika əhd etmiş ki, əri müharibədən qalib dönsə, öz saçını kəsib allahlara qurban verəcək.

Əri müharibədən qalib dönür, Berenika əhdinə sadiq qalaraq saçını kəsir və məbədə gətirir. Məbəddə zefir onun saçlarını uçurdub göylərə qaldırır və ulduzların yanında yerləşdirir. Bunu hekayə edən saçın özüdür. Saç, Berenikanın başından ayrılıb uzaq düşdüyünə qüssələnir. Saç xahiş edir ki, Berenika və yenicə toy etmiş gənclər ona qurban versinlər.

Poemalardan biri mükalimə şəklində yazılmışdır. Şair, Veronada bir binanın qapısı ilə söhbət edir. Qapı evin bütün sirlərini açıb söyləyir. Həmin evdə olan şair Sessilinin arvadı əxlaqca pozğundur. O, öz ərinin atası ilə yaxın əlaqədə olmuşdur. Bundan əlavə, qadının yüzlərlə aşnası var. Gecələrin və gündüzlərin sirrini yaxşı bilən qapı öz hekayəsi ilə xanımı rüsvay edir. Sessili tarixi şəxsiyyətdir. Şairi bu əsəri yazmağa vadar edən səbəb məlum deyil.

Üçüncü hissədə toplanmış şeirlər şairin həcvlərdir. Qədim yunan satirik şairləri kimi Katull da müəyyən real, tarixi şəxsiyyətləri tənqid hədəfi edir. Bir qayda olaraq tənqid etdiyin şəxsiyyətin bir mənəvi eybəcərliyini və yaxud da cismani şikəstliyini əsas alaraq gülünc və nifrətə layiq surətini yaradır. Surətlərə verilən mənfi sifətlər nisbətən mübaliğəli olsalar da, real rüşeymni saxlamaqdadar. Yuli Sezarın yaxın adamlarından Mamurra yazmış olduğu həcv, o qədər sərt və kəskin idi ki, onu Mamurrdan əlavə Yuli Sezarın özü də yaddan çıxara bilməmişdir. Bunlardan başqa, Katull müxtəlif qadınlara həcvlər yazaraq onların əxlaqsızlığını, sədaqətsizliyini, başıboşluğunu ifşa edir. Qadınlara həsr edilmiş həcvlər, Romada ailə əxlaqının pozulduğunu göstərən bədii sənədlərdir.

V.Katull qədim İskəndəriyyə poeziyasının təsirindən uzaqlaşıb öz vətəninin dərdlərilə nəfəs aldıqca ustad bir şair kimi oxucuların nəzərində yüksəlir. Eyni zamanda şairin öz dəyişkən mənliyi arxasından Roma cəmiyyətinin real guşələri görünür. Şair gah Məcnun kimi aşiqdir, o hər sözü ürəyinə salıb yeni məna verir, gah şən yumor ilə silahlanıb həm özünə, həm özü kimi dostlarına gülür, gah da kəskin, bəzən də bayağı ifadələrlə tənqid hədəflərini döyür. Onun müstəqil şeirləri, saxta pafos, quru ritorik ifadələrdən uzaqdır.

Lirik şeirlərinin təbiiliyi, gözəl sadəliyi, axıcı olması oxucuları o qədər məftun edir ki, onlar latın şairi Katullu, yunan təqlidçi şairi Katulldan yüksək tuturlar.

LESBİYA VƏD EDİR

– Hər an xoşbəxt olacaq – dedin bizim sevgimiz
ey mənim həyatım, sən!
Bəli, bir-birimizə sadiq olacağıq biz
Ayrılıq hiss etmədən!
Gəlin, kömək edin ki, siz ey böyük allahlar,
O, yalan danışmasın.
İstərəm təmiz qəlbdən təmiz gəlsin sözləri,
Çox sevdiyim bu qızın!
Bu sarsılmaz, bu birgə dostluq ittifaqını,
Qoruyaraq hər zaman,
Dincliklə ömür sürüb yaşayaq uzun illər,
Yaşayaq şən, mehriban!

BARIŞAQ

Ümiddən və ölçüdən
Yuxarı qalxsa istək,
Təsadüfi bir günün
Verdiyi səadəti,
Dualayar hər ürək.
Dualanmış gün ki, var.
Həm qiymətli, həm qızıl,
Həm də çox gözəl olar.
Sevgimizi qaytaran
Əziz, qəşəng Lesbiya
Mənimlədir yenə də!
Ümid etmədiyim şey
Çevrildi həqiqətə!
Ah, necə də yenidən
Parlayır gözəl həyat!
Söyləyin, məndən xoşbəxt
Adam varmı bu saat?!
Yer üzündə nə arzu
Edərəm bundan belə?
Ürəyim başdan-başa
Doludur sevinc ilə!

SEVMƏYƏ BİLMƏRƏM

Yox, qadınlar arasında hələ heç kəs
Sənə sadiq aşiq kimi
Sədaqətli bir aşiqlə
Öz-özünü öyə bilməz.
Olmamışdır, bilir ellər
Bir vaxt bizi birləşdirən
O qırılmaz, o sıxıcı
Məhəbbətin tellərindən
Daha möhkəm olan tellər.
İndi isə parçalanıb qəlbim mənim
Zarafatla parçaladın o ürəyi, Lesbiya, sən,
Parçalandı qəlbim mənim ehtirasdan və qüssədən.
Dost olmaram mən sənlə, yenə məsum olsan bu dəm,
Eyvah, cani olsan da sən, səni sevməyə bilmərəm.

DOSTLUQ

Hamıya can yandırdığın yetər məncə, yetər oğlan,
Yaxşılığın əvəzini yamanlıqla alacaqsan.
Dünya özü vəfasızdır, nadanlıqdır xeyirxahlıq,
O, bəlkə də qorxuludur, əl çək ondan, əl çək artıq
Bu vaxtadək düzü heç kəs, heç bilmirəm bu nə işdir,
Ən mehriban dostum qədər, mənə pislik etməmişdir.

LESBİYAYA

Mən ona həm nifrət edir,
Həm sevirəm, nə işdir bu?
Ey allahlar, bir ürəkdə
Necə yaşar iki duyğu?

KƏND GÖZƏLİ

Sabahın xeyir olsun, uzunburun qızcığaz!
Qılçan niyə əyridir, a kifir xırxır boğaz?!
Kobud, yekə əlinlə, kəpənək gözlərinlə,
Nəcabətsiz, ədəbsiz o kəndli sözlərinlə,

Formiyalı dostunun xəzinə oğrususan!
Bunlarmıdır şöhrətin, səndə gözəllikmi var?!
Sevimli Lesbiyaya sənimi tay tuturlar?!
Ah, ey mənasız zaman, ah, ey uğursuz zaman!

NİFRƏT EDİRƏM – SEVİRƏM

Bəli! Nifrət edirəm və həm də sevirəm mən.
Belə mümkün olarmı? – deyib, xəbər alırsan.
Sənə heç nə demirəm, bir söz çıxmır dilimdən.
Ölümcül bir əzabla yanaraq, qovrularaq,
Mən belə hiss edirəm, belə duyuram ancaq.

ARZU VƏ MƏHƏBBƏT

Lesbiya, bir zaman deyərdin ki, sən
Tək səni sevirəm, istəyirəm mən.
Tapmaz, söyləyirdin, məndən başqa yer
Sənin ürəyində, hətta Yupiter.
Olsun, cavab verdim eşqimlə eşqə!
Mən arzu etmədim adi rəfiqə,
Sevmədim necə bir mehriban ata
Məhəbbət bəsləyər əziz övlada.
Səni indi tanıyıram. Bəs nədən
Bu qədər ucuzsan, şitsən mənə sən?
Bir ehtiyatsızlıq olmuş müqəssir –
Ki, sən sevgilini etsən də əsir,
İndi daha artıq etsə də şiddət,
Onun qəlbindəki odlu bir həsrət, –
Bu bir ehtirasdır, deyil məhəbbət!

KÜSÜŞMƏ

Ey mənim yambalarım, tez yanıma gəlin siz!
Hər tərəfdən yığışın, qaçın, tələsin, ancaq.
O pozğun, həyasız qız məni ələ salaraq,
Öz şeir dəftərimi qaytarmayır özümə.

Mənə qulaq asın bir, tədbirimi bilin siz.
Gedin, qaytarın onu, əməl edin sözümə.
Deyirsiniz bəs onu necə tanıyarıq biz?
Yüngül gülüşlərindən, quru təbəssümündən
Yaxşı tanıyarsınız. Di durmayın, tələsin!
Nəzakət gözləmədən, abır-həya bilmədən,
Dövrəyə alın onu, qulağına qışqırın:
"Qaytar bizə dəftəri! Qaytar, fahişə, azğın!"
Bir qəpiyə dəyməsə dediyiniz bu sözlər;
Murdar döşəmə üstə doğulmuş o pozğuna
Yəqin ki, bunlar azdır. Belə olarsa əgər,
Bilin ki, yaraşmayır həya qızartıları
Pozulmuş alçaq qızın sırtılmış it üzünə.
Onda daha dəhşətlə o cür qışqırın yenə:
"Qaytar bizə dəftəri, qaytar fahişə, azğın!"
Bu da təsir etməsə, olmasa bir əsəri,
Daha sözü dəyişin, belə söyləyin ona:
"Sevimli qız, gözəl qız, geri qaytar dəftəri".

ÖZÜMƏ

Katull, boş xəyaldan, fikirdən əl çək,
Ötüb-gedən günlər məgər dönəcək?
Ulduzlar parladı bir vaxt sənincün,
Onunla görüşə gedərdin hər gün.
Gülüb danışardın şirin, mehriban,
Arzu etdiyin tək keçərdi hər an...
İndisə o sevmir... Gəl sevmə sən də,
Günlərin keçməsin dərd-qəm içində...
Əlvida, ey gözəl! Sən çıxdın xain,
Məni düşündürmür daha taleyin.
(Bilirəm, yaş töküb ağlayacaqsan).
Kimə öz qəlbini bağlayacaqsan?
Kim sənə deyəcək: gülsən, çiçəksən,
Kimin dodağını dişləyəcəksən,
Kimin olacaqsan... Mənə nə gərək!
Katull, dönməyəcək bu sözdən ürək!

YALVARIŞ

Gözlərimin nurunu,
Ey əziz Kvinti, sən,
Mənə bağışlamağı
Əgər arzu edirsən,
O ecazkar gözlərin
Parlayan işığından,
Gözümdən, hər bir şeydən
Mənə qiymətli olan
Əziz bir şeyi amma,
Gəl-gəl məndən ayırma!

OYUN

Dostum Lissini, dünən istirahət zamanı,
Sənlə əylənəndə sevincəkdim nə qədər.
Zarafatla, şərabla biz keçirdik zamanı,
Ölçülər axtararaq yazdıq gözəl şeirlər.
Lakin birdən nədənsə ovqatını təlx etdim,
O gün yata bilmədim sübhün gözünə qədər,
Sərxoş kimi çevrildim... arzu etdim ki, səhər
Tez açılsın, sənlə yenə birgə olum mən,
Yenə gülüb-danışaq, zövq alaq əyləncədən.
Bu iztirab, yorğunluq mənə vermədi aman,
Çarpayıda ölütək donub qaldığım zaman
Sənə, sadiq dostuma, yazdım bu sətirləri,
Yazdım ki, anlayasan qəlbimdəki kədəri.
Mənim xahişlərimə, bu halıma sən gülmə,
Sadə ol, təkəbbürü özünə layiq görmə.
Səndən intiqam alar qorxuram Nemezida,
Qəzəbli, qorxuludur, çox amansızdır o da...

FURİ VƏ AVRİLİYƏ

Ey vəhşi Avrili, ey azğın Furi,
Leş tək sürüyərəm yıxıb sizləri!
Mənə bir həyasız uşaq dediniz,
Səmimi, mehriban şeirlərimçün.
Fəqət nə deyim ki, bilmədiniz siz, –

Gərək təmiz olsun şair ürəyi,
Hər necə olsa da yazdığı şeir,
Bir şerin hüsnünə min cəlal verir;
Bəzən nəzakətsiz bir gülüşündə
Oyatdığım ilham – bir yüngül fikir.
Fəqət belə gülüş, belə təbəssüm,
Oxşamaz ruhunu sərsərilərin, –
Görünməz onlara mənalı, şirin.
Ancaq bu mənasız, bu yersiz gülüş
İllərin yükündən beli bükülmüş,
Ehtirası sönmüş neçə qocanı
Şənlədər, unudar o, hər acını.
Azğınlar! Nə azğın niyyətiniz var!..
Busənin sayını itirərək siz,
Məni kişi saymaq istəmirsiniz!1
Yıxıb sürüyərəm sizi, alçaqlar.

ŞAİR L.KALVA

Mənə iki gözümdən
olmasaydın mehriban
Əziz, lütfkar Kalvi!
mən belə hədiyyənə
Qəlbimdə alovlanan
Bir Vatin qəzəbiylə
Onda cavab verərdim,
cavab verərdim sənə...
Nə yaramaz söz dedim,
nə etdim ki, məhv olum
Qafiyəpərdazların
zibilləriylə mən, ah...
Səni bu xəstəliyə
düçar edən kəsləri
Ağır işgəncələrlə
özü öldürsün allah!
Lakin bu üfunətli,
sarsaq hədiyyələri
Alim Sulla bəxş edib,

sənə, əzizim əgər
O yaxşı sərraf imiş;
yox-yox mən də xoşbəxtəm,
Çünki sənin zəhmətin
getməyəcəkdir hədər.
Şər saçan qara kitab,
mənə bir hədiyyədir.
Dostuna – Katullaya
göndərdin ki, onu sən
Bircə günün içində
məhv olum yer üzündə.
Ən gözəl bayram günü –
Saturnaliyada mən.
Bu hiylə, bu məsxərə
sənə baha oturar,
Seseyin, Akvinlərin,
Kitab dükanlarını
araram səhər erkən.
Sufenlərin şeriylə
Çürümüş ağaclardan
Bax, asaram səni mən.
Sənə də dəhşət ilə
cavab verəcəyəm bil.
Siz isə rədd olun tez
buradan birər-birər.
Haradan gəlmişsiniz
oraya, bu dünyada
Ey əsrin yaraları,
Ey gərəksiz şairlər!..

İMPERİYA DÖVRÜNDƏ ROMA ƏDƏBİYYATI

PUBLİ VERGİLİ MARON

E.ə. 70-91

Romada imperatorluq idarə üsulunun təmelləri qoyulmağa başladığı dövrdə yaranan Roma ədəbiyyatının ən istedadlı nümayəndəsi Publi Vergili Marondur. Artıq onun yaradıcılığında klassik Roma poeziyasının əsas cəhətləri, baş motivləri, bir sözlə, bütün tipik meylləri öz əksini tapmaqla bərabər, həmin poeziya yüksək kamal dərəcəsinə gəlib çatır. Köhnə istilah ilə deyiləcək olsa, Roma ədəbiyyatının qızıl dövrü, başlıca olaraq, Vergilinin yaradıcılığında müəyyənləşmişdir.

Publi Vergili Maron e.ə. 70-ci ildə Mantui şəhərinin yaxınlığında, Minço çayının kənarında And kəndində anadan olmuşdur. Atasının yoxsul təbəqədən, rəiyyətdən olduğu bəllidir. Rəvayətçilər onun sənətkar, muzdur, kirayədar, vergi toplayan məmur olduğunu güman etmişdilər. Ancaq yəqin məlumdur ki, 60-cı illərdə atası mülk sahibi, varlı və mötəbər bir adam idi. Oğlunun təhsilinə xüsusi qayğı göstərmiş, ilk dəfə onu Kremon şəhərinə, sonra Milan şəhərinə, daha sonra isə Roma şəhərinə göndərmişdir. Milan şimali İtaliyada ticarət şəhəri ollmaqla bərabər, təhsilli adamlar, müəllimlər, alimlər mərkəzi idi. 55-ci ildə bura gələn Vergili iki illik təhsildən sonra 53-cü ildə Roma şəhərinə gedir. Burada ritorika məktəbində oxuyur, natiq və hüquqşünas olmağa hazırlaşır. Lakin bu sahədə müvəffəqiyyət qazana bilmir. O, ömründə bir dəfə çıxış edir, özü də çıxışından razı qalmır. Vergilinin qədim tədqiqatçısı olan Donatın dediyinə görə, gənc Vergili məşhur filosof Sironun rəhbərliyi altında fəlsəfəni, riyaziyyatı, hətta təbabəti öyrənmişdir.

Təhsilini bitirdikdən sonra 45-ci ildə vətəni And kəndinə qayıdır. Kənd həyatını sevdiyi üçün burada özünü təbiətin qucağına atır, gənc Vergili kəndlərində ikən şeir yaradıcılığına başlayır.

Lakin şairin sakit həyatı uzun sürmür. Belə ki, Roma şəhərində Yuli Sezarın öldürülməsilə əlaqədar olaraq vətəndaş müharibəsi yenidən şiddətlənir. İkinci triumvirat təşkil olunur. Yeni dövlət başçılarının əmri ilə bir çox mülklər müsadirə olunub Yuli Sezarın tərəfdarlarına bağışlanır. Onların məqsədi, özlərinə tərəfdar kadrlar toplamaq idi. 41-ci ildə, Vergilinin atasının da mülkü müsadirə olunur. Gənc Vergili, Mantui və Milan şəhərləri ətra-

fında dayanan ordunun komandanı Azini Polliona müraciət edir. Pollionun əmri ilə mülk geri qaytarılır. Vergilinin Pollion ilə tanışlığı bu zamandan başlayır. Pollion Vergilini Messenata, Messanat isə onu Avqusta təqdim edir. Bu münasibətlə, gənc şair "Bukolika" əsərinə salınmış birinci ekloqda hökmdar Oktavian Avqustu tərənnüm etmişdir.

Atasının mülkü ikinci dəfə müsadirə edildikdə Vergili yeni komandan Alfen Vara şikayətə gedir. Alfen Var, Vergilinin məktəb yoldaşı idi. Vergilinin mülkü ikinci dəfə özünə qaytarılır. Artıq bundan sonra Vergili Roma şəhərində əyanlar içərisinə düşür, sarayda dönüb dolaşır, sarayın tanınmış və rəsmi şairi olur.

Bu zaman Vergili əllərdə dolaşan bir çox kiçik şeirlərin və "Bukolika" adlı şeir məcmuəsinin müəllifi idi. Kiçik şeirləri Vergili sağlığında nəşr etdirməmişdi. Ölümündən sonra külliyatına daxil edilən bu şeirlərin Vergiliyə aid olub-olmaması indi də mübahisəlidir.

Romadan Neapola gələn Vergili Messenatın tapşırığı ilə "Georgiki" əsəri üzərində işləyir. Həmin əsəri 30-cu ildə bitirərək Messenata ithaf edir.

29-cu ildə, bilavasitə Avqustun göstərişi ilə məşhur "Eneida" dastanını yazmağa başlayır. On il dastan üzərində işləyir, əvvəl onu nəsr şəklində, sonralar isə şeir ilə yazır. 19-cu ildə təsvir etdiyi yerləri öz gözü ilə görmək məqsədilə Asiyaya səyahətə gedir. Lakin Avqust onu yarı yoldan qaytarır. 19-cu ildə Brundiziyada 51 yaşında vəfat edir. Onun cənazəsini Neapol şəhərinə gətirirlər və şəhərin yaxınlığında dəfn edirlər.

Onun qəbir daşına yazılmış beytdə deyilir ki: "Mantuya məni dünyaya gətirdi, Kalabiriyalılar məni oğurladılar, indi mənə hakim Neapoldur. Mən otlaqları, zəmiləri və qəhrəmanları tərənnüm etdim".

MELİBEY, TİTİR

Melibey

Bu çiçəkli düzlərdən, bu sevimli vətəndən,
Doğma ata yurdumdan mən üz tutub qaçarkən,
Sənsə dərdsiz-qayğısız qoca fıstıq altında,
Kölgədə dincələrək, incə ney dodağında
Kənd mahnısı öyrənir, bir də Amrillanın bax
Camalını, ey Titir, mədh eyləyirsən ancaq.

Titir

Ey, Melibey, sən bil ki, bu sehrə dalmağı da,
Kənd neyində sevimli nəğmələr çalmağı da,
Qüdrətilə qəlbimdə salan əbədi bir nəqş,
Bax, o böyük tanrının[1] özü etdi mənə bəxş.
Gərək onun yolunda hər gün seçib sürüdən,
Körpəcə quzulardan əziz qurban kəsəm mən.

Melibey

Titir, həsəd aparmır, sənə təəccüb etmirəm,
Ancaq üzümdə kədər, ürəyimdə dərd, vərəm,
Acı fəryad edərək, düşüb, daşlı yollara
Qovub keçi sürümü, gedirəm uzaqlara.
Sanki, qara günümə heyrət edir çöllər də.
Titir, bir də bu yerdə sıx fındıqlıq içində,
Əkiz doğdu daş üstə, bil bu gün keçim mənim.
Sürümün gözüdürlər, lakin əsdi bədənim
Qocaman bir palıdı ildırım kül edən tək.
Deyirlər ki, bunu da belə göndərir fələk.
Titir, kimdir allahın, mənə söyləməlisən?

Titir

Ey Melibey, mənimçün bir adətdir əzəldən,
Göy yarpağı, tər gülü fərqləndirim xəzəldən.
Mən bilirəm küçüklər böyüyəndə it olur,
Oğlaq bir il içində keçi həddinə dolur.
Fəqət quzu aparıb çobanlarla bir vaxt mən

[1] Böyük tanrı – Avqusta işarədir.

Yaxın qonşu şəhərdə bazarlıq eyləyərkən,
Zənn edərdim ki, odur Roma adlanan cənnət.
Ancaq tək indi gördüm, duyub hiss etdim, əlbət,
Necə ki, yemişandan ucadır sərv ağacı,
Dünyada da Romadır hər bir şəhərin tacı.

Melibey

Axı necə oldu ki, gedib gördün Romanı?

Titir

O zamanki, o ağır Qalateya[1] fərmanı
Mənə əzab verirdi, mənə olmuşdu zindan.
O vaxt seçib sürümdən versəm də çoxlu qurban,
Yağlı pendir tutsam də şəhərdə satmaq üçün,
Yenə pulsuz dönərdim bazardan evə hər gün.
Və ümid eyləməzdim Qalateya əlindən
Nə satın alınmağı, nə də azad olmağı.
Axır bir gün yaxamdan onun özü çəkdi əl,
Ömrümün zülmətində ilk dəfə yandı məşəl.
Saçıma dən düşərkən gec də olsa bu, fəqət
Azad bir günə çıxdım, onu gördüm nəhayət:
Keçdim Amirillanın kölgəsi altına mən.

Melibey

O günlər Amrilla da dərddən, qəmdən, kədərdən
Allahlara yalvarıb, göz yaşları tökərkən,
Baxıb heyrət içində soruşardım ondan mən.
Kim üçün ağlayırsan, nə üçündür dərməmək,
O gözəl meyvələri, mənə söylə bir görək?
Titir yoxdur, deyirdi, fəryad edirdi çöllər,
Bu ətirli bağçalar, bu çeşmələr, bu göllər,
Hətta meşələr belə qüssəyə qərq olaraq
Səni çağırırdılar, o vaxtlar səni ancaq.

[1] Qalatlar – Keltlərdən ibarət olan böyük tayfa Kiçik Asiyada, indiki Anadoluda Qalatel əyalətində yaşayırdılar. Yuli Sezar onların haqqında fərman vermişdi.

Titir

Nəydi mənim əlacım? Duyub görməzdim onda
Nə o böyük tanrının olduğunu yaxında,
Nə də azad olardım, tutsaydım başqa bir xətt.
Melibey, o gənci də gördüm Romada, fəqət
Onun ki, şöhrətinə məbədlərdə bir zaman
Tonqallar qalayardıq, hər ay kəsərdik qurban;
Mən onun kölgəsində axtararkən sığıncaq,
Xahişimə o mənim cavab olaraq ancaq
Dedi, gedin uşaqlar, öküzləri qaytarın,
Naxırı əvvəlki tək yenə yaxşı otarın.

Melibey

Sən ey ağsaçlı qoca, sən ey bəxtiyar insan!
Demək qəlbən vurulub, ürəkdən bağlanmısan
Daşlı, palçıqlı olan doğulduğun yerə sən.
Xoşbəxt qoca, basılma yaxın, yad ölkələrdən,
Azarlı qoyunları sənə yaxın olsa da,
Dəyməz qoyun sürünə onlardan bir az qada.
Fəqət bir də bu gün sən körpə ikən gəzdiyin,
Yazda hər bucağından min bir çiçək üzdüyün,
Müqəddəs bulaqların, doğma çayın yanında,
Kölgədə dincəlirsən, xoş keçir dövranın da.
Bir yanında çiçəklər ətir-ənbər qoxuyur,
Yarpaqlara şeh düşür, quşlar nəğmə oxuyur.
Bir yanında, verdikcə göyərçinlər səs-səsə,
Dalğalanır budaqlar, bülbül gəlir həvəsə.
Bir yanında odur bax, oturub qoca bağban,
Yüksək qaya altında nəğmə deyir bayaqdan.
Xoruldayır uzaqdan gözəl vəhşi göyərçin,
Sanki dağlar, dərələr laylay deyir sənincin.
Budur, bir tərəfdə də keçmişdə olduğu tək,
Dövrəsində söyüddən hasar çəkilmiş yüksək.
Yaxın qonşu bağında çiçəklərdən bal əmən
Qibleyanın[1] arısı uçduqca hər tərəfdən
Xoş nəğmələr altında sən yuxuya gedirsən.

[1] Qədim dövrdə Siciliyada Qibleya adlı bir neçə şəhər var idi. Qibleya arısı, Siciliya arısı deməkdir.

Titir

İşlətsə də min qəza, dəryalar öz qeyzindən
Sahillərə atsa da aciz balıqları bax,
Od qaçışlı maralı ürkütsə də özündən.
Mürgüləyən dənizlər birdən şaha qalxaraq,
Ağır ellər basaraq gəlib içsələr əgər,
Almanlar şədd suyundan, Parfanlarsa[1] Arazdan,
Yenə mənim qəlbimdə o şux baxışlı dilbər,
Müqəddəs varlıq kimi yaşayacaq hər zaman.

Melibey

Xoşbəxt qoca, indi sən calaq vur armudlara.
Yaxşı üzüm bağı sal, bizsə düşüb yollara.
Ya uzaq Afrikanın alovlu səhrasına,
Ya da ki, Skifiyaya, Oksa çayı yanına,
Ya da bütün xalqlardan ayrı bir ölkə olan
Britaniyaya üz tutub gedəcəyik düz burdan.
Görməyəcəyik bir də bu doğma torpağı biz,
Qalacaq barbarlara əkib-becərdiyimiz.
Namussuz əsgərlər də tarlaları tutacaq,
Bundan sonra bir daha nəsibim olmayacaq
Nə bu geniş bağlarda, nə bu yaşıl düzlərdə,
Nə də üstü yosunlu alçaq komamda bir də
Gəzib dolaşmaq mənə qismət olacaqdır, ah,
Doğulduğum torpağa yad olacam, ay allah
Siz də ey bir zaman, xoşbəxt olan keçilər
Uzaqlaşan gözümdən, uzaqlaşın bir qədər.
Mən sizi bundan belə nə dağlarda dolaşan,
Nə göllərdən su içən, nə də yamaclar aşan
Görəcəyəm və bir də şux mahnılar oxumaq
Bu dağların qoynunda qismətim olmayacaq.

Titir

Yolçu, dağlar döşünə düşür axşam kölgəsi,
Yavaş-yavaş seyrəlir bülbüllərin nəğməsi.
Elə bil ki, göy üzü qara örpək bürünür,

[1] Fərat çayı ilə Xəzər dənizi arasında yaşayan qədim tayfa

Uzaq daxmalar üstə yaşıl tüstü görünür.
Bir sükunət çökəcək hər tərəfə indicə,
Qonağım ol gəl mənim, getmə, dayan bu gecə.
Bu yosunlu komamda mənimlə dincəl bir az,
Sənə qarşı hörmətim bil ki, heç də pis olmaz.
Şükür olsun tanrıya, yetişibdir almalar
Şirin şabalıdlarım, çoxlu pendirim də var.

BİRİNCİ NƏĞMƏDƏN

645. Zərif ruhlu qocalar, əziz ata-analar,
Askaniyaya verdilər hər şeyi şad, bəxtiyar.
Pallın yarpaq naxışlı bürünəcəyinə qədər
İleydən gətirilmiş zər-zibalı töhfələr,
Qalaq-qalaq edildi qarşısında bərqərar.

650. Mingeni zəbt eləyib Peoqamın götürdüyü,
Anası Leda üçün ərməğan gətirdiyi,
Priamın böyük qızı boynunda mirvarılar,
İlionanın əliylə toxunmuş hər nə ki var
Gətirilsin birbəbir, budur haqq yetirdiyi.

655. İki qat zər çələngi alıb bəyəndi yaman,
Axat gəmilərinə yan aldı o qəhrəman.
Kiferiya ürəyində hiylə qurmaq istədi,
Askaniya gəlməyəydi, Kupidon gələydi dedi.
Gözündə kamı qalsa hiylə qurar hər insan.

660. O şahzadə xanımın sevdalı ürəyini,
Ehtirasla alışan sehrikar diləyini
Kupidonun gəlişi yandıraydı, yaxaydı.
Xanım əziz qonağa xumar-xumar baxaydı,
Ona camal göstərib açaydı örpəyini.

ÜÇÜNCÜ NƏĞMƏDƏN

Allahların sözünə biz qulaq asan zaman,
Priam nəslinin gülü sovruq qalxdı göylərə.
Məğrur İli ömrünü bizə tapşırıb köçdü,
Troya öz külündə tüstülənərək keçdi.

5. Keçmiş bunlar hamısı, xeyli ötüb o vaxtdan,
Sığınacaq torpaqlar axtarıb tapmaq üçün
Hazırlaşırıq uzaq səyahətlərə bu gün.
Donanmamız dayanmış Antandra sahilində.

10. Frakiya İdasının suya çıxan elində,
Bilmədən ki, bu tale bizi haraya qovur
Harada izin vercək dayanaq bircə hovur;
Yığırıq adamları, toplayırıq səfərə.
Ya yenicə başlayıb qonaq gəlib bu yerə.
Atam Anxiz göz edib qəzanın yelkəninə
Ümidlər bağlamağı nəsihət etdi mənə.
Sevimli Troyanın olduğu bu məkanı,
Bu mehriban sahili, bu doğmaca limanı
Göz yaşları içində tərk eləyirəm bu gün.
Ürəyimdə həsrətdən sağalmayan bir düyün.
Oğlumu, dostlarımı, penatlar dəstəsini,
Qüdrətli allahların uğurlu nəfəsini
Özümlə götürərək bu gün qanad açıram,
Dənizlər qucağında qaçqın olub qaçıram.

25. Uzaqlarda bir zaman qanlı-qəddar Likürqun
Hökmranlıq etdiyi, indisə çənli, tutqun
Əkin yerləri olan Mavorotova adında
Bəhrəsi bol torpaqlı bir vilayət durmaqda.

30. İndi o uzaq ölkə bizlərə dost diyardır.
Bir səadət tapmışdır, fırtınalar o yerdə
Hələlik lövbərini saxlamış dərinlərdə.
Vaxtı fövtə vermədən yelkənimi açıram,
Karvanımı çəkərək mən oraya qaçıram.

DÖRDÜNCÜ NƏĞMƏDƏN

Eneylə qəti danışıq

Çariçə xəbər tutcaq səfərindən Eneyin,
Qışqırdı: Sevən qəlbi aldatmaq olar, deyin.
Eşitdi ki, üzməyə hazırlaşır gəmilər,
Yaxdı, odlara yaxdı onun könlünü qəmlər.

300. Bütün şəhər içində o, qaçıb dəli kimi,
Vakxidanın müqəddəs, odlu məşəli kimi,
Kədərin alovunda o, yanıb şölə çəkdi,
Finna, Vakxı səslədi, bağırdı, nalə çəkdi.
Gecə yarı çağırıb Kiferonu köməyə,
Qəlbində nə vardırsa açıb dedi Eneyə:

"Ay vəfasız, bu gün mən eşitdim ki, gedirsən,
Mənim torpağımı sən gizlincə tərk edirsən.
Hanı bizim eşqimiz. Xain çıxdınmı ona?
Eşitsə bu xəbəri hirslənməzmi Didona?
Ulduzların altında, qışın oğlan çağında,

310. Akvilonlar içində, dənizin qucağında
Suları yara-yara sürüb gəmilərini,
Yandırıb kül edəndə özgə zəmilərini,
Xəbərsiz can atanda başqasının evinə,
Onda qədim Troya yox idimi, de mənə...
Troyayamı üzdün qorxunc girdablarda sən.
İndi məndən qaçırsan. Buna nə ad verim mən...

315. Himeneyin kəsdiyi o müqəddəs kəbindən,
Özgə şey saxlamadım özüm üçün inan mən.
Çəkdiyim o zəhmətlər, aman, getdimi hədər?
Nə qədər ki, vaxtın var, Eney, düşün bir qədər.

320. Səndən ötrü Libinin artıb bizə hiddəti,
Eyibdir, məhv eləmə qazandığın şöhrəti.
Məni yarımcan halda tərk eləmə, əziz yar,
Sənin təkcə adınmı qalsın mənə yadigar?

325. Söylə, mən nə gözləyim. Qardaşım Piqmalion
Dağıdıb otağımı versinmi ömrümə son...
Səndən mənə xatirə qalsaydı kiçik bir şey,
Əgər sir-sifətindən tamam sənə oxşayan
Kiçik Eney olsaydı, sevinərdim mən inan".
Deyib susdu Çariçə, doluxsundu gözləri,

Eneyi yaman tutdu onun qəmli sözləri.
Baxışlarında yanıb alovlandı ehtiras,
Qəlbindən gələn səslə söylədi ki, qulaq as,
Bir yaxın gəl, əzizim, yaxşı dinlə məni sən,
Qısa olsa da səni agah edim bu işdən:
"Saydığın, saymadığın bütün xidmətlərin, bil,
Çariçə, xatirimdən heç vaxt silinən deyil.

335. Qüssəsiz Elissi mən düşünmərəm heç zaman,
Öz ağlım mənə bəsdir, odur mənə hökmran,
Mən gizlincə qaçıram, elə fikirləşmə gəl.
Gizlində gəlməmişdim bura gələndə əvvəl.
Nə də toy məşəlləri etməmiş məni heyran,
Belə bir ittifaqçün gəlməmişdim mən inan.

340. Tale izin verməydi çapıb ömür atımı,
İradəmin gücüylə qurardım həyatımı.
Troya şəhərinin keşiyində duraraq,
Ata-baba tozuyla, mən hər bir şeydən qabaq
Priamın divarını hörərdim, dikəldərdim,
Belə edə bilsəydim, daha olmazdı dərdim.

345. Böyük Apollon özü üz deyir İtaliyaya,
Likinin hər bir sözü üz deyir İtaliyaya.
Oradır mənim yolum, oradır sevgi, vətən,
Karfagen qoymasa da ora getməliyəm mən.
Neçin əleyhinəsən, Avsoni torpağına
Qoy düşməsin Tevrilər. De, səbəb nədir buna?

350. Öz atam Anxis ilə mən bu dünyada inan,
Xarici çarlıqlarda tale gəzirik hər an.
Ancaq gecə ulduzlar işıqladanda yeri,
Hər şeyə qabaqcadan qərar verən Qesperi –
Bu gün böyük Allahın ən sadiq xəbərçisi,
Heybətli görkəmilə həyəcana salır bizi.
Hədələyir, danlayır ayılırıq yuxudan,
Mən, bir də ki Askani, əziz oğlum, qorxudan.

355. And içirəm, havanı sürət ilə yararaq,
Allah özü göylərdən enərək yanıma, bax,
Əmr etdi yubanmadan tərk edim bu diyarı,
Üzüm doğma vətənə, İtaliyaya sarı.
Qurtar, bu sözlərinlə incitmə məni daha,
Mən ki, öz iradəmlə üzürəm İtaliyaya..."

360. Çox danışan adama acıqlı baxır allah.
Səssiz baxışlarıyla yandırır, yaxır allah
Onun dediklərini eləməyən hər kəsi,
Mənim üçün qanundur allahın hər kəlməsi.

365. "Nə ilahə, nə Dardan deyil səni yaradan.
Vəfasız, sən ürəksiz bir daşdan doğulmusan.
Qirkan pələnglərinin döşündən süd əmmisən,
Sənin kimi cəlladdan, axı, nə gözləyim mən...
Mənim göz yaşlarımı, söylə, allah gördümü,
İnlədimi halıma, bir təsəlli verdimi.
Mənim bu vəziyyətim təsir etdimi ona?

370. Yox,-yox, bu ola bilməz. Nə çariçə Didona,
Nə Saturnun atası sakit baxammaz buna.
Heç yerdə yox sədaqət. Bir dilənçi oğluna,
Verərdim var-dövləti, verərdim çarlığı mən.

375. Sənin gəmilərini, dostlarını ölümdən
Xilas etdim, heçəmi getdi mənim zəhmətim,
Nə tez soyuyub getdi alovlu məhəbbətim...
Furinin qamçısıyla boyanıram al qana,
Qeybdən xəbər verən o böyük Apollona
Çatırmı səsim mənim. Hanı bəs, Liki hanı.
Allahın xəbərçisi dolaşaraq havanı
Qorxunc xəbərlərini yayır, hər yerə yayır.

380. Xoşbəxtlər hər qayğını beləmi qarşılayır,
Mübahisə etmirəm, Eney, sənlə daha,
Səni saxlamıram da, durma, üz İtaliyaya.
Get, axtar hökmranlıq dalğaların qoynunda,

Ancaq inanıram mən, gəl unutma bunu da:
Qayalara çarpılıb batıb gedəndə gəmin,
Didonanı köməyə çağıracaqsan yəqin.

385. Ölümün pəncəsində quş tək çırpınanda sən,
O vaxt qara məşəllə gələrək yanına mən,
Baxıb-baxıb o murdar, şərəfsiz cənazənə
Dayanıb başın üstdə lənət deyirəm sənə.
Ölərsəm, yer altında çatar mənə bu xəbər,
Bilirsənmi, o zaman sevinərəm nə qədər ..."
Lap ortada kəsildi onun odlu sözləri,
Qaralıb günəş kimi, söndü nurlu gözləri.

390. Dəhşətdən titrəyərək ayaq üstə bir müddət,
İstədi danışsın o, mümkün olmadı, fəqət.
Dura bilmədi artıq, oturdu dizi üstə,
Çariçə bihuş halda yıxıldı üzü üstə.
Onu düşdüyü yerdən alıb neçə qarabaş,
Öz yumşaq yatağına qoydular yavaş-yavaş

KVİNT HORASİ FLAKK

E.ə. 65-8

Horasi Roma ədəbiyatının lirik şairi, Roma poeziyasının görkəmli qəsidəçisidir. Vergilinin və onun şeirləri ilə demək olar ki, Roma şeri üslub etibarilə, latın dili öz lakonikliyi, obrazlılığılə ən yüksək dərəcəyə qalxmışdır. Belə ki, uzun zaman latın dilini öyrənmək üçün bu dilin bütün üslub gözəllikləri ilə tanış olmaq üçün Horasinin də əsərlərini dərslik kimi almışlar.

Horasi eramızdan əvvəl 65-ci il 8 dekabrda kiçik malikanə sahibi ailəsində anadan olmuşdur. Atası əvvəllər qul, sonralar isə varlanaraq kiçik mülkədar olmuşdur. Horasinin əsərlərindən məlum olur ki, onun atası savadsız olsa da maarifpərvər bir şəxs olmuş, öz oğlunun təhsilinə xüsusi diqqət yetirmişdir. Horasi ilk təhsilini vətənində aldıqdan sonra, atası bununla kifayətlənməmiş, oğlunu Romaya aparıb, zadəganlara məxsus məktəbə qoymuşdur. Romadakı təhsili ilə kifayətlənməyən Horasi Afinaya getmişdir. Bu zaman Afinada yüksək təhsil ocaqları var idi. Horasi burada ikən Epikur fəlsəfəsi ilə maraqlanır, lakin 44-cü ildə vətəndaş müharibəsilə əlaqədar olaraq onun təhsili yarımçıq qalır. Yuli Sezarı öldürdükdən sonra Brut, Kassi və başqa respublikaçılar Romada qala bilməyib, Yunanıstana qaçmışdılar. Burada ikən onlar könüllülər dəstəsi təşkil edirlər. Horasi də respublikaçılar dəstəsinə daxil olur, tribun vəzifəsində hərbi hazırlığa başlayır. Lakin 42-ci ildə Filipp yaxınlığındakı döyüşdə respublikaçılar məğlub olur, Brut və Kassi özlərini öldürür, Horasi Afinaya qaçır. Cəbhədən qaçdığını Horasi yunan şairi Arxilox kimi gizlətmədən təsvir etmişdir. Vətəndaş müharibəsində iştirak etdiyi üçün atasının malikanəsi Oktavyan Avqust tərəfindən müsadirə edilmişdi. Bu zaman şair maddi cəhətdən ehtiyac içində yaşamış və Vergili kimi yoxsul ziyalı olmuşdur. Bir müddət Horasi Afinada qalırsa, lakin Brut tərəfdarlarına verilmiş əfvi-ümumidən istifadə edərək İtaliyaya dönmüş, bir müddət katiblik etmiş və eyni zamanda yaradıcılığa başlamışdır.

O respublikaçı fikirlərindən uzun zaman ayrıla və dünyagörüşləri etibarilə tamamilə saraya sığına bilmir. Daima saraydan uzaqda olmağa can atır. Bunu Horasinin Avqustla məktublaşmağından görmək olar. Avqust öz məktublarında ondan narazılığını ifadə edir. O, vəfasızlıqdan, saraya soyuqluqdan şikayət edir. Avqust yazır: Horasi isə müxtəlif bəhanələrlə yaxasını saraydan qurtarmağa çalışmışdır. Hətta, rəvayətə görə, Avqust "Eneida" mövzusunu ilk dəfə Horasiyə təklif etmiş, lakin Horasi lirik şair olduğunu bəhanə edərək,

belə bir şahnamə yazmaqdan boyun qaçırmışdır. Əslində isə Horasi respublikaçı olduğundan imperator Oktavyan Avqustu mədh etmək istəmişdir. Hətta Avqustun dəvəti ilə o, imperator sarayında katiblik vəzifəsini də rədd etmişdir. Bütün bunlara baxmayaraq Horasi Avqusta bir neçə mədhiyyə yazmış, ölkəni vətəndaş müharibələrindən xilas edən ağıllı bir dövlət adamı kimi onu tərifləmişdir. Horasinin şeirləri bir neçə külliyatda toplanmışdır. Külliyatlar bunlardır: "Qəsidələr", "Epodlar", "Sekulyar nəğmələri"[1], "Satiralar", ən nəhayət – "Məktublar". Bu son qismdə "Pizonlara məktub" adlı böyük bir məktub vardır ki, sonralar ayrıca olaraq "Poetik sənət" adı ilə çap edilmişdir. Onların xronologiyası şərtidir. Bir çoxları "Satiralar"ı Horasinin ilk əsəri kimi tanıyırlar.

Horasi, şeirlərindəki fikir zənginliyi nöqteyi-nəzərindən öz sələfi Katulldan fərqlənirdi. Fakir və xəyal onun şeirlərində hiss və duyğulara hakim olur. Xarici həyat hadisələri ancaq öz qiymətləri və tutduqları mövqe etibarilə şairin diqqətini özünə cəlb edir.

Horasinin şeirləri həmişə kimə isə müraciət şəklində yazılmışdır. "Mən" və "sən", şeirlərin rüknünü təşkil edir. Şair bəzən allahlara da müraciət etsə onun əsas müraciət hədəfi insanlardır. Kişilərə müraciət, ithaf xasiyyəti daşıyır. Qadınlara müraciəti bir sıra yunan qadınlarının adı altında gizlin məhəbbət ifadələridir. Lakin şair ən sentimental aşiqanə ifadələrdə belə yenə öyüd-məsləhəti yaddan çıxarmır. Onun məsləhətləri gələcəyə doğru çevrilmişdir.

Qəsidələr öz mövzuları ilə çox rəngarəngdirlər. Burada antik himnlərə bənzər allahlara müraciətlər var. Siyasi və fəlsəfi şeirlər ilə bir sırada aşiqanə, ziyafət və dostluğu tərənnüm edən şeirlər var. Burada satiralarla və bioqrafik məzmuna malik şeirlərə də rast gəlmək olur.

Bir qisim şeirlərində şair üsyansız, etirazsız, mömin həyat sürməyi məsləhət görür.

Horasi eramızdan əvvəl 8-ci ilin 27 noyabrında vəfat etmişdir.

---

[1] Yüz ildə bir dəfə təşkil olunan, mənşəyi naməlum mərasimdir ki, Avqust onu yenidən bərpa etmişdi, Horasinin bu nəğmələri həmin mərasimə həsr olunmuşdur.

VERGİLİYƏ

Əsir Frakiyanın hey bahar eli,
Burda laylay çalır dəniz yelkənə.
Çağlayan çayların daşsa da seli,
Bir zərər dəyməyir çölə, çəmənə.

Qaranquş yuvadan edir şikayət,
"Qayıt, qayıt İtis", çəkmə əziyyət.
Vəhşi tək törətdin qanlı intiqam,
Biabır eylədin nəslini tamam.

Şadlanıb allaha: hey arkad Panı,
Düşünür heyvandan yaxşı çobanı.
Qalxdıqca tütəyin zil şikəstəsi,
Yayılır yamaca sürünün səsi.

Gəl dağıt, Vergili, bu iztirabı,
Gətirək süfrəyə Kalen şərabı.
Düşün müştərisi kimdir oylağın,
Verək biz Vakxaya bəxşiş sorağın.

Köhnə zirzəmidən mey çıxart üzə,
Gətir narda ilə sən dolu küzə.
Ümid qanadları eləyib pərvaz
Qovar qəm yükünü, əlilə hər yaz.

Şadlıq ziyafətin, razısansa dad,
Mənə də pul gətir, deyiləm ki, yad.
Varlılar kimi boş, pulsuz və müftə,
Çağırmaram səni, bil, ziyafətə.

At tamahkarlığı, o əzir bizi,
Meyxana məşəli gözləyir bizi.
Ağıl çəlləyinə, bəzən də bir az,
Axmaqlıq qatsan, dost, heç günah olmaz.

POEZİYA HAQQINDA

Kvint E. Lamiyaya

Dərd yükünü Muza şad olsun deyə,
Krit dənizində, verrəm küləyə.
Olaram kədərsiz qayğısız və kar,
Ah, ürək, nə böyük ağırlığın var...
Göy kimin hökmüylə guruldayaraq,
Titrədir Tiridat tək yeri zağ-zağ.
Ey saf bulaqların şad ilahəsi,
Səndədir dediyim qüdrətin səsi.

Topla tac hörməyə tər bənövşədən,
Lamiya, əklilli görüm, səni mən.
Lesbi qızlarının tərənəsilə
Çatsın nəğmələrin əbədiyyətə.

LİQURİNƏ

Sən ey mənim allahım,
Necə qəddarsan, qəddar!
Həm də bu zülmün qədər
Gəncsən, gözəlliyin var.

Lakin çox da öyünmə,
Örtdü üzünü tüklər.
Gözlənilməz ilk qonaq
De, nədən verir xəbər?

Qızların gərdənində
Qulac-qulac saça bax.
Onlar da rəhmsizcə
Dibdən kəsilir ancaq.

Dostum, solur bənizin, –
Sanıram yarpaq səni.
Gül kimi incə olsan,
Yaralar torpaq səni.

Mübahisə etmə, gəl,
Əziz Luqirinim, sən.
Qocalığın məlumdur
Üzünün dərisindən.

Nəzər salıb güzgüyə
Deyəcəksən yüz kərə:
Əfsus ötən illərə!
Əfsus ötən illərə!

Aman, sonrakı ağıl,
Necə də itisən sən.
Neçin axmaq oğlana
Verilmədin əzəldən?!

Yox, sönməmiş hiss, həvəs,
Hələ çox gəncdir ürək.
Bəs neçin üz qırışır,
Yanaqlar solur gül tək?

QIZQAÇIRAN PARİS

Paris Yelenanı alıb apardı,
Menelayın yurdu ləkələndi, ah!
Nerey hiddətlənib tufan qopardı,
Onu taleyindən eylədi agah:

Çatdın sevgilinə, sevinmə barı,
Çıxarmış yunanlar qılıncı qından.
Pozmağa and içib bu bəd nikahı,
Sənin də yurdunda əkərlər bostan.

Atlar tər tökəcək, ordularsa qan,
Danayılar nəsli məhv olacaqdır.
Parlayar qılınclar, çıxar qınından,
Ordular üz-üzə dayanacaqdır.

Məğrur saçlarını darama artıq,
Günahsız qadınlar edilir əsir.
Sən nəğmə desən də, heyhat! Ay yazıq,
Tale deyir: yurdun olacaq qəbir.

FAVNA

Favn, ey pərilərin mehriban dostu,
Dayanma bir anlıq sən qaçana çat.
Bürküdə keçərkən tarlalarımdan,
Körpə fidanları etmə narahat.

İl qurtaran kimi kəsildi qurban,
Şərabmı ortaya çay kimi gələn?
İç ey məhəbbətim, iç vəfadarım!
Sən də ey altarım, alış, tüstülən!

Gələcəkdir sənin dekabr günün,
Göy otlar örtəcək çöl, düzləri də.
Çıxacaq camaat tarlaya bütün,
Sevincək sahib də, öküzləri də.

Gücsüz torpağına yeni can verər,
Meşə xəzəlinin çürüntüləri.
Kəndlinin qəlbinə həyəcan verər,
Torpağın gəliri, yerin bəhəri.

BUNDUZİYA BULAĞI[1]

1

Sən ey büllur, xoş sədalı Bunduziya bulağı,
Mən həmişə yad edirəm səni şərab, çələnglə.
Yenə gözəl keçi kəsib üstündə bir yaz çağı,
Məclis qurub kef edərik, oxuyarıq ahənglə.

2

Sürü içrə şiş buynuzlu keçilərdən birini,
Qurbanlıqçın gətirərək, kəsərik üzərində.
Qızıl qanı sıçrayaraq boyayar sahilini,
Qırmızı qan süzülərək gəzər ayna sinəndə.

[1] Horasinin kəndindəki bulaq. Şairin vətənində pəri Bunduziyaya pərəstiş etdikləri üçün kənd bulağını da "Bunduziya bulağı" adlandırmışdır.

3

Yandırıcı isti olsa qurumaz suyun sənin,
Sirus vaxtı cəlbedici kölgəli və sərinsən,
Məskənisən kotançının, çobanların, kəndlinin,
Mənbəyini tərk edərək hansı gölə gedirsən?

4

Şöhrətlənib, ey bulağım, bulaqlara ol bulaq,
Şərəfinə tərif edim başındakı palıdı.
Şırıltılı sərin sular pıçıldaşıb axaraq,
Qoy çağlasın daş-qayada budur qəlbin muradı.

XLOYAYA

Xloya, bir körpə dağ maralı tək,
Məndənmi qaçırsan, de, hürkək-hürkək?
Ana axtarırsan dəhşət içində,
Meşənin səsini hey dinləyərək.

Bahar yarpaqları gətirir dilə.
Sürüşür aradan yüz kərtənkələ
Ətirli böyürtkən kolları üstə.
Sənsə qorxa-qorxa əsirsən hələ...

Bax, gülüm, deyiləm meşə aslanı:
Tutub parçalayam sən tək insanı.
Bəsdir, çağırıram, səsimə səs ver! –
Dəyişmək vaxtıdır ərə ananı.

ABİDƏ

Tuncdan bir abidə qoymuşam ki, mən,
Uca, möhtəşəmdir yüz piramitdən.
Onu yıxa bilməz min dağ selləri,
Zamanın yağışı, qarı, yelləri.

Ötdükcə illərin artır sürəti...
Mən tam ölməyəcəm bilirəm qəti.
Ömrümün ən ali, ülvi hissəsi,
Qalacaq dünyada unudulmadan.

Təzədən dirilib əsrlər boyu,
Qalxıb yüksələcəm göylərə inan.
Bəli, yüksələcəm o vaxtadək ki,
Kapitoliyanın[1] bir gün, bir sənə,

Bir cüt lal qız ilə ixtiyar kahin
Gəlib çatacaqlar düz zirvəsinə.
Baxıb deyəcəklər: dağların üstdən
Aufid kükrəyib coşduğu yerdə,

Qədim zamanlarda kasıb nəsildən,
Bir nəfər yaşayıb bu susuz eldə.
İlkin nəğməsini azad Eolinə[2]
İtalyan şerilə söyləmiş həmən.
Buyur Melpomena[3] bu işlərimi
Dəfinə çələngi qoy başıma sən.

DİALOQ

Lidiyə

Oğlan

Xatırla, bir zaman əzizdim sənə,
Öpməzdi üzündən dilbilməz-naşı.
İnan ki, dünyada xoşbəxtlikdə heç
Mənə tay olmazdı şahların şahı!

[1] Qədim Romada Kapitoli təpəsi üzərində tikilmiş məbəd. Burada şairlərin başına çələng qoyurdular.

[2] Zevs tərəfindən küləkləri idarə etməyə vəkil olunmuş Eoli adasının hökmdarı

[3] Muza allahı

Qız

Xatırla o zaman sənin özün də
Aşiq olmamışdın bir özgəsinə.
O vaxt dəyişmirdin, Lidini Xloya,
Mən də xoşbəxt idim, söyləyim sənə!

Oğlan

Xloya hakimdir qəlbimə indi,
Mənə mahnı deyir kifarasiylə,
Ölmək bir şey deyil yolunda onun,
Təki o yaşasın min illər ilə.

Qız

Sevirəm, sevirəm yandırır məni,
Coşqun, gənc Kalaid, Ornitin oğlu.
Ah, ölmək nədir ki, ölləm on dəfə,
Təki Kalaidim ömr etsin çoxlu.

Oğlan

Beləymiş? Bəs onda qayıtsa geri,
Odlu ehtiraslar... İlk vüsal dəmi?
Əgər Xloyanı qəlbimdən atsam,
Sevərmi təzədən öz Lidim məni?

Qız

Düzdür o nurludur ulduzdan, aydan,
Amma sən çılğınsan lap Adriya tək.
Ah, mənə dünyada min dəfə xoşdur,
Səninlə yaşamaq, səninlə ölmək!

PİZONLARA MƏKTUB

POEZİYA SƏNƏTİ HAQQINDA

ƏDƏBİ ƏSƏRİN KOMPOZİSİYASI

Rəssam at boynu çəksə insan başı yerinə,
Alabəzək ləələklə bəzənmiş bu boyunun
Hər yerdən toplayarsa əgər üzvlərini,
Qara balığa bənzər bu qadın tablosunun,
Yuxarısı çox gözəl görünərdi bax, inan.
Özünüzü gülməkdən saxlaya bilərdizmi,
A dostlar, siz bu şəklə tamaşa edən zaman?!
Bu şəklə oxşar kitab, inanın, a Pizonlar!
Xəstənin yuxusu tək boş və mənasız olar.
Orda vahid obrazdan məhrumsa başda ayaq,
Hər şairin, rəssamın etirazı artacaq.
Deyəcəklər; – buyurun, yaxşı baxın siz buna,
Bəlkə də lap doyunca güləcəklər hey ona.
Biz mərhəmət bilirik. Onu paylayırıq da,
Mərhəmət əvəzinə mərhəmət alırıq da.
Lakin bu o deyil ki, birləşmiş olsun orda
Hiddətliklə yazıqlıq. Quzular aslanlarla
Yaşasınlar mehriban. Daha sonra quşlar da
Məhəbbətlə dolansın zəhərli ilanlarla.
Bir-birinin ardınca tikirlər, bax, çox zaman
Bəzəkli parçaları, axı nə çıxar bundan?!
Uzaqdan baxan zaman ya Mehrab, ya Diana[1]
Meşəsi dəyir gözə, ya da axıb gedən su.
Ya da ki, qövsi-qüzeh düşübdür Reyn çayına.
Lakin bütün bunların yeri deyil doğrusu!
Bəlkə də sən, a dostum, çinar çəkə bilirsən.
De bu niyə gərəkdir? Bir halda ki, dostum sən
Pul üçün vuruş çəkir, onunla yüksəlirsən.
Bir halda ki, ümüdsüz üzgüçülər çəkirsən.
Sən Amfora[2] çəkməyə başlayırsan, əzizim,

[1] Diana – Ovçuluq allahı (Artemida)

[2] İki qulplu, uzun, nazik boğazlı, yağ və şərab saxlamaq üçün saxsı bardaq. Üzərində mənzərə və başqa şəkillər olurdu.

Budur, təkərlər qaçır, ancaq bir söylə, özün,
Niyə, axı, de niyə, dairə alınır bəs?!
Bir sözlə, öz işinə sən başlamazdan qabaq,
Çalış qoy vahid olsun, sadə olsun ki, hər kəs
Bu işə öz qəlbində oyada bilsin maraq.
Pizonun oğulları, sən ey şərəfli ata!
Görkəm biz şairləri azdırır öz yolundan.
Deyirəm qısa olsun. Cəhd edirəm ki, ya da
İncə sözlər üstündə vaxt itirib çox zaman
Anlaşılmaz olmayım, çətinə salmayım, mən
Böyüklükçün gücünü itirir ehtiras da
Kim qorxaqsa, yaltaqsa, tufandan baş əkirsə
Kim də möcüzələrlə artıb çiçəklənirsə,
Bax, elə bu cür obraz arzu eləyir o da.
O, meşədə Delfina, dənizdə qaban çəkər,
Yaratmaq qüdrətimiz azdırsa bizi əgər,
Səhv önündəki qorxu azdıracaqdır bizi.
Emiliya məktəbinin ustası birdir dostlar,
O, öz məharətilə muma döndərib misi,
Ondan dırnaq düzəldib, yumşaq tük də qayırar.
Lakin yenə təəssüf onun yaratdığına,
Vahid bir şey düzəltmək nəsib olmayır ona.
Mən çox istəyirdim ki, iti qara gözlərin,
Qara, qıvrım saçların təbiətdən verilmiş
Eybəcər burnu olsun. Siz yaxşı fikir verin,
A dostlar, nə qədər də gülünc olardı bu iş.
Ey yazıçı, əvvəlcə çox götür-qoy elə sən,
Öz qüvvənə münasib mövzudan yapış ki, sən
Sonra da öhdəsindən bacarıqla gələsən.
Kimi məcbur etsələr, desələr: "götür bunu"
Nitqi çox yüngül olar, sözləri də dolaşıq.
Oxucu tapmaz orda şairin duyğusunu.
Qüvvədəki səliqə verir bəzək, yaraşıq
Şairin ürəyindən süzülən hər əsərə.
Oxucu sevsin deyə oxuyanda bir kərə,
Bəlkə səhv edirəm mən çalış, əziz dostum, sən,
Öz ürəyindəkini dərhal deyə biləsən!

ŞİFAHİ İFADƏ

Daha sonra: "Gözəldir sözdə, söz ölçüsündə,
Yeni məna yaratmaq" – söyləyə bilərsən sən.
Əgər söz arasında əlaqə möhkəmdirsə,
O bizimçin təzələr məşhur olan sözü də.
De, naməlum bir şeyi ifadə etmək üçün,
Yeni ifadələrə ehtiyac varmıdır heç.
Beləliklə, yeni söz yaratmaq olar bu gün,
Bizə naməlum olan qədim rimlilər üçün.
Belə bir azadlığa sən təki yer verəsən.
O təzə sözlər bütün qəbul olunar inan,
Əgər həmin sözləri alaraq yunancadan
Sonra da mənbəyini azca dəyişdirəsən.
Lakin zənn etmirəm ki, Plavteylə Sesili[1]
İcazə verə bilsin, Vari[2] ilə Vergili
Məhrum olan bir şeyə. İnana bilmirəm mən.
Eneyin və Katonun[3] hərarətli nitqindən
Bir şey versəydim əgər bununla ata dili
De, zənginləşərdimi? Müasir dünyamızda.
Söz deməkdə səhv olub, hələ də çox olacaq.
Meşə yarpaqlarını dəyişdiyin tək hətta,
Sözlər də dəyişilir yenidən doğulur, bax.
Əvvəlkilər birbəbir düşür öz budağından,
Bəli, sözün nəsli də məhv olur qocalar tək.
Yeni doğulan sözlər hakim kəsilir bu an,
Dildə möhkəmlənirlər, hər gün çiçəklənərək.
Bütün yazdığınızla ölümə məhkumuq biz.
Ölmüş adlar yenidən doğular, çiçəklənər.
İndi şərəfli olan çox adlar inanın, siz,
Məhv olar, adət bunu arzu edərsə əgər: –
O qanun, ali hakim, həm də nitq ölçüsüdür.
Əgər təsvir olunan hadisədə deyin bir,
Ahəngi, həm üslubu bilmirəmsə bəs nədən,

[1] Roma dramaturqu-komediyaçısı, Plavtenin kiçik müasiri
[2] Roma şairi Horasinin müasiri
[3] Böyük natiq və yazıçı. Bizim eradan əvvəl III-II əsrlərdə yaşamışdır.

Utanmadan özümə şair adı verim mən?!
Bilmədiyim bir halda öyrənməyimə məni,
Yalançı bir həyamı vadar eyləyir, deyin,
Faciənin mövzusu, süjeti, şeirləri
Komediya süjetinə uyğun gəlmir heç zaman.
Komediyaya məxsus danışıqla, üslubla
Tiestin[1] şam yeməyi təsvir edilə bilməz.
Artıq belə bir işə yol vermək olmaz əsla!
Əlverişli yerini tutsun qoy hər predmet.
İndi öz aramızdır; yeri gəldikdə bəzən,
Öz səsini qaldırar komediya da əlbət.
Budur bax, hirslənərək tənəli sözlər deyər,
Qəzəbdən köpüklənmiş ağzı ilə Xremet[2]
Belə bir üsul ilə faciəçi də bəzən,
Loru ifadələrlə dərin hüzn bildirər.
Axı Teleflə Peley[3] – qovulmuş zavallılar,
Təntənəli, bəzəkli sözləri rədd edərlər,
Tamaşaçı qəlbində rəhmdarlıq oyatmaq
Arzu eləyirlərsə, şairlər özü əgər,
Bu bəzəkli sözlərdən onlar əl çəksin gərək.
Ürəyə toxunmağı inan, bacarsa onlar,
Oxucu da onların arxasınca gedəcək.
Ağlamağa ağlamaq, gülüşə gülüş ilə
Cavab verər həmişə tamaşaçının üzü.
Mənim ağlamağımı istəyirsənsə əgər,
Əvvəlcə özün ağla[4]. Bəli, belədir düzü.
İnan, məni ağlada bilərsən ki, o zaman,
Telef ilə Peleyin kədərli həyatına,
Dostum, hamıdan qabaq sən özün ağlayasan.
Əgər verilən rolu pis oynayırsansa sən,

[1] Antik faciəsindəndir; Atrey qardaşı Tiesti öz doğma uşaqlarının ətinə qonaq etmişdir.
[2] Terensinin "Öz-özündən intiqam alan" komediyasında personajlardır.
[3] Tamaşaçıda mərhəmət oyadan faciə qəhrəmanları (Evripidin əsərlərində).
[4] Aristotel də "Poetika"sında belə deyir: – "Hamıdan çox o şairlər inandıra bilir ki, onlar həmin xarakterin duyğuları ilə yaşayırlar; o adam həyəcanlandırır ki, özü həyəcanlanır. O adam hirsləndirir ki, özü qəzəblənir".

Onda ya yatacağam, ya da güləcəyəm mən.
Qəmli görkəmə qəmli, qəzəbliyəsə gərək,
Qəzəbli bir danışıq versin hər zaman bəzək.
Şən adama zarafat eləmək çox yaraşır,
Ciddi bir adamasa, bəzəkdir ciddi olmaq.
Bizim təbiətimiz, bizim ilhamımız bax,
Həyatın hər işinə asanca uyğunlaşır.
O, bəzən sevindirir, qəzəbləndirir bizi.
Əl çatmaz yüksəkliyə qaldırır, yaxud hərdən,
Ağır bir əzab ilə yerə endirir bizi.
Ürəyin hərəkəti sözlə verilməlidir.
Obrazın taleyinə uyğun gəlmirsə sözlər,
Atlılar, pleyboylar bu işə cavab verər,
Roma camaatısa lağ edib, gülməlidir.
Fərq böyük olacaqdır: Allahmı, qəhrəmanmı,
Pirani bir qocamı, çiçəklənən cavanmı,
Matronanın[1] ağıllı, hikmətli sözlərimi,
Yaxud, qısqanc qadının şübhəli gözlərimi,
Qəribə bir adamın hərəkəti, nitqimi;
Tacirmi, çiçəklənən çölün sahibidirmi,
Kolxidiyalıdırmı, Assuriyalıdırmı,
Fiv və yaxud da ki, o, Arqos sakinidirmi?
Oxucu bu barədə necə desin fikrini?

XARAKTERLƏR

Ya əsatir seç, ya da xəyal yarat sərasər,
Faciəçi! Axilli şöhrətli göstərməyi
Arzu eləyirsənsə, çalışırsansa əgər;
Qəzəblidir, gümrahdır, yorulmazdır, bunu bil.
Guya, o, ibadətə heç boyun əyən deyil.
Qəhrəman Axillesi qılıncla verməlisən.
Vəhşi, tərs Medeyanı, hiyləgər İksionu[2]
Qəmgin Oresti, bir də azmış, yazıq İonu[3]

[1] Qədim Romada şərəfli qadın – qəbilə anası.
[2] Öz qayınanasını hiyləgərcəsinə öldürmüşdür.
[3] Esxilin "Zəncirlənmiş Prometey" faciəsində İo, İnaxın qızıdır, Zevs onu aldatmış, Gera isə onu ağır cəzaya məhkum etmişdir.

Gərək fərz eləyəsən. Həm də "İliada"nı
Pərdələrə bölməyi bacarmaq çətin deyil.
Əsl sənət bakir söz söyləməkdir, inan, bil,
Yoxsa sınıq, müstəvi bir dövrədə çox asan
Hərəkət eyləyərək, boşca fırlanacaqsan.
Sən sözü söz ardınca tərcümə edirsənsə,
Düşdüyün vəziyyətdən çıxmağa qoymaz daha,
Səni heç vaxt əsərin qanunu, bir də həya!
Əgər istəyirsənsə tamaşaçı otursun,
Pərdə bağlananacan, "əl vurun" deyənədək
Əsərin korifeyi . Əziz dostum, onda sən,
Hər yaşın xarakterin qeyd eləyəsən gərək.
Ver əsərdə dalbadal ilin fəsillərini.
Yenicə ayaq tutan bir uşaqla oynayan,
Gərək asan çatdıra o uşağa fikrini.
Ata, itə, günəşə Mars çölünə sevinir,
Nəhayət, qoca ilə əl verib vidalaşan
Hələ təmiz üzünə tük çıxmamış bir cavan.
Xeyirli məsləhətə baxmayan, baş əyməyən,
Mum kimi, barıt kimi ola bilən bir nəfər,
Öz işini, xeyrini gec anlayar, gec bilər.
İsrafçı, təkəbbürlü, mala ehtiraslıdır,
Amma o, sevdiyini tərk etməyə hazırdır.
Öz cəhdini dəyişən kişilərin ruhu, bax;
Dost istəyir, özünə dövlət axtarır hər vaxt.
O, qorxur ki, bir şeyi bilmədən səhv eləsin,
Sonra da mümkün edib, tez dəyişə bilməsin.
Qorxaqlıq bürüyübdür hər tərəfdən qocanı,
Dövlətmi axtarır o, əsir qorxudan canı.
Tapdığını yenidən itirməyə qorxur o,
Hər şeyə tənbəl, soyuq, qısılaraq baxır o.
O, yaşamaq istəyir olacağa baxaraq,
Yıxılıb zarıldayır, fikri ağırdır ancaq.
Anaraq keçmişini indi tərifləyir o,
Öz gənclik həyatını, mühakimə edir o.
İllər bir-bir ötüşüb keçdikcə ömrümüzdən,
Gənclik xeyir gətirir, həm də ki, alır bizdən.

Onunçun da cavana bir qocanın rolunu,
Uşağasa kişinin rolunu vermək olmaz,
Yazıçı, həmişəlik yadında saxla, bunu.
Ey meşə allahları, ey meşə camaatı.
Bazara yaxın yerdə doğulub, yetişənlər,
Gah gənclərə üz tutub incə şeir deyənlər,
Gah da çirkin söyləyib, pis səslə gurlayanlar,
Mən belə düşünürəm, qorusun özlərini,
Çıxarmasın bazara mənasız sözlərini.
Axı hər şeyin yeri, hər şeyin bir həddi var.
Həm adlı-sanlıları, həm də ki, varlıları,
Söyür, təhqir eləyir baxın, belə atlılar.[1]
Tələbkar noxud və qoz tələb eləyir, amma,
Sakitcə qəbul etmir, çələng qoymur başına.
Qədim yunanilərin yaratdığından siz də,
Gündüzlər və gecələr fırladın əlinizdə,
Plavteni və həm də başqa sənətkarları.
Ürəkdən bəyənərək, heyran qalıb babalar,
Düzgün səsi tutmağa bir necə qabiliksə,
Həm hesab, həm qulaqla, kobud zarafatı da
Zərifindən seçməyi biz necə biliriksə,
Şeri və kəskinliyi tərif eləyib onlar.

ƏSL ŞAİRİN OBRAZI

Bədnam incəsənətdən yüksəyə qalxıb talant,
Materialist filosof Demokritin[2] əliylə,
Neçə şairləri də çıxardıbdır cərgədən,
Kelikondan[3] ağıllı, insanlar aləmindən.
Çoxları dırnağını tutmur, qaçır hamamdan,
Qırxmır saqqalını da Litsina dəlləyinə

[1] Horasi öz dövrünün şəraitinə görə poeziyanı ancaq adlı-sanlı və varlı adamlar üçün hesab edir. Bu haqda o, başqa məktublarında da yazmışdır. Atlılar, Romada varlı təbəqə olmuşdur.

[2] Demokrit – Qədim Yunanıstanın materialist filosofudur.

[3] Kelikon – Qədim Yunanıstanda dağdır. Əsatirə görə şeir allahlarının məskənidir.

Antikir dərmanından sağalmayan başını,
Etibar etməyir o, lakin şair adını
Bu qiymətli rütbəni daşıyır utanmadan.
Ah, mən dəliyəm bəlkə, bahar vaxtı gələndə,
Mən bülövlə dəmiri itiliyə bilirəm,
Lakin onu kəsməyə bir qüvvə yoxdur məndə.
Mən özüm yaxşı bir şey yazıb yaratmasam da,
Şairə öz işini öyrədirəm budur, bax:
Mövzunu hardan alıb, məzmunu necə tapmaq.
Yaradan nə yaradır, bəzən də uyğun gəlir,
Nə də uyğun gəlməyir. Ağılın azdırması
Bizi hara aparır. Əsər necə düzəlir.
Sağlam fikirlərdəki yaratmaq işini siz,
Baxın, Sokratçıların bütün əsərlərində,
Axtarıb taparsınız, oxuya bilərsiniz.
Əgər mövzu məlumsa, onda söz də yubanmaz,
Kim nə ilə borcludur, dostuna, vətəninə,
Biz necə sevməliyik öz ata-anamızı,
Doğma qardaşımızı yaxud qonağımızı,
Vəzifəsi nədir bəs senatorun, hakimin,
Rəhbərlər bəs nə üçün təyin olunub, deyin?
Yaradıcı alimə məsləhət görərdim mən,
Həyatda nümunəni yüksəkdə tutsun onlar,
Həm də onu təsvirdə yaxşı canlandırsınlar.
O zənginsə, həyatı düzgün təsvir edirsə,
Gözəllik olmasa da hər hansı bir əsərdə,
İncəsənətin gücü xalqı cəlb edəcəkdir.
Onlara xoş gələcək boş səslənən mahnılar.
Keyfiyyətsiz şeirlər, məzmunsuz sətirlər də
Yaxşı nitq eyləməyi, talantı yunanlara
Muza allahı vermiş, bəxş eyləmiş onlara:
Rim uşaqları assı[1] çətin bölür yüz yerə.
Albinin oğlu! Mənə sən cavab ver və dillən,
Əgər beşdən on iki unsiya çıxsaq, de, bir,
Yerdə necə qalacaq, assın üçdə birimi?
Hə, afərin sənə dost, hə, bax bu, çox gözəldir.

[1] Roma puludur, 12 unsiyaya bərabərdir.

Öz kapitalını sən, saxlaya biləcəksən.
Yaxşı, bunun üstünə nə gələrsən, söylə sən:
– Yarısını.
Pul haqqında pas tutmuş fikir ruhu incidər,
Axı kedr yağından, bir də sərv ağacından
Allahın yaratdığı bir şeyin, söyləyin siz,
Sandıqda qalmasına necə əmin olaq biz.
Şair istər ki, qəlbi xoş bir hisslə oynasın,
Yaxud da xeyir versin, ağlı, fikri oyatsın.
Əyləndirib öyrətmək, budur əsas vəzifə
Həyatı əks etdirmək istəyirsən əgər sən.
Qulaq asan səni tez anlasın, duysun deyə,
Öz fikrini həmişə tam yığcam deməlisən.
Ürəkdə lüzumsuz şey qalmaz, tez yox olar, bil.
Qoy arzular, xəyallar həqiqətə oxşasın,
Nağıl özünə hər vaxt tələb etməsin inam,
Diri çıxartma heç vaxt lamanın mədəsindən
Uşağı, ey yazıçı, o, artıq yeyilibdir.
Mənasız yaranmışa, qocalar tənə edir.
Xeyirlə lətafəti bir yerə qoşan ancaq,
İstədiyi məqsədə qovuşacaq, çatacaq.
Kim öz oxucusunu şirnik edərsə əgər,
Bəli, onu bax elə ordaca əyləndirər.
Sosilərə[1] mənfəət verər belə kitablar,
Dənizləri aşaraq şairi məşhur edər.
Cavanlardan böyüyü![2] Sən özün ağıllısan.
Düz yol göstərsin sənə atanın səsi barı,
Lakin mənim sözümü yadda saxla hər zaman,
Hər işdə bir orta hədd dözümlüdür hər yerdə.
Həm də tam mümkündür bu. Əgər mübahisələrdə,
Danışan həqiqətçi, öz danışığıyla bax,
Messalaya[3] bərabər yanaşı durmayırsa,
Kastesellio Avlı[4] da birlikdə keçməyirsə,

[1] Romada görkəmli kitab satanlar.
[2] Pizonun oğlanlarından birinə işarədir.
[3] Məşhur Roma natiqidir.
[4] Roma hüquqşünası və səfiridir.

O yenə qiymətlidir, bunlara baxmayaraq.
Orta şair olmağı amma qəbul etmir, ah,
Nə heç bir kitabxana, nə oxucu, nə allah,
Sardiniya balına acı yağ qatmaqdır bax,
Gözəl stol dalında pis musiqi yaratmaq.
Poeziya da belədir. Doğrusu belədir bax;
Ruhu valeh etməyə yaradılır o, ancaq.
O, öz yüksəkliyindən azca enərsə əgər,
Bax onlardan xəbərsiz idmana olmayan bir kəs.
Heç zaman cəhd eləyib Mars meydanına getməz.
Həqiqətən izdiham ona gülməsin deyə,
Ağaca öyrəşmədən, topa da alışmadan,
İnanın, o, əl atmaz heç vaxt dəmir lövhəyə.
Çox təəssüf olsun ki, hər əfəl başlayaraq,
Utanmır şeir yazır. Axı, nədən qorxacaq,
O, nəcibdir, azaddır, həm də senzə malikdir,
Lazımi pulu da var, təmizdir tənələrdən.
Minervin iradəsi, icazəsi olmadan,
Sənsə yarada bilməz, bir söz deyə bilməzsən.
Metsi[1] qoy hakim olsun əgər yaratsan da sən.
Beləcə də, ata, sən! Hamımız – biz də, siz də,
Doqquz il də gizlədək gəlin bu vərəqləri,
Nəşr edilməyən şeyi ifadə etmək olmaz,
Buraxılan bir sözü qaytarmaq olmaz geri.
Söyləyin, incəsənət, yaxud da ki, təbiət,
Verir qiymətli şeyi? Məsələ belə durur.
Mən isə, a dostlarım, istedadsız sənətdə,
Nə də kobud talantda xeyir görmürəm, fəqət.
Onlar bunu istəyir bir-birilə mehriban,
Həm də ki qarşılıqlı hərəkət edən zaman.
Arzu etdiyi yerə çatmaq istəsə hər kim,
Uşaqlıqda çox dözüb, dözməlidir yenə də.
O tərləmiş, o donmuş, qaçıbdır təqsirindən.
Pifi[2] nəğmələrini oxuyaraq azad, şən.

[1] Avqustun hakimiyyəti dövründə senzura kollegiyasının üzvü.
[2] Apollonun şərəfinə oxunan nəğmələr.

Fleytaçı əvvəllər öyrənib mürəbbidən,
Sonra da iftixarla sinəsinə döyüb o,
"Mən özüm çalacağam, daha bəsdir!" – deyib o,
Öyrənmədən bir işə girişmək çox eyibdir.

ŞAİR VƏ TƏNQİD

Bax, carçı camaatı mal almağa çağırır,
Torpağı, sələm üçün çox pulu varsa əgər,
Şair də yaltaqları qazanca belə çəkir.
Ciddi çəkişmələrdə çıxıb hər vaxt aradan,
O, öz səxavətilə kasıba zamin durar.
Mən təəccüb edərəm, lakin bir şeyə, inan,
O xoşbəxt ayırmağı bacaracaqmı, görən.
Yalançı dostlarını, həqiqi dostlarından.
Vermək istəyirsənsə sən bir kimsəyə talant,
Bunu yadında saxla şerini dinləməyə,
O, şaddırsa, yanına çağırma onu heç vaxt.
"Gözəldir. Çox üstündür. Əla!" – deyib qışqırar,
Sevincdən rəngi qaçar, azar əsl yolunu,
Oradaca büdrəyib, torpağa ayaq vurar.
Dəfn üçün çox iş görər ağlayan, qışqıraraq,
Ürəkdən kədərlənib, qəmlənirsə kim əgər,
Çox qiymətləndirənə belə təsir edir bax.
Əgər şeir yazmağı arzu edirsənsə sən,
Gərək öyünməyəsən, gərək aldanmayasan.
Tülkü dərisi altda gizlənən təriflərdən,
Əgər Kvinitlinə[1], bax oxusan sən onu,
"Düzəlt söyləmişdir o, bunu, bunu və bunu".
Bax, iki üç dəfə cəhd etsən də inan sən,
Faydasızdır, sən ona cavab verə bilməzsən.
Pis şeirlərini at, işlə, işlə yenidən,
Onu çəkic altında möhkəmcə döyərək sən,

[1] Vergili və Horasinin dostu.

Təkid edib, səhvini düzəltmirsənsə əgər,
Deməli hədər yerə deyilməyib bu sözlər.
Sədaqətli sərraf dost zəif şeri söyər.
Boş şeyi qırmaclayıb o, çıxarar aradan,
Aydın olmayan şeyə aydınlıq tələb edər.
Aristarx[1] heç bir zaman söyləməz ki, bax "nədən,
Bu boş şeylərdən ötrü dostumu incidim mən".
O, bilir, fəlakətə gətirib çıxarar bu.
Qotur tutmuş bir xəstə hesab edib şairi,
Axmaq kimi qarşılar, ələ salarlar onu.
Yaxud da Dananın qəzəbindən, hirsindən
Dəli olmuş zənn edib onu uşaq, gənc, qoca,
Ağlı azmış şairə toxunmaqdan qorxaraq,
Gülüb ələ salarlar, düşərək arxasınca...

[1] İskəndəriyyədə yaşayan yunan tənqidçisidir. Homer poemalarının redaktoru olmuşdur.

OVİDİ NAZON

E.ə. 43 - b.e. 18

Publi Ovidi Nazon Romada imperator Avqustun sarayında yaşamış məşhur lirik şairdir. Onun formaca parlaq, məzmunca bir o qədər də dərin olmayan yaradıcılığı ilə Roma ədəbiyyatı öz yeni inkişaf mərhələsinə daxil olmuş idi. Avqust hakimiyyətinin ikinci yarısına təsadüf edən bu dövrdə "qızıl əsr"in yaradıcılıq qüvvələri getdikcə zəifləyirdi. Bunun əsas səbəblərindən biri e.ə. I əsrin ikinci yarısında və ortalarında hökm sürmüş olan ictimai şəraitin və ona uyğun əhvali-ruhiyyə və ideyaların indi daha dəyişməsi idi.

Ovidinin həyatı haqqında əsas məlumat onun özü tərəfindən "Kədərli şeirlər" adlı əsərində verilmişdir. Bu əsərdən məlum olur ki, Ovidi eramızdan əvvəl 43-cü ilin 23 martında Sulmon şəhərində anadan olmuşdur. Atası onun hüquqşünas olmasını və dövlət vəzifələri daşımasını arzu edərək onu Romaya natiqlik təhsili almağa göndərmiş idi. Ovidi Romada təhsilini bitirdikdən sonra Yunanıstan və Kiçik Asiyaya səyahət edib, sonra yenə Romaya qayıtmışdır. O, Romada az bir zaman aşağı məhkəmə və bir sıra dövlət orqanlarında xidmət etmişdir. Ancaq onu bu vəzifələr maraqlandırmamış, daha çox ədəbiyyat və kübar həyatı cəlb etmişdir. Ovidi varlı bir şəxs kimi asılı olmadan yaşayıb. Avqustun sarayında ədəbiyyat işlərinə rəhbərlik edən Messanatın dərnəyinə yaxın olmuşdur. Bu yaxınlıq nəticəsində Ovidi, nəhayət, saray şairləri sırasına daxil ola bilmişdir.

Tədqiqatçılar Ovidinin yaradıcılığında üç dövr müəyyən edirlər. Ovidi yaradıcılığının ilk dövründə sevgi lirikası yaratmaqla məşğul olmuşdur. Bu dövr eramızın başlanğıcına qədər davam etmişdir. Ovidi yaradıcılığının II dövrü üçün səciyyəvi olan cəhət onun elmi-mifoloji mövzu və süjetlər ətrafında yazmasıdır. III dövr isə şairin sürgün edilib, vətənindən didərgin yaşadığı zamanları əhatə edir. Bu dövrdə yazdıqlarını şair özü "kədərli şeirlər" adlandırmışdır.

Ovidi aşiqanə mövzular ətrafında yazdığı şeirləri qismən ixtisar etməklə onları 3 cild halında nəşr etdirmiş və bunlara "sevgi şeirləri" adını vermişdir. Həmin bu şeirlər məcmuəsinin özünəməxsus qəhrəmanı vardır. Bu da Korinna adlı şairədir. Bu şairə eramızdan əvvəl təxminən 500-cü illərdə Beotada (Yunanıstanda) yaşamışdır.

Qeyd etmək lazımdır ki, məcmuədəki şeirlərin yalnız bir neçəsi şəxsən Korinnaya aiddir. Qalan şeirlərdə isə bu qəhrəman tamamilə mücərrəd bir xarakter daşıyır.

Ovidi öz aşiqanə şeirlərində olan Katull, Tibull, və Propersidən xeyli istifadə etmişdir. Ancaq bu istifadə onun yaratdığı şeirlərin tamamilə orjinal şəkildə çıxmasına mane ola bilməmişdir, çünki onun sələfləri öz aşiqanə şeirlərində

ya kəndin şairanə gözəlliklərini, ya da mifik şəraiti əsas zəmin kimi alırdılar. Ovidinin sevgi lirikasında isə əsas zəmin kübar həyatıdır. Romada imperatorluğun qüvvətli olduğu çağlarda yaşayaraq, onun zahiri əzəmət və təntənəsi havasında nəfəs alan bu şair, özünü tamamilə bəxtiyar və həyatdan məmnun hiss edərək, şeirlərində dövründən razılığını ifadə etmişdir. Bununla əlaqədar olaraq onun mühiti, təsvir materialına münasibəti sələflərinkindən fərqli olmuş və bu hal onun üslub xüsusiyyətlərini də müəyyən etmişdir.

Ovidinin öz şeirlərində kübar həyatını əsas zəmin kimi alması onun yaradıcılığında aşiqanə-lirik janrın enməsinə səbəb olmuşdur. Ovidi sevgini bəzən bayağı, bəzən də kinayəvi bir xasiyyətdə vermişdir. Bununla əlaqədar olaraq, o, ciddi və dərin aşiqanə hisslərin təsvir və təhlili ilə məşğul olmamış, aşiqanə naz və qəmzələri zarafatla tərənnüm etmişdir.

"Sevgi şeirləri" məcmuəsində Ovidinin parlaq yaradıcılıq istedadını göstərən ən yaxşı şeirlər şair Tibullun ölümünə həsr olunmuş elegiyalardır. Ümumiyyətlə, bütün məcmuəyə xas olan əsas məziyyətlərə isə şairin variant düşünüb uydurmaqdakı məharəti, hazırcavablıq, dəqiq psixoloji təhlil, aydın məişət mənzərələri və sairdir. Göstərilənlərdən başqa, Ovidinin şeiri öz ifadə oynaqlığı və axıcılığı ilə də diqqəti cəlb edir. Bu son keyfiyyətlərilə Ovidi öz müasirləri arasında misilsiz bir şair kimi tanınmışdır.

Bununla belə onun "Qəhrəman qadınlar" (yaxud "Məktublar"), "Sevgi elmi", "Sevgi dərmanı", "Metamorfozalar", "Fastlar", "Pont məktublar" və sair əsərləri uzun əsrlər boyunca sevilə-sevilə oxunmuş, təqlid edilmişdir. Belə ki, orta əsrlərdə, intibah dövründə onun süjetləri əsasında yeni-yeni əsərlər yazılmışdır.

Ovidi şərə ritorik üslubun prinsiplərini gətirmiş olan bir şairdir. Bu cəhət onun aşiqanə lirikasında ikinci başlıca xüsusiyyəti təşkil edir. Ovidi deklamasiya və ritorika qaydalarından istifadə etməklə eyni fikir və mövzunu müxtəlif şəkillərdə verməyi bacarırdı. O zaman Roma ədəbiyyatında hökm sürən ritorik üslübün inkişafında Ovidi öz şeirlərilə xüsusi rol oynamışdır.

QOCA SKİFİN HEKAYƏSİ

Tomitlər arasında bir gün hünərinizdən
Danışırdım... sarmatca, ketcə[1] də bilirəm mən.
Orda bir qoca vardı, sözlərimi dinlədi,
Sonra da tərifimə cavab olaraq dedi:
– Bizə də "dostluq" sözü qiymətlidir, ey qonaq!
Dənizlərin dalında, sizin yerdən çox uzaq
Skifiyada Tavridə adlı bir məmləkət var,
Ketlərdən ora gedən düz bir il yolda olar.
Orda Pont [2] sahilində mən olmuşam anadan:
Yerlilər tez-tez kəsər ilahə Febə[3] qurban.
Orda sütunlar üstdə öz nəhəng görkəmilə
Qırx pilləli körpülər, məbədlər durur hələ.
Heykəllər göydən enmiş o yerlərə elə bil,
Onlar heç vaxt köhnəlmir... Dullar boş şey deyil.
Qurban qanından doymuş qurbangah indi də var,
Sıldırım bir qayanın sinəsində parlayar.
Burada nəcibliyilə bütün qızlardan üstün
Bir bakirə ayinə rəhbər olardı hər gün.
Adət idi o qızın qılıncından öpərək,
Qurban tək diz çökəydi bütün gəlmələr gərək.
Onda şah Fonat idi... Evksin sahilləri,
Metoiddə görməmiş ondan güclü bir əri.
İfigeniya adlı həmin kahinə birdən,
Onun dövründə bura göndərildi göylərdən.
O yunan qızı burda dözdü dərdə, möhnətə,
Febin iradəsiylə yar olmuşdu qürbətə.
İdarə eyləyərək məbədləri illərlə
Ayinlər başa vurdu, istəmədən kədərlə.
Bir gün gəmiylə gəldi iki gənc bu ellərə,
Gülə-gülə çıxdılar bu vəhşi sahillərə.
Birinin adı Orest, birinin Pilad idi,
O, həmyaş cavanlara kin-küdurət yad idi.

[1] Sarmat – ket tayfalarının dili
[2] Pont – Qara dəniz
[3] Feb – Apollon

Onların əllərini bağlayıb elə o an
Məbədə gətirdilər çəkə-çəkə durmadan.
Budur İfigeniya başlarına səpir su;
Sarı saçları lent tək çatalanır
Dini paltar geydirir yunan qızı onlara,
Amma bəhanə gəzir gecikməkçün bu ara.
Pıçıldayır: – Mən zalım deyiləm, əfv edin siz,
Bu vəhşi adətlərə nə vaxtdır, qurbanıq biz.
Skif adəti budur, işdən halı oldunuz,
Deyin haralısınız, harayadır yolunuz.
Cavabdasa səslənir qızın yurdunun adı,
Ah, o yerlilərini nə pis yerdə tanıdı.
Qız: – Adət budur, sizdən, – deyir öləcək biri,
Yurdumuza dönəcək hansınız qalsa diri.
Pilad: – Qoy olsun, Orest vətənə getsin, – deyir,
Orest isə özünü qurban vermək istəyir.
Mübahisə uzanır... Bir məktub yazıb bu vaxt
Uzadır qız Pilada: – Qardaşıma çatacaq.
Orestsə zərfə baxıb görür önündə duran
Öz doğma bacısıdır. Tale eləymiş, aman.
Məbəddən ilahənin əksini götürüb tez
Onlar üçü də qaçır dənizə səs-səmirsiz...
İndi illər keçsə də, hamı Skifiyada,
O dostluq misalını hörmətlə salır yada.
O iki mərd cavanı tərifləyib doyunca,
Hekayəni bitirdi, xəyala getdi qoca...

BİRİNCİ MƏZƏMMƏT

Nə var, bədxah, həyasız, bu halıma baxıb sən,
Qanımla nəfəs alıb şadlanırsan, deyəsən.
Qarınqulu doğulub, canavar əmmisən sən,
Köksündə ki, ürək yox, daşdır söyləyirəm mən.
Dillən, hüdudu varmı, nədir bu acıq belə?
Yoxsa tamam dolmayıb kədərlə kasam hələ?
Vəhşilərlə doludur Pontun sahili, aran,
Ayı bürcü də mənə keşik çəkir səmadan.
Şairlə danışmağa burda bir kimsə yoxdur,

Bu yerlərdə həmdəmim həyacandır, qorxudur.
Ayının pəncəsinə düşmüş maralam sanki,
Ya da canavarların içində quzu kimi
Titrəyirəm qorxudan, gəzirəm kömək deyə,
Döyüşkən qəbilələr almış məni dövrəyə.
Cansıxıcı çöllərdə dəhşətlə sıxılaraq,
Qorxuyla yaşayıram, düşmən çiynimdədir bax.
Bir mərhəmət sanırsan yoxsa bu cəzanı sən?
Vətən uzaq, dostlar yox, qalmışam qürbətdə mən.
Bəlkə cəzalanmadım? Sezar[1] qəzəbləndi tək?
Sağalmamış yaramı simlədən həvəskarlar,
Xasiyyətimdən orda-burda deyən yenə var.
Bəsdir, utan işindən, sərt, heybətli boş-boğaz,
Bu dərdim, əziyyətim yoxsa sənə gəlir az?!
Sürüşən hər bir şeyi yerə yıxmaq asandır,
Dayaq qübbəsini də məhv edən qəhrəmandır.
Yox, artıq o deyiləm, əl götür boş kölgəmdən,
Məni toza döndərib külümlə oynama sən.
Hektor kimi əskərdim, qorxmurdum döyüşlərdən,
Hayıf ki, toz içində sürünürəm indi mən.
Bir vaxt gördüyün kimi gəl məni zənn eləmə,
Bax, tutduğun kölgəyəm – batmışam dərdə, qəmə.
Niyə qamçılayırsan danlaqla kölgəmi sən.
Rəhm et, dəhşətə salma bu canımı yenidən.
Qəsdən ağırlaşdırıb dərd-bəlamı əlinlə,
Nə eyib, düşmənimi sən haqlı güman eylə.
Budur, qovulmuşam mən, doydur ac ürəyini.
Bu yerdə iki cəza incidirkən qoy məni:
Biri bədbəxt taleyim, biri sürgün dəhşəti,
Sən qəh-qəh çək ucadan, unudub məhəbbəti.
Cəllad da ağlayardı şairin bu bəxtinə,
Paxıllıq eləsə də, ağlayardı o yenə.
O qaniçən Buzurid[2] ağılsız vəhşi, bir gün
Müsibətlə doldurub mis bətnini öküzün,

[1] Avqust

[2] Buzurid – Xaricdən gələn bütün qəribləri qurban verən Misir hökmdarı. Herkules tərəfindən öldürülmüşdür.

Siciliya hakiminə hədiyyə verdin, axmaq.
İxtira edəni də belə tərifladin bax.
"Bəxş etdiyim bu qyeri-adi şeydə, hökmdar,
Gözəlliyi tərifə çağıran mənzərə var.
Görürsənmi? Öküzün böyründə qanadı sən,
Kimi yıxmaq istəsən, tulla onu dəlikdən.
Tulladın, durma yandır, tutsun göyü tüstüsü,
Qoy qalxsın asimana öküzün böyürtüsü.
Bir ixtira bəxş elə, hökmdarım, gəl mənə,
Ki, layiq ola bilsin bunu icad edənə?
Ürəyini boşaltdı, Falarid[1] ah çəkərək,
Dedi: – Bunu özündə sınaqdan çıxar görək.
Çoxmu, azmı bilmirəm, öküz böyürdü bu an,
"Ağıllı" ixtiraçı qorxdu bu bağırtıdan.
Siciliya dastanı, bəsdir daha, çürü sən,
İndisə çox uzaqdan skiflərdən, ketlərdən,
Kim olsan da, yanına qayıdaram yenə mən,
Cəllad, qanımla söndür öz təşnəni tez ol sən.
Bayram et, durma, şadlan, həris qəlbini güldür,
Çox əzab çəkmişəm mən, dərdim yüngül deyildir.
Bədbəxtliklə keçmişəm neçə çay, neçə ölkə,
Müsibətim sənə də təsir eylədi bəlkə.
Ulissin həyatından pisdir halım, inan sən,
Necə Neptun qəzəbi güclüdür Yupiterdən.
Sən nəhəng, əzəmətli, mən isə günahkaram,
Çək amansız əlini, didilməsin qoy yaram.
Nazonun "Cinayəti" haqqında söhbətlərin,
İstərəm səsi batsın, yaram olsa da dərin.
Bu işlər belə qalmaz, dəyişgəndir talelər,
Yüksələn alçalar da, sənin də növbən gələr.
Mənim bədbəxtliyimə sən çox səy edirsən,
İnan, belə dostluğu arzu eləməzdim mən.
Yox, xoşbəxtlik saymazdım, bəsdir, batma günaha,
Sezarın qəzəbini çəkib gətirmə daha.
İstəsən ki, duyasan mənim kədərimi, ah,
Bu dərdi, bu taleyi bəxş etsin sənə allah.

[1] Öz düşmənlərini mis öküzdə yandıran Aqriqenta hökmdarı.

ORFEY VƏ EVRİDİKA

Sonra, sarı plaşilə yüngülləşib allah yenə,
Uçdu sonsuz uzaqlara, kinonların sahilinə.
Bədbəxtliyə, çətinliyə çağırsa da onu Orfey,
Uçdu hava dəryasıyla, qanad açdı tez Himeney.
Gəldi, fəqət gətirmədi nə gülər üz, nə şad xəbər,
Nə də gözəl, ürəkaçan, təntənəli şən nəğmələr.
Əlindəki çırağı da tərəddüdlə çatıldayır,
Alovlana bilməyərək yalnız acı tüstü yayır.
Lakin daha ağır oldu nəhayəti əvvəlindən,
Gənc qadını pərilərlə göy çəməndə gəzinərkən,
Öldü, ilan dişlərilə zəhərlənib düşdü yerə,
Rodop oğlu o nəğməkar çox ağladı bu xəbərə.
O, Stiksin Tanariya qapısına belə endi,
Öz sevimli zövcəsini kölgələrdən sual etdi.
Ötüb cansız nəsilləri çatdı zülmət məskəninə
Yetişdi Persafonaya və kölgələr hakiminə.
Sonrasa öz nəğməsinə başlayaraq o nəğməkar,
Mizrab vurdu incə simə: – Siz ey qüdrətli allahlar,
Ey əbədi sakinləri insanın son məskəninin,
Mümkündürsə cəsarətlə haqqı demək, izn verin,
Atıb gözəl nitqlərdən, hiylə, yalan pərdəsini,
Mən söyləyim, siz dinləyin həqiqətin nəğməsini.
Məni bura gətirməmiş Tartarı görmək həvəsi,
Gəlməmişəm Meduzanın o qorxunc üçbaş nəvəsi,
Əjdahanın başlarını öz boynuna sarıyam mən,
Gəlmişəm ki, sevgilimi zülmətlərdən arıyam mən!..
Onu ilan aldı məndən, oğurladı həyatını,
Dabanından dişləyərək məhv elədi gənc qadını.
Mənsə dözmək istəyərək qüssəyə, hicran ahına,
Sınadım, tez məğlub oldum, heyhat, sevgi allahına.
O ki, çox yaxşı tanışdır yer üzündə hər bir kəsə.
Buradamı, bilməyərəm, lakin əgər doğru isə,
Keçmiş oğurluq haqqında söylənilən xəbər, əlbət,
Sizləri də əbədilik qovuşdurub bu məhəbbət!
Dəhşət dolu taleyimlə yalvarıram sizlərə mən,

Açın qısa taleyini Evridikamın yenidən.
Biz ki, sizə borclularıq, ləngitsək də hey illəri,
Tezmi, gecmi çatacaqdır ömrün xəzan fəsilləri.
Biz hamımız tələsirik vahid sığnaq yerimizə,
Hamı buraya can atır, axır evdir bura bizə.
Müvəqqəti bir dövrçün istəyirəm onu ancaq,
Uyğun zaman yetişəndə, o da yenə qayıdacaq
Hökmünüzə baş əyməyə, son məskənə, yer altına.
Ah, taleyin mərhəməti rəhm etməsə o qadına,
İstəmirəm mən də çıxım bir də burdan yer üzünə.
Sevininiz o zaman siz ikimizin ölümünə!..
Dinlədikcə o hikmətli nəğmənin nəğməsini
Tellərinsə razılıqla, ahənglə titrəməsini,
Qansız canlar, deyirlər ki, göz yaşları tökürdülər,
Musiqiyə məğlub olub olmuşdular evmenidlər.
İslanmışdı yanaqları göz yaşından, bax ilk dəfə
Rədd eyləyə bilərdimi bu təklifi nə ilahə,
Nə də allah? O kölgələr hakimi, bax,
Çağırır Evridikanı. Osa ahəstə qalxaraq
Hələ də ləng addımlarla köhnə ilan yarasından
Yeriyir ləng, yavaş-yavaş kölgələrin arasından.
Aldı onu Rodop oğlu onunla birgə də bir şərt:
O, Alverin dərəsindən çıxmamış etməyib diqqət,
Çevirərək nəzərini baxmamalı heç geriyə!
Yoxsa geri alınacaq dərhal qiymətli hədiyyə.
Odur, zülmət dumanlı bir cığır ilə qalxaraq
Onlar gedir lal sükutla, sərhəd artıqhey deyil uzaq.
Lakin Orfey qalxan zaman qadın geri qalar birdən
Acgöz bir ehtiras ilə, məhəbbətlə çevrilərkən
Evridika itdi gözdən. İztirabla yazıq insan
Əllərini uzadır, bax, qarşı ağuş arayır o,
Əvəzində yalnız soyuq elləri qucaqlayır o.
Ölümü qəbul edərək Evridika, bax, yenidən
Danlamadı öz ərini, danlasan da axı nədən?
Yoxsa onun üçünmü ki, çox əzizdir, sevimlidir?!
Son "bağışla" kəlməsini eşitmədi ər elə bil,
Dönüb getdi o, yenidən ölülərin məskəninə,

Quruyaraq qaldı Orfey onun təkrar ölümünə.
Kim ki, vida etməsəydi qorxulara əvvəlcədən,
O zəncirli, dəhşət saçan üçbaş köpək görünərkən
Çevrilərdi daşa bədən. Orfey isə yalvarırdı,
Yenə geri üzmək üçün nahaq yerə can atırdı.
Allah bir də vermədi izn, ancaq inadla yeddi gün
O, sahildə tənha, susuz, kir içində batıb bütün,
Nahaq yerə əzab çəkdi gecə-gündüz ac dayandı.
Ürəyinin ağrısıyla, göz yaşıylə qidalandı.
Danlayaraq yer altdakı o ürəksiz allahları
Getdi Rodop dağlarına –
Daim şimal küləyindən zərbə yenən Qemə sarı...

Qədim mifologiyada Orfey və Evridika haqqında belə bir əsatir var: Şair Orfey çay allahı Eaqranın və Muza ilahəsi Kallionanın oğludur. Frakiyada yaşamışdır.

Orfeyin arvadı gözəl pəri Evridika idi. Orfey onu çox sevirmiş. Bir dəfə Evridika öz rəfiqələri ilə yaşıl çəmənə gül-çiçək yığmağa gedir. Kol altında gizlənmiş ilanı görməyən Evridika onu basdalayır. İlan isə Evridikanı sancır.

İlanın zəhərindən ölən Evridikanın fəlakətli ölümünü eşidər-eşitməz Orfey uzun müddət yas saxlayıb göz yaşı tökür. Ən nəhayət, Orfey yeraltı dünyaya, yəni Tartara enmək qərarına gəlir. Orfey Stike kənarına gəlir. Ölülərin ruhunu Tartara daşıyan Xarona yalvarır. Xaron rədd cavabı verir.

Bu zaman Orfey qızıllı kifarasının tellərini hərəkətə gətirib çalır və nəğmələrini oxuyur. Ürəkalıcı nəğmələrdən mərhəmətə gələn Xaron onu qayığa mindirir, çaydan o tərəfə keçirir. Orfey kifarasını çala-çala qaranlıq dünyanın allahı Aidin taxtına yaxınlaşır. Şair öz nəğmələrində bədbəxt eşqini hekayə edir. Tartar aləmi onun nəğmələrinə heyranlıqla qulaq asır. Aidin arvadı Persefona də ərinə yaslanaraq eşitdiyi nəğmələrdən gözləri yaşarır. Tantal aclığını yadından çıxarır. Sizonlar ağır işlərindən əl çəkir. Danaidlər öz dibsiz qablarını unu-durlar. Dəhşətamiz üçbaşlı ilahə Hekata üzünü əli ilə gizlədir ki, göz yaşlarını görən olmasın. İntiqam allahları Erininlər kinlərini yaddan çıxarırlar. Hər tərəfə ağır bir sükut çökür. Bu sükutu Aid pozur. O, Orfeydən Tartara gəlməsinin səbəbini soruşur və söz verir ki, onun xahişini yerinə

yetirəcəkdir. Orfey ona cavab verir ki: "Ey qüdrətli Aid. Mən bura Herkules kimi Tartarın qorucusu üçbaşlı it Serberi (Kerber) aparmağa gəlməmişəm. Mən bura gözəl Evridikamı aparmağa gəlmişəm. Onu geri qaytar. Ona həyat ver. Onsuz mənə yaşamaq, yaratmaq mümkün deyil. Əgər sənin də Persefonanı əlindən alsaydılar, sən də göz yaşı töküb ağlardın. Sən ki, Evridikanı həmişəlik yox, müvəqqəti azad edirsən. O yenə sənin səltənətinə qayıdacaq".

Aid ona cavab verir ki: "Apar, qoy sən deyən olsun. Ancaq bir şərti yadından çıxarma. Sən Hermesin dalınca gedəcəksən, Evridika isə sənin dalınca gələcək. Ancaq qaranlıq dünyada ətrafına baxmamalısan. Yadında saxla. Əgər baxsan, Evridika yenidən və həmişəlik olaraq Tartara dönəcəkdir".

Orfey şərti qəbul edir. Hermes, qabaqda Orfey, onun dalınca Evridikanın kölgəsi də Orfeyin arxasınca hərəkət edirlər. Yol olduqca çətin idi. Hər tərəf zülmət və daşlıq, qayalıq idi. Orfeyin fikri daldan gələn Evridikada idi. O qorxurdu ki, birdən sevgilisi azar. İşığa çıxmağa az qaldığı vaxt, Orfey tab gətirə bilmir, arxaya baxır və Evridikanın kölgəsini görür. Ancaq kölgə, şərt üzrə, zülmətlərin içində çox olur. Demək Orfey öz sevgilisinin ikinci dəfə ölümünə dözməli idi. O, təkrar matəm saxlamalı olur.

ROMA ƏDƏBİYYATININ "GÜMÜŞ DÖVRÜ"

LUSSİ ANNEY SENEKA

E.ə. ? – e.65

Seneka Romada filosof, nadir satirik və dramaturq kimi tanınmışdır. Avqustun və onun xələflərinin səltənət dövrü üçün xas olan yeni üslubun görkəmli nümayəndəsi Senekadır. Onun həyatı və yaradıcılığı Roma tarixinin ən ağır və qorxulu bir mərhələsinə təsadüf edir. Tiberi, Karikula, Klavdi, Neron öz şəxsi həyatları və idarə üsulları ilə romalılar arasında elə bir əxlaqi düşkünlük yaratmışlar ki, uzun müddət cəmiyyəti belə ümumi düşkünlük girdabından xilas etmək mümkün olmadı. Seneka, yaradıcılığı ilə bu aləmin islahatçısı kimi mübarizə meydanına atılır və eyni zamanda onun qurbanı olur. Senekanın fəlsəfi əsərləri əxlaq və şəxsi kamillik məsələlərinə həsr edilərək islahatçı qayə daşıyır. Lakin özü, ümumi ruhi düşgünlüyün girdabından xilas ola bilmir. Nəticə etibarilə Seneka onu tanıyanlar və tədqiqatçılar arasında vaizi-biəməl kimi şöhrət qazanmışdır.

Lussi Anney Seneka İspaniyada indiki Kordovda anadan olmuşdu. Doğulduğu il məlum deyil. Təxminən bizim eradan bir-iki il əvvəl anadan olduğunu müəyyən etmək olar. O, öz ailəsi ilə Roma şəhərinə köçən və Romada ritorika ilə məşğul olan Senekanın ortancıl oğludur. Atasının ictimai vəziyyəti və məşğələsi onu yüksək zehni əməklə məşğul olan ziyalıların, müəllimlərin, filosofların məclisinə salır. Ona görə, ilk gəncliyindən başlayaraq Seneka bədii nitqlə məşğul olur.

Tiberinin hakimiyyət illərində, o – natiq, Kaliqulanın səltənət illərində – vəkil, bir az sonra kvestor vəzifəsində dövlət məmuru olur. Klavdinin vaxtında isə onun arvadı Messalinanın intiraqası ilə Seneka Romadan Korsikaya sürgün edilir. Klavdinin ikinci arvadı Aqritina Romadan Korsikaya Senekanı sürgündən azad edir və oğlu Neronun mürəbbəsi kimi saraya çağırır. Üç imperatorun istibdadından narazı qalan Seneka, Nerona böyük ümid bəsləyərək onun tərbiyəsində xüsusi cəhd göstərir. Çalışır ki, Neron rəhmdil, güzəştə gedən, sentimental bir insan olsun. Lakin idealist Senekanın ümidləri boşa çıxır. Tələbə öz müəlliminin ölümünə hökm verir. Neronun hakimiyyət illərində bir sıra vəzifələrdə, hətta saray naziri olur. Ən axır 65-ci ildə guya gizlin Pizon sui-qəsdçilər təşkilatında iştirak etməkdə təqsirləndirilərək Neron tərəfindən ölümə məhkum edilir.

Senekanın fəlsəfi görüşləri yunan filosofu Zenonun stoika fəlsəfəsinin Roma həyatına uyğunlaşdırılmış şəklidir. Roma filosofu zadəganların ali təbəqəsinin əxlaqi görüşlərini saf-çürük edərək eklektik, daimi ziddiyyətlərlə dolu həyat fəlsəfəsi yaratmışdı. O, kütləni, xalqı sevmirdi. Bir tərəfdən yoxsulların həyat sadəliyini mədh edən Seneka, ikinci tərəfdən sərvətə düşmən deyildi. O, çox zaman zadəgan Katonun həyat və ölümünü qəsdən nümunə göstərirdi. Həyat ilə bərabər ölüm dərdi onu rahat buraxmırdı. Seneka iddia edirdi ki, "yaxşı ölməyi bilməyən adam xoşbəxt yaşaya bilməz". Bunun üçün insan həyatın hər bir zəhmətinə, bəlasına, iztirablarına dözməyi bacarmalıdır. Onun fəlsəfəsində dözümlü olmaq və mübarizə, ruhi sakitlik və şəxsi vüqarı müdafiə etmək kimi öyüdlər müəyyən ziddiyyət təşkil edirdi.

Lakin Seneka konkret şəraitin tələbini göz önündə tutmağı məsləhət görürdü.

Seneka fəlsəfəsi öz məzmunu ilə eyni deyildi. O, yunan filosoflarının əxlaq fəlsəfəsini alaraq necə və nə zaman o əxlaqi məsləhətlərdən istifadəni həll edirdi.

Senekanın fəlsəfi əsərləri yüksək və təsirli üslubda yazılmışdır. Çünki müəllifin məqsədi isbat deyil, inandırmaqdır.

Senekanı ədəbiyyat aləmində məşhur edən ədəbi əsərləridir. Onlar da taziyanələrdən və faciələrdən ibarətdir.

İMPERATOR KLAVDİNİN KÜDÜLƏŞMƏSİ

Günortaya yaxın idi. Klavdi can verməyə başladı, lakin canı çıxmadı ki, çıxmadı. Həmişə onun dahiliyindən məmnun olan Merkuri bunu görcək, parklardan birini kənara çəkib deyir: "Ey bədəməl, sən bu yazığı əzab çəkməyə vadar edirsən. Doğrudanmı, onun əziyyətləri heç vaxt qurtarmayacaq? Yazıq 64-cü ildir ki, can verir. Məgər sən həm ona, həm də dövlətə bir xeyir vermək istəmirsən. İmkan ver, qoy romalılar heç olmasa bircə dəfə yalan deməsinlər; axı o, imperator olan gündən rəmmallar bəlkə də hər ay onu dəfn edirlər. Hər halda yalan desələr də təcrübə etməyə dəyməz. Klavdinin ölüm saatını heç kəs bilmir. Hətta anadan olmasını belə heç kəs təyin edə bilmirdi. Amma sən öz işini gör: bunu öldür, sarayı isə ondan yaxşısına tapşır".

Kloto (üç Parkdan biri) cavab verir: "Sözün düzü, mən çalışırdım ki, onun ölümünü bir az da uzadım. Deyirdim ki, qoy istədiyi qədər öz "vətəndaşlığından" camaata bəxş eləsin: onsuz da onlar cüzi miqdardadır. Lakin qeyd etmək lazımdır ki, Klavdi bu "toqa" ilə (paltar növüdür) bütün yunanlıları, qalları, ispanları, hətta britaniyalıları belə bəzəmək fikrində idi. "Qeyri vətəndaşları da yer üzündə bir tayfa kimi saxlamaq lazım idi. Yaxşı, qoy sən deyən olsun". Kloto[1] mücrünü açıb, oradan üç top sap çıxartdı: biri Avqurinin, ikincisi Vavanın, üçüncüsü də Klavdinin özünün idi. "Bax, bu üç nəfəri görürsən? – deyə Kloto sözünə davam etdi, bunları biri-birinin ardınca öldürəcəyəm ki, Klavdi tək olmasın. Yoxsa darıxar! Axı, dövrəsində minlərlə adam olan bir şəxs tək olsa, əlbəttə, darıxar! Nə isə, hələlik onun üçün bu qədər əyan bəsdir!

Bu sözləri deyərək, o, yığdı, fələyin ipini,
Axmaq çarın həyatının axınını birdən kəsdi.

Bu vaxt yumşaqsaçlı Laxes[2] başını və üzünü Piferiya lavrı ilə bəzəyib gözəl geyimdə gəldi.

Qar kimi ağappaq yun ilməyi götürüb xoşbəxtlik sapını çəkdi, amma həmin sap başqa rənglə işıqlandı. Bu möcüzəyə onun bacıları da təəccüb etdilər; haman sap indi daha ucuz yun deyil, hədsiz qiyməti olan qızıl kimi hörülür! Qızıl dəmlər də öz misilsiz gözəlliyində ötüb keçir. Bacılar yorulmadan xeyirxahlıq sapını çəkirlər.

[1] Kloto – Parklardan biridir
[2] Laxes – Parkalardan ikincisi

İş ağır deyil, şirindir!

İş qızışır, qaynayır, ipliksə hey çəkilir, qeybdən göndərilən güclə hərəkətə gətirilən cəhrələr də fırlanır. Tifonun, Nestorun iplərini toxuyub qurtarırlar, Feb də öz mahnısı ilə onları hey oxşayır və gələcəkdə məst olaraq simlərə vurur, toxucuları işlədir.

Mahnıdan valeh olan bacılar sayı-ölçünü itirib hey toxuyurlar, sevincdən yorulurlar. Gözəl sap həyat sərhəddini aşıb keçir. Feb onlara deyir: "Ey, Parklar, paxıl olmayın, öz cazibəli gözəlliyi və heyranedici hüsnü ilə, ahəngdar mahnısı ilə mənə tay olan hökmdar, qoy uzun illər hökmranlıq eləsin.

O, kədərli Romaya xoş illər bəxş edir,
Ölmüş qanunları dirildir.
Səyyarələri gizlənməyə gedən gündüz kimi,
Axşam günəşlərinin başçısı Şəfəq saçan Kesper kimi.
Gündüzə məxsus olan göy cisimləri çıxır,
Cahanı işıqlandırır və şəfəq saçan faytonu sürür, –
Eləcə də bizim günəşimiz – qeysərimiz
Çıxar və qüdrətli Romamız hökmdar Neronu görər.
Ziynətli saç dalğası içində itən qeysər hüsnü
Budur və hər tərəfə nur saçır.

Apollon belə dedi. Laxesa isə gözəl hökmdara aşıq olduğundan çox çalışdı və hökmdara özündən "uzun illər" bəxş elədi. O ki, qaldı Klavdiyə, hamı ona əmr etdi ki: "Öz xoşunla evi tərk elə!"

Nəhayət, Klavdi öldü və bu vaxtdan da onun sağ olduğunu güman etmək olmazdı. Lakin o, komediantları, oyunbazları dinləyərək öldü; odur ki, mən də haqlı olaraq komediantlardan qorxuram. Bu dünyada ondan nişanə qalan aşağıdakı sözlər idi, – "Vay dədə!"

Doğurdanmı o bunu dedi, bilmirəm, ancaq bilirəm ki, o hər tərəfi bulayıb batırdı. Sonra nə hadisə baş verdi, danışmağa ehtiyac yoxdur.

Siz özünüz yaxşı bilirsiniz ki, heç qorxmaq lazım deyil ki, belə hadisə, şənlik gətirmiş hadisə yaddan çıxsın, çünki heç kəs öz xoşbəxtliyini unutmur.

İndi qulaq asın, görün göydə nə hadisə baş verib: burada tam dürüstlüyə riayət edirəm. Yupiterə xəbər çatır ki, saçı ağappaq, ucaboylu bir adam gəlib nə iləsə hədələyir, dayanmadan başını silkələyir, sağ ayağını da sürüyür. Ondan soruşanda ki, hansı xalqdandır, o, özünü

itirərək, cavab əvəzinə nə isə pıçıldayır, dilini başa düşmək olmur, nə yunanlıdır, nə də romalı; qeyri-müəyyən bir millətə məxsusdur. Bu vaxt Yupiter, bütün dünyanı gəzmiş olan və təxminən bütün xalqları tanımış Heraklı çağırtdırır və ona tapşırır ki, bu adamın kim olduğunu öyrənsin. Nəhəng varlıqlardan qorxmayan Herakl da birinci baxışda yəqin ki, qorxdu. Bu misli görünməmiş əcayib sifəti, qeyri-adi yerişi görcək və heç bir yer heyvanatında olmayan, yalnız dəniz vəhşilərində olan səsi eşitcək, Herakl düşündü ki, on üçüncü qoçaqlığın vaxtı çatdı.

Gözünü qırpmadan bir daha diqqətlə baxdıqda, Herakl müəyyən etdi ki, deyəsən bu insandır, yaxınlaşıb yunanca soruşdu: "Sən nəçisən. Vətənin hansı tərəfdədir. Ailən harada yaşayır?"

Klavdi sevindi ki, göydə də filosoflar varmış və ümid etdi ki, burada onun "Tarixlər"i üçün də yercik tapılar. O, özü də həmin şəxsə Homer şerilə öz məmləkəti haqqında xəbər verdi:

"Fırtına məni İliondan Kikonlara qovdu".

Sonra düşündü ki, qoy aşağıdakı sətri də deyim:

"Onların şəhərini dağıdıb, özlərini amansızcasına məhv etdim".

Pəri Qızdırma burada olmasaydı, o, yəqin ki, sadəlövh Heraklı aldadacaqdı. Qızdırma öz məbədindən ayrılıb Herakl ilə bərabər göyə gəlmişdi. Klavdinin yalan danışığını görcək o, özünü saxlaya bilməyərək qışqırdı: "Lap həyasızcasına yalan deyir! Mən onu yaxşı tanıyıram. Neçə il bir yerdə olmuşuq. İndi sənə deyirəm, o, Lionda doğulubdur, cürətlə bax ki, Marka qohum çıxar! O, Viyennanın16 milliyində doğulmuş və özü də xalis qaldır. O, Romanı da məhz qallı olduğu üçün elə aldı. Bir də təkrar edirəm. Lionda anadan olmuşdur, vəssalam! Lissin harada neçə il hökmranlıq etdiyini bilirsənmi? Dünyanın hər hansı bir səyyahından çox gəzibsən. Sən də bilirsənmi ki, Roma ilə Ksanfın arasındakı məsafə kiçik deyil?"

Bu vaxt Klavdi qəzəbdən titrəyib, kinli-kinli mırıldamağa başladı. Heç kəs başa düşmədi ki, o nə dedi. Sən demə, pəri Qızdırmanın ölüm hökmünü oxumuş... Taqətsiz əlini qaldırıb (buna taqəti çatdı) adamların başlarını necə kəsdiyini göstərdi. Dərhal əmr etdi ki, Qızdırmanın da başı bədənindən ayrılsın. Sanki burada da hamı ona tabedir və elə bil ki, heç kəs ona tüpürmək istəmir. Herakl dilləndi: "Bir qulaq as, bu qədər axmaqlıq etdin, bəsdir! Burada, qardaş, sənin də başına iş açmaq olar. Bu saat mənə həqiqəti söyləməsən, səni o qədər döyərəm ki, dərhal ağlın başına gələr.

Klavdi deyir ki, mən allahlardan biri kimi sayılmaq istəyirəm. Herakl onu allahların məclisinə gətirir, allahın iddiasının əksinə olaraq onu allahlardan biri edir. Sonra da Klavdini tutduğu işlərinə görə: fahişəbazlıqda və qan-qatışığında təqsirləndirir. Bu məsələdən ötrü allahlar arasında mübahisə başlanır.

Bunu görən Yupiter fikirləşdi ki, senatorlara özgə şəxslərin yanında açıq danışmaq və xüsusən, mübahisə etmək yaraşmaz. Odur ki, sözə başladı: "Cənab senatorlar, sakit olun, mən yalnız sorğu-suala icazə vermişəm. Eşidirsinizmi? Amma siz adi hərc-mərcliyə yol verdiniz! Axı siz necə olsa da, senatdasınız, olmazmı ki, ədəblə edəsiniz. Bu cənab da, kim bilir, bizim haqqımızda nə fikirdə olacaq".

Hələlik Klavdidən əl çəkdilər. Əvvəlcə qoca Yanusun bu iş barəsindəki fikrini soruşdular. Hə, bunu da demək lazımdır ki, qocanı yenicə iyulun biri üçün günorta çağına konsul təyin etmişdilər. O, yaman hiyləgər idi: Qabağında hər şeyi görür, dalda da özünü itirmirdi. O çox aramla danışırdı Heyf ki, onun sözlərini stenoqraf yaza bilmədi, ona görə də nitqi ilə sizi tanış edə bilməyəcəyəm. Harda qaldım? Deyəsən, çaşdım... Hə, allahların ululuğundan dəm vurub deyirdi ki, hər kəsin bu şərəfə nail olmasına yol vermək olmaz. "Keçmişdə Allah olmaq zarafat deyildi. İndisə, görürəm ki, siz buna heç bir qiymət qoymursunuz. Xahiş edirəm ki, bu nitqimi şəxsi-qərəzlik adlandırmayasınız. Nəzərinizə çatdırıram ki, bu gündən etibarən heç bir "yer oğlu" allah olmağa cəsarət etməsin, əgər kimsə bu qərarımızın əksinə iş görüb allah edilsə, yaxud adlansa, yaxud daha pis, allah kimi təsvir edilsə, onda belələrini dərhal Tartara göndərməli və qarşımıza gələn bayramda başqa könüllü əsgərlər sırasında dəyənəklə döyülməli!" Sonra bu məsələ haqqında Vika Potanın oğlu Diespitrin fikrini soruşdular. O, da konsul təyin olunmuşdu: xırda rüşvətxor idi. Guya vətəndaşlıq hüququnu ödəyən sənədləri satmaqla dolanırmış. Herakl ona yanaşıb, qulağına yavaşca toxundu. O, isə görün nə qərara gəldi: "Madam ki, rəhmətə getmiş Klavdi allah,Avqustun, ondan əlavə özünün allahlığa keçirdiyi nənəsi ilahə Liviyanın qohumudur; madam ki, ağılda-kamalda bütün sadə insanlardan qat-qat yüksəkdir; madam ki, Romulun göylərdəki "Qaynanmış turnu" bir nəfərlə yeməsi dövlətin mənafeyinə uyğundur, o zaman bundan əqdəm qanunun tam mənası ilə allahlaşmışlar kimi, məhrum Klavdi də bu gündən allah olsun və bu "istihalə" Ovidinin kitabına dəxi yazılsın".

Mübahisə başlandı. Deyəsən, Klavdinin işi tutacaqdı. Hamıdan çox Herakl o yana-bu yana qaçır, onun-bunun qulağına pıçıldayıb deyirdi: "Kişi ol, xeyrimə çalış, mən də xəcalətindən çıxaram. Eşitməmisən ki, əl-əli, əl də üzü yuyar". Bu vaxt danışmaq üçün növbəsi çatmış allah Avqust ayağa qalxır və gözəl nitq söyləyir: "Siz, hörmətli senatorlar, şahidsiniz ki, mən allah olandan bəri ağzımı açıb danışmamışam. Mən bitərəfəm, heç nə bilmirəm! Lakin dözmək olmur, susmaqdan təngə gəldim. Daha doğrusu, vicdan əzabı çəkirəm. Bundan ötrümü mən dənizi və qurunu yola gətirdim? Bunun üçünmü iğtişaşa son qoydum. Buna görəmi paytaxtı qanunla möhkəmlətdim, tikintilərlə bəzədim, ki... Fu! Heç söz də tapa bilmirəm. Senatorlar, qəzəbdən dilim lap dolaşır. İcazə verin, mən sizə Messala Korvinanın dili ilə deyim (O, bu işin ustasıdır!): "Hökmranlıq etmək lap namuskarlıqdır!" Bu fərsiz Klavdi, demək olar ki, heç milçəyi belə yerindən qova bilməzdi. Amma di gəl, baş kəsmək onun üçün itin ayağını dolabçaya qaldırmaq kimi asandır. Bütün hörmətli şəxsləri saymağa nə lüzum. Öz ailənin vəziyyəti pis olanda, xalqın bədxahlığına ağlamaq yersizdir. Bu haqda yenə də danışıram, hələlik qalsın. "Öz paltarın bədəninə yaxındır" məsələni bacım bilməsə də mən bilirəm. Bircə ona baxın: neçə il adımla nəfəs alıb yaşadığına baxmayaraq, mənə qarşı minnətdarlığını nə ilə bildirdi. Yuliya adlı iki nəticəmi təngə gətirdi: Birini edam etdirdi, o birisini acından öldürdü. Bundan əlavə, demək olar ki, heç bir günahı olmayan Lyussi Silan adlı nəticəmi də öldürdü. Yupiter, əgər məsələ düzgünlüyə qalsa, görərsən ki, sən də bu cür günaha batmısan... Buyur, mərhum Klavdi, mənə cavab ver. Sənin nə ixtiyarın vardı ki, taqsırı olmayan ər və arvadlara ölüm hökmü verəydin. İstintaq aparmadan, özlərini doğrultmaq üçün onları bircə söz deməyə qoymayaydın. Heç göydə belə hadisə haqqında eşidilməmişdir. Görürsən, Yupiter uzun müddət hökmranlıq etdiyinə baxmayaraq vur-tut ancaq Vulkanın ayağını sındırmışdır. Ayağından tutub, göydən yerə yuvarlanmışdır. Arvadına da hirslənəndə onu bir balaca asırdı, ölümcül yox! Amma sən Klavdi elə işlər görmüşsən ki, saymaqla qurtarmaz. Hamısını deyim. Sən Messalinanı həlak etdin, halbuki ikiniz də qohumsunuz!" Heç bir şey bilmirəm, bilmək də istəmirəm! – deyirsən. Cəhənnəm ol, bu həyasızlıqdır; bilmədən həlak etmək, bilib həlak etməkdən daha pisdir! Görürsünüzmü, o, Kaliquladan nümunə götürdü: Kaliqula, Krassın oğlunu maqna adından məhrum etdi, bu isə onun başını kəsib, adını saxladı. Klavdi təkcə bir ailədə: Krası, Maqnanı, Skribonini, Tristionini, bacılarını, Assarionu məhv etmişdir. Onlar hamısı zadəgan idilər. Krass isə o qədər ağıldan kəm idi ki, dövləti idarə edərdi. İndi siz, bunumu allah etmək istəyirsiniz? Əgər o, üçcə kəlmə söz kəkələmədən tələffüz etsə, mən ona qul olmağa hazıram. Axı, belə allaha kim hörmət edər. Hərgah belələrini allah etsəniz, özünüzü də hörmətdən salarsınız! Hörmətli senatorlar, mənim son qərarım budur: indi ki, aranızda ədəblə davranmışam və heç kəsin bir sözünü iki eləməmişəm, onda siz də mənə tərəfdar olun. Bu məsələ haqqında qərarımı oxuyuram: "Madam ki, mərhum Klavdi öz qaynı Appi Silanı, yeznələri maqi Pompeylə Lyussi Silanı, qızının qayınatası Krass Fruqi (lap özü kimi axmağı), qızının qaynanası Skribonini, arvadı Messalinanı və saysız-hesabsız günahsız adamları öldürmüş, "bu işlərdən mən həzz alıram" deyib sinəsinə döymüş, onda belə təklif edirəm: Klavdiyə ciddi cəza verilsin, məhkəmə yollarından qurtarmaq ümidi kəsilsin, yaxşıca qulaqburması verilsin və bir aya kimi Göydən, üç günə kimi isə Olimpdən çıxarılsın!".

Qərar bəyənildi. Merkuri dərhal onun boğazından yapışıb, "ölüləri bir də geri qayıtmağı mümkün olmayan" yerə apardı. Onlar yerə enməyə başladılar. Müqəddəs küçə ilə gedərkən Merkuri dilləndi: "Bu nədir? Camaat niyə toplanmışdır? Klavdini dəfn edirlər?"

Mərasim doğrudan də təm-təraqlı idi. Sanki allahı dəfn edirdilər. Hər yandan musiqi səsləri ucalır, şeypurlar gurlayır, elə hay-küy qopmuşdu ki, hətta Klavdi də eşidirdi. Hamının üzündə sonsuz fərəh və sevinc əlamətləri vardı. Romalılar sanki əsarətdən qurtulmuşdur. Aqafon və bir neçə kahin anqırırdılar, amma səmimi qəlbdən anqırırdılar. Küncdən-bucaqdan məhkəmə işçiləri çıxdı. Onlar o qədər solğun, sısqa idilər ki, sanki bu dəqiqə qəbirdən çıxarılmışdılar. Məhkəmə işçilərindən biri kahinlərin taledən şikayət etdiyini görüb onlara yaxınlaşdı və dedi: "Dadanmısız dolmaya, bəlkə bir gün olmaya!"

Xorun acısını Klavdi də eşidir.

Klavdi öz dəfnini görcək, doğrudan da ölü olduğunu yəqin etdi. Ağı ona o qədər xoş gəlmişdi ki, burada daha çox qalmaq istədi. Lakin "Allahların carçısı" heç kəs Klavdini tapmasın deyə çəkib Mars çölü ilə apardı. Orada, yəni Tibr və örtülü küçə arasında, onlar Tartara daxil oldular. Öz sahibini qarşılamaq üçün yenicə hamamdan çıxmış, təmiz

Narsis, ən qısa yolla yüyürüb gəldi: "Allahlar insanların yanına, lütfən, nə üçün gəlmişlər?" Tez ol, – deyə Merkuri qışqırdı – kim bizi qarşılamalıdır, get ona de ki, gəlmişik! O, sözünü qurtarmamış Narsis götürüldü, sanki qeyb oldu. Təəccüblü də deyil, çünki yol dağın aşağısıyla gedir. "Götürüldünmü, özünü gözlə!" Podaqranın ağrısına baxmayaraq, Narsis bir göz qırpımında yeraltı dünyanın darvazasına çatdı. Burada nə gördü? İlahi, özün saxla! Qapının ağzında Serber və yaxud Horasinin dediyi kimi "yüzbaşlı div" uzanmışdı. Narsis əvvəlcə hürkdü. Niyə də hürkməsin. Axı onun balaca, ağ iti var idi. Burada isə birdən-birə nəhəng, eybəcər bir köpəyə rast gələsən! Kim qorxmaz. "Allah göstərməsin! Klavdi gəlir!" – deyə Narsis bağırdı.

Klavdini sürü ilə qarşılamağa gəldilər. Hamı atılıb düşür, əl çalır, bağırıb oxuyurdu: "Odur gəldi, odur bax, odur bizim sevincimiz! Onların içərisində konsul olan Sidi də, sabiq pretor Yunk da, Sekst Travl, Mark Halvi, Troq, Kotta, Vetti Valent, Fabi, bütün roma atlıları da var idi. Klavdi tərəfindən, guya gözəl olsun deyə bir baş gödəlmiş pantomim Metser isə bu xorun əsas ifaedicisi kimi ortada dayanmışdı.

Klavdinin Tartara gəldiyini eşidən kimi hamı Messalinanın yaxınına yüyürür. Ən qabaqda gedənlər – Klavdinin özündən əvvəl o dünyaya yol açmaq üçün göndərdiyi Polibi, Miron, Harpokrat, Amfey və Feronakt idi. Onların ardınca Katoni Yüst, Ruferi Pollion adlı prefektlər, sonra bütün konsul dostları – Lussi Saturnin, Pompey Pedon, Lup və Azini Seler gedirdi. Lap axırda isə qardaşı qızı, onun dalınca bacısı qızı, yeznələr, qayınlar, qaynanalar, bütün qohumları gedirdilər. Onların hamısı görüşə sürü ilə gəlmişdilər. Bunu görən Klavdi birdən qışqırdı: "Bıy! Hamı tanışlardır ki!.. siz bura necə düşdünüz? Pompey dərhal cavab verdi: "Hələ bir soruşursan da, qaniçən! Bura necə düşdükmü? Ey dostlarının cəlladı, sən özün bizi bura göndərmədinmi? Gedək məhkəməyə, sənin cavabını verərik. Pompey onun Eaka (Tartarda məhkəmə sədrlərindən biri) tərəf çəkir. Eak isə cəlladları Korneli kimi mühakimə edirdi. Klavdininin gördüyü işləri, əməllərini sayıb deyirlər: "35 senator 221 Roma atlısını öldürmüşdür. Qalan ölənlərin sayı, ancaq dənizdəki qumların sayı ilə müqayisə edilə bilər".

Klavdiyə vəkil tapılmadı. Onun keçmiş əyanı, işrət dostu olan Publi Petroi irəli gəlib hazırlaşmaq üçün möhlət istədi. Vermədilər. İttihamçı sifətilə Pompey Pedon çıxış edərək qışqırtıya və çaxnaşmaya səbəb oldu. Klavdininin müdafiəçisi ağzını açıb danışmaq istədi, lakin macal

tapmadı. Ən adil hakim olan Eak onun susmasını tələb etdi və "bitərəfi" dinləyib, o saat qərar verdi: "Oğruya əzab versən lap yerində olar!" Birdən-birə hamı sakitləşdi. Bu qərar hamını təəccübləndirdi. Belə bir hökm tarixdə eşidilməmişdi. Təkcə Klavdiyə bu məhkəmə əcaib görünməsə də ədalətsiz göründü.

Cəza haqqında uzun-uzadı mübahisə etdilər. Nəhayət, Klavdini necə edam etməyi düşündülər. Biri deyir Sizifi öz işindən azad etsək yaxşıdır, qoy Klavdi onu əvəz etsin, ikincisi deyir yox, Tantalı əvəz etmək lazımdır, bəsdir bu qədər əzab-əziyyət çəkdi üçüncüsü deyir, İksionun çarxını dayandırmaq pis olmazdı. Mübahisə qızışdı. Nəhayət, məhkəmə belə qərara gəldi ki, köhnə katorqaçılara aman verilməzsə, bu Klavdiyə də dərs olar. Axırda qərara gəldilər ki, başqa bir cəza fikirləşsinlər. Elə bir cəza ki, Klavdiyə məxsus olsun. Yəni mənasız bir iş, xeyirsiz əyləncə tapsınlar. Buna görə də, Eak, Klavdini dibsiz stəkanda aşıq oynatmağa məhkum etdi. Pis qərar deyildi, hamı bəyəndi. Klavdi aşıqları yığmağa başladı. Lakin aşıqlar stəkanda qalmırdı, nə qədər cəhd edirdisə yenə bir şey çıxmırdı. Bax, indi o, cingildəyən aşıqları stəkana yığacaq, birdən-birə aşıqların ikisi də düşəcək, zəhməti zay olacaq!

Yenidən aşıqları yığıb stəkanına, miz üstə atmaq istər,
Guya oyun göstərir, özü də məharətlə bu işi etmək istər,
Amma yenə aldanır. Hiyləgər aşıqlar sürüşüb yerə düşür,
Bütün səylər hədərdir, əsrlərlə çalışsa da!

Sizif də onun kimi dağın zirvəsinə yüklə qalxır və öz yükülə birlikdə aşağı yuvarlanır! Bu zaman Kaliqula haradansa tapılır və Klavdini özünə qul istəyir. Əvvəlcə vermək istəmirlər. O, sübutlar, dəlillər gətirir ki, Klavdini qırmancla, dəyənəklə az döyməmişdir. Onu Kaliqulaya verirlər; Kaliqula isə Klavdini Eaka bağışlayır, Eak – Menandıra, Menandır da onu casus kimi öz keçmiş quluna bağışlayır.

Satiranın son hissəsi bizə çatmamışdır. Çox güman ki, haman hissədə Klavdinin şərəfinə heykəl deyil, axmaqlıq rəmzi olan küdü qoyulduğu təsvir edilir.

FEDRA

BİRİNCİ PƏRDƏ

İppolit

Orda ki sərt qayalı şən qoca Parnaf ucalar,
Öz sərin kölgəsini sıx meşələr üstə salar.
Yararaq orda Zefir yer üzünə ilk baharı,
Öpər, oxşar yanağı şehli gözəl göy otları.
Orada əzəmətlə köksü böyük, zirvəsi qar,
Qoynu gur çaylı qədim Keqrapov[1] dağları var.
Ordakı şıltaq İlis[2] dil çıxarıb tənbəl axar,
Hey axıb qupquru çöllər boyunca buraxar.
Gəmirər bəhrəsi yox qumlu, geniş səhraları.
Çox kasıbdır İlisin qəlbi zəif dalğaları.
Keçin üstən, a dostlar, yayılın çöllərə siz,
Əyri cığırlarla çıxın dağ döşünə hər biriniz.
Qızıl ağac çöllərdə üz çevirin cürətlə,
Meşəli Marofona da[3] addım atın sürətlə.
Qovaraq dağ döşünə orda sürüsün analar,
Gecə otlaqlarını tapmaq olan yerdə arar.
Orda bağlardan açın ağzı soyuq itləri siz,
Bədmalaf cinslərini saxlamayın zəncirsiz.
Okrit itləri də hay salsınlar qoy hər gün
Yaralı boynunu zəncirdən azad etmək üçün.
Sparta soylu itin yer üzündə tayımı var?
Onların hər yürüşü vəhşilərə qənim olar.
Açmayın siz növün heç birini bağlardan
Meşəli yollar aşın zirvəsi dik dağlardan.
Qoy hürüşsün o köpəklər, elə bir gün gələcək
Zağalar altından əks-səda yüksələcək:
Ey geniş, gizli, qaranlıq meşədə çarlıq edən,
Nökərəm mən sənə, allah, sevərək gəl mənə sən.
Kamanı çəkmək üçün quş kimi yüngüldür əlin

[1] Afina ətrafında dağlar
[2] Afina yanında çay
[3] Afinada şəhər

Sən özün qənimisən vəhşilərin.
Oxu atsan hədəfə bir iti sürətlə əgər
Bağırıb vəhşi keçi dağdan uçub daşda ölər.
Səni görcək çevirər arxa və köksün qabağa.
Boz pələng, tüklü bizon, bir də qoca vəhşi buğa.
Və geniş, zəngin ərəb çöllərində Qarmant[1] da
O quru səhra boyunda yaşayanlar hətta,
Ordakı şənlik ilə vəhşi sarmatlar hər gün
Meşələrdə qayıdar daxmalara bayram üçün.
Olsa keçilməz nə qədər orda Piren[2] silsiləsi,
Çəksə də göylərə pərdə Krikanlar[3] meşəsi,
Bir quş da gizlənə bilməz yenə səndən,
Burdasan, ey ulu tanrı, – deyərək çöllərdən,
Orda səslər meşəyə, dostlarını şən itlər,
Yol uzun, xeyli çətin, yorucudur, ah, nə qədər!
Kəsə cığırlarla qaçın dostlar siz!

(*Gedir*)

Fedra

O yerdə ki Nereyin[4] yelkənləri olur səf-səf,
Hey can atır getmək üçün ərəb sahillərinə tərəf.
Yayılır hər tərəfə incə gözəl şəbnəmlər,
Bürüyür Pontu[5] tamam o yerdə saysız gəmilər.
Qayıqlar göy sulara quzğun kimi gərir sinə.
Neçin, neçin mən yazığı yelkənlər sahibinə
Yad olan düşmən evə girov verdin, ey Krit, sən.
Ey sahilsiz ümmanların böyük çarı, yerdə mən
Düşmən ərin arvadıyam göz yaşları içində, bax
Ömrümü qısaldıram kədər ilə hər gün, ancaq.
Tərk eylədi ər də məni qaçıb tutdu uzaqları,
Lakin vardır, vardır onun arvadına etibarı.

[1] Afrika tayfalarından biridir.
[2] Pirney dağları
[3] Xəzər dənizi yanında meşəlik
[4] Nerey – Dəniz allahı
[5] Pont – Qara dəniz

Etibar ki, o Tezeyə məxsusdur diqqətlə bax
Bir də mənim bundan böyük dərdim vardır ancaq.
Nə gecənin qaranlığı, nədə ki, bir dərin yuxu
Xilas edə bilmir məni. Əzabların iti oxu
Ürəyimi parçalayır, dərd sinəmdə salır düyün.
Məni oda yandıraraq qəza-qədər artır hər gün.
Etna[1] mağarası altda gündüzüm də keçir qara.
Göz yaşları qüssə, kədər varlığımı çəkir dara,
Şadlıq ilə işlədikcə yeraltında dəzgahlarım.
Dedi günəş övladlarına sevinc, nifrət,
Bizi, Marsın[2] qadınlarını yığdı fəqət.
Apardı o, Veneraya – öz mülkünə.

Dayə

Məğrurluq eləyib kəc durma belə,
A mehriban qızım, gəl, məni dinlə.
Sənə xəta gəlsə məsləhətimdən,
Cəzasını özüm çəkəcəyəm mən.
Azadlıq ulduzu harda, nə zaman
Tez yansa o yerdə, o yerdə inan
İgidlik, rəşadət doğacaq hər an,
Məğrur qocaların baxışlarından.
Düz yola qulluqdur bizə də borc, bax,
Pis iş görəndə də o zaman ancaq
İyrənc əməllərin həddi gərəkdir,
Kim ki, cəsarətlə söndürəcəkdir.
Kükrəyən odunu ilk məhəbbətin.
O qalib gələcək hər şeyə, yəqin.
Sən də həyalı ol, vüqarla yaşa,
Namusla ömrünü vuraraq başa.
Dərya tək ləkəsiz olan sinəndə,
Tez söndür günahın alovunu sən.
Rədd et özündən boş ümidləri

[1] Etna – Siciliyada vulkanlı dağ
[2] Mars – Müharibə allahı. Venera əri Vulkana xəyanət edərək Mars ilə əlaqəyə girmişdi.

Eşqin girdabına düşəndən bəri,
Bilmirəm görürmü, duyurmusan sən
Hansı fəlakətə doğru gedirsən?
Yoxsa qaynadıqca qəlbinin qanı,
Ötüb keçmək üçün doğma ananı
Şərəfsiz evinizi bir yenə üstdən
Namussuz etməkmi keçir fikrindən?
Bu əyri yoluna, pis gedişinə,
Alçaq əlaqənə, çirkin işinə,
Qoy baxıb rəhm etsin səmadakılar.
O böyük tanrılar kölgə də salar,
Günahsız insanlar üstünə hər an.
Sənəsə bəd işdə yoxdur tay olan.
Belə bir natəmiz vicdan olarkən
Bilmirəm allaha nə deyəcəksən?
Xəyal ayırarkən səni özündən,
Xatırla ananı, keçir gözündən,
Müdhiş məhəbbətə olma sevdagar.
Nədir başındakı qanlı duyğular?
Ata öpüşüylə xumarlanaraq,
Oğlun ağuşuna qaçırsan ancaq,
Bətnində qarışıq bir övladın da
Toxumu cücərir dəhşətdir bu da.
Fəqət bilməyirsən, ey bəxti-qara
Yelkənin üz tutub qayalıqlara.
Bu gözəl varlığı alt-üst edərək,
Davam et yoluna, demirəm, əl çək.
Günahlar nə qədər çox olsa, düzü
Yenə tab gətirər təbiət özü.
Və krityalı qız sevən bir ər,
Köksündə dağ boyda əzab gəzdirər.

Fedra

Dayə, inanıram dediklərinə,
Gözəl nəsihətlər verirsən mənə.
Lakin ehtirasın güclü əlləri,

Qəlbimin hakimi olandan bəri
Məni düz yolumdan salaraq uzaq
Qaranlıq yarğana aparır ancaq.
Şüurlu olsam da bu yolda əlbət,
Mənim allahımdır böyük məhəbbət.
O, başım üstündə qanad gərərək,
Mənə əmr eyləyir, köksümdə ürək
Xəstə bir quş kimi titrəyib əsir, –
Qəribə gəlməsin qoy sənə bu sirr.
Ağıl hisslərin qulu olarkən,
Bir fayda olarmı boş məsləhətdən?

Dayə

Gör nələr işlətdin, ey bihəya, sən
De heç utanmırsan etdiklərindən?
Azad olmaq üçün köksündə ürək,
Bütün adətləri alt-üst edərək,
Alovlu bir sevgi qızğın ürəkdə,
Mənim allahımdır deyirsən bir də.
Namusu unudub, arı unudub,
Yalançı tanrılar, adından tutub,
Təmin eyləyirsən ehtirasını,
Yerin də, göyün də macərasını.
Dəyişmək istəyən böyük Ersina[1]
Oğlunu göylərdən yerə göndərir.
Böyük bir səltənət yaradır bu gün.
Lakin Veneranın uca rütbəsi,
Amurun oxunun dəhşətli səsi,
Axmaq beyinlərin sayıqlayaraq,
Uydurub düzdüyü yalandır ancaq.
Kim ki, səadətlə yaşayır hədsiz
Qeyri-adiliyə can atır şəksiz.
Rəfiqə, şan-şöhrət, zəngin süfrələr,
Şəhvani düşkünlük, aylı gecələr,
Ruhu oxşadıqca sağlam adətlər

[1] Venera

səbir dəbdəbəli, məşhur evləri.
Bu şəhvət vəbası doğandan bəri
Seçir dəbdəbəli, məşhur evləri
Məzlum kəslərəsə, rəhm eyləyərək
Nə sevinc göndərir, nə də duz-çörək,
Təkcə o Venera hər axşam, səhər
Yoxsul daxmalara eyləyir səfər.
Cani ehtirasdan, yüksək niyyətdən
Hifz edər onları. Xoş təbiətdən
Pis yola meyl etməz sadə adamlar.
Lakin vəhşi çarlar, acgöz ağalar,
Su yerinə qan içmək istərlər, heyhat,
Əzəldən belədir bu fani həyat.
Kim ki, çox zəngindir və qüvvətlidir,
O yenə var, qüvvət dalınca gedir.
Ancaq tapa bilməz. Bilirsənmi sən
– Bilirsənmi sən,
Necə olmalıdır məleykə, necə?
Bəlkə geri döndü ərin indicə.
Düşün, dəhşətə gəl etdiklərindən.

Fedra

Nə bilim, bəlkə də o gələn kimi,
Günahkar eşqimi, məhəbbətimi
Bağışlayacaqdır rəhmə gələrək.

Dayə

O ki, qadınlara nifrət edərək,
Ruhu məhv eyləyir, qəlbə od saçır.
Nazəndə qızlara üz döndərərək,
Kəbinsiz yaşayır, sevgidən qaçır.

Fedra

Onun arxasınca edərək soraq,
Quş kimi qol-qanad açmaq istərəm.
Köksü sıx meşəli dağlar aşaraq,
Qarlı zirvələrə uçmaq istərəm.

Dayə

Etdiyin bəd işdən keçsinmi deyə
Yarın sorağına düşmüsən bu gün?
De, saf qəlbinimi salsın ləkəyə
Yolunumu azsın Venera üçün?
Kim bilir bəlkə də xumar gözündən
Bir zaman o qəlbə məhəbbət axmış,
Lakin indi isə sənin üzündən
Bütün qadınlara eyləyir qarğış?
Nə acı göz yaşı, nə odlu baxış,
Nə kədər, nə hicran, nə də yalvarış,
O daş ürəklini sarsıda bilməz.
Çünki o vəhşidir.

Fedra

Məhəbbət ölməz.
Hər cür vəhşiyə də qələbə çalar.

Dayə

O qaçar.

Fedra

Dönmərəm geri izindən.

Dayə

Danışma, indicə atan gələcək.

Qasid

Qoy gəlsin, mülayim bir insandır o,
Bacıya əzizdir, mehribandır o.

Dayə

Bu qoca yaşımda ağ saçlarımla,
Dərdli ürəyimlə, göz yaşlarımla,
Əzabdan qupquru taxtaya dönmüş,
Bulaq tək sovulub, ocaq tək sönmüş
Bu qəmli sinəmdə sənə hər zaman
Doğma, əziz olan, mehriban olan
Əski tək asılmış əmcəklərimlə
Sənə yalvarıram, gəl məni dinlə.
Sağalmaq sağlığın yarısı olarkən
İnsaf et, əl götür bu dəlilikdən.

Fedra

Qarıcan, mən səni düşürəm başa,
Hələ dönməmişdir ürəyim daşa.
Nə olsun ki, eşqi uca tutmuşam,
Gözəl həyanı da unutmamışam.
Ləkəsiz saxlaram adı, şöhrəti,
Çaxaram daşlara kəc məhəbbəti.
O qəlb ki, idarə olunmayır bax,
Eylərəm mən onu sinəmdə dustaq.
İşdə çıxış yolu varsa da mənə,
O da ki, ölümdür, ölümdür yenə
Ölümlə canımı qurtaracağam.

Dayə

Ay əziz yetirməm, a ciyərparam,
Ağlama, ağlasan mən də ağlaram.
Sən belə xoş ikən incə bir gül tək,
De, nəyə gərəkdir ölüm diləmək.
Məhəbbət daşını atdığın üçün
Layiqsən bir insan ömrünə bütün.

Fedra

Ölüm həll olundu, qətidir qərar.
Ancaq ölümün də bir çox növü var.
Ya iti bir bıçaq çaxıb köksümdən,
Ya da ki asaram özümü ipdən
Olaram azad.

Dayə

Elə düşünmə ki, bu dərdli qoca,
Arzu eyləyir sənin məhvini.
Yaşamaq şirindir həyat boyunca,
Sərrast addımlar at, düzəlt səhvini.
Qəbir ürək üçün olarkən zindan,
Canı xilas etmək olarmı ondan?

Fedra

Fəqət intiqamçı olacaq bu gün,
Öz əlim özümə təmizlik üçün.
Qətidir bu qərar, deyildir əbəs,
Mane ola bilməz bu ölümə bir kəs.

Dayə

Qızım o zaman ki, duyub sevərək,
Məhəbbət oduyla alışır ürək,
Gəzir dildən-dilə min cürə söhbət,
Böhtan, acı gülüş, məkrli qiybət.
Bəzən nəticəsi yaxşı olsa da,
Çox vaxt fəlakətlə qurtarır o da.
Bax, belə işləri düşündükcə mən,
Düzü acıyıram sənə də qəlbən.
İndi bir təskinlik varsa da ancaq,
O da bu ağarmış saçlarımdır bax.
O daş ürəklini soraq edərək,
Tapıb varlığını sarsıdam gərək.

İKİNCİ PƏRDƏ

BİRİNCİ GƏLİŞ

Xor

Dayə, söylə yeni bir xəbərin varmı sənin
Məleykə hanı, yoxdurmu ondan xəbərin.
Nə edir Tezeyin sevgili zövcəsi bu gün.

Dayə

Nə dəli, fırtınalı naləsinin bir sonu var.
Nə ümid vardır onu dərddən azad etmək üçün
Nə sönür daxili eşq atəşi, yanğın dayanır,
Nə də ahlar qoşunu tərk eləyir dövrəsini.
Bürüyüb hicran əli gül üzünü, çöhrəsini.
Saralıb qəm içrə, taqəti candan üzülür,
Qürub etmiş günəşə oxşayan ay tək süzülür.
Baxa bilmir şəfəqə, tez qamaşır göz qapağı,
Çatılır qaş-qabağı.
Dodağı, al yanağı qəmli xəzan tək solmuş,
Arzusu da, əməli də ona düşmən olmuş,
Eşq odu yandıraraq almış onun taqətini,
Başını çiyninə əymiş bükərək qamətini.
Könlünün fəryadını, naləsini dinləyir o,
Can verən xəstə kimi addım atıb, inləyir o.
Uzanır yatağına, bir yuxu getmir gözünə.
Oturub gah dirəyir əllərini ağ üzünə.
Ah çəkib, köks ötürür ta ki, açılınca səhər,
Yağdırır taleyinə qəmli şikayət nə qədər.
Başını qaldıraraq xəstə kimi yerdən o,
Nökəri öz yanına dəvət edir hərdən o.
Ovdurur, gah yudurur ağca, zəif əllərini,
Hördürür, həm daradır incə, ipək tellərini.
Tez-tez əmr eyləyir yığsınlar yatağın,
Dursunlar keşiyində, bəzəsinlər otağın,

Bax, beləcə dinləyir o eşq evinin qəm səsini
Unudub da Sererin o qızıl töhfəsini.
Dolanır, məqsədi yox, eşq, cəfa, qəm çəkir o.
Gah dolur, gah tutulur, buluddan nəm çəkir o.
Gül üzündə o gözəl cəzbedici qüvvə hanı?
Rəng-ruhu saralıb qəmdən üzülübdü canı.
Məhəbbət əldən alıb elə bil növrağını,
Gəmirir qurd kimi qəlbin təzə-tər yarpağını.
Güclü feblər ocağından o yanar gözlərdə
Ziya sönmüş gözündə, yox həyat izləri də.
Tavarın qarlı, uca zirvəsinə sanki bahar
Yağdırar güclü yağışlar, dəli sellər çağlar,
Ağladıqca o qızın gül üzünə şəh toxunur,
Kipriyindən hey axır, sanki gülə meh toxunur,
Diqqət et bax saraya, indi açıqdı qapılar
Bax ora gör necə, də qorxulu bir mənzərə var.
Uzanıb nazla xanım öz cəvahirli yatağında
Yalqızdır otağında.
Çölə düşmüş dəli tək
Yorğanın əzişdirir şir kimi inləyərək.

Fedra

Atın üstünüzdən zərli paltarları siz
Rədd olsun Tirin al qırmızı rəngi.
Rədd olsun ipəklər, Səmərqənd ipəklərimiz
İpək ki, tutdan toxuyur qurdların əngi.
Qoy yalnız belimi sevgilimin əlləri sıxsın.
Qucsun o məni dar bir üzük tək.
Rədd olsun ipəklər, Səmərqənd ipəklərimiz
Dəyməsin gözlərimə o qızıl adlı mələk,
Aysori ətirlərini buradan aparın,
Mirvari sırğaları qulağından qoparın.
Öldüm, eyvah, məni boğdu bu həyat,
Eyləyin saçlarımı yağlı ətirlərdən uzaq.
Götürüb odlu qılınc, qalxan, iti oxla kaman
Vassalın mizrabını gəzdirərək bir də haman.

Bu əlimlə talayam, məhv eləyəm aləmi mən,
Necə ki, atlanaraq düşdü yola hirsindən,
O soyuq Pontu atıb İppolitin öz anası,
Əqli güc gəldi bax, onun da ehtirası.
Bağlayıb saçlarını, dağları deyib getdi,
Aya bənzər qalxanını köksünə örpək etdi.
Yaşayıb zirvələr üstündə o tək,
Dolanar vəhşiləri ov edərək.
Sonra da basqın edib doğma, ata torpağına
Ox vurub qan çiləyir hər daşına, yarpağına.
Mən də ev-eşiyi tərk edərək,
Meşələr qoynuna uçam da gərək.

Xor

Mənasızdır bu şikayət nə qədər!
Azalan deyil şikayətlə kədər.
Saxla kənd allahını, ey tanrı,
Keç günahından, ona rəhm eylə barı.

Dayə

Məleykə hökmdarsan dağlarda,
Güllü, çiçəkli, ətirli bağlarda.
Təbiət də səni qəlbən sevərək,
Saxlayar qoynunda yavrusu tək.
Məst edər fikrini dağlar, dərələr,
Lakin qarşıda var təhlükələr.
Ayıq ol ki, qələbə çalmalısan,
Bu qəza qarşısını almalısan.
Sən də, ey köksü qalın sıx meşəlik,
Yaxası nərgizli, bənövşəli
Çölləri iftixar ilə gəzərək
Həm özü allah olan, həm də mələk,
Ulu tanrı, yaraşıqsan göyə sən,
Gecələr aylı işıqsan göyə sən.
Səhərin də gözlərini özün açarsan,
Günəş ilə bəşərə şölə saçarsan.

Bu böyük qüdrətinin yoxdur sonu,
Rəhmə gəl, hər bəladan hifz et onu.
Fedranın naləsinə qıl tamaşa,
Təsir et o İppolit qəlbi daşa.
Ruhunun sərt dağına yol açaraq,
Onu doğru yola gətir ancaq.
Tanısın Veneranı qoy o kobud,
Məni al bir əlinə, Fedranı tut.
Görməsəm də qatilin lap özünü,
Görürəm cinayətin iç üzünü.
Fitnə ilə o işə başlayacaq,
Qəribə möcüzələr uyduracaq.
İndi yalqızdır o.

(*Titrəyərək*)

Niyə daldın fikrə.
Tərəddüd nə gərək.
Bundan yaxşı ki, vaxt olmayacaq,
Olmalı işdə məharət ancaq.
Kim ki, çara vahimə ilə yanaşır,
Qara gün də onun ilə savaşır.
Namusu, qeyrəti gedər əldən,
Düşər ah, nalə içində dildən.
Nə qədər çarlara etsən hörmət,
O qədər alçaq olarsan, fəqət,
Yaxşılıq onlar üçün dünyada, bil,
Quru çöpdən belə qiymətli deyil.
Ah, bu nədir, ürəyimdir döyünən,
Əsirəm, ağrımı keçir bədənimdən.
Eh, cinayət nə qədər qorxuluymuş,
Sanki ətraf qulaq ilə doluymuş.

İppolit

Sən ey ağ saçlı, mərhəmətli qarı,
Xoş sifət, incə təbiətli qarı,
Nə üçün köks ötürüb qəm çəkərək,
Sayıqlayırsan yenə fikrə gedərək.

Var bugün gizli həyəcan səndə,
Söylə, işdən agah olum mən də.
Axı sən yaxşı bilirsənmi məgər
Bu gözəl ölkəmizin çarlarına
Atama, Fedraya, övladlarına
Toxunmaq olmaz.

Dayə onu meşələrə qaçmamağa və Veneranın hakimiyyətini tanımağa çağırır.
İppolit ona cavab verir.

İppolit

Keçmişin adətləri olduqca gözəl,
Bilməzdi qüssə nədir insan əzəl.
Yox bu gün qayğısız, azadə həyat,
O qədim illərə bənzər, heyhat.
Dişi aslan kimi o nazlı mələk
Şəhəri nifrət ilə tərk edərək
Baş alıb səhralara getsə əgər,
Cinayət deyil ona zərrə qədər.
Alaraq qüvvəsini dağlardan
Dolanır zirvələr üstündə hər an.
Nə görər cinayətin iç üzünü,
Nə atar çirkaba vicdan sözünü.
Ruhunu gül kimi pak saxlayaraq,
Yaşayar qəlbi paxıllıqdan uzaq.
Nə bilər xalqların etdiklərini,
Xeyrə, ya şərə getdiklərini.
Nə də boş kütlə yanında dayanar,
Ən kiçik bir iş üçün lovğalanar.
Yoxdur müdhiş olan gizli sirri,
Etməmiş fikrini günah əsiri.
Və qara, qorxulu bir kinlə bu gün.
Düşməyir çöllərə cinayət üçün.
Saxlamır o, gizli evdə özünü,
Çevirib qarlı dağlara üzünü.
Çarların dəbdəbəsindən qaçır o,

Getdiyi yollara şəfəq saçır o,
Qəlbi saf, qoynu behiştdir fələyin,
Haqqı var, qaçsa o dilbər mələyin.
Qoy tutsun göy meşələr içrə qərar
O gözəl insanı çöllərdə arar.
Səsləyər daim onu dərin dərələr,
Uçurar fikrini şən mənzərələr.
Alfeyin[1] sahilinə üz tutaraq,
Salar ormanlar içində oylaq.
Başına dik qayadan kölgə düşər,
Dövrəsində sürü quşlar ötüşər.
Dərələrdən sərin əsdikcə külək
Göyrüşlər dərya kimi yellənərək,
Endirər, gah da qaldırar başını
Çapdıqca güclü sular çay daşını,
Yuxlayar körpə şitillər də dərin,
Üstünə şeh çilənən göyəmlərin
Meyvəsidir yoxsul üçün dadlı yemək.
Çarlarsa, dəbdəbəli kef çəkərək,
Qoy qızıl qədəhlərdə nuş etsin.
İçkilər onları bihuş etsin.
Mənimsə fikrimi dağlar aparar,
O soyuq çeşmələri kim unudar!
Qoyaraq bir daş üstə dizlərini,
Zilləyib ayna suya gözlərini,
Yuyunub, öncə əlilə içmək
Sonra da gizlincə bir yer seçmək.
Uzanıb kölgədə yatmaq nə gözəl,
Beyləcə ömr edərdi insan əzəl.
Pisliyə, əyriliyə uymayaraq,
Qanlı şöhrət yolunu duymayaraq,
Yarım allahların övladları da
Hüsnü yüksək qocaman dağlarda
Yaşamışlar qayğı və qəmlərdən uzaq
Qızıl əqrəb kimi yerdən çıxaraq,

[1] Peloponnesdə çaydır

Gətirib namusu, vicdanı ələ,
Çalmamışdı ürəyi onda hələ
İnsan ağ gündən doymazdı,
Bar verən torpağa sədd qoymazdı.
Görməzdi özgə sular, yad gəmini,
Tanıyardı hər dəniz öz yelkənini.
Nə şəhər dövrəsində qalın hasarlar çəkirlər,
Nə qızıldan ərinib şanlı qüllələr tökülər.
Nə də ki, yüksələrdi qanlı əllərdə kaman,
Xəyala gəlməz idi polad qılınclar o zaman.
Yox idi divar sökən odlu silahlardan əsər,
Min cürə bar gətirərdi meşələr.
Yaşardı qəbilələr dağlarda,
Onlara bar verərdi bağlar da.
Təbiət sərvətilə yemlənərək
Sevərdilər bir-birini qardaş tək.
Varlanmaq ehtirası ondakı bax,
Eylə ki, ortalığa saldı nifaq.
Məhv oldu o müqəddəs adətlər,
Arzular, əməklər, istəklər.
Əqlin gözlərini kin bürüdü.
O bütün dünyanı miskin bürüdü.
Yarandı güclülər, yoxsullar, qullar,
Zalımlardan seçildi məzlumlar.
Ən qara, qorxulu günlər yetdi,
İnsan bir-birini ov etdi.
Hüquqlar, ixtiyarlar əldən gedərək,
Oda düşdü azad, istəkli ürək.
Yazıldı cinayətin şah əsəri,
Qalmadı kimsədə vicdan əsəri.
Dünyada bir qanun yarandı fəqət:
Qüvvət, qüvvət, qüvvət.
Gəlinlər toy gecəsi geydi qara,
Ata öz övladını çəkdi dara.
Ana boğdu südəmər körpəsini,
Sonra da işlədərək hiyləsini,
Yuxladıb kəsdi ərin quş başını,
Gətirib saldı evə oynaşını.

Bəli, yalnız qadındır pisliklərin əvvəli,
Cinayətlər rəssamı, fəlakətlər təməli.
O şahmar bir ilandır öz ərinin başında.
Dərya boyda zəhər var hər damla göz yaşında.
Eşqinin hiddətindən kəndlər, şəhərlər yanar,
Qanlı döyüşlər düşər, zülm ərşə dayanar.
Çarlar hökmranlığı sarsılar təməlindən.

Dayə

Sən bir neçə günahkar insanların üzündən,
Nə üçün bu gün hamını günahkar eyləyirsən.

İppolit

Bütün qadın cinsinə nifrətim vardır mənim,
Onların hiyləsindən tir-tir əsir bədənim.
Ağlım, hissim, düşüncəm, yoxsa, qoca təbiət
Mənə belə əmr edir.
Yaxşı bilirəm fəqət.
Ümmanların üstündə yana bilsə də ocaq,
Qurd quzuyla birgə yoldaş olsa da ancaq,
O məkrli qadınlar baş vurub min əmələ
Yenə mənim ruhumu ala bilməzlər ələ.

Dayə

Fırtınalar önündə duran almas qaya tək,
Mənim hər bir sözümə nifrət edir o mələk.
Nəsihət xəncər kimi qəmli könlünü dəlir,
Ateşin bir sürətlə budur, özü də gəlir.
Onu başdan etmişdir məhəbbətin dühası,
Nə olacaq bilmirəm alovlu ehtirası.
səbir kasası dolmuş necə dözsün o burda...
Nəfəssiz bir daş kimi yazıq yerə düşərək,
Rəngi, ruhu qaçmışdır, üzündə ölü bir rəng.

Elə bil ki, həyatı tərk edəcək indicə,
Buz kimi tər tökülür alnından incə-incə.
Fedra, bir dur ayağa, başa çatmış niyyətin,
Bax, gör ağuşundasan sevimli İppolitin.

Fedra

(özünə gələrək)

Ah, bayılarkən necə rahat olmuşdum, heyhat,
Yenə mənə kim verdi əzab dolu bir həyat.

İppolit

Həyat bir töhfə kimi sənə qaytarılarkən,
Sən bu gözəl neməti atıb qaçırsan, nədən?

Fedra

Cəsarət, ey ruhum, ildırım ol, çax ucadan,
Qoy sənin hər çıxışın qəzəbli olsun davadan,
Kim ki, qorxu içində deyir ürək sözünü,
Rədd eləyir o özü istəyini, özünü.
Hisslər qaynayaraq beynimi sardı mənim,
Ağrılardan üzülüb düşdü əldən bədənim.
Daha gecdir ürəyin arzusunu məhv etmək,
Sevməkdir günahım, burada utanmaq nə gərək.
Başladığım əməlin lap sonuna yetməliyəm,
Cinayəti örtmək üçün tezcə ərə getməliyəm.
Yalvarıram sənə də azca rəhm eylə mənə,
Təkliklə deməli gizli sözüm vardır sənə.
Qulağını mənə tut, nə olar, insafa gəl,
Qəlbimin zülmətində qəlbini eylə məşəl.
Eh... Allahlar, allahlar etsəniz də köməyi,
Sizə öz istəyimi bacarmıram deməyi.

İppolit

Sənin qəlbin kədərlə gözlərini yumaraq,
Nə demək istədiyini deyə bilməyir ancaq.

Fedra

Elə ki, qəm karvanı könül mülkünə dolur,
Deyirlər ki, o zaman dərdin dili lal olur.

İppolit

Çəkdiyin qayğıları mənə söylə anacan.

Fedra

Hanı elə qüdrət ki, yüksək olsun anadan.
Mənim səyyar hissimə, coşqun duyğuma fəqət
Daha sadə ad vermək ədəbli olar, əlbət.
Ya adicə bacı de, İppolitcan mənə sən,
Ya da qulluqçu çağır, qulluğuna gəlim mən.
Canlı bir xəyal kimi evində, eşiyində,
Qolu bağlı qul olum dayanım keşiyində.
Hökmdar əsasını özün götür əlimdən,
Varsa günahım əgər dara çək hər telimdən.
Əmr eylə, yolunda qurban qoyum başımı,
Coşqun gənclik çağında sən nəhəng bir ağactək,
Çiçəklən, qol-budaq at, göylərə yüksələrək
Öz atanın yerində ol əzmlə hökmran,
Qadın kişi işini görə bilməz heç zaman.
Gəl bu vətəndaşları idarə eylə özün.
Ah, nə olar, mənə də bir çarə eylə özün.
Sevərək, oxşayaraq sinən üstündə, fəqət
Mən dulu da qəlbinin dərinliyində gizlət.

İppolit

Sap-sağlam atam tezliklə
Gələcək öz evinə. İndi hələ
Mən onun yerini əvəz etməliyəm,
Sən nə desən mən o yola getməliyəm.
Ki, özünü bir daha dul sanmayasan,
Əri andıqca alovlanmayasan.

Fedra

Sevənlərdə ümid tez tapılar, ah, nə qədər,
Mənim istəklərimi qəbul edirsənmi məgər?
Gör necə yalvarıram, mən sənə minnət edirəm,
Uf... Saxta məhəbbət, ciyərim tutdu vərəm.
Rəhmə gəl, insaf elə, bir mənə bax,
Eh, nə demək istəyirəm, dilim tutmayır ancaq.

İppolit

Necə bədbəxtlikdir bu.

Fedra

Analıqda onu sən
Görməyə qadir deyilsən.

İppolit

Dumanlıdır fikrin qaranlıq bir gecə tək,
İki başlı danışma, açıq söylə, bir görək.

Fedra

Od yalar tək Sarayın tavanını,
Məhəbbət işlədib öz divanını,
Gör necə sardı mənim varlığımı,
Aldı gözəllik və bəxtiyarlığımı.

İppolit

Belə saf məhəbbətlə yanaraq,
Sən Tezey üçün alışırsan ancaq.

Fedra

İppolit! Bəli, sevirdim onu mən,
Aşiq olmuşdum ona mən qəlbən.
O zaman gənc idi, o gül kimi tər;
Cəlb edirdi adamı, ah, nə qədər.
Tərləyirdi yenicə bığ yeri həm,
Qızılı saçları parlardı müdam.

Çələngi sıxdımı alışardı gözü,
Həyadan xeyli qızarardı üzü.
Vardı qüvvətli gücü qollarının,
Qabarardı hər biri muskullarının.
O Feb ki, güclüsüdür güclülərin,
Söylə, mənimdirmi o Feb, yoxsa sənin?
Daha yaxşı, sənin olsun nə zərər
Ona tay kimsə tapılarmı məgər?
Döyüşə şanlı vüqarla gedər o,
Vuruşar, düşməni alt-üst edər o,
Canlanır bax o təbiət səndə
Güclü bir vəhşi gözəllik həm də,
Şux yunan paltarı geymiş skifin
Səndə qəddarlığı var, çoxdur kinin.
O zaman sən atanla birgə əgər
Kritə etsə idin şanlı səfər?
Bir gözəl ip toxuyub bacın o gün
Töhfə eylərdi hazır sənin üçün.
Sən də ey göylərdə yanan canlı məşəl
Ey bacım, səsləyirəm çağırışa gəl.
Bir ətalət içinə düşdük biz,
Bizi məhv eylədi öz ailəmiz
Mən oğul zülmünə tab eyləyərkən
Atanın qeyzinə gəldin həm sən.
Çar da öz ailəsilə o zaman
Düşdü sənin ayağına, etdi aman.
Və bütün aləmi murdarlayaraq
Murdar oldu o özü də ancaq.
Səyyah da köksünə əydi başını
Ağlayıb tökdü yerə göz yaşını.
Üz tutub çox sənə minnət etdi,
Alçalıb, özünə xəyanət etdi,
Ah, nələr keçdi yenə fikrimdən,
Düşünürəm bax bu işin axırın mən.
Ya qəza işlədəcək öz gücünü
Ya həyat məhv edəcək dərd düyünü.
Eh, nə olar eşqə düşən bir qıza siz,
Rəhm edib azca kömək eyləyiniz.

İppolit

Ey allahlar allahı, söylə nədən,
Görər ikən bu cinayətləri sən
Dayanırsan xeyli uzaqlarda belə,
Susaraq səbir eyləyirsən də hələ,
Nə zaman yağdırıb od göylərdən
İldırımlar çaxacaqsan yerə sən?
Məhv eylə, qoy o günəş də sönsün.
Bəşərin qəlbinə zülmət çöksün.
Qara buludlar bürüsün göy üzünü,
Qapasın bir də hər ulduz gözünü.
Pozaraq öz əbədi məhvərini,
Ay da itirsin o müqəddəs yerini.
Dünyanı qan gölünə döndərərək,
Varlığı yox etsin çərxi-fələk.
Allahlar! Yandırın aləmi, bax,
Çarlar! Siz də qılınc qaldıraraq
Dağıdın, parçalayın, məhv eləyin,
Mənə də rəhmi gəlməsin fələyin.
Natəmiz qəlbimi çəksin o dara,
Batmışam çünki özüm günahlara.
Analıq övladına bənd olmuş,
Eşqdən rəngi saralıb solmuş.
Aydın edin tezlik ilə bircə bunu,
Söyləyin, mənmi əsir etdim onu?
Yoxsa özüm özgə şikar eylərkən,
Öz anamamı şikar oldum mən?
Bu qara bəxti mənə tale, fəqət
Görünür bəxşeyiş etmiş, əlbət.
Ah ana, bir bəri bax, söylə mənə
Çatarmı kimsə fənalıqda sənə?
Məşhursan əxlaqsızlıq etməkdə,
Ananın arxasınca getməkdə.
Ehtiras qurbanı olmuşsan tək,
Bu nədir, övladına meyl etmək.

Fedra

Bilirəm ailəmin etdiyini,
Bəd uğurlar dalınca getdiyini.
Tutaraq əyriliyi əldə peşə,
Pisliyə meyl edərək biz həmişə.
Hisslər alışarkən beynimdən
Acizəm qəlbə hakim olmağa mən.
Sənin arxanca belə son günədək,
Gedərəm addımını izləyərək.
Dənizə girsən də, ardınca varam,
Göyə uçsan, alıcı quş olaram.
Sürətli bir oda dönsən də, fəqət,
Su olub söndürərəm mən, əlbət,
Yalvarıb diz çökərəm qarşında.

İppolit

Ah, itil gözlərimdən, uzaq ol.
Natəmiz əllərini çək məndən.
Batmasın çirkaba köksümdə ürək,
Bədənim qoy iraq olsun səndən
Aman allah. O nədir röya tək
Üzə gəldim bu cinayətlə demək.
Fedra! Qəlbi qara, vicdanı kor,
Mənə öz qoynunu açmış nankor.
İndi qılınc həll edəcək hər şeyi, bax,
O qara qan içində parlayaraq
Yüksələcəkdir yerə murdar bədənin.
Sənin and içdiyin o ay də hələ,
Olsa da göy üzünə tanrı belə,
Namus və vicdanını qoruyaraq,
Pak qana bulanmamışdır ancaq.
Mən ya həyasız mələyin göz yaşını
Görmüşəm, həm də əqilsiz başını.
Saçlarından tutaraq hiddətlə,
Çəkmişəm özümə tərəf nifrətlə.

Fedra

İppolit, mənlə yola getdin sən,
Arzuma hər cür əməl etdin sən.
Sənin ağuşunda can vermək,
Nə qədər rahat olar cənnət tək.

İppolit

Sağ ikən get ki, çəkim əlimi mən,
Yalvarışlarına əməl etməkdən
Murdarladığın qılıncı da
Nifrətlə atıram, bax, burada.

(*Gedir*)

Dayə

Hər şey açıldı, daha gizlində nə var.
Olacaqdır bu xəbər aləmə car.
Biz nəyi gözləyirik səbir edərək.
Ciddi bir tədbir ilə indi gərək
Günahı İppolitin üstə yıxaq,
Onun öz taleyini öncə pozaq.
Danlayaq cani məhəbbətdə onu,
Söyləyək qəlbi xain olduğunu.
Eylə ki, pislikdən yoxdur nicat,
Sən təksən, günahın çox hər vaxt.
Cinayət bir-birini izləyərək,
Dolanır dövrəndə quzğun tək.
Qabağa getməkdən başqa çarə
Onda yoxdur, var isə, söylə, hara?
Bir də ki, gizli ürək sorğusunu,
Bu işin əyrisini, doğrusunu,
Ya ona, ya bizə qarşı duraraq
Varmı bir təsdiq eyləyən ancaq?
Bütün işlər ehtiyat ilə keçərək,

Yaşayır gizlincə bir sirr tək.
Afina, qalx ayağa şiddət ilə,
Ey nökərlər, yığışın hiddət ilə,
Eyləyin Fedraya tezliklə kömək.
İppolit, bax, onu təhqir edərək,
İstəyir kəssin başını.
Tökdürür odlu, günahsız yaşını.
İndi o qılıncını ataraq
Xanımı pisləyərək qaçdı uzaq.
O yazıq Fedra da huşa gedərək,
Üzü üstə yerə düşdü ölü tək.
Su tökün əl-üzünə,
Gətirin Fedranı tez özünə.
Uzadın zərli yatağına onu
Və tutun ehtiyat ilə qolunu.
Dağınıq saçlarına vurmayın əl,
Cinayəti təsdiq üçün olsun əməl.
Oyan, Fedra, sən də bir aç gözünü,
Rəhmə gəl, azca ələ al özünü,
Nə üçün qəlbə əzablar verərək,
Baxmayırsan bizə sən. Söylə görək
Bilirsənmi bu işi sən, a quzu,
Qəlbə həya gətirər pis arzu.
Bədbəxt bir hadisə isə bu iş,
Başqa cür eyləmək olar təftiş.
İşdə şahid kimi biz
Sənin arxanda durarıq şəksiz.

ÜÇÜNCÜ PƏRDƏ

Tezey

O soyuq, nəmli, dərin məhbəsdən,
Yeraltı zülmətdən qaçdım mən,
Qara gündən xilas etdim canımı
Atdım nifrətlə zindanımı.
Baxdıqca günə gözlərim qamaşır.

Ayaqlarım da yeridikcə dolaşır.
Qalmayıbdır bədənimdə taqət,
İtirib öz gücümü də fəqət,
Yorulub candan olmuşam, eyvah,
Dizlərim gör necə əsir allah.
Zalımın hər zülmündən bezərək,
Düşmən ilə vuruşub Alkid[1] tək;
Ölümün qanlı əlindən qaçmaq,
Nə qədər qorxulu bir iş idi, bax.
Söyləyin, kim mənə izhar edəcək,
Bu nədir, gizli-gizli yaş tökmək.
Qulağıma qəmli səs gəlir oradan.
Acı bir nalə yüksəlir oradan.
Zülmətdən qaçana görüş üçün
Belə bir göz yaşı layiqdir bu gün.

Dayə

İnadkar, Fedra, ağlayaraq,
Özünü öldürmə, yorma nahaq,
Bax mənim sonsuz axan göz yaşıma.
Rəhm eylə bu bəlalı başıma.

Tezey

Ərinin gəldiyi vaxt
Niyə o ölmək istəyir bu saat.
Bir səbəb varmı görən?

Ölümün məhz bundadır səbəbi.

Tezey

Axı bilməyirəm, bilməyirəm mən,
Bu şübhəli sözdə nədir gizlənən?
Nə var açıq danış, doğru söylə bir,
Ona əzab verən hansı kədərdir?

[1] Alkid – Herakl

Dayə

Qapalı yaşayır o qəmli dilbər,
Dərdini kimsəyə açırmı məgər?
Məzara saxlayır sirrini o, bax
Əzablar içində can verir ancaq.
Sənə yalvarıram dayanma bikar,
Tez ona kömək et, yoxsa gec olar.

Tezey

Açın qapıların çar sarayının!

(*Fedraya*)

Ey mənim sevimli yataq yoldaşım,
Mehriban gözəlim, əziz sirdaşım.
Həsrətlə gözlənən gəlişimi sən
Məyus qarşıladın, bir söylə nədən?
Qılıncı özündən kənar et, kənar,
Mənim şənliyimi özümə qaytar.
Qaytar xəyalımın bahar çağını,
Bəzə bu könlümün eşq otağını.
Doğrusunu danış və söylə nədən
Qaçırsan həyatdan, ölüm deyə, sən?

Fedra

Xeyirxah Tezeyim, əfsus ki, bu gün,
Məhbəsdən evinə gəldiyin üçün,
Sənə öz əsanla edirəm nifrət.
Bir də ki, namussuz övladın, əlbət,
Atası olduğun üçün mən sənə
Ölüm diləyirəm qarğıyıram, bax.
İstərəm özüm də məhv olum ancaq.

Tezey

Nədir vadar edən ölümə səni?

Fedra

Ölüm səbəbini söyləsəm əgər,
Onun meyvələri xar olub gedər.

Tezey

De, bircə mən bilim bu sirri, fəqət.

Fedra

Namuslu, həyalı qadınlar, əlbət,
Qorxar öz ərinin qulaqlarından.

Tezey

Danış, ürəyimi eylərəm zindan,
Sirrini qəlbimdə saxalaram hər an.

Fedra

Susdurmaq istəsən başqasını sən,
Qıfıl as əvvəlcə sən öz dilindən.

Tezey

Ölümün hər cürə imkanlarından,
Məhrum olacaqsan, bax buna inan.

Fedra

Həyatı tərk etmək istəyən hər kəs,
Onun yollarını tapmaya bilməz.

Tezey

De, hansı eybini bu uğurla sən,
Yumaq istəyirsən ölüb gedərkən?

Fedra

Yalnız həyatımı.

Tezey

Səni sarsıtmırmı bu göz yaşları?

Fedra

Ölüm gözəl olur, sönərkən həyat,
Sənə öz əqrəban ağlaya, heyhat.

Tezey

Susur, inad edir danışmır Fedra,
Gətirin dayəni çəkin tez dara.
Sonu görünməyən bir əzab verin,
Ağrını, acını o duysun dərin.
Bir açsın əzabdan dodaqlarını:
Söyləsin burada nə sirri vardır.

Fedra

Dayanın, nə varsa özüm danışım.

Tezey

Qəribə bir hala salıb özünü
Niyə gizlədirsən yaşlı gözünü?

Fedra

Ey göylər tanrısı hardasan, eyvah,
Çağırıram səni köməyə, allah.
Sən etdin bizlərə bu evləri bəxş,
Böyük qüdrətindən yarandı günəş.
Tək mənə bir nəzər etmədin barı,

Nəzərə almadın yalvarışları.
Qılınclar önündə əymədimsə baş,
Əzablar içində tökdüm qanlı yaş.
Axırım ölümdür. Qərarım qəti.
Ölüm yuyacaqdır bu cinayəti.

Tezey

Söylə kim namussuz eylədi məni?

Fedra

Ondan şübhələnə bilməyəcəksən.

Tezey

Adını... Adını...

Fedra

Bu qılınc açacaq sizə hər nə var,
Budur cinayətə ən böyük açar.
Sahibi təqibdən qaçdığı zaman,
Atmışdır buraya onu qorxudan.

Tezey

Gör mənim gözlərim nə görür, eyvah?
Bu necə dəhşətli bir işdir, allah?
Qılıncın sapında çarlara məxsus,
Parlaq nişanələr görünür, əfsus.
Bəs özü haraya rədd olub getdi?

Fedra

Bütün xidmətçilər qarşısında, bax
Qorxudan titrəyib qaçdı o alçaq.

Tezey

Ey göylər hakimi, ümmanlar şahı,
Yerin də, göyün də uca allahı,
De, hardan toxundu bu zərbə bizə,
Ağrılar yeridi ürəyimizə.
Müqəddəs arzular puç olub getdi.
Bəxtiyar duyğular bizi tərk etdi.
Gör necə çirkindir bu qəddar həyat,
Gözəllik pərdəsi altında, heyhat.
Gizlədir üzünü həyasız ruhlar.
Əyrilər, alçaqlar və namussuzlar.
Daxildən qurd olur, zahirdən mələk
Əzabı sükutla pərdələyərək,
Yalan işlədirlər həqiqət deyə.
Həyasızlığı da məhəbbət deyə
Ört-basdır edirlər bu alçaqlar, ah.
Əzabı səadət deyirlər, allah.
Uf, xain İppolit, yəqin bil ki, sən,
Əlimdən bir nicat görməyəcəksən.
Etdiyin bu alçaq cinayət üçün,
Arxanca gəzərəm dünyanı bütün.
Baş vurub sulara, qarlı dağlara,
Tutub çəkəcəyəm mən səni dara.
Sən də fəryadımı eşit, ey fələk.
Azğın İppoliti dustaq edərək
Görən gözlərinin nurunu söndür.
Yaradan özünsən, haqq özünündür.
Qoy qara geyinsin göydə buludlar,
Quruyub tökülsün çiçəklər, otlar.
Doğmasın bir də o müqəddəs günəş,
Sükunət içində qərq olsun bu ərş.
Açılma, ey gecə, parlama, ey Ay,
Sən ey sakit dəniz, ey lal axan çay.
Oyan, dəhşətə gəl, tut dəryaları,
Bu çirkin varlığı məhv eylə barı.

Xor

İnsan həyatında, allah, nə qədər,
Vardır bir-birindən qəribə işlər.
Taleyin qəzəbi, kini heç zaman,
Adi adamların keçməz yanından.
Yoxsul komasında alarıq nəfəs,
Sakitlik içində qocalar hər kəs.
Tanrı hifz eyləyər yoxsul evləri.
Kasıblıq, varlılıq düşəndən bəri,
Zaman qartal kimi qanad gərərək,
Onların üstündə dövr eyləyər tək.
Lakin dəbdəbəli saraylarda, bax,
Hər gün bir fəlakət üz verər, ancaq.
Başları günəşə ucalan çarlar,
Səadət içində qəzaya uğrar.
Boreyin[1] tufanı qopduqca hər an,
Çarların qəlbini dondurar boran.

DÖRDÜNCÜ PƏRDƏ

Qasid İppolitin ölümü haqqında xəbər verir. Onun parçalanmış meyitini saraya gətirilər.

Xor

Deyəsən sarayın dərinliyindən,
Acı iniltilər yüksəlir yenə.
Nə iş hazırlayır Fedra, görəsən?
Qılınc götürərək dəlicəsinə.

Tezey

Nədir bu göz yaşı, bu qəm, bu kədər,
Bu qılınc, bu nalə, bu fəryad səsi?

[1] Borey – Şimal küləyi

O alçaq meyitin üstündə məgər,
Yenəmi əyilmiş onun sinəsi?

Fedra

Sən ey girdabların amansız çarı!
Başıma göylərdən od yağdır barı.
Ədalət hissini büsbütün unut,
Gəl məni məhv eylə, mənə divan tut.
İppolit, sən də bir gözlərini aç
Məgər qalmayıbmı canında əlac?
O məğrur baxışlar nə üçün sönmüş?
Bağçada lalənmi xəzana dönmüş.
Olmusan əbədi yuxuya qurban,
Bir aç gözlərini, əzizim, oyan.
Söylə təravətin nə oldu, eyvah?
Müqəssir mənəmmi bu işdə, allah?
İppolit, İppolit, bir ayılsana,
Bir daha çirkin söz deməröm sana.
Alaram düşməndən intiqamını,
Qoymaram yerlərdə qalsın qanını.
Çəkərəm köksümə alovlu bir dağ,
Edərəm özümü məzara dustaq.
Hicrindən sel kimi qan-yaş tökərək,
Düşərəm izinə divanələr tək.
Dənizlər keçərəm bir xəyal kimi,
Gəzərəm mən səni əhli-hal kimi.
Yandırar canımı bu halın sənin,
Parçalar qəlbimi zavalın sənin.
Oyan, qan içində uyuyan xəyal.
Bəlalı başından bir dəstə tük al.
Birləşmədisə də ürəklərimiz,
Bağla, qoy bir olsun aqibətimiz.
Kimin ki, ürəyi təmizdir o, bax,
Qoy ölsün ərinin yolunda, ancaq.
Kim də ki, azıbdır ehtirasından,
O da sevdiyinə qoy olsun qurban.

Söyləyin bu dərdə düçar olarkən,
Nikah otağına necə girim mən?
Ey ölüm, hardasan eşit səsimi,
Gəl qurtar canımı, al nəfəsimi,
Üstümü alarkən qorxu, fəlakət
Yeganə təskinlik bir sənsən, əlbət.
Gəlirəm qoynuna, qollarını aç,
Mən ölüm gəzirəm səndədir əlac.
Natəmiz bir eşqin qurbanlığı tək,
Nahaqdan məhv olmuş o qəlbi ipək.
Sən ey təvazökar günahsız insan!
Bağışla sən məni, keç günahımdan.
Odlu qılıncını götürərək mən,
Taxıram müqəssir, qəddar sinəmdən.
Qoy axıb tökülsün köksümün qanı,
Müqəddəs ərimin olsun qurbanı.

Tezey

Ey solğun Avrının əngin çölləri,
Ey qarşı dağ döşü, yağış gölləri,
Ey böyük Letanın coşqun suları,
Tenarın qaranlıq mağaraları,
Ey əsən küləklər, ötən buludlar,
Ey dərin dərələr, tikanlı otlar,
Udun namussuzu, parçalayın siz!
Ey sakit axan çay, uluyan dəniz,
Bu qatil insanın alın canını!
Çaxın qayalara, tökün qanını.
Mən cani, alçağam, taleyim qara
Doğma övladıma vurdum min yara.
Doğrayıb nəşini çöllərə atdım,
Günahsız qanından göllər yaratdım.
İndi müqəssirəm, bir caniyəm mən,
Öz doğma oğlumun düşməniyəm mən.
Bu çirkin işimdən diksinər göylər,
Ulduzlar də mənə nifrət eyləyər.

Məni necə ölüm gözləyir, eyvah,
Hələ onu özüm bilmirəm, allah!
Ey qara kölgələr, yol verin siz də!
Gizlədin qatili öz qəlbinizdə.
Qoy bütün kainat hücum çəkərək,
Tökülsün başıma oğul dərdi tək.
Məni dara çəksin odlu əməllər,
Yox olsun dibindən bu qanlı əllər.
Sönsün gözlərimdə həyat duyğusu,
Yanan dodağıma toxunmasın su.
Ey gecə zülməti sən də yerə çök,
Qara qüvvələri üzərimə tök.
Oğlumun dalınca iməkləyərək,
Kölgələr içində gedirəm mən – tək.

Xor

Tezey, vaxtın çoxdur şikayət üçün,
Sonra ömrün boyu ağlarsan bütün.
Adına şərəfli bir məzar düzəlt,
Parçaları topla, hörmətlə dəfn et.

Tezey

O əziz oğlumu tez gətirin, bax,
Ah, ondan nə qalmış, qanlı bir yumaq.
Dağılmış bədəni, tökülmüş tay-tay,
Bu dəhşət önündə çəkirəm haray.
İppolit, qoy yerə tökülsün gözüm,
Sənin müqəssirin oldum mən özüm.
Of, ey yetimliyin ağır illəri!
Yenə xatırladım ötən günləri.
Bir zaman məni də el içində bəs
Bir oğul atası deyərdi hər kəs.
Əbədi itirdim indi onu, bax,
İsit qucağında onu, ey torpaq,
Ana tək əzizlə, mehriban saxla.

Xor

Ey ata, oğlunun yaralarını,
Bədən üzvlərinin paralarını,
Düzüb öz yerinə ehtiyatla qoy.

Tezey

Oğul, sənindirmi bu sönən gözlər,
O ki, gözəl idi bir vaxt nə qədər.
Dosta həyat dolu sevinc verərdi.
Düşmən nəzərini kütləşdirərdi.
Heyhat, indi nələr qalıbdı ondan,
Ey dəhşətli qəza, ey gözəl cavan,
Nəşin qarşısında olmuşam bir qul, –
Mənim son töhfəmi qəbul et, oğul,
Adını hər zaman anacağam mən.
Sənin həsrətinlə yatacağam mən.
Açın qapıları, taybatay olsun,
Evlər İppolitin qəmiylə dolsun.
Ey Atina xalqı, siz də duraraq,
Çarın tonqalını odlandıraraq,
Kədərlər içində çöllərə çapın,
Onun üzvlərini axtarın, tapın.

(*Fedranı göstərərək*)

Fedranın bu murdar nəşinisə siz,
Nifrətlər içində dəfn edərsiniz.
Qoy onun başına məzar dar olsun,
O murdar bədəni yerdə xar olsun.

PETRONİ

Ellinizm dövrünün sonunda, eramızın I əsrində Romada ilk roman nümunəsi yaranmışdır. Romada bu ilk romanın əmələ gəlməsi Neronun hakimiyyəti illərinə təsadüf etmişdir. Bu zaman Roma ədəbiyyatı böyük böhran keçirirdi. Neron özü şeirlər yazır və bunları alqışlamayanları məhv etdirirdi. Romada ilk romanın müəllifi, Neronun öz sarayında əzizləyib saxladığı, hekayələrindən zövq aldığı və nəhayət, ölümə verdiyi Petronidir.

Petroni sarayda Nerona ən yaxın şəxslərdən biri idi. Neron onu incəsənət işlərinin münsifi – arbitri təyin etmişdi. Sənət və ədəbiyyata aid mübahisəli məsələlərdə Petroninin fikri Neron üçün əsas idi. Bu münsifliyi səbəbilə Petroni "Arbitr" təxəllüsü ilə yad olunmaqdadır. Petroni Arbitrin yaratmış olduğu roman "Satirikon" adını daşıyır. Ədəbiyyat tarixçiləri bu əsərin Neron hakimiyyətinin son illərində yazıldığını düşünürlər.

Petroninin həyatı səadətlə bitməmişdir. Petroninin Neron yanındakı hörmətini görən düşmənləri həsəd edərək, onu intriqaya salıb haqqında şübhələr yaratmağa çalışmışlar. Petroni də qolunun şah damarını kəsərək özünü öldürməyə məcbur olmuşdur. Roma tarixçisi Tassit yazır ki, Petroni gündüzü yuxuda, gecəni isə kefdə, əyləncədə keçirən bir adam idi; onu kef, əyləncə ustadı sayırdılar.

Petroni saray adamları arasında bu ustadlıq adını öz açıq-saçıq, əxlaqca yüngül hekayələri sayəsində qazanmışdı. Buna görə də, Neronun onu zövq münsifi seçməsi təsadüfi deyildi, çünki Neron çox bayağı şeylərdən zövq alan bir adamdı. Petroni öz "Satirikon" romanını onun bu bayağı zövqünü oxşamaq məqsədilə yazıb yaratmışdı.

"Satirikon" romanı satirik hekayələr məcmuəsindən ibarətdir. Bu əsər janr etibarilə adi məişət məzmunu daşıyan satirik romandır. Burada həm nəsr, həm də nəzmdən istifadə olunmuşdur. Petroni öz romanını yunanların sevgi romanları tərzində yazmış, ondakı sujet quruluşundan, bir sıra motivlərdən istifadə etmişdir. Petroni yunanilərdəki bu janrı necə isə "astarına" çevrib, onu adi məişət hadisələri vermək üçün yararlı bir şəklə salmışdır. Bununla belə, "Satirikon" romanını sevgi romanlarına yazılmış bir kinayəli nəzərə – parodiya kimi anlamaq olmaz. Burada nə sevgiyə qarşı istehza, nə də ciddi ictimai tənqid və bundan doğan əxlaqi nəticələr vardır. Petroni burada oxucuları yalnız öz açıq-saçıq ifadələri və bədii ədəbiyyatda mümkün olan dərəcədən kənar açıq təsvirlərilə əyləndirməyə çalışmışdır.

"Satirikon" geniş bir əsərdir. Onun qalmış olan hissələri 13 və yaxud 14-cü kitabdan başlanır və əsərin sonuna gəlib çatmır. Əsərin ümumi həcmi

haqqında məlumat yoxdur. Əsərin qalmış olan hissələrində əhvalat birinci şəxsin adından nağıl edilir. Həmin bu şəxs romanın qəhrəmanı olan Enkolpidir. Bu adam, mədəni cəmiyyətdə sinfi simasını itirmiş bir tip kimi verilmişdir. Enkolpi sərsəriyə və caniyə dönmüşdür. Bu adam ibadətgahda ədəbsizlik etmiş, köşk soymuş, adam öldürmüş, buğa döyüşdürən olmuşdur. Talc onu şəhərdən-şəhərə, bədbəxtlikdən-bədbəxtliyə atır, olduğu yerlərdə ikinci dəfə gözə görünmək istəmir. Enkolpinin – bu adi məişət qəhrəmanının səciyyəvi cizgiləri bunlardan ibarətdir.

Bunlardan aydın görünür ki, Enkolpi sevgi romanlarındakı qəhrəmanların tamamilə əksidir. Sevgi romanlarında daima sevişən oğlan və qız olur. "Satirikon"da isə Enkolpinin sevgilisi yoxdur, onu yalnız qız qədər gözəl bir oğlan müşaiyət edir. Bu cütə bəzən üçüncü bir sərsəri də qoşulur. Romanın bu əsas personajı bir sıra macəralardan çıxır, gah ayrı düşür, gah birləşirlər. Bütün bunlar romanın sujet xəttini təşkil edir ki, həmin bu xətt ətrafında çoxlu epizodlar toplanmışdır. Romanın qəhrəmanları yer-yer, şəhər-şəhər gəzərək müxtəlif adamlara və hadisələrə rast gəlirlər. Müəllif romanda fahişəxanaları, bir sıra gizli işləri, dalaşma səhnələrini təsvir edir; cadugərləri, aradüzəldən qadınları, kef dalınca gəzənləri, tüfeyli və oğruları, qulları və azad adamları, dənizçiləri əskərləri və ən nəhayət, əiyalıların nümayəndələrindən ritorika müəllimi, sərsəri şair və sair adamları nümayiş etdirir. Bu surətlər, ümumiyyətlə, antik ədəbiyyatda lətifə, novella, atellana və mim kimi janrlarda istifadə olunan surətlərdir. Petroni belə surətlərdən istifadə etməklə təsvir olunmuş və Roma həyatının bir çox cəhətləri əhatə olunmuşdur. Hekayənin gedişində bəzən romanın əsas personajlarından biri bir novella söyləyir. Belə novellalardan biri də "Trimalxionun evində ziyafət"dir ki, burada Petroninin təsviri daha yüksək bir qüvvətlə səslənir. Bu epizod "Satirikon" romanından bütöv qalmış yeganə hissədir. Bu epizodda Romada I əsrdə yaranan yeni aristokratiyanın həyatı təsvir olunmuşdur. Bu yeni əmələ gələn aristokratların çoxu əslən zadəgan olmayan, birdən-birə varlanıb dövlətlənən adamlardan ibarətdir. Bunlar bir çox hallarda ədəb və məişət qaydalarını bilmir və əsl zadəganların istehzasına düçar olurdular. Adını çəkdiyimiz novellada Petroni bir saray estetika ustadı kimi özünün bütün nifrətini Trimalxionun üzərinə yağdırmışdır. Burada Trimalxion aristokratlaşan bir düdəmə kimi verilmişdir. Bu adam əvvəlcə qul imiş, sonra ağası ona azadlıq verib buraxmış, ona miras çatmış və müvəffəqiyyətli alver nəticəsində varlanmışdı.

Petroni novellada onu həyatını hər cəhətdən işıqlandırmışdır. Onun həyat tarixini, maddi vəziyyətini, onun mülk və təsərrüfatını idarə etməsini, münasibətini ətraflı surətdə vermişdir. Sarayının ala-bəzək bəzənməsi ilə bir sırada

Trimalxionun hərəkətində onun zövq sahibi olmadığını, əda tərzini bilmədiyini, avamlığını, mövhumatçılığını, kobud keflərə mail olduğunu açıb göstərir. Petroni Trimalxionun qonaqlarını da onun özü kimi vermişdir, ancaq Trimalxion həmin sifətlərilə bunlardan daha qabarıq verilmişdir. Müəllif onun əsl aristokrat zövqündən və anlayışından uzaq olduğunu konkret təsvir əsasında verir. Ziyafət otağında əşya alabəzəkdir, qoyulmuş mütəkkələr ya sapsarı, ya gömgöy, ya qıpqırmızıdır.

Trimalxion özü də alabəzək bir çəpkən geymişdir. Hətta yeməkləri yaxşı tanımır. Məsələn, donuz dolmasını tanımadığından, süfrəyə gətirilən qarnı yarılmamış donuzu gördükdə bunu aşbaz tərəfindən bir ədəbsizlik hesab edib, onu cəzalandırmaq istəyir və s.

Onun danışığı da kobuddur, ədəbi dil normalarından kənara çıxır, bir sıra adi sözlər işlədir, yunan sözlərini latın sözlərinə qatır. Beləliklə, Petroni burada dildən bir səciyyə yaratmaq vasitəsi kimi də istifadə edir ki, "Satirikon" romanının üslub xüsusiyyətlərindən birini təşkil edir.

Romanın bədii qiymətlərindən biri də müəllifin burada zəmanəsinin bir sıra ictimai hadisələrini qabarıq şəkildə təsvir etməsidir. Misal üçün: məhkəmələri satqın, qanunları pul qarşısında gücsüz, dostluğu boş bir söz, insanlar arasında münasibəti bir saxtakarlıq təzahürü kimi verilmişdir.

Bu romanda diqqəti cəlb edən cəhətlərdən biri də müəllifin sənət və ədəbiyyat haqqındakı mülahizələrinin ifadəsidir. Müəllif bu mülahizələri əsərdəki surətlərin dililə verir. Məsələn, əsərin qəhrəmanı Enkolpi o zaman Roma ədəbiyyatının tənəzzülünü onu həyatdan uzaq düşərək, ritorika təsiri altında yaranmasında görür.

Petroni estetik zövq etibarilə klassisizmə çox yaxın yazıçılardan hesab olunur. Ancaq klassisizmə maraq onun üçün yalnız keçmişə hörmət vəzifəsini görürdü. Onun şəxsi yaradıcılıq üsulu naturalistcəsinə açıq yazmaq idi. Buna görə onun haqqında danışdığımız romanı ciddi realistik bir əsər kimi meydana çıxmamışdır.

SATİRİKON

(*Parçalar*)

Üç avara-səfil – Enkolpi, Asklit və Giton şəhərdən şəhərə gəzərək özgələrin hesabına yaşamaq qərarına gəlirlər. Gah birisinin evində dolaşır, gah da başqa bir yerdən şey oğurlamaqla baş dolandırırdılar. Bir gün bunlar azad edilmiş qul – Trimalxionun ziyafət məclisində iştirak edirlər. Bu ziyafət haqqında romanın baş qəhrəmanı Enkolpi belə danışır:

XXXI. Nəhayət, biz yatmağa hazırlaşırkən iskəndəriyyəli uşaqlar əl və ayağımızı buzlu su ilə yudular; dırnaqlarımızı çox səylə tutub kəsdilər. Demək lazımdır ki, bu işləri görərkən onlar hündürdən mahnılar da oxuyurdular. Mən onlardan soruşdum: doğrudanmı sizin dəstənizdəkilərin hamısı belə mahnı oxuyandır? Birisindən xahiş etdim ki, bizim üçün bir şey oxusun. Qulluq göstərən oğlan mənim bu xahişimə əməl edib it kimi ulaya-ulaya oxudu. Bütün dəstə də ona qoşulub beləcə oxumağa başladı. Bu xor sadəcə hörmətli ağanın triqlinisini[1] yox, pantomima xorunu xatırladırdı. Bu zaman bizə zərərsiz qəlyanaltı verirdilər. Lojalarda oturub içib kefləndik. Yalnız Trimalxion yeni modaya uyğun olaraq yuxarı başdakı stol arxasına keçdi. Bizim qəlyanaltı etdiyimiz mizin ortasında Korinf büründündən hazırlanmış bir eşşək heykəlciyi qoyulmuşdu. Onun belinin bir tərəfində qara, o biri tərəfində isə ağ zeytun meyvələri olan taylar sallanmışdı. Heykəlcikdən üstə isə iki gümüş nəlbəki görünürdü. Bu nəlbəkilərdə Trimalxionun adı yazılmışdı. Ona yapışdırılmış köndələn tirin üstündə isə xaş-xaşlı, bal yaxılmış, qızardılmış sonilər[2] var idi. Burada həmçinin gümüş manqallarda qaynar qalbasalar qoyulmuşdu. Tavanın altında Suriya gavalısı və nar dənələri görünürdü.

XXXII. Biz kef çəkirdik. Bu zaman musiqi səsləri altında balınclar üstündə oturdulmuş Trimalxionu gətirdilər. Bu mənzərə bir qədər ehtiyatlı gülüşə səbəb oldu. Onun mötərizəyə oxşayan başı qırmızı plaşının arasından görünürdü. O, boynuna məxməri tökülmüş tünd qırmızı şərf sərimişdi. Sol əlinin çöçələ barmağına iri bir qızıl üzük, adsız barmağına isə mənə elə gəlir ki, dəmir ulduzcuğazlarla bərkidilmiş əsl qızıl üzük[3] taxmışdır. Trimalxion üstündəki qaş-daşını daha yaxşı

[1] Triqlini – Rim evindəki nahar otağıdır. Adından da görünür ki, ilk günlər triqlinidə üç loja varmış.

[2] Gəmiricilər növündən balaca heyvan.

[3] Əsl qızıl üzüyü yalnız patrisilər və atlılar gəzdirə bilərdi.

nümayiş etdirmək üçün sağ qolunu çiyninə qədər çirmələmişdi, belə ki, fil sümüyündən düzəldilmiş qolbağ və ona bərkidilmiş qızıl bilərzik parlaq nişanı ilə birlikdə par-par yanırdı.

XXXIII. Dostlar, – deyə o əlində tutduğu diş təmizləyən gümüş çöplə dişini qurdalamağa başladı, – mən triqliniyə gəlmək istəmirdim, lakin sizi çox saxlamamaq üçün kef çəkməyi atıb buraya gəlmişəm. İndi isə olacaq oyunu qurtarmaq üçün icazə verin. – Trimalxionun ardınca gələn bir uşaq iynəyarpağı ağacından qayrılmış balaca bir miz və bir neçə büllur sümük gətirdi. Bunlardan başqa olduqca zərif və incə surətdə işlənilmiş şeylər də gördüm. Ağ və qara daşların yerinə qızıl və gümüş dinarilər[1] qoyulmuşdu. Oyun zamanı Trimalxion bazar cümlə-pərdazlığı ilə danışırdı. Hələ qəlyanaltı yediyimiz zaman da bizə zənbildə yemək vermişdilər. Zənbildə taxtadan yonulmuş qanadlarını açıb, yumurta üstündə oturmuş bir halda toyuq gördük. Arası kəsilmədən çalınan musiqi sədaları altında iki qul əllərini uzadıb zənbildəki otu əlləşdirməyə başladı. Oradan bir neçə tovuz quşu yumurtası çıxardıb məclisdəkilərə payladılar. Trimalxion bu mənzərəni göstərərək oradakılara müraciətlə:

– Dostlar, mən tapşırmışdım ki, bu tovuzquşu yumurtalarını toyuğun altına qoysunlar. Allaha and olsun ki, qorxuram birdən bu yumurtalardan cücə çıxmış olsun. Bir baxaq görək, bəlkə də onlar yeməli yumurtalardır.

Hərəsi bir selibra[2] ağırlığında olan qaşıqlardan götürüb bərk xəmirdən yoğrulmuş yumurtaları zənbildən çıxarmağa başladı. Mənim çıxardığım yumurtanın içindən cücəyə oxşar bir şeyin tərpəndiyini görən kimi az qaldım onu yerə salam. Bu zaman həmsüfrə yoldaşlarımızdan bir qoca çığırdı:

– Bir baxın, burada deyəsən ləzzətli şeylər var.

Bu sözlərdən sonra mən yumurtanın qabığını soyub oradan yağlı meyvələr çıxartdım. Bunlar souz üçün hazırlanmış istiot və yumurta sarısından hazırlanmışdı.

XXXIV. Oyun qurtardı. Bundan sonra Trimalxion özünə biz yediyimiz xörəklərdən tələb etdi və gur səsi ilə bildirdi ki, qonaqların bal

[1] Dinari – Rim gümüş pulu. Neron dövründə bir dinarinin çəkisi 3,4 qrama bərabərdi.

[2] Selibra – 163,73 qrama bərabərdir.

şərabı içməyə meyli varsa buyursunlar. Bu zaman kimin isə işarəsi ilə musiqi gurlamağa başladı. Xorda oxuyanlar musiqi sədaları altında yemək tikələri tökülüb qalmış məcmələri mizin üstündən yığışdırmağa başladılar. Bu qarışıqlıqda mizin üstündən iri bir gümüş boşqab yerə düşdü. Bir yeniyetmə oğlan onu qaldırmaq istərkən Trimalxion bunu gördü. O, qulu kötəkləməyi əmr edib boşqabı yenidən yerə saldı. Başqa bir qul gəlib gümüş boşqabı zibil qarışıq süpürüb yerə atdı. Daha sonra iki efioplu gənc oğlan bizə yanaşdı.

Onlar əllərində tutduqları balaca tuluqlardan çaxır töküb əllərimizi yudular. Heç kəsə su verilmədi. Belə diqqətli olduğunu görən ev yiyəsi dedi:

– Mars bərabərliyi sevir![1] Buna görə də mən hər kəs üçün ayrıca miz qoyulmasını tapşırmışdım. Bu isə yaxşıdır, çünki iy verən çoxlu qullar olanda adama isti olur.

Bu zaman başı səylə qətranlanmış bir dəstə şüşə amfor gətirdilər. Şüşələrin lüləsinə yazısı olan yarlıqlar keçirilmişdi. Yarlıqda yazılmışdı: "Yüzillik opimian falerni"[2] Yazı oxunandan sonra Trimalxion əllərini bir-birinə çırpıb dilləndi:

– Əfsus, əfsus! Şərab insanlardan çox qalırmış. Buna görə də içəyin. İçək, ona görə ki, həyat şərabdadır. Sizi mən əsl opimian şərabına qonaq edirəm. Dünən ləyaqətli qonaqlarım üçün mən belə əla şərab verməmişdim.

Hamımız şərab içirdik. Biz bu cür dəbdəbəyə, nəşəyə heyran qalmışdıq.

Bu zaman bir qul gümüşdən qayrılmış bir skelet gətirdi. Skeletin fəqərə və dirsək sümükləri bir-birinə elə pərçimlənmişdi ki, onu hər tərəfə asan surətdə döndərmək olardı. Biz bunu mizin üstündə bir neçə dəfə buraxdıqda skelet bir neçə dəfə bərkidilmiş, bağları sayəsində müxtəlif vəziyyətlərə düşüb qalırdı.

Trimalxion:

– Bədbəxt biz kasıblar! İnsanlar nə qədər zavallı olarmış. Ork-da gəlib canımızı alanda, yəqin biz də bu hala düşəcəyik. İndi isə, dostlar, yaxşı yaşayın, – deyə hamımıza müraciət etdi.

[1] "Hamı allah yanında bərabərdi" mənasında.

[2] Falerni – şərab növlərindəndir. Opimia falerni deməklə e.ə. 121-ci ildə yaşamış konsul vaxtında şüşəsi açılmışdır demək istəyir.

XXXV. – İndi isə xahiş edirəm nahara buyurasınız, – deyə Trimalxion bizi stola dəvət etdi. Bu əvvəlidir.

Bu zaman stol üstünə nəhəng bir bulud qoydular.

XXXVI. Bu sözlərdən sonra dörd qul rəqs edə-edə boşqabların qapağını qaldırdı. Buludun içində bir quş və bir də donuz əmcəyi vardı. Bunların ortasında isə Peqas[1] kimi başdan ayağa quş lələyi ilə bəzənmiş dovşan görünürdü. Gözümüzə buludun dörd tərəfindən axan dörd xəzli marsilər[2] sataşdı. Bu xəzlərdən sanki kanalda üzən balıqların qabağına tökülən su kimi bol istiot qatışdırılmış xörək şirəsi tökülürdü. Bu mənzərədən heyran qalaraq hamımız əl çaldıq. Bundan sonra dəstəmiz şən bir halda ləzzətli xörəklərin üstünə cumdu.

Qonaqlar şirin-şirin söhbət edirdilər. Onlardan birisi hündür səslə Enkolpiyə ev yiyəsinin və onun azad edilmiş qullarının xasiyyətindən danışmağa başladı.

Trimalxionun torpağından bir quş belə səkə bilməz.

Onun külli miqdarda pulu vardır. Belə ki, hər hansı bir dövlətlinin pulundan onun çox pulu var. Hələ mən onun nə qədər qul-qarabaşı olduğunu demirəm. And içirəm ki, bu qul-qarabaşların heç onda birisi öz ağalarının üzünü belə bu vaxta kimi görməmişlər. Nə isə. İstəsə o, buradakı hər hansı bir gicbəsərin başını kağız kimi yaya bilər.

XXXVIII. Bir gün olmayıb ki, o kənardan bir şey alsın. Nə desən, evində vardır: yun, narınc, istiot. Quş südü belə istəsən burada taparsan. O, evində hazırlanmış yunun keyfiyyətsiz olduğunu gördükdə Terantiyə gedib qoyun aldı və öz sürüsünə qatdı. Evində Attik bal istehsal etmək üçün Afinadan stfarişlə arı gətirtdi. Yeri gəlmişkən onu da deyim ki, yunan qızlarının bəslədikləri ev arıları çox yaxşı olur. Bu yaxınlarda isə o, Hindistana yazmışdı ki, onun üçün göbələk növündən olan bir qədər toxum göndərsinlər.

XL. Bu zaman uzaqdan bir dəstə qul göründü. Qullar lojaların qabağına xalça sərdilər. Xalçaların üstündə ov səhnələri təsvir edilmişdi: ovçular tutduqları tələ və torlarla silahlanmış kimi görünürdülər. Biz şəkillərə baxıb düşündük. Birdən Triqlinidən kənarda qeyriadi səslər qalxmağa başladı. Budur, bir dəstə Lakon köpəkləri içəri

[1] Peqas – Bellerofontun qanadlı atı. Bu at üstündə Bellerofont Ximerə və amozonalara qalib gəlmişdir.

[2] Marsi – satir. Tütək çalma yarışında Apollona qalib gəlmişdir.

soxulub oturduğumuz stolu dövrəyə aldı. Bunlardan sonra iri bir bulud gətirdilər. Buludun içində böyük bir anaş qaban cəmdəyi qoyulmuşdu. Bu qabanın başına bir papaq keçirilmiş, dişlərindən isə palma budaqlarından hörülmüş iki balaca zənbil asılmışdı. Zənbilin biri Suriya qozu, o biri isə Fivan qozu ilə doldurulmuşdu. Qabanın dövrəsini pirojna üçün xəmirdən qayrılmış donuz balaları bürümüşdü. Bunlar analarını əmirlərmiş kimi bir vəziyyətdə düzəldilmişdi. Bu donuz balaları bizə hədiyyə veriləcəkdi. Qabanı, quş əti kəsməklə məşğul olan Karp kəsməyib, öz plaşına bürünmüş ayağı sarıqlı bir topasaqqal kişi parçaladı. O, öz bıçağını çıxardıb bütün qüvvəti ilə qabanın böyürünə endirdi. Nə görsək yaxşıdır. Kəsilmiş yerdən bir dəstə qaratoyuq çıxıb havada pərvaz etməyə başladı. Burada hazır dayanmış quş tutanlar torla triqliniyə doluşmuş bu quşlardan tutmağa başladılar. Trimalxion tutulmuş bu quşlardan hər qonağa birinin verilməsini əmr verdi.

Trimalxion:

– Bu vəhşi donuz nə qədər çox əla palıd qozası aşırmışdır, – dedi. Bu sözlərdən sonra bir neçə qul gəlib heyvanın dişlərindən zənbilləri çıxartdı. Qozalardan bir-bir çıxardıb məclisdə oturanlara payladılar.

Ziyafət məclisində Trimalxion öz karyerasını tarixindən qonaqlar üçün danışmağa başlayır. Burada qul vəziyyətindən başlamış ta qüdrətli – varlı tacirliyə kimi nə cür yüksəldiyindən bəhs edilir.

LXXV. Mən Asiyaya bu şamdan boyda olanda gəlmişdim. Hər gün şamdana baxıb boyumu ölçərdim ki, saqqalım tez çıxsın. Dodaqlarımı da lampa yağı ilə sürtərdim. Düz on dörd il mən bu sayağı öz ağama qulluq edib onun iltifatını qazanmışdım. Ağa əmridir – nə edəsən. Burada heç bir ayıb iş yoxdur ki... Hətta ağanın xanımını da razı salardım. Nə dediyimi başa düşürsünüz. Nə isə. Daha danışmayacağam. Çünki mən o lovğalardan deyiləm.

LXXVI. Beləliklə, mən allahın köməkliyi ilə bu evin anası oldum. Demək lazımdır ki, bununla mən anamı məftun etmişdim də. Daha nə istəyirsən. Ağam məni Sezarın varisi etdi, mənə senator malikanəsi bağışladı. Lakin sizi inandırıram ki, insanın gözü heç şeydən doymur. İstədim ticarətə başlayım. Nə başınızı ağrıdım. Beş gəminin o zamanlar qızıla bərabər olan çaxırla doldurub Roma şəhərinə yola saldım. Bir fikir verin, guya mən bunu qəsdən etmişdim. Yolda bütün gəmilərim suya batıb qərq oldu. Bu uydurma deyil, olmuş əhvalatdır. Bəli, Neptun

bir günün içərisində otuz milyon sestertsi udmuşdu. Siz elə bilirsiniz ki, mən ruhdan düşmüşdüm. Xeyir. Bu ziyan mənim süfətimi belə büzüşdürmədi. Elə bil ki, heç bir şey olmamışdır. Yenidən böyük və möhkəm gəmilər aldım. Qoy deməsinlər mən zəif iradəli adamam. Böyük gəmi, deyərlər, böyük də yük götürər. Gəmini çaxır, donuz, paxla, ətriyyat və qullarla doldurub yola saldım. Burada arvadım Fortunata müqəddəs iş görüb üstündə olan bütün daş-qaşını, paltarlarını satıb pul elədi və mənə yüz qızıl verdi. Bu mənim vardövlətimin mayası oldu.

Deyirlər, allahlar istədiyi şeyi tez əmələ gətirirlər. Birinci səfərimdə on milyona qədər pul qazandım. Bu pula ağamın əvvəlki torpaqlarını satın aldım. Nə bilim, ev tikdirdim, qul və mal-qara sahibi oldum. Belə ki, əlimi nəyə vururdumsa, necə deyirlər, o saat bal arısı pətəyinə çevrilərdi. Dövlətli olandan sonra isə hər şeyi, ticarəti atdım. Bütün işlərimi azad etdiyim qullar vasitəsilə görürdüm. Taleyim belə keçmişdir. İndi də Apulidə bir malikanə almağa müvəffəq olsam, biləram ki, həyatımın hər bir məqsədi yerinə yetirilmişdir. Bu evi isə mən hələ Merkurilə[1] (Hermes) məşğul olarkən tikdirmişdim. Əgər yadınızdadırsa bu koma gördüyünüz kimi indii bir ibadətxanaya çevrilmişdi. Mənim ibadətxanamda dörd yeməkxana, iyirmi yatacaq otağı, mərmər sütunlu iki qallereya və s. vardır. Üst qatda da yeməkxana var. Hələ mən arvadımın xüsusi yataq otağını demirəm. Eh, nə deyim, yalan danışanlar üçün bu otaqlar yaxşı otaqlar ola bilər. Bundan başqa burada bir neçə qonaq otağı da vardır.

Bir sözlə, Skavr[2] özü bura gələndə mütləq gərək bizdə gecələsin. Bu adamın atasının isə deyirlər dəniz sahilində mülkü olmuşdur. Daha sizə nə danışım. Bu evlərdə hər şey vardır. Mən göstərim, siz də baxın. İnanın mənə ki, əgər assın[3] varsa, hamı sənin dostun olacaqdır. Pul, necə deyirlər, pul gətirər. Dostunuz belə oğlandır. Əvvəllər nə idim – qurbağa, indi isə gördüyünüz kimi bir padşah olmuşam.

Enkolpi və Asklit Giton adlı bir uşaq üstə bir-birilə dalaşıb küsüşürlər. Giton əvvəlcə Asklitin sonra isə Enkolpinin yanına qayıdır. Qəzəblənmiş Asklit qaçqın oğlanı axtarmaqdadır.

[1] Merkuri – ticarət, sənət və uğur allahıdır.
[2] Emiliya və Avreliyev – Patristi nəslinin görkəmli nümayəndələri
[3] Ass – Romada xırda puldur.

Mehmanxanaya bir dəstə həvəskar adamlarla əhatə edilmiş ictimai məmur və carçı daxil olur. Carçı əlindəki tüstülənən odu hərlədə-hərlədə camaata deyirdi:

– Camaat, bu yaxınlarda 16 yaşında bir oğlan uşağı hamamdan qaçmışdır. Adı Gitondur. Oğlanın qıvırcıq saçları, zərif və gözəl üzü vardır. Oğlanı tapan və yaxud onun olduğu yeri deyən adama min numm[1]. pul mükafat veriləcəkdir.

Carçının yanında alabəzək paltar geyinmiş Askilt dayanmışdır. Onun əlindəki qızıl boşqabda vəd edilmiş pul mükafatı və dövlət aktı olan kağızlar var idi. Mən Gitona əmr etdim ki, cəld çarpayının altına girsin. Dedim ki, bir zamanlar gizlənmək üçün qoyunun qarnı altına girmiş Uliss kimi o da çarpayının qayış torundan yapışıb onu izləyənlərin əlindən canını qurtarsın. Vaxt itirmədən Giton dediklərimə əməl etdi. Mən isə adamları şübhələndirməməkdən ötrü çarpayının üstünə paltarlarımı atdım və ona elə görkəm verdim ki, güya bir az bundan qabaq çapayıda kim isə yatmışdır. Askiltlə ictimai məmur bütün otaqları gəzdilər. Onlar bir şey tapacaqları ümidi ilə mənim otağıma yanaşdılar. Qapı bağlı idi. İctimai məmur baltanı qapının aralığından salıb cəld qıfılı sındırdı. Bunu gördükdə mən Askiltin ayaqlarına düşüb köhnə dostluğunda vəfasız çıxdığı üçün ona qarğış etdim. Dedim: keçən günlərdə biz bir yerdə iztirab çəkmişdik. Heç olmasa, dostluq xatirinə qardaşını mənə göstərsin.

– Mən bilirəm, Askilt, – deyə yalvarışlarımın daha da gərçək olması üçün dilləndim. – Mən bilirəm ki, sən məni öldürməyə gəlmisən. Yoxsa sən bunun üçün baltaynan gəlməzdin. Öz qəzəbini yatırt. Vur mənim boynumu, hərisi olduğun qanımı tök.

Askilt yumşaldı. O dedi ki, mən yalnız qaçqını axtarıram. Onun üçün hər şeydən qiymətli olan həmin adamın nə ölümünü, nə də iztirab çəkməsini istəyir.

XCVIII. İctimai məmur bu vaxt yatmamışdı. O, mehmanxanaçının əlindən uzun çubuğu qapıb çarpayıları və divardakı hər bir deşiyi yoxlamağa başladı. Giton nəfəsini dərərək dəyən zərbələrdən özünü qoruyurdu. Yazıq uşaq üzünü qayışa elə bərk sıxmışdı ki, döşəkdəki taxtabitilər onun sifəti yanından ora-bura qaçışırdılar. Onlar gedən kimi

[1] Numm – xırda gümüş puldur.

xidmətçilər tərəfindən sındırılmış qapılardan Evmolp[1] töyşüyə-töyşüyə içəri soxuldu.

– Tapmışam, tapmışam, – deyə o fəryad edə-edə bağırdı. Bu saat gedib carçıya xəbər verəcəyəm ki, Giton sənin evində gizlənmişdir. Səni satıb min numm pul alacağam.

Mən fikrindən dönməyəcək bu adamın qarşısında diz çökub yalvarmağa başladım.

Mən dedim:

– Sənin belə qızışmağına əsas varmı? Axı sən onu tanımamısan. Qarışıqlıqda uşaq qaçmışdır, heç özüm də bilmirəm ki, haraya yox olub getmişdir. Yalvarıram Evmolp, bəlkə uşağı tapdın, heç olmasa Askiltə qaytararsan. Mən Evmolpu inandırana qədər, birdən Giton özünü saxlaya bilməyib üç dəfə dalbadal elə bərk asqırdı ki, zərbədən çarpayı silkələnməyə başladı. Asqıraq səsinə Evmolp çevrilərək Gitona cansağlığı arzuladı. Sonra da çarpayıya yanaşıb döşəyi qaldırdı və orada bizim Ulissimizi gördü. Qorxmuş uşaq elə yazıq vəziyyətə düşmüşdü ki, hətta onu ac Siklon belə yeməyib rahat buraxardı.

– Aha, quldur, bəs bu nə deməkdir, – deyə o dilləndi. – Sübut olunaraq tutulduğun halda hələ sən bir yalan da danışırsan? Allahın köməkliyi olmasa idi, indi mən bütün mehmanxanaları gəzərək onu axtaracaqdım.

Lakin mehriban Giton duraraq birinci növbədə onun kəsilmiş yaralı alnına yağlı hörümçək toru qoydu. Sonra da paltarlarının cırılmış yerlərindən görünən çılpaq bədənini öz plaşı ilə örtərək qucaqladı. Əzizləndiyini gördükdə o yumşaldı.

– Əziz ata, – deyə o yalvarırdı. – Biz sənin himayən altına yığılmışıq. Əgər sən Gitonunu belə sevirsənsə onu ölümdən qurtar. Qoy bu yanan kinli od məni yandırıb kül eləsin! Qoy bu coşqun dənizlər məni udub yox eləsin! Mənəm bütün bu cinayətlərin mənbəyi, mənəm günahkar! Yalnız mən öldükdən sonra düşmənlərim barışacaqdır. Bu sözlərdən ürəyi yumşalan Evmolp həm Enkolpinin, həm də Gitonun dərdinə şərik olaraq dedi:

[1] Evmolp - Enkolpinin dostudur. Qoca, ritor-şairdir. O, öz şeirlərilə hamını dəng edərdi. Bu səbəbdən də bir neçə dəfə onu vətəndaşlar daşa basardılar. Petroni, Evmolpi təsvir etməklə köhnə poeziyaya istinad edərək, mifoloji süjetlərdən istifadə edib ona yeni qəhrəmanlıq eposu formasını verənbir çox arxaist şairlərə cülmüşdür.

– Səfehlər, vallah səfehlərsiniz. Dünyada da bu cür yaşamaq olarmı? Sizlər hər gün bir-birinizə olmazın əzablar verirsiniz.

XCIX. Mən şəxsən həmişə və hər yerdə belə yaşamışam və hər günümdən istifadə etmişəm. Buyurun, əgər siz də mənə oxşamaq istəyirsinizsə, başınızdan hər cürə həyəcanları çıxardıb atın. Askilt başı alovlu sizi axtarır. Qaçın ondan. Dalımca gəlin, gedək özgə vilayətlərə. Bu gün gəmi yola düşəcəkdir. Orada məni tanıyırlar, sizi orada yaxşı qarşılarlar.

Doğrudan bu təklif mənə çox ağıllı və faydalı göründü. Dedim yaxşı oldu, həm Askiltin əlindən canım qurtardı, həm də bundan sonra xoşbəxt gün görərəm. Evmolpun belə iltifatı qarşısında məğlub olmuşdum. Doğrusu, onu belə incitdiyim üçün ovqatım yaman təlx oldu. Bu qədər bəlaların səbəbi olan qısqanclığım məni sonradan peşman etmişdi. Göz yaşları içərisində ona yalvarır və deyirdim ki, qoy o əvvəlki kimi mənlə rəftar etsin. Sevənlər qısqanclığın dəhşətli hisslərinə hakim olmalıdırlar. Bundan sonra belə mən onu təhqir etməyəcəyimə söz verirəm. Qoy o, bir gözəllik müəllimi kimi bu vaxta qədər olmuş incikliklərі yadından çıxartsın. İşlənməmiş vəhşi torpağın üstündə yatıb qalar, lakin kotan işləmiş torpağın üstündəki qar isə qırovdan daha tez əriyib suya dönər. Eləcə də insanların ürəyi həm əzazil, həm də yumşaq olur.

Evmolp:

– Siz deyən olsun, düz deyirsən. Bir öpüşlə küsüşməyimizə son qoyuram. Belə salamat qurtarmaq üçün şeylərinizi yığışdırın, dalımca gəlin. Yox, əgər istəmirsinizsə, mən sizin dalınızca gələrəm.

Hər üçü: Enkolpi, Evmolp və Giton özlərinə xoşbəxtlik axtarmaq üçün yola düşürlər.

Bu romana əlavə olaraq Petroni yunan folklorundan götürülmüş bir novella salmışdır. Bu novella tematik cəhətdən Milet novellalarına yaxındır. Milet novellalarının külliyyatını miletli Aristid adlı birisinin yazdığını güman edirlər. Bu külliyyatı latın dilinə e.ə. I əsrdə yaşamış Sizen tərcümə etmişdir. Efes matronu haqqında verilən bu novellada sabit olmayan bir para yüngül əxlaqlı qadınlardan bəhs edilir. Bu cəhətdən novella romanla bir növ səsləşir.

CXI. Efes şəhərində bir zamanlar bir matrona yaşardı. Deyildiyinə görə, bu qadın o qədər ismətli və həyalı imiş ki, hətta qonşu ölkələrin qadınları onu görmək üçün Efesə gələrdilər. Bir gün bu qadının sevimli

əri ölür. O, xalq ədətincə saçlarını açıb tökmüş və camaatın qabağında sinəsini dırnaqları ilə cırmışdı. Bununla kifayətlənməyən bədbəxt qadın əri basdırılmış sərdabədə gecə-gündüz göz yaşları tökərək keşik çəkirdi. Bu cür dəhşətli vəziyyətlə özünü ac saxlayıb öldürmək istəmişdi. Valideynləri və qohumları nə qədər ona öyüd-nəsihət vermişlərsə də, onu bu işdən çəkindirə bilməmişlər. Hətta şəhər hakimi onun yanına gəlmiş, bir nəticə əldə edə bilməyərək çıxıb getmişdi. Bu qadına acıyanlar onu gördükdə ağladılar. O, öz ərinə sadiq qalan bir qadın kimi məşhur olmuşdu. Onu başqa qadınlara bir nümunə kimi göstərirdilər. Beşinci gün idi ki, zavallı heç bir şey yemirdi. Qadının sadiq qulluqçusu da onunla bir yerdə qalırdı. Qulluqçu qadın göz yaşı tökərək öz xanımının dərdinə şərik olurdu. Şəhərdə yalnız söhbət bu xanım haqqında gedərdi. Müxtəlif rütbələrdən olan şəxslər deyirdilər: onlar ömürlərində birinci dəfədir ki, bu qadında əsl məhəbbət və sadiqliyin ən parlaq nümunəsini görürlər.

Bir gün bu hadisə baş verən zamanlarda həmin mahalın hakimi sərdabədən uzaq olmayan bir yerdə bir neçə qulduru çarmıxa çəkdirməyi əmr etmişdi. Meyidləri basdırmasınlar deyə, çarmıxın yanında keşik çəkmək üçün bir əsgər qoydurmuşdu. Keşikçi əsgər hər gün qaranlıq çökən kimi qəbir daşları arasından parlaq bir işığın saçıldığını görmüş və oradan bədbəxt bir dul qadının ah-naləsini eşitmişdi. Bütün insanlara xas olan bir maraqla o da qadının kim olduğunu və orada nə etdiyini bilmək qərarına gəlir. Budur, sərdabaya endikdə orada həddən artıq gözəl bir qadın görür. Əsgər axirət dünyasının kabusuna rast gəlmiş kimi bir qədər özünü itirir. Haçandan-haçana özünə gəlib qadının yanındakı bir meyitin və dırnaqları ilə üzünü cırmış gözü yaşlı bu qadının sifətini belə vəziyyətdə gördükdə hər şeyi anlayır. O, "yəqin ərinin öpüşündən sonra dərddən özünə rahatlıq tapa bilmir" – deyə düşünür. Keşikçi o gündən sonra hər gün sərdabaya gələr və qadın üçün öz xörək payını gətirərdi. O çalışardı ki, göz yaşı tökən və faydasız hıçqırıqlarla özünü üzən qadını ağlamaqdan çəkindirsin. O deyərdi: hamını ölüm gözləyir və hamının son qərargahı qara torpaqdır. Böyük kədər keçirmiş adamları necə ovundururlarsa, o da onu bu cür sözlərlə ovundurardı. Qadın ona belə təsəlli verən tanımadığı bu yad adamın sözlərindən sonra da sinəsini cırar, saçlarını parça-parça qopardıb meyitin üstünə atardı. Əsgər ondan əl çəkməz, yazıq dul qalmış qadından bir qədər xörək yeməsini xahiş edirdi. Qulluqçu qadın isə bu

zaman şərabdan tamahıslanıb nəzarətçi əsgərin təklifini qəbul edir. O, əsgərin xanım tərəfindən rədd edilmiş əlindən şərabı alıb içir.

Şərab və yeməklə özünü bərkitdikdən sonra qulluqçu qadın xanımın inadı ilə mübarizəyə başlayır. O, xanımı dilə tutaraq deyir: "Sən özünü aclığa vadar edib öldürsən də diri-diri qara torpağa basdırsan da töhmətləndirilməmiş ruhun bədənindən uçsa da taleyin əlindən qaça bilməzsən. Sən güman edirsən ki, torpaq altında yatanlar eşitmirmi?[1] Sən öz zəif qadınlıq nöqsanından əl çəkib həmişəki kimi yenə də həyat nemətlərindən zövq alsaydın, daha yaxşı olamazdımı? Burada uzanan meydan görkəmi məncə səni yaşatmaq üçün inandırmalıdır".

Deyirlər ki, yemək və yaşamaq üçün insanı dilə tutduqda həvəslə qulaq asar. Bu sözlərdən sonra uzun bir müddət yeməkdən qalmış bizim dul qadın, nəhayət, inadı buraxıb yumşaldı və qulluqçusu kimi acgözlüklə yeməyin üstünə düşdü.

CXII. Siz özünüz yaxşı bilirsiniz ki, toxluq adamı necə başdan çıxarır. Əsgərin belə mehriban rəftarı nəticəsində matrona sağ qalmağa razı oldu. Qadının utancaqlığı da yox olmuşdu.

Həyalı qadına elə gəlirdi ki, bu gənc oğlan heç də iyrənc deyil və o, hətta gözəl də danışır. Hətta xanımın qulluqçusu da onunla şərik olub dəqiqədə bir deyərdi:

"... Aya, qəlbinə yatan sevginidəmi rədd edəcəksən?
Yoxsa ki, qabağında duranın kim olduğunu görmürsən."[2]

Nə başınızı ağrıdım. Bu tərəfdən də qadın möhkəm surətdə məğlub olmuşdu. Qalib çıxmış əsgər onu hər cəhətdən razı saldı. Toy edib üç gün gecələri səhərəcən qarşılıqlı bir vəziyyətdə qucaqlaşıb yatdılr. Onlar hər ehtimala qarşı sərdabanın qapısını bağladılar ki, tanışlaradan yaxud özgələrdən gələn olsa, qoy görsünlər ki, sədaqətli qadın əri ilə birlikdə öz ruhunu torpağa tapşırmışdır.

---

[1] "Yatanları güman edirsən ki, dirildəsən" (V, səh. 34). Bu sözlər böyük olmayan dəyişikliklərlə "Eneidadan" götürülmüşdür. Bu sözlərlə Anna Eneyə aşiq olmuş, lakin onların evlənəcəklərinə bel bağlamayan dul qalmış bacısı olan Didonaya müraciət etmişdir.

[2] Bu misralar da "Eneida"dan götürülmüşdür (IV, səh. 38-39). Bu sözlərlə Anna öz ürəyini Eneyə açmağı və ona ərə getmək üçün Didonu dilə tuturdu. Əgər Vergilinin eposunda Annanın sözləri təntənəli surətdə səslənirdisə Petronidə bu şeirlər kinayə planında verilir.

Əsgər isə sevgilisinin gözəlliyindən və etdiyi əsrarlı sərgüzəştindən fərəhlənir, pulu çatdığı qədər dadlı şirniyyatlardan alıb, axşam olan kimi cəld sərdabaya gətirərdi. Bu zaman çarmıxa çəkilmiş quldarlardan birinin qohumu görür ki, son vaxtlar nə isə ölənlərin üstündə heç bir keşik çəkən yoxdur. O, aranı xəlvət görüb çarmıxdan öz ölüsünü düşürdür və torpağa basdırır.

Bütün günü sərdabada vaxtını keçirmiş əsgər yalnız səhərisi günü çarmıxlardan birində bir meyitin çatmadığını görür. Cəzalanacağından qorxan əsgər dul qadına vəziyyəti danışır. O, deyir ki, məhkəmənin qərarını gözləmədən qılıncı ilə özünü öldürəcəkdir və bir də sevgilisindən xahiş edir ki, öldükdən sonra onu buradaca keçmiş ərinin yanında bu bədbəxtlik gətirən qəbirlə basdırsın. İsmətli olduğu qədər şəfqətli görünən qadın: "Allah buna razı ola bilməz ki, mənim üçün əziz olan iki ölünün üstündə göz yaşı töküb ağlayım. Mən sənin ölməyindənsə bu meyitin çarmıxdan asılmağını üstün tutardım" deyir.

Bu sözlərdən sonra o, əsgərə müraciət edir ki, ərini tabutdan çıxartsın.

Əsgər ağıllı qadının parlaq fikirlərindən cəld istifadə etdi. Sabahısı yoldan keçən yolçular təəccüblənib deyirdilər: "Görəsən ölü də yenidən çarmıxa qalxıb özünü asa bilərmi?"

FEDR

B.e. I əsri

Tiberinin hakimiyyət illərində Roma poeziyasının yeganə nümayəndəsi Fedrdir. Öz yaradıcılığının məfkurəvi istiqaməti ilə hakim təbəqələrin qəbul olunmuş şairlərindən kənarda dayanan Fedr, müasirləri tərəfindən sayılmamışdır. Hətta dövrünün heç bir şairi və tarixçisi onun yaradıcılığına qiymət verib yad etməmişdir. Bəziləri bunu onun qul olması ilə, bəziləri də təmsil janrını poeziya sırasına daxil etmədikləri ilə izaha çalışmışlar.

Doğrudur, Fedr ta uşaqlıqdan Makedoniyadan gətirilmiş qul idi. Avqust öz qulu Fedri azad etmiş, azad bir vətəndaş kimi Romada yaşamasına icazə vermişdir. Milliyətcə yarım yunanlı olan Fedr latın dilini öyrənmiş, həmin dildə təmsillər və mənzum lətifələr yazmağa başlamışdır.

Şairin fikrincə, təmsil məzlum, istismar olunan təbəqələrin, qulların janrıdır. Çünki təmsil müəllifləri hakim siniflərə etirazlarını, həyat və cəmiyyət haqqında düşündüklərini açıq deyə bilmədikləri üçün heyvanlardan, quşlardan, bitkilərdən, onların söhbət və mücadilələrindən istifadə etmişlər.

Təmsil janrı Roma ədəbiyyatında yeni idi. Belə ki, bəzi şairlərin əsərlərində kiçik romanlar, heyvan, quş, bitki obrazları müstəsna ediləcək olsa, təmsilin yeganə ustadı Fedr olmuşdur. Təmsilə xor baxan Roma şairlərinin, filoloqlarının əksəri də Fedri şair hesab etməmişlər.

Lakin onun təmsilləri hakim dairələrə tikan kimi batdığı üçün şair təqib olunmuşdur. Onu təqib edənlərdən biri Seyan idi. Seyan, şairin təmsillərində müdhiş idarə üsuluna, imperator Tiberiyə və Seyanın özünə olan işarələri düzgün müəyyən etmiş, şairi daima imperatorun gözü qabağında ləkələmişdir. Tiberi onu məhkəməyə çəkmişdir. Bu barədə üçüncü kitabın müqəddiməsində xüsusi işarə vardır.

Onun əsərləri beş kitabda toplanmışdır. Birinci və ikinci kitab Tiberinin hakimiyyət illərində, qalan üç kitab isə sonralar yazılmışdır. Fedr təmsillərini "Ezop təmsilləri" adlandırmışdır. Əvvala ona görə ki, bu təmsillərin bir qismi məşhur yunan təmsil yazanı Ezopun (e.ə. VI-V əsr) məlum təmsiləri mövzusunda yazılmışdır. Şair özü onların Ezopdan iqtibas olduğunu etiraf edir. İkinci, ona görə ki, təmsillərin hamısı, hətta onların orijinal nümunələri Ezop ruhunda və ədasında yazılmışdır. Beş kitabda cəmi 120 təmsil toplanmış ki, Fedrin əsas təmsil irsi bundan ibarətdir.

Fedrin təmsilləri başlıca olaraq heyvanat aləmindən alınmış, plebey şair olan müəllifin dünyagörüşünü əks etdirir. Şairin ictimai qənaəti bundan ibarət

idi ki, imperatorluq idarə üsulunda zəiflərin, hüquqsuzların, məzlumların xoşbəxtliyi, rifahı mümkün deyil. Onlar qüvvətlilərin əlində məhkumdurlar. Ona görə də təmsillərin böyük bir qismində şairin əsas tənqid hədəfi qüvvətlilərdir. O, qüvvətliləri gülünc iddiaları ilə, məntiqsiz bəhanələri ilə ifşa edir. "Qurd və quzu" təmsilində qurdun iddiaları nə qədər gülünc olsa belə yenə o, quzunu yeyib məqsədinə çatır. Qüvvətlilərlə dostluq etmək, bir yerdə işləmək mümkün deyil. Qüvvətlilərin öz aralarındakı narazılıq zəiflərə ancaq bədbəxtlik gətirir. Yeganə təsəllisi isə budur ki, qüvvət və dövlət yoxsulluğa nisbətən daha çox və tez-tez adamı təhlükəyə salır. Dövlət başçılarının dəyişməsi yoxsulların həyatını yaxşılaşdırmışdır.

Sırf siyasi məzmun daşıyan təmsillərində Fedr Afina şəraitini təsvir etsə də, onlar bilavasitə Roma siyasi həyatı ilə bağlı idilər. Ona görə birinci və ikinci kitabı çıxandan sonra Fedrə qarşı təzyiq qüvvətlənir.

Üçüncü, dördüncü və beşinci kitablardakı təmsillərin satirası nisbətən kütləşir. Belə ki, şair daha ümumi, daha mücərrəd mövzular seçir. Lətifələr, qaravəlilər düzəldib, cəmiyyətdəki bəzi ümumi nöqsanlara işarə edir. Məişət əhvalatları arasında kiçik səhnəciklər yaradır (misal üçün, "Efess xanım". Bu əhvalat Petroninin "Satirikon" romanında verilmişdir).

Fedrin dili olduqca yığcam və lakonik, sadə və təmizdir. Bəzən yığcamlıq ifadələrinin quruluğuna, fikirlərinin dumanlı qalmasına səbəb olur. Heç şübhəsiz, Ezopun təmsillərinə nisbətən Fedrin təmsilləri bədii cəhətdən zəifdir. Lakin buna baxmayaraq, Fedr təmsilə kəskin həcv istiqaməti verərək, gələcək epiqram poeziyasının yaranması üçün şərait hazırlamışdır.

QURBAĞA VƏ ÖKÜZ

Acizlər güclülərdən ibrət alsa məhv olar –
Çəmənlikdə rast gəldi öküzə bir qurbağa,
Onun böyüklüyünə həsəd edib bu lovğa,
Şişirdib dərisinin bütün qırışlarını
Dedi uşaqlarına: – Böyüyəmmi öküzdən?

– Yox, – cavab verir onlar.
Bu dəfə daha artıq gərərək dərisini,
Lap şişirdir özünü,
Sual edir yenidən:
– Bəs indi kim böyükdür?
– Öküz böyükdür!
Bu lap hirsləndirir axmağı.

Kinlə yığıb özünü, bütün var qüvvəsilə
Görmək istər özünü... Tab gətirə bilməyir
Yerində çapalayır.
Yıxılır torpaq üstə, qəzəbindən partlayır.

DİŞİNDƏ ƏT APARAN İT

"Artıq tamah baş yarar."
Ağzında bir parça ət çaydan üzüb keçərkən,
İt görür öz əksini suyun ayna üzündə.
"Başqası da aparır" – zənn edərək həqiqət,
Qopmaq istəyir birdən... Aldadır ac gözləri;
Dişində nə vardısa dərhal itirir suda,
Nəyə tamah etdisə – qismət olmadı o da.

TÜLKÜ VƏ ÜZÜM

Tənəkdə üzüm vardır, ac tülkü də bayaqdan
Tullanır ki, bir salxım bəlkə qopardı ondan.
Hey tullanır, çatmayır, lakin ağzı üzümə,
Yorulur ən nəhayət, deyir özü-özünə:
"Dəyməyib, kaldır hələ, turş yemək istəmirəm,
Bir qədər də gözləyim, yetişəndə gələrəm".

DESSİM YUNİ YUVENAL

Roma ədəbiyyatında satira Lussili, Horasi, Persi və Yuvenal kimi dörd şairin adı ilə bağlıdır. Lussilinin satirası, respublika idarə üsulu şəraitində doğmuş, ümumi, ictimai, əxlaqi normalara uymayan hadisələrə, hərəkətlərə qarşı çevrilmişdi. Lussili söz azadlığından istifadə edərək tənqid hədəflərini gizlətmir, Aristofan kimi hakim dairələrin nümayəndələrini, müəyyən zadəgan ailələrini (Lentul, Papiri, Avreli və sairə) hətta bəzən plebeyləri (Onimi, Qalloni və sairə) Satira atəşinə tuturdu.

Horasinin ilk satirik şeirləri ağır təzyiqlərdən mövcud quruluşla razılaşmış, siyasi cəhətdən öz vəziyyəti ilə barışmış Roma cəmiyyəti şəraitində yazılmışdı. Ayrı-ayrı hakimlərə, saray adamlarına qarşı həcv yağdırmaq vaxtı deyildi. Ona görə, Horasi zadəgan ibarələr ilə cəmiyyətdə özünü göstərən "bəzi eybəcərlikləri" tənqid etməklə kifayətlənirdi.

Avqustdan başlayaraq, Nerona qədər Roma cəmiyyətinin əxlaqi siması sürətlə xarablaşır. Bu xarablaşmanın dərəcəsini bilmək üçün tarixçi Tassitin Tiberi (imperatorluq illəri 14-37), Q.Kaliqula (37-41), Klavdi (41-54), Neron (54-68) kimi Roma imperatorlarına həsr etdiyi fəsilləri oxumaq kifayətdir. Dörd imperatorun hakimiyyəti illərində istibdadın təzyiqi altında yaltaqlıq, saray adamlarının hökmdar qarşısında sürünməsi, ikiüzlülük, ali təbəqələrin ailə həyatında əxlaqsızlıq, qadınların fahişəliyi, kişilərin dəyyüsluğu (Adyulter) o dərəcəyə gəlib çıxır ki, Roma satirik poeziyası qəm dəryasına cumur. Ona görə də gənc satirik Persinin həcvləri bədbin bir məzmuna malikdir. O, xeyirxahlığı, nəcabəti ilahi gözəllik boyaları ilə təsvir edib nümunə göstərir; bəlkə əxlaqsızlıq, düşgünlüq ilahi nəcabət qarşısında utansın.

İyirmi ildən sonra dövlət başına gələn imperator Domissianın istibdadı qarşısında Neron istibdadı gülünc oyuncağa bənzəyirdi. Domissianın səltənət illərində vətəndaşlar millət, dövlət dərdi çəkmir, öz həyatlarının dərdinə qalmağa məcbur olmuşdu. Hər kəs özünü sudan çıxarmağa, öz dərisini qorumağa çalışırdı. Alicənablıq, nəcabət, xeyirxahlıq, mərdlik məhfumları külünc mənada işlədilir. Bu vəziyyətə ancaq qəzəb hissi oyadırdı ki, Yuvenal satirasına istiqamət verən və onun məzmununu təşkil edən belə bir qəzəb hissi idi.

Dessim Yuni Yuvenal Lassumda Volsk şəhərinə bağlı Akvanda anadan olmuşdur. Onun doğum, ölüm illəri yəqin məlum deyil. Təxminən olaraq, I əsrin 50-60-cı illərdə anadan olmuş, II əsrin birinci yarısında ölmüşdür (118-120, 127 və s. təxminlər var). Atası azad olmuş quldur, sonralar varlanmış və oğlunun təhsilinə xüsusi fikir vermişdir. Şairin özünün qeydinə görə, o, qrammatika və ritorika məktəblərində oxumuş vəkillik etmiş və ritorika müəllimi

olmuşdur. Rəvayət edirlər ki, gənc şairin Domissianın saray oyunbazı Paridə yazmış olduğu həcvi eşidənlər çox bəyənmişlər. Bu həcv üçün də guya Yuvenal Misrə sürgün edilmişdir. Yuvenalın tərcümeyi-halı rəvayətlərlə dolu olduğu üçün bu barədə təfsilatı keçməyə lüzum yoxdur.

Yuvenalın ədəbi irsi beş kitabda toplanmış on altı satiradan ibarətdir. Bunların ilki, təxminə görə, 100-cü ildə yazılmışdır. Bütün bu satiralar, məzmun və bədii keyfiyyəti etibarilə eyni səviyyəyə malik deyillər. İlk doqquz satira şairin istedadlı həcviyyatçı olduğunu, müasir dövrün ictimai və fərdi eybəcərliklərini həqiqi qəzəb hissi ilə əks etdirdiyini sübut edən əsərlərdir. Bu şeirlərdə ritorik ibarələr yox deyil. Ancaq şeirlərin aktuallığı başqa kəsirlərini nəzərə çarpdırmır. Qalan yeddi satira fəlsəfi məsələlərə həsr edilmişdir. İnsan arzularının mənasız olduğu, yemək və içməkdə etidal, xurafat, səmimi dostluğun yaratdığı sevinc və sairə kimi fəlsəfi və əxlaqi məsələlər həmin şeirlərin mövzusudur. On altıncı satira hərbi rütbə almağın üstünlüyündən bəhs edir. Əlbət ki, ilk doqquz satirada olan tənqidi kəskinlik, coşqun qəzəb bu şeirlərdə yoxdur.

Ən qüvvətli satirik şeirlərin qısa məzmunu göstərir ki, Yuvenal öz müasir cəmiyyətinin eybəcər hadisələrini necə təfsilatla əhatə etmişdir. Bu satiralar başlıca olaraq Klavdi, Heron, xüsusilə Domissianın imperatorluq illərində ağır böhran keçirən Roma cəmiyyətinin bu dövrdəki ümumi vəziyyətini əks etdirir. Xüsusilə, Domissianın obrazı şairi daha qəzəbləndirir, onun satirasını daha da kəskinləşdirir. Şair əsas etibarilə, ölülərdən danışsa da, diriləri də satira atəşinə tutmaqdan çəkinmir.

Satiraların kompozisiyası belədir ki, şair bir məsələdən başqa bir məsələyə keçir, ritorik ifadə üsulları ilə oxuculara təsir göstərməyə çalışır. Onun üslubu deklamasiya üslubudur. Fəlsəfi satiralarından məlum olur ki, Yuvenal fəlsəfi dərinliyə enə bilmir, çünki şairin fəlsəfi biliyi dayaz idi.

Yuvenalın satiraları I əsrdə və II əsrin birinci çərəyində Roma cəmiyyətinin öyrənmək üçün mühüm bədii sənədlərdir.

SATİRA

I (87-95). ROMADA KAPİTALIN HAKİMİYYƏTİ

De nə zaman çoxaldı bu qüsurlar, eyiblər,
Acgözlüyün girdabı dərin oldu bu qədər?
Nə vaxt şahlıq taxtına çıxdı, qəzəblə, hiddət?
Pulla dolu kisələr oyunda, ən nəhayət,
Tərk elədi yerini pul dolu sandıqlara.
– Bəli, lap axmaqlıqdır kölə üçün paltara
Bu pullardan xərcləmək?
Axı bil, onlar qədər
Saraylar yaratmamış hələ bizim nəsillər...

(95-101). KASIB MÜŞTƏRİLƏRİN ALÇALDILMIŞ VƏZİYYƏTİ

İndi isə kandarda pay qoyurlar bir qədər
Gəlib dağıtsın onu toqa geymiş kütlələr.
İlk baxışda baxırsan ona bir az qorxaraq,
Saxta adla bu paydan tələb eyləsən, ancaq
Tanışlıq ilə onu ala bilərsən... Həm də,
O carçıya əmr edir, Troya nəslini də
Çağırır qapısında ayaq döyüb desinlər:
"Bizə pretora ver, bizə bir tribun ver."

(120-126). PUL SƏDƏQƏSİ TOPLAMAQ ÜÇÜN ONLARIN ETDİYİ HİYLƏLƏR

Budur, əlində xərək bir dəstə adam yenə
Soxulurlar irəli hey deyinə-deyinə.
Öz ərinin ardınca gəzir bir-bir evləri,
Arıq, xəstə bir arvad yenə nə vaxtdan bəri.
Bu kişisə yeni bir üsul öyrənmiş, budur:
Arvadı olmasa da, özünü elə tutur
Ki, onun arvadı var, utanıb qızarmadan
O sədəqə toplayır... Arvad yerində bu an,
Kreslonu göstərir, "mənim Qallam" söyləyir.
"Tez yola sal... Yubanma! Sən gecikərsən. Yetər,
Çıxart başını Qalla. Narahat olma, keçər..."

***

Tribunlar gözləsin! Zəfər çalsın var-dövlət,
Yer üzündə həmişə sərvətdəki əzəmət,
Müqəddəs allahların əzmindən, vüqarından,
Dövlət daha müqəddəs olduğuyçun hər zaman
Şəhərdə üstün olsun qoy hər şeydən vəzifə,
Ey uğursuz kapital! Bir dön bizim tərəfə.
Sən sakini deyilsən əbədi məbədlərin.
Hələ yaratmamışdı bu torpağın, şəhərin
Üzərində, bil, sənin məbədini nəsillər
Sülh ilə Azadlığı, Zəfərlə Şücaəti,
Yer üzündə əbədi ucaltdığımız qədər...

III (21-48). YOXSUL, NAMUSLU ZƏHMƏTKEŞLƏRƏ ROMADA YAŞAMAQ MÜMKÜN DEYİLDİR. ŞAİR UMBRİTSİ ROMANI TƏRK ETDİYİNİ BELƏ ƏSASLANDIRIR

Romada mənim üçün qalmamış bir qarış yer,
Əməyimdən, işimdən görmədim burda bəhər.
Hətta mənim gəlirim azaldı gündən-günə,
Məndə ümid qalmamış inan sabahkı günə.
Öz halımı görüb pis, gəldim belə qərara,
Romadan baş götürüb qaçım mən uzaqlara.
Gedim, yoğun Dedalın[1] qanadı sınan yerə
Romada ömür sürmək qismətdir böyüklərə.
Qoy burada yaşasın Artoriy Katull ilə,
Qaranı ağ eyləyən burda gəlsinlər dilə.
Böyük-böyük şəhərlər, coşqun çaylar, məbədlər
İcarəyə götürən burada ömür eyləyər.
Taleyi cüzilikdən pillə-pillə yüksələn
Gülməyi-zarafatı arzu eyləyir nədən?
Nə eləyə bilərəm mən Romada görəsən?

[1] Dedal – Əfsanəvi rəssam və mexanikdir. Guya Krit adasında olan labiriti o təsis etmişdir. O, qanad düzəldərək onun üzərində oğlu İkar ilə Krit adasından qaçmışdır.

Yalan gəlməz dilimə...
Kitab tələb etməyi axı bacarmıram mən.
Kəsibdir könlümü qəm
Əgər kitab pisdirsə tərif edə bilmərəm...
Tanımaram ulduzun
Min bir hərəkətini, nə qədər baxsam göyə.
Ölüm vədi vermərəm dünyada ailəyə...
Mənim xəbərim yoxdur qurbağanın içindən,
Oynaşın məktubunu çatdıra bilmərəm mən...
Oğruya qoşulmaram; heç kim yoldaş deyildi,
Hamı bir şikəst əldi, bir yararsız bədəndi...

***

O yerdə sən yaşa... ki, bütün ömrün uzunu
Gecələr baş verməsin orda yanğın nə qorxu.
Əgər belə olmasa – evin yanar, sökülər,
Tüstü tutar aləmi, sən tutmazsan heç xəbər.
Əgər yanğın başlasa, lap aşağı pillədən,
Körpə göyərçinlərin sığındığı yuva da
Lap axırda yanacaq, kül olacaqdır odda...

***

Ölüb gedər xəstələr günəş üzü görmədən,
Sətəlcəmə tutulmuş insanlar mədəsindən...
De imkanın varmıdır
Kirayə ilə evdə sən yatasan hər gecə?
Paytaxtda pullu yalnız yata bilir sakitcə.
Burdadır ilk mənbəyi xəstəliyin, azarın.
Dar küçələrdəki, bax, sınıq arabaların
Səsindən və küyündən,
Bir də ki, çovdarların yağlı söyüşlərindən.
Druzun və Sutitin yuxusu qaçar bil sən.
Liburnslar üstündən
Əgər könlü istəsə dövlətli keçib gedər.
O daima xalqa qarşı belə hərəkət edər.
Otaqda o bir işlə mütləq məşğul olacaq,

İstəsə oxuyacaqdır, istəməsə yatacaq...
Bürüyəcək canını tək otaqda əsnəmək.
Necə olsa yenə də o məndən tez gələcək.
Tələsirəm bir qədər... xalqa nə söyləyim mən
İtələyir izdiham durmadan kürəyimdən.
Kimi dirsəklə vurur, kimi taxta, ağacla,
Kimi tiri döşəyir, kimi şərab qabıyla...
O palçıqlı ayaqlar məni ayaqlayırlar,
Barmağımı qanadır
Əsgər çəkməsindəki iti, kəsik mismarlar.

***

Gecə vaxtı sən indi bax başqa təhlükəyə:
Damlardan yuxarıda nə fəzadır? Gör niyə
Kirəmitdən beyninə zədə dəyib? Gör nədən,
Öyrən tez-tez tökülür açıq pəncərələrdən
İçəri qab parçası?
Bunlar ağır olurlar, neçə daşı deşirlər,
Daş üstə buraxır iz, hətta, belə bir qədər.
Getsəydin şam etməyə vəsiyyət etmədən sən,
Qayğısız, fəlakəti qabaqcadan görməyən
İnsan kimi olardın...
Pəncərənin önündə olan yazıqlar qədər
Burda, qədim şəhərdə vardır ruhsuz ölülər.

PUBLİ KORNELİ TASSİT

B.e. 55-120

İmperator Domissianın on beş illik istibdadından sonra Romada müvəqqəti olsa da, nəfəs almaq mümkün oldu. Onun hakimiyyəti illərində məddahlıq və əxlaqsız səhnələr, mövzular içərisində boğulan Roma ədəbiyyatı danışmağa imkan tapdı.

26-cı ildə Domissianın ölümündən sonra Roma ədəbiyyatı iki böyük şəxsiyyətlə fəxr edə bilərdi. Onlardan biri satirik Yuvenal, ikincisi isə tarixçi Tassit idi.

Tassit rəvayətə görə, Umbriyada, İnterman şəhərində anadan olmuşdur. Onun ailəsi varlı olmuş, elə buna görə də ona "patrisilər yaşayış qaydası və fikir tərzinə malik qədim romalı" adı verilmişdir. Tassit çox yaxşı təhsil almış, natiq və ritorika müəllimi olmuşdur. Dövrün görkəmli sərkərdəsi Yuli Aqrikol ilə qohumluğu onun bəzi yüksək vəzifələrdə olmasına imkan yaradır. O, konsul olur; Asiya əyalətlərinin canişini vəzifəsində işləyir. Saray zadəganları içərisində hörmət qazanır. Lakin Yuli Aqrikolun Domissian tərəfindən öldürülməsindən sonra, Tassit istefa verib öz evinə çəkilir və ədəbi yaradıcılıqla məşğul olur.

Tassit istibdadın barışmaz düşməni idi. Neron istibdadını bərpa edən Domissiana qarşı kini və qəzəbi də bundan irəli gəlirdi. Ona görə də Tassitin əsərlərində istibdad və azadlıq düşmənləri əsas tənqid hədəfidir.

Tassit ədəbi yaradıcılığına gənc yaşlarında başlamışdır. İlk əsəri olan "Natiqlər haqqında müsahibələr" bir çox Roma natiqlərinin real portretini verməklə bərabər, bədii nitqin böhran keçirməsi və onun səbəbləri haqqında dərin mühakimələrlə doludur. Bəziləri bədii nitqin böhranının səbəbini nitq sənətkarlığına lazımi qədər hazır olmayan gənclərin şəxsi istedad zəifliklərində görürlərsə, bəziləri bu məsələni ictimai-siyasi səbəblərlə bağlayırlar. Gənc müəllif bu söhbətləri dərinləşdirməkdən qorxaraq yarımçıq buraxmışdır.

Lakin, ikinci əsəri olan "Aqrikol"da müəllif daha mübariz, daha cəsarətli görünür. O, Avqustdan başlayaraq Domissiana qədər şəxsi azadlığın demokratik prinsiplərinin necə yavaş-yavaş yox olduğunu təsvir edərək, Aqrikol üzərində dayanır. Əsərdə qaynatası Aqrikolun siması cəsarətli və qəhrəman bir sərkərdə kimi yüksəlməklə bərabər, Roma cəmiyyətinin müasir məsələləri əsas mövzu olmuşdur. Əsərdən Domissianın istibdadi əleyhinə yüksələn həyəcanlı etirazlar ümumiləşərək, bütün dövrlərin müstəbid hakimlərinə qarşı mübarizə hissini aşılayır.

Üçüncü əsəri olan "Almaniya"da Tassit, alman tayfalarının obyektiv təsvirini vermiş ki, əsər, doğru olaraq, Almaniya tarixinin ən qədim mənbəyi hesab olunur. Bu əsərilə oxucu alman tayfalarının məişəti, etnoqrafiyası ilə tanış ola bilir. "Almaniya" əsəri tarix elmi üçün də böyük əhəmiyyətə malik mühüm bir mənbədir.

Lakin Tassiti ədəbiyyat tarixində məşhur edən bu əsərlər deyil. Onun adını əbədiləşdirən "Tarix" və "Salnamə" adı ilə məşhur olan iki tarixi əsərdir.

"Tarix" və "Salnamə" (Annallar) obyektiv və qərəzsiz bir tapixçinin tədqiqatından daha çox imperiyanın müstəbid idarə üsuluna qarşı həyəcanlı, acı və bədbinliklə dolu bir ittihamnamədir ki, bunlarla müəllif senat zadəganlığı mövqeyində duraraq öz qəzəbli atəşini açırdı.

Tassit, çox vaxt dramatik bir təsirlə hadisələri verir; bəzən də ictimai faciələri bədii bir şəkildə təsvir edirdi. Əsərlərin dili yığcam, lakin mənalıdır. Üslubu gözəl, istiarələri təsirlidir, bədii portretin ustasıdır. Əsərləri, psixoloji təhlilin dərinliyi, təsvirin və səciyyələrin gözəlliyi ilə fərqlənir. Bu cəhətdən onu Fukidid kimi böyük yunan tarixçisi ilə bir sıraya qoymaq olar. Onun yığcam, aydın üslubunu, qısa, yalnız fikir və hisslərlə dolu cümlələrini oxuduqca Tassitin əsərlərindəki əzəməti təsdiq etmək mümkün olur.

Tassit, xüsusi olaraq, Roma tarixçisi idi. Bu cəhətdən də o, səciyyəvidir. Onun əsas tədqiq və diqqət hədəfi Roma, Roma senatı və Roma xalqıdır. Bu çərçivədən Tassit xaricə çıxmır.

Tassit öz müasirləri tərəfindən qiymətləndirilmişdir. Xüsusilə, Plini ona öz məktublarının birində oxucunu vəcdə gətirən bir təsvir həsr etmişdir. Renesansçılar və maarifçilik hərəkatının qabaqcıl xadimləri Tassitin yaradıcılığından və tarixi əsərlərindəki mütərəqqi fikirlərdən sitayişlə bəhs edirlər. Onu, respublika quruluşunun ehtiraslı müdafiəçisi, "xalqların zalım hakimlərə qarşı intiqamçısı" adlandırmışlar. Burjua inqilabçı şairi Şene yazmışdır ki: "Tassitin adı zalimləri saralıb-solmağa məcbur edir".

Keçən əsrin ictimai xadimi və məşhur tarixçisi T. Qranovski Tassit haqqında yazır ki: "Tassit, əsərlərinin gözəlliyi və məzmununun zənginliyi ilə Şekspir kimi həzz verən dərin bir mütəfəkkirdir".

Bütün bunlar Tassitin Roma ictimai fikrinin inkişafı tarixində və ədəbi inkişafında tutduğu yüksək mövqeyi təsdiq edir.

YALANÇI ROMA İMPERATORU

SALNAMƏLƏR, II KİTAB, 39-40-cı FƏSİLLƏR

Əgər bir qulun ehtiramsız hərəkətinə vaxtında tədbir görülməsəydi, həmin ildəcə dövləti çaxnaşmaya salacaq və daxili müharibələrə səbəb olacaq idi. Aqrippi Postumun[1] Klement adlı bir qulu Avqustun vəfat etdiyini öyrənib, qula bənzəməyən bir görkəmdə Planziya adasına getmək – orada hiylə və ya güclə Aqrippini oğurlamaq və alman ordularına qaçırmaq fikrinə düşdü. Onun bu cəsur niyyətlərinə yük gəmisinin ahəstə gedişi mane oldu: eyni zamanda Aqrippi öldürüldüyünə görə o, daha müdhiş və daha təhlükəli niyyətlərə əl ataraq, onun cənazəsini oğurlayır və Erturi burnundakı Kozaya[2] gətirir, özü isə yaşı və görkəmi ilə ağasına çox oxşadığından, saçı-saqqalı uzanana kimi xəlvəti yerlərdə gizlənir. Elə bu vaxt onun yalnızlıq dövründə yoldaşlarından bu məqsəd üçün yararlı olan adamların vasitəsilə belə bir şayiə yayırlar ki, Aqrippi sağdır. Bütün qadağan olunmuş işlər kimi, əvvəllər bu barədə də gizli danışıqlar gedir; bir az keçəndən sonra naməlum bir istiqamətdən yayılan bu şayiə ən avam və ya səbirsizliklə çevriliş həsrətini çəkən adamlar arasında inam yaradır. Amma Klement özü də açıq görünməkdən və ya eyni yerlərdə həddindən artıq qalmaqdan çəkinir.

Yalnız qaş qaralan vaxtlarda xüsusi yerlərdə görünməyə başlayır, lakin həqiqət, tədric ilə, yalan isə, – sürətliliyi və qeyri-müəyyənliyi ilə qüvvətləndiyi kimi, o da öz haqqında yayılan şayiələrdən gah uzaqlaşır, gah da onları qabaqlayırdı.

Bu arada İtaliyada belə bir söhbət gedirdi ki, guya allahların sayəsində Aqrippi xilas edilmişdir; Romada buna inanırdılar. Artıq, camaatın böyük çoxluğu deyirdi ki, o Ositiyaya gəlmişdir, artıq Romada bu barədə gizli, böyük yığıncaqlarda danışırdılar; Tiberi isə özlüyündə həmin qulu hərbi qüvvə ilə cilovlanmağınmı, yoxsa bu boş dəmdəməkiliyin öz-özünə puç olub gedəcəyinə imkan verməyinmi lazım olduğunu qət edə bilmirdi. Həya ilə qorxu arasında tərəddüd edərək, o gah düşünürdü ki, heç bir şeyə etinasız yanaşmaq olmaz, gah da güman edirdi ki, hər şeydən qorxmaq lazım deyil. Nəhayət, o, bu işi Sallusti

[1] Avqustun qızı Yuliyanın ikinci əri – onun sərkərdələrindən biri

[2] Erturidə dəniz kənarında limanlı şəhər olmuşdur.

Krispə həvalə edir. Sallusti öz asılılığında olan adamlardan iki nəfərini seçir (bəziləri onların soldat olduqlarını xəbər verir) və onlara tapşırır ki, Klementin yanına gedərək özlərini sui-qəsddə əli olan adamlar kimi təqdim etsinlər, pul versinlər, sadiq qalacaqlarını və hər cürə təhlükəli işlərdə iştirak edəcəklərini vəd etsinlər. Onlar əmri olduğu kimi yerinə yetirirlər. Sonra onlar bir gecə Klementin ehtiyatsızlıq etdiyini görüb, özləri ilə kifayət qədər dəstə götürərək onun ayağını sarıdılar və ağzını bağlayaraq saraya gətirdilər.

Tiberinin "Sən hansı yolla Aqrippi oldun" – sualına, deyirlər o; "Sən Sezar olan kimi" – cavabını vermişdir. Onu – həmfikirlərini ələ verməyə heç cür məcbur edə bilmədilər. Tiberi onu camaat içərisində edam etməkdən çəkinərək sarayın tənha bir yerində öldürməyi və meyitini gizlicə çıxarıb atmağı əmr etdi. Hərçənd hökmdarın ailəsindən olan bir çox şəxslərin, eləcə də atlıların və senatorların Klementi vəsaitlə müdafiə etdiklərini və məsləhətlə ona kömək göstərdiklərini də deyirlər, lakin bu barədə heç bir şey məlum deyil.

TİBERİNİN XARAKTERİSTİKASI

VI KİTAB, 51-ci FƏSİL

Dünyaya gəlməsinin yetmiş səkkizinci ilində Tiberinin həyatı belə bitdi. Onun atası Neron idi, anasının əvvəl Livilər, sonra isə Yulilər familiyasına keçməsinə baxmayaraq, o, hər iki tərəfdən Klavidlər nəslindən idi. İlk uşaqlıq illərindən başlayaraq onun taleyi dəyişən olmuşdur. Çünki Tiberi[1] əvvəlcə, sürgünə gedən atasını müşayiət etmiş, sonra, bir ögey oğlu kimi Avqustun ailəsinə daxil olduqda isə, hələ nə qədər ki, Marsell[2] və Aqrippi, sonra isə Qay[3] və Lüssi[4] Sezarlar sağ idilər, bir çox rəqiblərlə mübarizə etməli olmuşdur. Onun qardaşı Druz[5] da vətəndaşların böyük məhəbbətini qazanmışdı. Lakin Yuliya[6] ilə evləndikdən sonra Tiberinin vəziyyəti daha etibarsız olmuşdur. Bu

[1] 14-37-ci illərdə Roma imperatoru

[2] Avqustun qızı Yulinin əri

[3] Aqrippin oğlu

[4] Aqrippin ikinci oğlu

[5] Druz – Avqustun Liviyadan olan oğlu vətəndaşların böyük məhəbbətini qazanmışdı.

[6] Avqustun qızı Yuliya üçüncü dəfə Tiberiyə ərə gedir.

vaxt o, ya arvadının əxlaqsızlığına dözməli, yaxud da ondan qaçıb uzaqlaşmalı idi. Bundan sonra o, Rodosdan geri dönərək ömrünün on iki ilini hökmdarın boş sarayında keçirdi, onun dalınca isə, təxminən iyirmi üç il Roma dövlətinin varisi olaraq, hakimiyyəti öz əlində saxladı. Onun əxlaqında cürbəcür dövrlər olmuşdur: qeyri-rəsmi bir adam olarkən, yaxud Avqustun yanında dövlətin idarə edilməsində iştirak edərkən onun həyatı və şöhrəti çox yaxşı idi.

O, lal-dilsiz və hiyləgər bir adam idi, nə qədər ki, Germanik və Druz sağ idi, özünü xeyirxah bir adam kimi göstərirdi, anasının sağlığında onun əxlaqi xeyirlə şər arasında tərəddüd edir, hələlik, Seyena məhəbbətindənmi, yaxud ondan qorxduğundanmı, öz ehtiraslarını gizlədir, öz rəhmsizliyilə nifrət oyadırdı, nəhayət o, birdəfəliyə qəddarlıq və biabırçılıqdan yapışdı, həya və qorxunu ataraq, yalnız öz təbii xasiyyətlərinə əməl etməyə başladı.

MESSALİNA[1]

XI KİTAB, 12-ci FƏSİL

Aqrippinaya[2] qayıtmadılar. Bu təəssüf isə Messalinanın rəhmsizliyi üzündən daha da artdı. Bu vaxta qədər Aqrippinaya qarşı həmişə zidd əhval-ruhiyyədə olan Messalina indi daha çox həyəcanlanmışdı. Aqrippinanın törətdiyi cinayətlərə dair əgər heç bir təqsirnamə quraşdırmır və onun əleyhinə ittihamçılardan istifadə etmirdisə, bu da səbəbsiz deyildi. Messalina dəlicəsinə vurulmuş, başı yeni sevgiyə qarışmışdı. O, Roma gənclərindən ən gözəl olan Siliyə elə qızğın bir ehtiras bəsləyirdi ki, nəticədə zadəgan qadın Yuniya Silana bu gənci qeyri-rəsmi nikahından qovaraq, artıq heç kəslə əlaqəsi olmayan bir oynaşa yiyələndi. Sili baş verə biləcək cinayət və təhlükələrdən xəbərdar olmamış deyildi. Lakin o, əgər bu məhəbbəti rədd etmiş olsaydı, özünün məhv olacağına heç bir şübhə qalmırdı; halbuki bu əlaqəni gizli saxlamaq üçün bəzi ümid yeri də var idi; həm də gözəl bir qadına yiyələnmiş olan Sili bununla təskinlik tapırdı ki, gələcək qarşıdadır, bu gün isə onun zövqünü oxşayır. Messalina isə onun evinə gizli deyil,

[1] İmperator Klavdinin üçüncü arvadı

[2] Kermanikin və Avqustun nəvəsi Aqrippinanın qızıdır Sonralar Klavdiyə ərə getmişdir Neronun anasıdır.

böyük bir məiyyətlə gələr, camaat arasında görünəndə də ondan əl çəkməz, onu öz zənginliyi ilə ehtirama qərq edərdi. Nəhayət, onun evində kölələr, azad edilmiş qullar, hökmdara məxsus cah-calal görən oynaşı sanki, artıq ali hakimiyyətə yiyələnmişdi.

XI KİTAB, 13-cü FƏSİL

Halbuki, özünün belə bir ailə vəziyyətindən xəbərsiz olub, senzorluq vəzifəsini ifa edən Klavdi, tələbkar fərmanlarla camaatın, onların teatrda törətdiyi özbaşınalığa, səhnə üçün pyeslər yazmış keçmiş konsul Publi Pomponinin təhqiredici bir surətdə söyülməsinə və qaba sözlərlə zadəgan qadınları təhqir etməsinə görə, məzəmmət edirdi.

Ailə sədaqətini pozmağın hələlik bu qədər yüngül olması Messalinanı təngə gətirmişdi. Onu, – bədbəxtliyə səbəb olan saymamazlıqdımı, yoxsa ən qorxulu vaxtlarda belə, həyatı hədələyən təhlükələrdən çıxmaq üçün yol tapacağını güman etdiyindənmi, Silinin özünün də artıq təhrik etməkdə olduğu, gizlədilməyən və təcrübədən keçirilməmiş bir şəfqət hissi şirnikdirdi. Sili deyirdi: "İşimizin vəziyyəti elə deyil ki, biz hökmdarın qocalmasını sona qədər gözləyək, kamallı olmaq məsul adamlar üçün zərərsizdir, açıq cinayət etmiş adamlar üçün isə qurtuluşu qaba hərəkətdə axtarmaq lazımdır; bizim elə bu cür təhlükədə olan müttəfiqlərimiz vardır. Mən subayam, uşaqsızam, səninlə evlənməyə və Britaniki[1] oğulluğa götürməyə hazıram. Əgər biz, tez qəzəblənən və ehtiyatsızlığından tez də tora düşən bir adamın Klavdinin qabağını ala bilsək, bu həm sənin qüdrətini özündə saxlar, həm də təhlükəsizliyimizi təmin etmiş olar".

Messalina bu sözləri, heç də ərinə məhəbbət bəslədiyindən deyil, qorxduğu üçün bir qədər həvəssiz qəbul etdi ki, Sili ali hakimiyyətə yiyələnərkən məşuqəsindən soyumasın və təhlükə içərisində birlikdə bəyənmiş olduqları bu cinayəti, ərə sədaqətsizlik kimi qiymətləndirib, yeri gələndən-gələnə onun başına qalmasın, halbuki hər şeyi atmış adamlar üçün ən son təminat olan rüsvayçılığın böyüklüyü üzündən ərarvadlıq adı onun çox xoşuna gəlirdi. Nəhayət, onun gözlədiyi vaxt gəlib çatdı. Klavdi Ostiyaya qurbankəsmə mərasiminə gedən kimi, o, bütün təntənəli qaydalara riayət edərək, toy məclisi qurdurub, bayram etdi.

[1] Messalinanın oğludur.

37-ci FƏSİL

Mən, hər şeyi bilib, heç şeyin üstündən keçməyən camaatın yaşadığı belə bir şəhərdə adi adamların bir qədər qayğısızlıq göstərmələrinə heç kəsin inanmayacağını bilirəm. Mən hələ, gələcəkdə konsul olacaq bir şəxsin, – əvvəlcədən təyin olunmuş bir gündə hakimin arvadı ilə kəbin kəsdirməyə razılıq verməsindən, nikah müqaviləsinin bağlanması mərasiminə dəvət edilmiş adamların gözü qabağında qadının kəbin dualarını dinləyib təkrar etməsindən, elə qonaqların yanındaca öpüşmələrindən, qucaqlaşmalarından və nəhayət gecəni bir ərarvad kimi sərbəst keçirmələrindən danışmıram. Amma burada oxucunu heyrətə salmaq məqsədilə uydurulmuş da heç bir şey yoxdur. Mən yalnız köhnə tarixçilərin eşitdiklərini və yazdıqlarını nəql edirəm.

38-ci FƏSİL

Hökmdarın evinə vəlvələ düşmüşdü; nüfuzlu şəxslər, çevrilişin özləri üçün fəlakətli olacağından qorxan adamlar daha çox dəhşətə gəlmişdilər.

Onlar artıq gizli söhbətlərdə deyil, lap açıq-açığına deyinir və deyirdilər ki, özünü təhlükəyə vuran bir adam hökmdarın yataq otağını təhqir etmişdir, – bu isə böyük bir rüsvayçılıq olsa da, hələ ölümdən uzaq idi, öz gözəlliyi ilə həmin görkəmli gənc oğlan, – öz ağlının və ələ keçirəcəyi konsulluğun gücü ilə, – indi daha geniş niyyətlərə səy edirdi: axı bu cür evlənmədən sonra nə etmək lazım gəldiyi sirr olaraq qala bilməzdi. Klavdini fərasətsiz və arvadına itaət edən bir adam zənn etmələri Messalinanın göstərişi ilə bir çox qətllərin törədilməsi, indi şübhəsiz ki, onları qorxudurdu, digər tərəfdən, imperatorun özünün tez təsir altına düşən bir adam olması, ümid verirdi ki, əgər cinayətkarlığın ecazkarlığı ilə onu yola gətirmək mümkün olarsa, onda Messalinanı mühakimə etməkdən qabaq məhkum etmək, – məhv etmək olar; vəzifənin çətinliyi orasında idi ki, gərək Messalinaya özünə bəraət qazandırmaq imkanı verilməyə, onun etiraflarının da – hətta belə – dinləməmək üçün Klavdinin qulaqları tutulmuş olaydı. Ən axır, Messalina öldürüldü.

KLAVDİNİN ÖLÜMÜ

XII KİTAB, 66, 67-ci FƏSİLLƏR

Artıq çoxdan cinayət törətməyi qət etmiş olan Aqrippina ələ düşmüş fürsətdən istifadə etməyə can atır, köməkçilərə ehtiyac hiss etmədən ölçüb-biçib elə zəhər işlətmək istəyirdi ki, bu zəhər qəfil və tez fəaliyyət göstərməklə cinayətkarı ələ verməsin; ləng və üzücü təsir göstərən zəhərin də başqa bir nəticəsindən qorxurdu, çünki belə olduqda ömrünün son dəqiqələrini keçirməkdə olan Klavdi bu kinli niyyəti başa düşüb, oğluna məhəbbət hissi ilə də hesablaşmazdı. Aqrippina ağılı çaşdıran və dərhal ölümə səbəb olmayan bir zəhər əldə etmək istəyirdi. Bu cür işlərdən başı çıxan və bir az əvvəl zəhərləmə üstündə mühakimə edilmiş Lokustaya müraciət edildi. Bu qadının istedadı sayəsində hazırlanmış olan zəhər Klavdinin yeyəcəyi xörəyə tökülmüş və xacə Qalot onu bilmədən Klavdiyə vermişdir. Hətta həmişə olduğu kimi, özü də bu xörəkdən dadmışdı.

67-ci FƏSİL

Bütün bunlar tezliklə hamıya məlum olmuşdu. O dövrün tarixçiləri xəbər verirlər ki, zəhər Klavdinin sevdiyi xörəyə – göbələyə səpilmişdi və bu tibb vasitəsinin gücü Klavdinin sarsaqlığı üzündənmi, yoxsa onun sərxoşluğu nəticəsindənmi, – o saat başa düşülməmişdi. Mədəsində əmələ gəlmiş təmizlənmə, görünür ona kömək etmişdi. Aqrippina vahiməyə düşdü və ən qorxulu nəticələrdən ehtiyat etmək lazım gəldiyindən o da, bu hərəkətin nə kimi bir nifrət oyada biləcəyinə əhəmiyyət verməyərək, həkim Ksenofonta müraciət etdi. Bu həkimin iştirakı isə əvvəlcədən təmin edilmişdi. Qusmağına kömək etməyə çalışırmış kimi Ksenofont onun boğazına tez fəaliyyət göstərən zəhər bulaşdırılmış bir lələk saldı, o, bilirdi ki, əgər cinayətlər təhlükə ilə başlanırsa, mükafatla da bitər.

68-ci FƏSİL

Eyni zamanda senat çağırılmışdı. Konsullar və kahinlər hökmdarın sağlığına and içirdilər: halbuki, o artıq ölmüş, meyiti hələ isti ikən üzü örtülmüş və Neronu imperiyanın başına gətirmək üçün lazım olan hazırlıq işi qurtarana qədər gizlədilmişdi.

NERONUN VƏ POPPEYANIN ROMANI

XIII KİTAB, 45, 46-cı FƏSİLLƏR

Bundan az təəccüblü olmayan başqa bir azğınlıq respublika üçün həmin il böyük bir fəlakətin başlanğıcı oldu. Romada Poppeya Sabina adlı füsunkar bir gözəl yaşayırdı. Onun atası Tit Olli idi. Lakin o, keçmiş konsul və təntənəli qələbələrlə adını bəzəmiş və məşhur bir adamın, – öz ana-babası Poppey Sabinin adını qəbul etmişdi. Bu qadının səmimi-qəlbdən başqa hər bir şeyi var idi. Öz dövründə gözəlliyi ilə bütün qadınlardan üstün olan anası ona şöhrətlə birlikdə gözəllik də vermişdi; bir qadın olaraq məşhurlaşmaq üçün onun lazımı qədər dövləti var idi. Onun danışığı, nəvazişi olduğu kimi, ağlı da zirəklikdən məhrum deyildi, özünü utancaq bir qadın kimi göstərməyə çalışır, eyni zamanda əxlaqsızlıq edirdi, ona yönəlmiş nəzərləri doydurmaq üçünmü, yoxsa ona belə olmaq daha yaxşı olduğundanmı, o, camaat arasında çox az görünür və onda da üzü yarı örtülü olardı. O, öz şöhrətini heç vaxt qorumaz, yaşlı adamlarla aşiqləri arasında heç bir fərq qoymaz, nə özünün, nə də özgəsinin məhəbbətinə tabe olmazdı: harada fayda gözlənilmədə idi, o da şəhvətini oraya çəkib apararDı. Beləliklə, o vaxtlar Roma atlılarında Rufi Krispində ərdə olarkən (ondan bir oğlu da olmuşdu) onu Oton adlı birisi, – həm öz gəncliyi və əyləncəsi ilə, həm də Neronun ən yaxın dostlarından hesab edilməsi ilə, yoldan çıxarmışdı. Bu xəyanətin dalınca da, heç yubanmadan, onlar kəbinlərini kəsdirmişdilər.

46-cı FƏSİL

Oton məhəbbətə həddindən artıq aludə olmasından əmələ gələn ehtiyatsızlığındanmı, yoxsa, dilbər bir qadından hər ikisi istifadə etməklə, aralarında yeni bir əlaqə yaratmaq və beləliklə öz nüfuzunu artırmaq məqsədiləmi, arvadının gözəlliyini və zərifliyini hökmdarın qarşısında hey tərifləyirdi. Sezarın stolu arxasından qalxarkən o, özünə həm nəcibliyi, həm də gözəlliyi, bir sözlə insanların arzu etdiyi hər şeyi olan, bəxtəvər adamları vəcdə gətirən bir qadın qismət olduğunu, indi də onun yanına getməkdə olduğunu söylədiyini ondan tez-tez eşidirdilər. Belə və buna bənzər meydan oxuyan sözlərdən sonra Neron çox

tərəddüd etmədi. Saraya yol açmış Poppeya da birinci dəfə özünün mehriban danışığını və özünü bəyəndirmək fərasətini işə saldı, özünü elə göstərməyə başladı ki, sanki o, Neronun gözəlliyinə məftun olduğundan ehtiraslarına qarşı çıxmaq gücündə deyil. Sonra, hökmdarın məhəbbəti yandırıcı bir vəziyyət aldıqda o, özünü sarsılmaz bir qadın kimi göstərməyə çalışırdı; hökmdar onu bir-iki gecədən artıq öz yanında saxladıqda isə o, yerli qadın olmasından, heç kəsdə görə bilməyəcəyi bir yaşayış qaydası ilə Otona bağlandığından və bu səbəbdən ailəsini ata bilməyəcəyindən danışırdı. O, deyirdi ki, Oton həm səmimi, həm də həyat tərzi ilə gözəldir, onda ali vəziyyətə layiq hər şey var. Kəniz məşuqəyə bağlanan Akteyə öyrəşən Neron isə kölə qadınla aşnalığından iyrənc hərəkət və biabırçılıqdan başqa heç bir şey qazanmamışdı. Bundan sonra, Neronla adi dostluq münasibətlərindən kənar edilən Oton, – imperatorun məiyyətində olmaqdan və onunla görüşməkdən də məhrum edilir, nəhayət Romada rəqib rolu oynamaması üçün o, Luzitaniya[1] əyalətini idarə etməyə göndərilir.

[1] Luzitaniya- Portegiz

APULEY

Tarixdən məlum olduğu üzrə, imperator Adrianın (117-138) hakimiyyəti zamanlarından etibarən Romada ucqar əyalətlər və mahallar yüksəlir, İtaliyanın isə əhəmiyyəti azalır. Bunun nəticəsi olaraq Roma ədəbiyyatında bir yoxsullaşma əmələ gəlir. Bu zamandan sonra ədəbiyyatın mahallarda inkişafa başladığını görürük. Belə bir inkişaf Roma imperatorluğunun ellinizm dünyası ilə əlaqədar olan Afrikada da özünü göstərir. Eramızın II əsrində Apuley kimi orijinal və maraqlı bir yazıçı yetişmişdir.

Apuley təxminən 124-cü ildə, o zaman Romanın Afrikadakı müstəmləkəsi Madavrda anadan olmuşdur. Varlı bir ailədəndir.

Apuley Karfagendə natiqlik, Afinada isə fəlsəfə təhsili almış, Yunanıstana səyahət etmişdir.

Apuley yazıçı olmaqdan başqa natiq və filosof imiş. Fəlsəfi görüşcə sofist olan Apuley, okkulizmə də gedib çıxmışdır. O, Romada bir ara vəkilliklə məşğul olaraq, eyni zamanda latın yazıçılarının əsərlərini mükəmməl öyrənir. Sonra dönüb bir sofist kimi yaşayır.

Apuley özündən yaşca böyük olan varlı, dul bir qadınla evlənmiş idi. Qadının bu evlənmədən narazı qalan qohumları Apuleyin ona sehr vasitəsilə sahib olduğunu irəli sürərək onu taqsırlandırırlar. Nəticədə Apuley Afrika valisinin qarşısında cavab verməli olur. Bu zaman özünü müdafiə məqsədilə parlaq bir nitq söyləyir. Həmin nitq "Apologiya" adı ilə məlumdur.

Vali qarşısındakı mühakimə Apuleyin bəraət qazanması ilə bitir. Bundan sonra Apuley şimali Afrikanın mərkəzi şəhəri olan Karfagendə yaşayıb, bir natiq kimi böyük şöhrət qazanmış və sağlığında onun üçün heykəl qoyulmuşdur.

Apuley əsərlərini latın və yunan dillərində yazmışdır. Ancaq yunanca yazdığı əsərlər tamamilə itmişdir. Latın dilində qalan əsərləri: "Gülşən", "Apologiya" və "Metamorfozlar" (və ya "Qızıl eşşək") adlı romandan ibarətdir.

Apuley yaradıcılığı çox rəngarəng olmuşdur. O, nitqlər tərtib edib, fəlsəfi və təbii-elmi traktatlar yaratmış və müxtəlif janrlarda əsərlər yazmışdır.

"Gülşən" adlı əsər cürbəcür mövzular ətrafında yazılmış sofistik deklomasiyalardan ibarətdir ki, Apuleyə aid olması şübhəlidir. Təxminə görə, əsər onun tələbələri tərəfindən yazılmışdır. "Apologiya" Apuleyin məhkəmədə özünü müdafiə məqsədilə söylədiy nitqdir, ancaq sonra Apuley bunu işləyib genişləndirmişdir. Bu nitq Apuleyin vəkillik və natiqlik istedadını aydın göstərir. Bundan başqa, nitqin müəyyən mədəni-tarixi əhəmiyyəti də vardır. Bu əsərdə qədim dini görüşlərlə, şüurlarda hakim olan xurafatla tanış olmaq mümkündür.

Apuleyi dünyada tanıdan onun "Metamarfozlar" ("İstihalələr") romanı olmuşdur. Romanın qısaca məzmunu bundan ibarətdir:

Gənc bir yunanlı olan Luki (və ya Lüssi) Yunanıstanda sehrbazlıq diyarı kimi şöhrət tapmış Fassaliya gedib çıxır və tanışlardan Milonun evinə düşür. Ev yiyəsinin arvadı Tamfila sehrbazlıqda tanınmış bir qadın idi. Lüssi sehrbazlıq sənətinin sirrini öyrənməyə can atdığından xanımın qulluqçusu Fotida ilə əlaqəyə girir. Qulluqçu qız öz xanımının peşəsindən az-çox baş çıxarırdı. Ancaq qız səhv edərək verdiyi bir tozla Lüssini quş əvəzinə eşşəyə döndərir. Bununla belə Lüssi öz insan idrakını itirmir, həta bu bəladan qurtarmağın çarəsini də bilir və bunu unutmur. Həmin çarə isə qızılgülü çeynəyib yeməkdən ibarət idi.

Lüssinin yenidən insana çevrilməsi uzun zaman başa gələ bilmir. "Eşşəyi" həmin gecə quldurlar oğurlayıb aparırlar. Bu zamandan sonra Lüssi eşşək sifətində müxtəlif macəralardan çıxır, əldən-ələ düşür. Dəfələrlə döyülür və ölüm təhlükəsi qarşısında durur. Bütün bunlar romanın ilk on hissəsinin məzmununu təşkil edir. Ən nəhayət, Lüssi buxovlanmış olduğu bağdan dəniz sahilinə qaçmağa müvəffəq olur. Romanın son hissəsi olan 11-ci kitabda Lüssinin ilahə İzidaya müraciəti verilmişdir. İzida onun yuxusuna girib, kömək vəd edir, ancaq şərti bu olur ki, Lüssi bundan sonra ona xidmət etsin. Ertəsi gün eşşək ilahə İzidanı öz məiyyətilə gələn görür. İzidanı müşaiyət edən kahinin başındakı çələngdən bir qızılgül qoparıb yeyir və beləliklə, dönüb yenidən insan olur. İnsan şəkli almış Lüssi indi roman müəllifinin, yəni Apuleyin simasını kəsb edir: məlum olur ki, o, Madavrda anadan olmuşdur. Sonra Lüssi İzidanın sirlərinə vaqif olur və ilahi bir təlqin nəticəsində Romaya gedib, orada bildiklərini daha da dərinləşdirir.

İnsanın sehr vasitəsilə heyvana çevrilməsi, sonra isə yenidən dönüb insan olması haqqında müxtəlif xalqların ədəbiyyatında bir çox variantlar vardır. Rus folklorunda da belə bir motiv "Dobrın və Marinka" dastanında verilmişdir. Apuleyə qədər bu motiv antik ədəbiyyatda vardı, buna görə onun romanda verdiyi məzmunun yalnız son 11-ci kitabdakı hissəsi onun özünün hesab olunur.

Əsərin müqəddiməsində Apuley öz romanını "Yunan hekayəsi" adlandırmışdır. Doğrudan da, "İsitihalə" romanı Lukian adlı yunan yazıçısına isnad olunan "Luki və ya eşşək haqqında" adlı əsərin yenidən işlənmiş şəklidir. Bu iki əsər arasında bir çox müştərək cəhətlər vardır, bəzi yerlərdə isə Apuley ifadələri və təsvirindəki dil tamamilə Lukianınkinə uyğun gəlir.

Hadisələrin nağıl olunması da hər iki əsərdə eyni yolla gedir: romanın qəhrəmanı Lüssi tərəfindən nağıl olunur. Amma bu müştərək cəhətlərlə birlikdə həmin əsərlər arasında əsaslı fərqlər də vardır. Bu da hər şeydən əvvəl "İstihalə" romanında sujetin daha geniş olmasından, sujet xəttiylə doğrudan-

doğruya əlaqəsi olmayan bir sıra novellaların əsərə əlavə edilməsindən, ən nəhayət, sonluğun tamamilə başqa şəkildə verilməsindən ibarətdir.

Apuley oxucuları həm əyləndirmək, həm də onlara əxlaq dərsi vermək istəmişdir. Əsərin məfkurəsi son hissədə, müelliflə romanın qəhrəmanı arasındakı fərqlər silindiyi zaman meydana çıxır. Sujet alleqorik bir mahiyyət alır və burada əxlaqi cəhət dini təlimatla əlaqələndirilir.

İzidanın kahini Lüssiyə söyləyir ki, sənin eşşək şəklinə düşərək belə ağır bir cəzaya uğramağın zövq ilə kef düşkünü olmağının, bir də yersiz təcəssüskarlığının nəticəsidir. Beləliklə, Apuley göstərir ki, duyğularımı "kor tale" qulu olur, başına fəlakətlər gəlir. Buna görə də, Lüssi insan şəklində düşüb, dinə, ilahə İzidaya xidmət etməyə başladığından sonra, həyatı allahların iradəsilə müntəzəm və macərasız keçməyə başlayır, özü də rütbəyə çatır. Deməli, əsərdən çıxan nəticə budur ki, insan allahlara, dinə xidmətlə bəxtiyar olur. Əsərin bu dini-fəlsəfi məfkurəsilə bərabər müəllif romanında satirik məqsədlər də izləmişdir. Qəhrəmanı eşşək maskası taxması ona əxlaq və adətləri təsvir etmək üçün imkan vermişdir. Lüssi deyir ki, insanlar məndən çəkinməyərək, sərbəst surətdə danışır və istədiklərini edirdilər.

Roman mahalda yaşayan cəmiyyətin müxtəlif təbəqələrinin həyatında adi bir çox cizgiləri də əks etdirir. Qeyd etmək lazımdır ki, Apuley yalnız gülməli məişət hadisələrini verməklə kifayətlənmir. Qulların ağır surətdə istismar olunmalarını, kiçik torpaq sahiblərinin ağır vəziyyətlərini, hakim dairələrinin özbaşınalığını da təsvir edir ki, bu cəhət romanın qiymətli keyfiyyətlərindən biridir. Romanda din və teatra aid təsvirlərin böyük mədəni-tarixi əhəmiyyəti vardır.

Romanda diqqəti cəlb edən cəhətlərdən biri də onda müstəqil novellaların verilməsidir. Bunlardan ən maraqlısı "Amur və Psixeya"dır. Bu hekayə romanın iki hissəsini təşkil edir. Bu hekayəni qaçırılmış qızın qoca qulluqçusu qıza söyləyərək, quldurlar əlində əsir ikən onu ovundurmağa çalışır. Bu hekayədə göstərilir ki, sirli bir varlıya ərə verilmiş olan Psixeya əri Amurun şərtini pozaraq onun üzünü görməyə çalışır. Buna görə Amur onu atıb gedir. Psixeya gecə-gündüz ağlayıb fəryad edir. Yupiter bundan xəbər tutduqda qıza acıyır. Onun iradəsilə Amur yenidən arvadı ilə yaşamağa başlayır.

Qeyd etmək lazımdır ki, bunu müstəqil novellanın alleqorik məzmunu romanın əsas ideyası ilə bir ahəng təşkil edir və hətta onu bir daha təsdiq edir. Burada Psixeyanın uğradığı fəlakət, Lüssidə olduğu kimi, yersiz təcəssüskarlığı nəticəsi kimi verilmişdir. Digər tərəfdən, Psixeya da Lüssi kimi allahların işə qarışması sayəsində bədbəxtlikdən xilas olur.

Əsərin üslubu olduqca müəyyən, təzadlar, istiarələr, təkrirlərlə yüklüdür. Bu üsluba "afrikan latını" adı verilir ki, Apuley də həmin uslubun ən görkəmli nümayəndəsidir.

QIZIL EŞŞƏK

"İSTİHALƏ"

Əsərin qəhrəmanı Lüssi birinci kitabın əvvəlində oxucuları öz həyatının bəzi faktları və romanın mahiyyəti ilə tanış edir.

BİRİNCİ KİTAB

I. Milet adasında cürbəcür uydurmalar qoşub, xoşa gələn kəkələmələr ilə sənin qulaqlarını oxşamaq istəyirəm. Əgər sən Misir papirusuna baxmaqdan nifrətlə çəkinmirsənsə, Nil qamışının ucu ilə yazılmış taleyin və insan bədəni formalarının istihaləsinə və yenidən öz əvvəlki halına qayıtmasına təəccüb etmə. Müxtəsəri, mən öz haqqımda deyim:

Attika Kimetti, Efirey Bərzəxi, Sparta Tenerası kimi gözəl yerlər (daha xoşbəxt kitablarda bunların ölməz şöhrəti haqda az yazılmamışdır) mənim qədim beşiyim olmuşdur. Bu yerlər mənə Attika ləhcəsini bəxş eylədi, tezliklə Lassiumun paytaxtına gəldim. Roma tərbiyəsi almaq üçün böyük çətinliklə müəllimsiz buranın dilini öyrəndim. Ona görə də sizdən xahiş edirəm: mənim qaba, kobud, nağılımda əcnəbi sözlərə və sadə xalq arasında işlənən ifadələrə təsadüf etsəniz inciməyiniz. Amma bu xəlitənin özü baş verəcək istihalələrə uyğundur. Bu yunan təmsilini danışmağa başlayırıq. Oxucu, qulaq as, razı qalarsan.

Lüssi dövlətli ailəyə mənsub bir gəncdir. O, Hipata şəhərinə ticarətə gedərək, burada qoca Milonun evində qalır. Milonun arvadı Pamfila sehrbazdır. Lüssi qarabaş Fotidayla eşqbazlıq eyləyir ki, onun köməyilə Milonun arvadının sehrləri ilə tanış olsun.

21. O qədər də belə şirin gecələr keçirməmişdik ki, gözəl bir gündə Fotida töyşüyə-töyşüyə yanıma yüyürüb dedi ki, onun xanımı bütün sehrlərin sevgi işində gücsüz olduğunu görüb, nəhayət bu gecə quş olub öz sevgilisinin yanına uçacaq, deməli belə bir nadir halı müşahidə etmək üçün lazımınca hazırlaşmalıyam. Doğrudan da mən birinci gecənin keşiyində ikən, o, məni ahəstə-ahəstə damdakı guşəyə gətirib tapşırdı ki, qapının deşiyindən baxım görüm nə hadisə baş verir. Mən

diqqətlə baxdım: Pamfila əvvəlcə tamamilə soyundu və bir qutunu açıb oradan çoxlu qutucuqlar çıxardıb, onlardan birinin qapağını açdı, içərisindən ətirli maz çıxardıb, uzun-uzadı əllərinə sürtdü, sonra bütün bədənini yağladı və başını çırağın üzərinə tutaraq uzun müddət pıçıldadı. Birdən o, bərk titrədi: bu zaman bədənini incə quş tülü örtdü, burnu quş dimdiyinə çevrildi, möhkəm qanadlar çıxır, əyri dırnaqları əmələ gəlirdi, Pamfila bayquşa çevrilərək, iniltili bir fəryad qoparıb havaya qalxdı, qanadlarını geniş açıb evdən uçdu.

22. Amma öz istəyi və tilsiminin qüdrəti ilə onun surətinin dəyişməsinə, təəccüblə donub qaldım və özümü itirdim. Axı, mən hələ şəhrin nə olduğunu bilmirdim. Az qala bayılıb özümdən gedəm, ağlımı itirəcək dərəcəsinə gəldim. Düşünürdüm ki, bəlkə yuxu görürəm, odur ki, uzun müddət gözlərimi sildim, nəhayət özümə gəldim. Bu vaxt Fotidanın əlindən yapışaraq özümə tərəf çəkdim və onun düz gözlərinin içinə baxıb dedim: "Gəl, fürsəti fövtə verməyək, əgər məni məhəbbətin müstəsna dərəcəsi ilə sevirsənsə, səndən xahiş edirəm ki, o yağdan mənə bir az verəsən. Mənim şəkərim! Səni and verirəm məmələrinə. Qərəzsiz xeyirxahlıqla məni özünə daha sıx bağla və elə et ki, mən öz Veneramın yanında qanadlı Kupidon kimi təcəssüm edim".

Fotida gülərək:

– Buna bax a, – dedi, – mənim sevgilim necə də kələkbazdır, istəyir ki, mən öz bədbəxtliyimə səbəb olum: bəs mən sənin kimi köməksizi Fessaliya qızlarından necə qoruyaram: quş olsan səni haradan taparam? Ancaq adın qalar.

23. Allahlar məni belə kinayədən hifz etsinlər, dedim. – Mən qartal olsam da, ulu Yupiterin sınaqdan çıxmış qasidi kimi yüksəklərə uçub bütün asimanı gəzsəm də, yenə də öz yuvama qayıdaram. Ağlımı başımdan çıxaran o şəkərli saçlarına and içirəm ki, cahanda heç kəsi Fotidadan üstün tutmuram. Əgər mən mazdan bədənimə sürtüb quşa çevrilsəm, yaşayış binalarından uzaqlara uçacağam. Bunun nə qorxusu vardır? Matronalar bayquş kimi gözəl və şən sevgilidən nə mənfəət görərlər? Biz görmüşük ki, hərgah bu gecə quşları birinin evinə uçsa, o vaxt dərhal onları tutub qapıya mıxlayarlar ki, bəd xəbər gətirən uçuşları əvəzində işgəncələr içində məhv olsunlar. Amma mən bir şeyi unutdum, necə etmək lazımdır ki, quş tüklərindən azad olub, yenə özümə çevrilim, – Lüssi olum.

Fotida:

– Bu barədə darıxma, – dedi, – heyvan cildindən insan cildinə çevrilməyi bütün təfsilatı ilə xanım mənə başa salmışdır. Elə bilmə ki, onun bu hərəkəti mənə bəslədiyi xüsusi bir hörmətdən irəli gəlir, xeyir, o, istəyir ki, evə qayıdanda ona lazımi köməyi edə bilim. Müxtəsər gör nə sadə vasitələrlə bu cür mühüm iş düzəlir. Bir qədər şüyüdün və lavr ağacı yarpağının suda məhlulu lazımdır; məhluldan həm yuyunmaq üçün, həm də içmək üçün istifadə edilir. Vəssalam. O zaman quş xanım, dönüb insan xanım olacaq.

24. Bu tapşırığı bir neçə dəfə təkrar edəndən sonra o, titrədi, otağa yüyürüb qutudan balaca bir yeşik çıxardı. Yeşiyi əlinə alıb öpdü və mənə uğurlu uçuşlar diləməmişdən əvvəl, mən soyundum, mazdan bir az götürüb bədənimin bütün üzvlərinə sürtdüm. Mən növbə ilə əllərimi yellədim, müvazinətimi itirməməyə çalışdım, quş hərəkətini təqlid etməyə başladım, lakin bircə dənə də quş tükü əmələ gəlmədi, əksinə öz tüklərim qalınlaşdı, incə dərim qabalaşıb, xəz dərisinə çatdı, ayaq barmaqlarım birləşdi, yavaş-yavaş belimin axırında bir quyruq böyüdü, indi üzüm də eybəcərcəsinə böyümüşdü. Ağzım qulağımadək uzanmışdı. Burnumun dəlikləri geniş açılmış, dodaqlarım sallaq bir hala düşmüş, qulaqlarım uzanıb tüklə örtülmüşdü. Elə bu dözülməz vəziyyətdə özümə baxırdım: bir də gördüm ki, quş deyil, eşşəyəm.

Fotidaya şikayət etmək istəyirəm, ancaq bacarmıram, artıq insan kimi hərəkət etməyə və danışmağa qadir deyiləm; bircə bacardığım budur: alt dodağımı uzadıb, gözlərim yaşlı halda, lal-məhbut onu çağırıram. O, isə məni bu vəziyyətdə görcək elə şivən qopardı ki, gəl görəsən, əllərini yanına çırparaq çığırdı:

"Vay mən bədbəxtin halına: quşların oxşarlığına aldanıb, tələsdiyim üçün çaşmışam; yaxşıdır ki, bu istihalənin əleyhinə əl altında bir vasitə var: darıxma, qızıl güldən çeynəsən, dərhal eşşəklikdən xilas olub, yenə mənim əvvəlki Lüssimə çevrilərsən. Axı niyə mən axşamdan bir neçə budaq saxlamadım ki, dərhal dərdinə bir çarə edəydim, daha sən bir gecə də gözləməyəydin. Eybi yoxdur, dan sökülən kimi dərmanı gətirərəm".

26. Beləliklə, o qəm içində idi, mən isə həqiqi eşşəyə və yük heyvanına çevrilməyimə baxmayaraq, yenə də insan ağlını itirməmişdim.

Müxtəsər çox fikirləşdim: düşündüm ki, bu yaramaz və ən cani qadını möhkəm dırnaqlarımla əzim, ya əzməyim, onu ölümünədək çey-

nəyim, ya çeynəməyim. Lakin bu cəsarətli fikirdən məni bir ağıllı mülahizə daşındırdı: Fotidanı məhv etməklə mən öz xilaskarımı məhv etmiş olaram. Odur ki, başımı aşağı salıb səsimi çıxarmadım, bu haqsızlığa dözərək bədbəxtliyimə itaət etməyi qərara aldım və atımın yanına tövləyə getdim.

Burada ev sahibi Milona məxsus başqa bir eşşək də var idi. Mən elə bilirdim ki, əgər heyvanlar arasında bir cür gizli təbii namus borcları varsa, o vaxt atım məni tanıyar, tanışlığa qiymət qoyub mənə yazığı gələr və qonaqpərəstlik göstərib ən yaxşı yeri mənə verər. Amma nə gördüm? O, qəribə qonaqpərəst, vədlərinə sadiq qalan Yupiter məni gözəl atım eşşəklə məni öldürmək üçün razılığa gəlib, öz yemlərinin qeydinə qaldılar və mənim axura yaxınlaşdığımı görcək, qulaqlarını qəzəblə dartıb, təpiyi mənə tərəf çevirdilər və məni şıllaqlamağa başladılar. Mən, dünən ən sadiq olan atıma öz əlimlə tökdüyüm arpadan uzaqlaşmalı oldum.

27. Nə etmək olardı. Təpiklənib qovulan mən yazıq tövlənin bir küncünə çəkildim, yoldaşlarımın həyasızlığı və sabahısı günü qızıl güllərin köməyi ilə yenidən Lüssiyə çevrilib vəfasız atımdan intiqam alacağımı düşünürdüm ki, birdən tövlənin tavanını saxlayan direyin ortasında qoyulmuş və qızıl güllərlə qayğı ilə bəzədilmiş ilahə Epolanın şəklini gördüm. Ürəyim sevinclə doldu. Xilas olmağa çarə tapıb, ümiddən ruhlandım, qabaq ayaqlarımı yerə direyərək dal ayaqlarımla qalxdım, başımı qaldırıb dodaqlarımı uzatdım ki, qızıl gül budaqlarını əldə edə bilim. Lakin bədbəxtlikdən ata baxmağa gələn qulluqçu birdən bunu görüb üstümə qəzəblə çığırdı: "Bu qoturun hərəkətlərinə çoxmu dözəcəyik: bundan qabaq heyvanların yemini əllərindən alırdı, indi isə allahların şəkillərinə şıllaq atır, sənə elə divan tutum ki, ömrün boyu axsayasan. – O, əlinə bir dəstə çubuq alıb, onlardan ən böyüyü ilə məni döyməyə başladı, əgər bayırda bərk hay-küy düşməsə idi, qapını döyməyə başlamasaydılar, həyəcanla çığırmasaydılar ki, yaxında qaçaqlar görünüb və qulluqçu qorxusundan qoyub qaçmasa idi, mən hələ çox döyüləcəkdim.

28. Bir dəqiqə keçməmişdi ki, quldurlar qapını sındırıb içəri girdilər. Binalar bir anda müxtəlif tərəfdən köməyə gələnlərə müqavimət göstərən silahlı dəstələrlə əhatə olundu: hamının əlində qılınc və məşəl var idi; silahlar yenicə çıxan günəş kimi parıldayırdılar. Onlar möhkəm qapanmış Milonun xəzinəsini əvəz edən anbarı balta zərbəsilə açdılar: Bütün var-yoxu ayrı-ayrı bağlamalarda toplayıb böldülər. Bununla məsələ bitmədi: yükün miqdarı daşıyanların miqdarından çox idi. Əlacsız qaldıqları üçün onlar bizi də, iki eşşəyi və mənim atımı tövlədən çıxarıb, olduqca çox və ən ağır kisələri bizə yüklədilər. Bütün evi təmizlədikdən sonra bizi kötək gücünə qovdular. Öz adamlarından birini cinayətin nəticələrini bilmək üçün orada qoyub, bizi cəld ağac zərbləri ilə keçilməz yollardan dağlara tərəf qovdular.

29. Yükün ağırlığından və yuxarı qalxan yolun uzunluğundan mən az qalmışdı ki, öləm. Bu vaxt, gec də olsa, imperatorun hörmətli adını çəkərək bu işgəncələrdən azad olmağı qət etdim. Bazar günü idi, çoxlu adamla dolmuş bir kəndin yanından keçərkən mən öz doğma yunan dilimdə Sezarın ilahi adından kömək diləmək istədim. Lakin elə bərkdən və aydın şəkildə "O" çığırdım ki, Sezar adının başqa hərfini tələffüz edə bilmədim.

Mənim vəhşi qışqırığımın mənasını başa düşməyən qaçaqlar məni o qədər döydülər ki, bütün dərim dəlik-dəlik oldu. Buna baxmayaraq, Yupiter özü mənim imdadıma çatdı. Bir çox kəndləri ötüb, bir malikanənin yanından keçərkən içərisində başqa gözəl bitkilərlə birlikdə qızıl gülün qönçələnmiş və şehli kolu olan yaraşıqlı bir bağça gözümə dəydi. Nicat eşqi ilə ruhlanaraq ağzımı açıb kollara yaxınlaşdım; dodaqlarımı tərpədərək boynumu yenicə kola uzatmışdım ki, hansı bir ağıllı fikirsə məni saxladı. Əgər mən eşşəklikdən dönüb, Lüssiyə çevrilsəm, qaçaqlar məni sehrbaz sayacaqlar və yaxud onları satacağımdan qorxub məni öldürə bilərlər.

Deməli, hələlik qızıl güllərdən yeməkdən çəkinməyə məcbur oldum. Bunu başa düşdüyüm üçün qızıl güllərdən deyil, eşşək sifətilə yaşıl otlardan yedim.

Lüssi eşşəyin quldurların içinə düşdüyü vaxtdan bir neçə gün sonra quldurlar öz toyundan bir gün qabaq oğurlanmış, nadir gözəlliyə malik olan bir qız gətirdilər. Qız əllərini ova-ova ağlayır və qoca kəniz darıxmasın deyə, ona bir nağıl danışır; ola bilsin ki, bu nağılı Apuley yunan folklorundan almışdır.

DÖRDÜNCÜ KİTAB

28. Biri var idi, biri yox idi; çar ilə çariçə var idi. Onların üç gözəl qızı var idi. Böyük qızların gözəlliyini tərifləməyə söz tapılardı, amma kiçik qız elə nadir gözəlliyə malik idi ki, onu insan dilində tərif etməyə

söz tapılmazdı. Buna görə də, bu gözəllikdən valeh olan o ölkənin adamları heyrətdən açıq qalan ağızlarını sağ əllərilə örtüb, şəhadət barmaqlarını baş barmaqlarının üstünə qoyurdular, guya ki, Veneranın özünə ibadət edirdilər. Yaxın şəhərlərə və sərhəd vilayətlərə o saat səs yayıldı ki, dənizin mavi dərinliyindən və köpüklü dalğalardan yaranmış ilahə[1], xüsusi ilahi xeyirxahlığının əlaməti olaraq adi insanlar arasında gəzişir və yaxud torpaq səyyarələr toxumundan yalnız dənizi yox, qızlığın gülünü bəxş almış yeni Veneranı yaratmışdır.

29. Bu fikir gündən-günə möhkəmlənir və yaxın adalara, qitəyə, bir çox əyalətlərə yayılırdı. Adamların çoxu da yolun uzunluğuna, dənizin dərinliyinə baxmayaraq, zamanın bu məşhur möcüzəsini görməyə gəlirdilər. Nə Pafosa, nə Knidə, nə də Kiferanın[2] özünə Veneranı görmək üçün heç kəs getmirdi. Nəzir daha az gətirilirdi, məbədlər boşalıb ibadətlərə etina edilmirdi; budaqlarla bəzənmiş ilahələrin şəkilləri və mənbərlər tozla örtülürdü. Qıza pərəstiş edib, onu, adi insan olduğuna baxmayaraq, ilahə sayırlar; səhərlər qız bayıra çıxanda Veneranın əvəzinə ona bəxşişlər və qurbanlar verirdilər. O, meydanlardan keçəndə isə, onun yolunu güllər və çiçəklərlə doldururdular. Allahlara edilməli hörmətlərin bu qıza həddindən artıq olması əsl Veneranı hiddətlə alovlandırırdı və o, başını əsəbiliklə silkələyərək öz-özünə söylədi:

30. "Bütün əşyaların qocaman anası kimi, təbii qüvvələrin əvvəlinci mənşəyi kimi, bütün dünyanın anası kimi mən Venera, necə dözürəm ki, adi bir qız mənim şöhrətimə şərik çıxır və göylərdə təsdiq olunmuş adıma yerdə ləkə gəlir. Qurbanlarımın bir hissəsini ona vermək və adi bir qızın mənim surətimi daşımağına mən necə dözüm. Nahaq yerəmi mühakiməsi və ədaləti Yupiter təsdiq olunmuş məşhur Paris iki rəqibəmdən məni misilsiz gözəlliyimə görə üstün tutdu. Ancaq bu fırıldaqçı, kim olursa-olsun, düşünmədən mənimlə şan-şöhrəti bölərək öz bədbəxtliyinə səbəb olur. İndi mən ona bir toy tutum ki, öz qadağan olmuş gözəlliyinin həsrətini çəksin". O, dərhal, öz nadinc bəd xasiyyəti ilə ictimai qaydalara etina etməyən, oxlarla və məşəllərlə silahlanmış, gecələr başqalarının evinə gedən, cəzasız qalan, cinayətlər törədib ailə həyatın pozan və heç bir yaxşı iş görmə-

[1] Əsatir Venera haqqında belə bir rəvayət edir.

[2] Venera məbədlərinin olduğu yerlər: Pafos – Kipr adasında şəhər; Knid – kiçik Asiyada şəhər; Kiferi – Marafon körfəzində ada.

yən qanadlı oğlunu çağırdı; təbiətən nadinc doğulan oğlunu qızışdırıb şəhərə apararaq, Psixeyanı (qızın adıdır) ona göstərir, gözəllikdə anası ilə yarışması haqqında danışır, ah çəkib qəzəbdən titrəyərək oğluna deyir: "Səni ana məhəbbətinə and verirəm, oxlarının zərif yaraları, məşəllərinin incə odu ilə ananın intiqamını al. Sözün tam mənasında bu cəsur gözəllikdən zülm ilə intiqam al; sənin həmişə maraqla gördüyün işini et! Qoy bu qız dünyada ən yazıq adama aşıq olsun, elə adama ki, tale ona həm əsllik, həm dövlət, həm də təhlükəsizlik verməmiş olsun".

Bunu deyərək o, oğlunu yarıaçıq dodaqları ilə öpür və dəniz kənarına ləpə döyənə tərəf gedir; qırmızı dabanlarını hiddətlənən dalğaların üstünə təzə qoymuşdu ki, elə bil, onun arzusu ilə əvvəldən hazırlanmış dəniz əyanları dərhal hazır oldular. Nereyin xorla oxuyan qızları, sərasər mavi saqqallı Portun[1], sinəsində balıqları saxlayan Salassiya[2] delfinlərinin kiçik sürücüsü Palemon buradadır. Budur, dənizdən Tritonların[3] sürüsü atılır, onlar balıqqulağı ilə incə tərzdə çalmağı bacarırlar; başqaları günün istisindən onu qorumaq üçün ipək örtüklə güneşin qabağını alırlar, üçüncüləri xanımın gözlərinə ayna tuturlar, dişləri gərdünədə üzürlər. Ümmana yol açan Veneranı belə bir dəstə müşayiət edirdi.

Psixeyanın ata-anası qızın taleyini öyrənmək üçün Apollonun orakuluna müraciət edirlər. Orakul Psixeyanın ərinin ölməz olacağını deyir və kəfənə bürünmüş halda dağ uçurumuna aparmağı və orada qoymağı tapşırır. Psixeya ölmür, zərif Zefir onu uçurumdan düzənliyə aparır.

1. Psixeya çiçəkli və incə çəmənlikdə özünü görür. Şehli otlardan ibarət döşəkdə hisslərinin belə tez-tez dəyişilməsindən özünə gəlib şirin-şirin yuxulayır. Doyunca yatandan sonra gümrahlanır. Ayıldıqdan sonra o, bir meşəlik və ləl kimi par-par parıldayan ilahi sənətin qüdrətilə yaranmış (insan əli buna qadir deyil) bir saray görür. Bura hansı allahınsa gözəl xoşa gələn məskənidir. Damı sidr ağacı və fil sümüyündən düzəldilmiş, qızıl sütunlu sarayın divarları heyvanların gümüşdən tökülmüş şəkilləri ilə elə gözəl örtülmüşdü ki, heyvanlar sanki diridir və içəri girənlərə tərəf cumurlar. Döşəməsi bahalı

[1] Portun – Liman himayəçisi (yunanca Palemon)

[2] Salassiya – Duzlu sular allahı Neptunun arvadı

[3] Triton – Poseydonun oğlu.

daşlardan yonulmuş və şəkilli hala düşmüşdü. Xoş o kəslərin halına ki, bu daş-qaşların üzərində gəzəcəkdir. Evin başqa hissələri də eninə və uzununa qiymətli və gözəldir; divarlar müstəsna parıltısı olan qızılla örtülmüş, gün çıxmasa da sarayda işıqdır; hər otaq, hər eyvan, hər qapı parıldayır, evin digər bəzəyi evin böyüklüyünə uyğun idi; fikirləşmək olar ki, bu yerə yaraşmayan otaqları dahi Yupiter insanlarla söhbət etmək üçün düzəltmişdir.

2. Məskənin gözəlliyindən valeh olmuş Psixeya yaxın gəlir, cəsarətlə içəri girir və diqqətlə bu yaşayış yerinin təfərrüatlarını nəzərdən keçirir, evin o tərəfində böyük ustalıqla tikilmiş və içində saysız-hesabsız xəzinəyə baxır. Dünyada elə bir şey yoxdur ki, burada olmasın. Lakin bu qədər nemətlərin əcaibliyinə baxmayaraq ən çox təəccüb doğuran hal bu dövlətin nə zəncirlə, nə qıfılla, nə də qarovulçu ilə qorunması idi. Qız böyük həvəslə tamaşa etməkdə ikən qeybdən bir səs gəldi: "Xanım, nə üçün bu qədər dövlətə təəccüb edirsən. Bunların hamısı sənindir. Yataq otağına get, yorğan-döşəkdə yorğunluğunu al, istəsən əmr et, səni yuyunduraq. Bizim hamımız sənin sadiq kənizlərinik, sən öz bəzək-düzəyini qurtaran kimi zəngin süfrə hazır olar".

3. Bu səs Psixeyaya ləzzət verdi; demək ki, allah özü onun qayğısına qalır və qeybdən gələn səsin məlahəti ilə əvvəlcə yatdı, sonra durub hamamda yuyundu, üstü yarımdairə şəkilli olan stolun üstündə yemək süfrəsini görcək üstünə düşdü. Dərhal ətirli çaxır və cürbəcür yeməklər hazır oldu, sanki bunları külək gətirdi, çünki heç bir xidmətçi gözə görünmürdü. Qız heç kəsi görmür, ancaq xidmətə hazır səsləri eşidir.

Ləzzətli yeməkdən sonra hansı gözə görünməzsə içəri girdi və mahnı oxudu, başqası kifara çaldı. Bu vaxt qızın qulağına çoxlu səs dəydi: bu xor səsi idi.

4. Əyləncələrdən sonra gecə olduğuna görə Psixeya yatır. Gecənin yarısında qulağına güclə eşidilən bir səs gəlir. Bu vaxt öz qızlığını itirməkdən qorxan Psixeya dəhşətə gəlir, nə bədbəxtlik üz verəcəyini bilmədiyindən daha çox təşvişə düşür. Lakin sirli bir kişi girib Psixeyanı özünə arvad edir və tez gözdən itir. Dərhal yataq otağında gözləyənlərin səsləri təzə gəlini qayğı ilə əhatə edir. Bu hal uzun müddət davam edir.

Psixeya öz ərindən uçuruma gəlmiş bacıları ilə görüşməyə icazə alır, Zefir öz nəfəsilə onları saraya gətirir. Bacılar bu cür dövlətə təəccüb edirlər və paxıllıqdan Psixeyanı öldürməyi qərara alırlar. Onlar Psixeyanı ərinə verdiyi əhdi (ərini görməyə heç vaxt cəhd etməmək əhdini) pozmağa sövq edirlər.

Psixeyanın qəlbi dəniz kimi dalğalanır, tərəddüd edir, əli bu böyük cinayətə hazırdırsa da, bir-birinə zidd fikirləri onu bəd əməldən saxlayır. O, gah tələsir, gah təxirə salmağı qət edir, qorxur, inamını itirir, əsəbiləşir və nəhayət onu bu dərdə salan nəhəngi nifrətləyir və ərini sevir. Axşam gecəyə keçirdi. O, tələsik bir halda belə qorxunc cinayətə hazırlaşır. Gecə əri gəlir, işrətdən doyub dərin yuxuya qərq olur.

22. Bu vaxt Psixeya amansız taleyə tabe olub əlinə şam, xəncər götürür, qadınlara məxsus tərəddüdə qalib gəlir. Yorğan-döşəyən sirləri işıqdan əyan olcaq, qız bütün heyvanlardan ən zərif və ən xoşagələn möcüzəni gözəl allah Amuru görür; bu mənzərədən şam da nəşə ilə yanır və xəncərin parıltısı göz qamaşdırır, doğrudan da bu səhnədən hürkmüş Psixeya özünü itirir, həyəcanından ağarır və titrəyərək diz üstə çöküb xəncəri gizlətməyə yer axtarır. O, xəncəri hətta sinəsində gizlətməyə hazır idi ki, xəncər bu cinayətdən hürküb yerə düşür. Qüvvəsini itirmiş ümidsiz qız ilahi sifətə baxdıqca doymur, o, ətirli bədəninin üzərində boynunadək uzanmış saçları olan qızıl baş görür; burma-burma hörükcüklər hər tərəfdən sallanıb parıltısı ilə şam işığının qabağını tutur. Qanadlı allahın belində şehli qanadlar ağarırdı. Bu qanadlar uçmurdusa zərifcəsinə tərpənirdi; bütün bədəni o qədər nurlu və hamardı ki, Venera heç vaxt belə oğul doğduğuna peşman olmazdı. Çarpayının ayağında kaman və ox qabı var idi, bunlar dahi allahın xeyirxah silahıdır.

23. Sevgidən doymayan və sonsuz maraq ilə ona baxan Psixeya ərinin silahından gözünü çəkmir, ox qabından bir ox çıxarır, barmağının ucu ilə oxu sınaqdan keçirir, bərk hərəkət etdikdə ox barmağına batır, bir damla qızıl qan çıxır.

Beləliklə, özünün də xəbəri olmadan o, məhəbbət allahına böyük bir məhəbbətlə bağlanır. Allaha ehtiras hissi duyan qız həssaslıqla ona tərəf əyilir və onu yuxudan oyatmamağa çalışaraq, üzünə tələsik busələr səpir. Həzz almaqla məşğul olmuş qız demək olar ki, nə etdiyini bilmirdi; çıraq isə həsəd apardığındanmı, allahın çiyninə toxunmaq istədiyindənmi yanan maddəsindən bir damla allahın çiyninə axıtdı. Ah, nadinc və yaramaz, sevgiyə xidmət edə bilməyən çıraq, sən, hər cür alovun sahibi olan allahı ödladın, bəlkə də səni bir aşiq yaradıb ki, gecə

bacardıqca çox istifadə etsin. Yağ damlası onun bədəninə düşüncə allah diksinib ayılır və əhdi pozulmuş görərək bədbəxt qadının qucağından və öpüşlərindən azad olub bir söz demədən uçub göyə qalxır. Psixeya ərini axtarır, Amuru geri qaytarmaq üçün çoxlu əzablara dözür, Psixeya ən böyük bədbəxtliyə dözən qızı özünə gəlin etmək istəyən Veneranın da əziyyətlərinə dözür.

ALTINCI KİTAB

9. Venera hüzuruna gətirilmiş Psixeyanı görcək qəzəbdən ağlı başından çıxmış adamlar kimi bərkdən gülməyə başladı; sonra sağ qulağını qaşıyıb qıza dedi: "Axır ki, qaynananı səni görmək şərəfinə nail etdin. Bəlkə də sənin taqsırından yaradan inləyən ərinə dəyməyə gəlmisən. Amma narahat olma, mən seninlə, yaxşı gəlinlə rəftar etməyi bacararam, – deyib çağırır: – Kənizlərim Qayğıkeşlik və Qüvvə haradadırlar? Alın qızı, ona əzab verin". Kənizlər əmrə itaət edərək qızı döyməyə başlayır və əzab verdikdən sonra yenə xanımın hüzuruna gətirirlər. Venera yenidən qəhqəhə ilə gülüb deyir: "Sən ümid edirsən ki, ikicanlı olduğundan mənim sənə yazığım gələr, doğrudan da bu yaxında nənə olmaq və sənin uşağını Veneranın nəvəciyi adlandırmaq mənə böyük şərəfdir. Uşağı mənim nəslimdən saymaq gülüncdür: nikah bərabər nikah deyil, şahidsiz və valideynlərin razılığı olmadan görülən nikah, gərək ki, qanuni deyildir; belə ki, mən sənə yol versəm, nəticədə ancaq bic sayılmalı olan uşaq doğarsan".

10. Bunu deyən kimi qıza hücum edib, onun paltarını cırır, saçlarını dartır və döyməyə başlayır: sonra çovdarı, arpanı, darını, xaşxaşı, mərcini, lobyaları, bir-birinə qarışdırıb bir qalaq düzəldir və qıza deyir: "Mənə elə gəlir ki, sən evdarlıqdan başqa heç nə ilə özünü sevdirə bilməzsən. İndi isə bacarığını sınamaq istəyirəm. Bax, bu toxum qalağını görürsənmi? Bunları axşamadək arıt və bir-bir ayır. Sonra gətir qiymətini verəcəyəm".

Qıza tapşırıq verəndən sonra özü nikah qonaqlığına gedir. Psixeya bu qatışıq və arıdılması mümkün olmayan yığına heç də əlini uzatmayır. Belə bir cəza onun əhvalını tamam pozur. Qız sakit-sakit əyləşib, nə dinir, nə də tərpənirdi.

Bu vaxt kiçik bir kənd qarışqası bu işin nə qədər çətin olduğunu görüb, qızın qayınanasının qəzəbinə hiddətlənir. Qarışqanın allahla bir yerdə yaşayan qıza yazığı gəlir. O, dərhal ora-bura qaçaraq yaxınlıqdakı

qarışqaları çağırır və onlardan xahiş edir: "Siz, ey hamını doyduran torpağın zirək yetişdiriciləri. Amurun arvadı olan bu gözəl qıza rəhminiz gəlsin. Bu bədbəxtə kömək etmək üçün tələsin". Bu sözləri eşidən kimi yeddiayaqlı varlıqların sürüsü bir-birinin dalınca cumur, toxum qalağını böyük səylə arıdıb, bir-bir ayırırlar və dərhal gözdən itirlər.

11. Şərabdan keflənmiş və üstü-başı qızıl güllərlə, cürbəcür yaşıl yarpaqlarla örtülmüş Venera ətrafa ətir saça-saça axşamçağı qonaqlıqdan qayıdır. O, insan əlinin görə bilməyəcəyi işin tez bir zamanda bu cür səliqə ilə yerinə yetirildiyini görcək qəzəblə qışqırır:

"Ey bədəməl, bu işi sən görməmisən. Bunu sənin və özünün bədbəxtliyindən səni sevən bir kəs edibdir". O, qıza bir parça qara çörək tullayıb yatmağa gedir.

Kupidon[1] isə öz köhnə yarasını təzələməsin deyə və öz arzuladığı ilə görüşməmək üçün qapısı qıfıllanmış o biri otağa salınmışdı. Bir evdə olub, lakin bir-birindən ayrılmış sevgililər üçün qaranlıq gecə belə keçdi. Amma Avrora[2] asimana təzəcə gəlmişdi ki, yəni səhər yenicə açılmışdı ki, Venera Psixeyanı çağırdı və ona belə tapşırıq verdi: "Bax, o çay çox dərindir və başlanğıcı da məlum deyildir. Çayın sahili ilə uzanan meşəni görürsənmi? Orada üstləri qızıl yunlu kök qoyunlar nəzarətsiz gəzirlər, necə olursa olsan bilmirəm, mənim üçün o qiymətli yundan bir çəngə gətirməlisən".

Psixeya Veneranın bütün tapşırıqlarını yerinə yetirir, hər bir əziyyətə dözür. O, yalnız təkcə Yupiterin köməyi sayəsində Kupidon ilə nikah bağlayıb ona ərə gedir. Lüssi – eşşək, qarı və gözəl qız Xareta ilə gözlənilmədən quldurların əlindən qurtulur, lakin bununla belə onun sərgərdanlığı qurtarmır, o, bir sahibdən başqa bir sahibin əlinə keçir. Yoxsul bostançı kəndligildə o, öz həyatından belə danışır:

DOQQUZUNCU KİTAB

Hər səhər sahibim mənə tərəvəz yükləyir və qonşu kəndə daşıyırdı. Malını alverçilərə satandan sonra üstümə oturur və bostanına qayıdırdı. O, yer şumlayır, bostana su verir, mən isə bu vaxt rahat-rahat ağnayırdım. Ancaq budur ulduzların sayrışması, günlərin və ayların ötüşməsi ilə il də başa çatdı. Şərabla bol olan şən payızdan sonra Oğlaq[3] qış şaxtaları yaxınlaşdı. İndi gecələr də şehli keçir və hey yağış

[1] Amurun ikinci adı
[2] Avrora – sübh ilahəsi
[3] Oğlaq – qış ayı

yağır. Mən üstü açıq tövlədə (sahibim çox kasıb olduğundan özünün də nə yorğanı var idi, nə də bir örtüyü, çadırla kifayətlənirdi) daima soyuqdan üşüyürdüm. Bununla belə mənə səhərlər çılpaq ayaqlarımla soyuq palçıq içində ayağımı götürüb qoymaq və donmuş təpəciklərlə toqquşmaq nəsib olurdu. Mədəmi də yeməklə istədiyim qədər doldura bilmirdim. Sahibimlə mənim süfrəm bir idi. Bizim kasıb süfrənin xörəyi bunlardı; toxumluğa saxlanmış və çubuq kimi uzanmış acı və torpaq iyi verən, şirəli, köhnə və dadsız latik[1].

Taleyin zərbələrindən inciyən Lüssi yenidən allahlara dua edib yalvarır ki, onlar onun dönüb insan olmasına kömək etsinlər. İlahə İzida bu gəncə qurtuluş yolu göstərir.

ON BİRİNCİ KİTAB

Sənin yalvarışlarına görə, Lüssi, qarşına çıxıram.

Mən təbii şeylərin anası, hamıdan əvvəl doğulmuş vücud, allahlar arasında ən alisi, ölənlərin hökmdarı, asiman sakinləri arasında birinci, bütün allahların və ilahələrin vahid surətiyəm ki, mənə asimanın göylüyü, dənizin saf küləyi və qəflət dünyası tabedir. Cürbəcür ibadətlərlə, müxtəlif adlarla mənim vahid surətim bütün dünya tərəfindən əzizlənir. Friqiya yaşlıları mənə pessimuntlu allahlar anası deyir. Burada çoxdan məskən salmış sakinlər Kekropik Minevrası, dəniz sahilində yaşayan kiprlilər Pafiya venerası, Krit atıcıları Diktin Dianası, üçcildli siciliyalılar Stiqiya Prozerpinası[2], elevsinlər Serekata, biri Yunena, digərləri Bellona[3], onlar Gekata, bunlar Ramnuziya, günəşin ilk şüaları ilə başqalarından tez nurlanan həbəşlər, ariylər və misirlilər isə məni öz həqiqi adımla – hökmdar İzida çağırırlar. Mən rəhimli və tez dada yetişənəm. İndi də sənin bədbəxtliyindən mütəəssir olub sənin qarşına çıxıram, ağlamağı və yalvarışları kəs! Daha darıxma, buyruğumla qurtuluş günün başlayır. Gecədən yaranan sübh lap əvvəldən mənə ittihaf olunur. Qışın bu havası gedir, fırtınalar sakitləşir. Artıq dəniz də üzmək üçün əlverişli olur və kahinlərim su rabitəsinin başlanğıcına başlayırlar, yəni mənə hələ su üzü görməmiş bir qayıq bəxş edirlər.

[1] Latik – bitki
[2] Prozerpina – Parsofona
[3] Bellona – müharibə allahı Marsın arvadı

6. Nümayiş vaxtı məsləhətimlə baş kahinimin sağ əlində qızıl güldən çələng olacaq. Deməli, təxirə salmadan ibadətə qoşulmuş kütləni yarıb icazəmə arxalan və sən də ibadətə qoşul. Ehtiyatlı ol ki, sənin bu hərəkətin heç kəsdə bir şübhə oyatmasın. Camaat elə zənn etsin ki, sən kahinin əlindən öpmək istəyirsən. Onda lap yaxın get, qızıl güldən üz və çoxdan zəhləni tökmüş bu eybəcər heyvan dərini tulla. Məsləhətlərimi yerinə yetirəndə qarşına çıxan çətinliklərdən qorxma, mən kahinimə göstərişlər verəcəyəm. Elə ki, əmrimlə kütlə ayrıldı və sənə yol verdi, qorxma, irəli get. Sənin eybəcər siman ibadət və bayram səhnələri vaxtı heç kəsdə şübhə və bədgümanlıq oyatmaz. Amma bunu yadında saxla ki, son nəfəsinədək qalan ömrünü mənə ittihaf edəcəksən. Ədalət bunu tələb edir. Gərək sən də xeyirxahlığı ilə insan surətini sənə qaytaran şəxsə bütün həyatın boyu xidmət edəsən. Himayəm altında xoşbəxt ömür sürüb, şərəflə yaşayacaqsan. Ömrünü bitirib qəflət dünyasına gedəndə bu yeraltı yarımdairədə Axeront zülmətini nurlandırdığımı, Stiqiya düzənlərində hökmranlıq sürdüyümü görəcəksən və Yenisey çöllərində yaşayaraq özün mənə ibadət edib, inadlı toxnəfəsliklə bizə xidmət etsən, bil ki, ömrünü qəbul olunmuş vaxtdan da artıq uzatmaq məndən asılıdır".

Lüssi ilahənin məsləhətlərinə əməl edərək insan olur. Bundan sonra gənc həyatını allahların xidmətinə həsr edir və İzida ilə Ozirisin kahinləri sırasına daxil olur.

ƏSATİRİ, ƏFSANƏVİ, TARİXİ, ƏDƏBİ, COĞRAFİ ADLAR

A

Adonis – Asori hökmdarı Tiantın oğlu. Ona həm Venera, həm də Persefon aşiq olduqları üçün Zevsin qərarına görə ilin bir yarısını Veneranın yanında, ikinci yarısını isə Persefonun yanında keçirməli idi. Ovda pələng onu parçalamışdır.
Adrast – əsatirə görə Fiv şəhərinə hücum edən yeddi qəhrəmanın biri
Afrani (II əsr) – Romanın Toqi yazan yazıçılarındandır.
Axat – Eneyin sədaqətli yol yoldaşı
Axeront – yeraltı dünyada çay və ya bataqlıq
Akest – Troya qəhrəmanı. Siciliyada Akest adlı şəhər təşkil etmişdir.
Akidaliya – Venera
Akraqant – Siciliya dağları
Aksi (17-90) – Roma dramaturqu. Faciələr yazmış, lakin əsərlərindən kiçik parçalar qalmışdır.
Akvilon – Şimal küləyi
Akvin – Roma şairi, Katullun müasiri
Aqrippa – Avqustun sərkərdəsi
Alba – Alba-Lonqa, İtaliyanın mərkəzi hissəsində şəhər
Albula – Tibr çayının qədim adı
Alfey – Yunanıstanın Elid əyalətində çay
Alkid – Herakl
Allekto – pəri
Alondlar – Neptunun oğulları
Amata – hökmdar Latının arvadı. Laviniyanın anası
Ambrosiya – Allahların yeməyi. Başqa sözlə əbədilik yeməyi
Amfitrida – Poseydonun arvadı
Amfitrion – Fiv sərkərdəsi
Amfrisi Apollon – Apollon Amfrisi çayının ətrafında Admetin qoyunlarını otardığı üçün ona belə ləqəb verilmişdir.
Amor – Amur, məhəbbət allahı, Kupidon
Ani – Delos adasının hökmdarı
Anigtiya – sehrbaz
Anis – Misirdə müqəddəs sayılan öküz, onu Memfisdə məbəddə saxlayırdılar.
Aniyen – Lassiumda çay
Anksur – Qədim İtaliya allahı
Antandr – İda dağının ətəyində şəhər
Antoni – Triumvirdir. Avqustun yezənəsi, sonralar düşməni
Anubis – Misir allahı. Başı it başı kimi təsəvvür edilirdi.
Apennin – İtaliyanın şimalında dağ zirvəsi
Apollon – günəş, ilham, şeir allahı. Gələcəkdən xəbər verən
Apr – gümüş dövründə natiq olmuşdur. Siseronun əleyhinə çıxmışdır.
Aristey – Maldarlığı və meyvə ağaclarını himayə edən allah
Arkadiya – Yunanıstanın Peloponnes hissəsində əyalət
Arqi – b a x: Arqos
Arqos – Qədim Romada şəhər

Arqus – yüz gözlü qəhrəman. Yunan əsatirində İonın gözətçisi
Asini Pollion – Roma dövlət adamı, natiq və tarixçi. Vergilinin müasiri
Askaniya – Eneyin oğlu. Onun ikinci adı Puldur.
Askleni (*Eskulan*) – Apollonun oğlu. Həkim. Təbabət allahı
Assarak – Eneyin ulu babası
Asteriya və Qiq – səadətli sevginin timsalı
Astianakt – Hektorun oğlu
Atlant – göy səmanı çiyinlərində saxlayan dəniz azmanı. Titan. Atlas
Avensi – Heraklın oğlu
Aventin – Romada təpə
Avern – Kampan əyalətində göl
Avfit – Apuliya əyalətində çay
Avqust – Oktavian, e.ə. 31-ci ildə Romada yaranan mütləqiyyətin başçısı. Birinci Roma imperatoru
Avlid – Beotiyada sahil şəhəri
Avrora – sübh ilahəsi
Avstr – cənub küləyi
Avtolik – Odisseyin ana babası. Məkrli və hiyləgər imiş
Avzoniya – İtaliya. Şeirdə obrazlı ifadə kimi İtaliya əvəzinə Avzoniya sözünə rast gəlmək olur.
Avzoniyalı – italiyalı
Azil – Etrusk falçısı

B

Baxidlər – Bakxın kahinləri. Ona sitayiş və müşayiət edənlər
Bakx – Dionis. Şərab allahı
Batul – Kampan əyalətində (İtaliyadadır) şəhər
Bebriklər – Qara dəniz sahilində yaşayan xalqlardandır.
Bel – Karfagen hökmdarı Didonun atası
Bellona – müharibə ilahəsi
Bendida – Frakiya ilahəsi. Artomida
Borey – şimal küləyi. Akvilon
Branx – falçı. Gələcəyi görmək qabiliyyətini Apollondan almış
Brut – Roma hökmdarı Tarkvinini öldürüb, Romada respublika quran qəhrəman

D

Daqi – Xəzərin şərq sahilində yaşayan skif tayfası. İndiki dağıstanlılar
Danailər – Yunanlar
Danay – yunanların ulu babası. O, Misirdən Yunanıstana köçmüşdür.
Dardan – Troyalıların ulu babası
Dardanlılar – Troyalılar
Dedal – əsatiri rəssam, mexanik, inşaatçı. Guya Krit adasında olan labirinti o tikmişdir.
Del – Delos adası nəzərdə tutulur. Burada Apollonun məbədi var.
Deli – Apollon
Demetra – Zevsin bacısı. Bitki, tarla, əkin, sünbül və çörək ilahəsi
Denapeya – pəri
Devkalion – Prometeyin oğlu
Diana – sağlamlıq və ovçuluq ilahəsi (Artemida)
Dioneya – Venera
Dirlər – intiqam allahları (Erinlər)
Dit – yeraltı dünyanın allahı Plutonun ikinci arvadı
Dorida – Nereyin arvadı. Dəniz ilahəsi
Doto – Nereyin qızlarından biri
Driona – pəri
Druslar – Romanın qədim nəsillərindən Avqustun arvadı Oktavianın nəsli

E

Eak – Axillesin babası
Ekida – Allahların çiyninə atdıqları ala-bula dəri
Ellisa – Didonun ikinci adı
Endimon – yatmış gözəl oğlan. Didonisin anası Semelanın sevgilisi
Eney – Taxta atın ixtiraçısı. Taxta at vasitəsilə yunanlar Troyanı almışdırlar.
Enni Kvant (e.ə. 239-169) – Roma şairi. Ən böyük əsəri "Anialar" adlı poemadır. Əsərdən kiçik parçalar qalmışdır.
Eol – küləklər allahı
Epidamı – İlliriyada şəhər. İndiki adı Durresdir.
Erəb – zülmət. Yeraltı dünyanın məcazi mənası
Erik – Veneranın oğlu
Erinlər – intiqam allahları
Erot – Afrodita və Aressin oğlu. Sevgi oyadan allah. Allahlar da, insanlar da ona tabedirlər.
Etna – Siciliyada vulkanlı dağ
Etrusklar – İtaliyada Etrusda yaşayan xalq
Evandr – Arkadiya hökmdarı. İtaliyaya köçdükdən sonra Eneyin müttəfiqi olmuşdur.
Evr – cənub küləyi

F

Faeton – günəşin oğlu
Faliya – Nereyin qızlarından biri
Faumantiada – İrida, Qövsi-qüzeh allahı. Allahların qasidi
Favn – sürüləri himayə edən allah
Feb – Apollon
Feniks – Heraklın müəllimidir. Öz tələbəsindən çox yaşamış
Fiyyada – Vakxın kahinlərindəndir ki, ceyran dərisinə bürünürdü.
Fortuna – tale ilahəsi
Füri – intiqam alan qorxunc varlıq

X

Xaritlər – gözəllik, şadlıq, şənlik allahları
Xaron – ölənlərin kölgəsini daşıyan qoca
Ximera – başı şir başı, bədəni keçi bədəni, quyruğu div quyruğu olan qorxunc varlıq ki, daima alov saçırmış
Xoas – yeraltı dünyada boşluq allahı

İ

İberiya – İspaniya
İfak – Odisseyin ikinci adı
İfianassa – Nereyin qızı
İkar – Dedalın oğlu. Atası ilə göyə uçmuş, lakin qanadları mumdan olduğu üçün Günəşin hərarətindən ərimiş və İkar yerə düşüb parçalanmışdır.
İksion – Fessaliya hökmdarı
İl – Askaniya
İli – İlion
İliona – Frakiya hökmdarı Palmmestorun arvadı
İlita – Geranın ləqəbi
İliya – əfsanəyə görə Roma şəhərini təsis edən Romul ilə Remin anaları
İnnax – çay allahı, Arqos şəhərini təsis edən

İnuy – sürü allahı (Pan)
İov – Yupiterin başqa adı
İppolit – Tezeyin oğlu. Anası İppolitadır ki, Tezey müharibədə onu əsir almışdır.
İriada – qövsi-qüzehin timsalı. Allahların qasidi
İsperiya – İtaliya
İtal – enotr tayfasının başçısı. İtaliya sözü onun adından düzəlmişdir.
İtallar – italyanlar

K

Kak – Vulkanın oğlu. Ağzından od püskürürmüş.
Kalxas – Troya müharibəsində yunan ordusunun falçısı
Kalliona – poeziya ilahəsi
Kalv – Katullun müasiri. Şair və natiq
Kamill – e.ə. 367-ci ildə Alba yaxınlarında qalları məğlub edən Roma diktatoru
Kampan – İtaliyanın mərkəzi hissəsində əyalət
Kapitoli – Roma şəhərində yeddi təpədən ən böyüyüdür.
Kar Lükressi (98-55) – Romanın filosof şairi. Şah əsəri "Şeylərin təbiəti haqqında" adlı fəlsəfi əsəridir ki, şeirlə yazılmışdır.
Karfagen – Şimali Afrikada ticarət şəhəri. Karfagen ilə Roma arasında müharibələr olmuş, bunlara Pun müharibələri deyilir.
Karin – Romanın ən varlı məhəlləsi
Karmenta – cadugər pəri. Evandrın anası. Kapitolinin ətəyində ona aid məbəd var idi.
Katon Mark Parsi (e.ə. 234-149) – böyük mülkədardır. Mühafizəkar olmuş, e.ə. III və II əsrlərdə sendor vəzifəsində işləmişdir.
Katon Uticeski – filosofdur. E.ə. II əsrdə yaşamış və siyasi görüşləri ilə respublikaçı olmuşdur.
Kentavrlar – guya üzdən və qarnından adam, qalan üzvləri at olan varlıqlar. Fessaliyada yaşayırlarmış.
Kerber – üçbaşlı it. Cəhənnəmin gözətçisi. Serber
Kerera – Serera (yunanca Demetra). Təsərrüfat və bitki ilahəsi. Şeirdə çörək məfhumunu əvəz edir.
Kesar – Sezar, Qeysər. Roma imperatorunun ləqəbidir.
Kibela – allahların anası
Kiferon – Fiv şəhəri yaxınlığında dağdır. Vakx mərasimləri burada icra edilirdi.
Kiklon – Siklop; Təpəgöz
Killena – Arkadiyada dağdır. Hermes burada anadan olduğu üçün onun ləqəbi
Killeni – Hermes, Merkuri. Guya Hermes bu dağda anadan olmuşdur.
Kirka – cadugər qadın. Əsatirə görə Kalxidadan köçüb İtaliya sahillərində Ea adasına gəlmişdir.
Kiteriya – Veneranın ləqəbidir. Kiferiya
Kor – şimal küləyi
Kornifissi – Roma şairi və natiqi. 41-ci ildə müharibədə ölmüşdür.
Kosit – yeraltı dünyasında göz yaşı çayı
Kum – Kampanda sahil şəhəri
Kupidon – Amur. Məhəbbət allahı
Kvestor – sərkərdənin birinci müavini. Hərbi hissənin xəzinədarı hesab olunurdu.
Kvirip – Romulun ləqəbidir.

Q

Qalateya – dəniz pərisi. Dəniz allahı Nereyin qızlarından biri

Qallar – indiki Fransada yaşayan xalq

Qanimed – Troya hökmdarı Trosun gözəl oğlu. Yupiterin göstərişi ilə qaraquş onu oğurlayıb göylərə aparmış, orada allahlara şərab təqdim edərmiş.

Qapnalika – əsatiri ovçu

Qarni – tufan ilahəsi

Qekata – ilahə. Üç vəzifəsinə görə üç adı var. 1. Luna – hamilə qadınların himayəçisi. 2. Diana – sağlamlıq ilahəsi. 3. Prozernina – Yeraltı dünyanın ilahəsi. Ona görə əsatirdə ona üçüzlü Triviya deyirlər. Bundan əlavə Qekata, eyni zamanda, sehrbazlıq ilahəsi hesab edilirdi.

Qelikop – Beotiyada (Yunanıstan) dağ. Guya Muzalar burada yaşayırlar.

Qella – hökmdar Atamantın və ilahə Nefelin qızı. Dənizdə boğulmuşdur. Boğulduğu yerə Qellesnont adı vermişlər.

Qeniy – ev, şəhər və əyaləti himayə edən

Qerion – üç cisimli, altıəlli varlıq. Herakl onun inəklərini alıb aparmışdır.

Qermafrodit – Hermesin və Afroditanın oğlu. Bulaqda çimərkən bulaq nəvazişlərinə cavab vermədiyi üçün allahlar onların bədənlərini birləşdirmiş, həm qız, həm oğlan olmuşdur.

Qesperidlər – Atlantın qızları

Qestiya – Zevsin bacısı. Ailə ilahəsi

Qisperiya – İtaliya

Qlavk – ikincidərəcəli dəniz allahı

Qorkop – saçları ilan olan qorxunc varlıq. Ona baxanlar dönüb daş olurdular.

Qorlar – zaman ilahələri

Qortenzi – Siseronun düşmənidir. Roma natiqi

Qortina – Krit adasında böyük şəhər

Qradiv – Müharibə allahı. Marsın ləqəbi

Qrakx qardaşları – II əsrin sonunda Romada islahat aparmaq istəyən liberal görüşlü iki qardaş (Qay Qrakx və Tiberi Qrakx). Qay 121-ci ildə, Tiberi 133-cü ildə öldürülmüşdür.

Qriqaniya – Xəzər dənizi sahilləri

Qripiyski – Apollonun ləqəbi. Qrini şəhəri yanında meşədə Apollonun məbədi var idi.

L

Lakaniya – Yunianın ləqəbidir.

Lar – romalılarda ev, ailəni himayə edən allah

Latın – latınların hökmdarı. Lavinyanın atası

Latoniya – Diananın anası

Lavrena – oğruları himayə edən ilahə

Lavrent – latınların paytaxtı

Liber – Vakxın ləqəbidir.

Liey – Vakxın ləqəbidir.

Likey – Allah Panın ləqəbidir.

Likurq – Spartanın yarıməfsanəvi qanunvericisi

Livi Andronik (e.ə. 284-204) – Qədim Roma ədibi. Homerin "Odisseya" əsərini tərcümə etmişdir.

Lükan (b.e. 39-65) – Roma şairi. "Farsaliya və yaxud vətəndaş müharibəsi haqqında" adlı poeması var. Neron tərəfindən öldürülmüş.

Lüperklər – Panın kahinləri

Lüsifer – səhər ulduzu

M

Maksim-Fabin – Roma hakimi. Hannibal ilə vuruşda şöhrət qazanmışdır.

Manlar – ölənlərin ruhu

Manli – Tit Manlı Torvat, Kapitolini qalların hücumundan müdafiə etmişdir.

Marika – pəri. Hökmdar Latının anası

Mars – müharibə allahı

Mars meydanı – Roma hasarları dalında meydan. Burada yığıncaqlar və seçkilər təşkil edilirdi.

Marsial (b.e. 42-104) – Roma şairi

Martovo – Marsa məxsus

Massik – Kampanda dağ. Üzümü və şərabı ilə şöhrət qazanmışdır.

Matuta – Qədim İtaliyada sabah allahı

Mavoros (*Mavorot*) – Mars

Mayya – Atlantın qızı, Hermesin anası

Memnon – həbəşlərin sərkərdəsi. Troyalıların köməyinə gəlmişdi.

Meotiya – Azov dənizi sahilləri

Messenata – Avqustun saray adamı. Elm və incəsənət adamlarını himayə edirdi.

Mina (*Min*) – 100 dirhəm. Roma pulu

Minerva – Afina

Minos – Krit hökmdarı. Ədalətinə görə, yeraltı dünyasında məhkəmə sədri olmuşdur.

Minotavr – buğabaşlı və quyruqlu bir varlıq. Minosun arvadı Pasifiya buğa ilə əlaqə nəticəsində onu doğmuşdur.

Miyeyen – troyalı. Eneyin şeypurçusu

Mulsiber – Volkanın ləqəbidir.

N

Neptun – baş dəniz allahı. Poseydon

Nerey – dəniz allahı. Bəzən Neptun məfhumu ilə əvəz olunur.

Neridlər – Nereyin qızları. Dəniz pərilər. Onlar əlli nəfərdir.

Nevi – Qədim Roma yazıçısı. Plavtın müasiri. Əsərlərindən kiçik parçalar qalmışdır.

Niflər – çaylarda, meşələrdə, mağaralarda yaşayan pərilər. Onlar həmişə gözəl təsəvvür edilirdilər.

Nord – cənub küləyi

O

Olimp – Yunanıstanda Makedoniya ilə Fessaliya arasında olan dağlardır ki, yunanlıların təsəvvürünə görə allahlar bu dağlarda yaşayırlar. Olimp, çox zaman göy mənasında işlənir.

Opiya – meşə pərisi. Dianani müşayiət edir.

Orion – ulduzlar. Onların çıxıb batması ilə yağışın yağacağını, boranın başlayacağını təxmin edirlər.

Ork – yeraltı səltənətin adı

Osklar – Kampanda İtaliya tayfası

P

Pad – Po çayı

Pakuvi (e.ə. 220-103) – faciə yazandır. Əsərlərindən qalmamışdır.

Palatin – Roma şəhərində olan yeddi təpədən biri
Palinur – Eneyin sükançısı
Pallada – Afinanın ləqəbidir.
Pan – sürülərin himayəçisi olan allah. Çobanların vətəni olan Arkadidə məbədləri var idi. Onun ləqəbi Likeylidir.
Panapeya – Nereyin qızlarından biridir.
Parklar – taleyin üç pərisi. Onların ikisi həyat bağını toxuyur, biri isə onu qırırdı.
Pasifiya – Minosun arvadı. Buğa ilə əlaqə nəticəsində Minotavrı dünyaya gətirmişdi.
Penatlar – ev və şəhəri himayə edən allahlar
Peon – həkim Eskulapın ləqəbidir
Pifiyalı – Anollonun ləqəbidir
Pik – meşə və əkinçiliyi himayə edən allah. Saturnun oğlu
Piqmalion – Karfagen hökmdarı. Didonun qardaşı
Pluton – yeraltı dünyanın allahı
Portun – Lilanlar allahı
Potos – Veneranın oğlu. Məhəbbət arzusunu təmsil edir.
Prian – münbitlik allahı. Çöllərin, sürülərin himayəçisi
Propersi (e.ə. 49-15) – Roma şairi. Ovidinin müasiri
Proserpina – Plutonun arvadı
Protey – dəniz allahı. Okeanın oğlu
Punlar – Şimali Afrikada Liviya əhalisi

R

Rem – Romulun qardaşı. Roma şəhərini təsis edən
Romul – Remin qardaşı. Roma şəhərini təsis edən birinci Roma imperatoru
Rutul – Lassium ətrafında yaşayan İtaliya tayfalarındandır.

S

Sallyusti (e.ə. 86-35) – Roma tarixçisi. Yuli Sezarın yaxın adamlarındandır.
Sarp – Neapol yanında çay
Saturn – Lassiumun birinci hökmdarı. Allah (yunanlarda Kropos)
Saturniya – Saturnun qızı. Yunona
Sebetida – dəniz pərisi. Çay allahı. Sebetin qızı
Serera – əkinçilik və münbitlik ilahəsi. Əsasən çörək mənasında işlənirdi.
Sessili (?-168) – Roma dramaturqu. Komediyalarından qalmamışdır.
Sibilla – dəniz allahı. Qlavkın qızı. Gələcəkdən xəbər verən Apollonun kahini
Sixey – Didonanın ölmüş əri
Silvan – meşələr allahı
Sirenlər – qadın səsinə malik balıqlar. Öz gözəl səslərilə səyyahları adalara cəzb edərək öldürürdülər.
Skipionlar – Sissipionlar. Romada zadəgan nəsli. Bu nəsildən Böyük Skipion və kiçik Skipion şöhrət qazanmışlar.
Stasan (?-95) – Roma şairi "Fivanda" adlı poemanın müəllifi
Sufen – Roma şairi. Katullun müasiri
Summan – gecə ildırımları allahı. Romalılar onu Yupiterdən də böyük allah hesab edirdilər.

T

Tantal – Frakiya hökmdarı nəzərdə tutulur.
Tevkr – Troyanın ilk hökmdarı
Tevkrlər – troyalılar
Tiber – Tibr çayı
Tiberin – Tiber çayının allahı
Tibull (e.ə. 50 – b.e. 19) – Roma şairi. Ovidinin müasiri
Tifon – şəfəq ilahəsi Avroranın əri
Timbrey – Apollonun ləqəbidir.
Tit Livi (e.ə. 59 - b.e. 17) – tarixçi. 142 kitabdan ibarət tarix əsəri var.
Titi – yüz od saçan pəncəyə malik qorxunc varlıq. Yupiter uzun mübarizədən sonra ildırımla vurub onu Tartara göndərmişdir.
Tizifona – qətl üçün intiqam alan pəri
Trintolem – Afinada Elevsinin hökmdarı, Demetranın sevgilisi. Demetra ona buğda dəni və gərdunə bağışlamış. Gərdunədə gəzə-gəzə dənləri yerə tökmüş və əkinçiliyi intişar etdirmişdir.
Tritonida – ilahə Afinanın ləqəbi
Triviya – üçüzlü Kegatanın ləqəbidir.

U

Uliss – Odisseyin ikinci arvadı

Ü

Üliks (*Ülies*) – Odissey

V

Vakx – Bakx
Venera – eşq allahı (Yunan əsatirində Afrodita)
Vesper – ulduz. Gecənin timsalı
Vesta – ev və ailənin himayə edən allah
Vezul – Alp dağlarında zirvə
Virbin – İppolitin dəyişmiş adı
Volkan – od və dəmir allahı (Hevest)
Volks – İtaliyada yaşayan tayfalardandır.
Volturn – Kampanda çay

Y

Yan – Qədim İtaliya allahı. O, ikiüzlü təsəvvür edilirdi, yəni o, həm keçmiş, həm də gələcəyi bilirdi.
Yaniq – şərq küləyi
Yarba – Liviya hökmdarı. Didonanı almaq istəyirdi.
Yul (*Pul*) – Eneyin oğlu.
Yunana – Yupiterin arvadı (Gera). Hamilə qadınların himayəçisi.
Yupiter – allahların allahı. İldırım və göy gurultusu allahı

Z

Zefir – qərb küləyi

KİTABDAKILAR

Ön söz 4

RESPUBLİKA DÖVRÜNDƏ ROMA ƏDƏBİYYATI

Xalq ədəbiyyatı (*tərc. edənləri Bəxtiyar Vahabzadə, Əhməd Qurbanov, Əlibəy Hüseynov, Sərəstan Əliyev*)

Arval qardaşlarının nəğməsi 7
Ağı 7
Epitafi 8
Sülh haqqında and 8
Padiqranı lənətləmə 8
Boğaz xəstəliyini lənətləmə 8

Tit Makk Plavt 9

Xəzinə (*tərc. edənləri S.Əsədulla və Əlibəy Hüseynov*) 13

Publi Terensi 41

Androslu qız (*tərc. edəni Vasif Əfəndiyev*) 44

Mark Tulli Siseron 84

Katilinaya qarşı birinci nitq (*tərc. edəni Tofiq Hacıyev*) 89
İkinci nitqdən parça (*tərc. edəni Tofiq Hacıyev*) 91
"Natiq haqqında" risalədən (*tərc. edəni Tofiq Hacıyev*) 94

Qay Valeri Katull 101

Lesbiya vəd edir (*tərc. edəni Ağacavad Əlizadə*) 106
Barışıq (*tərc. edəni Ağacavad Əlizadə*) 106
Sevməyə bilmərəm (*tərc. edəni Yaşar Qarayev*) 107
Dostluq (*tərc. edəni Bəxtiyar Vahabzadə*) 107
Lesbiyaya (*tərc. edəni Bəxtiyar Vahabzadə*) 107
Kənd gözəli (*tərc. edəni Hüseyn Kürdoğlu*) 107

Nifrət edirəm – sevirəm (*tərc. edəni Hüseyn Kürdoğlu*) 108
Arzu və məhəbbət (*tərc. edəni Yaşar Qarayev*) 108
Küsüşmə (*tərc. edəni Hüseyn Kürdoğlu*) 108
Özümə (*tərc. edəni Teyyub Qurbanov*) 109
Yalvarış (*tərc. edəni Ağacavad Əlizadə*) 110
Oyun (*tərc. edəni Teyyub Qurbanov*) 110
Furi və Avreliyə (*tərc. edəni Tofiq Hacıyev*) 110
Şair L.Kalva (*tərc. edəni Şamil Salmanov*) 111

İMPERİYA DÖVRÜNDƏ ROMA ƏDƏBİYYATI

Publi Vergili Maron 113

Melibey, Titir (*tərc. edəni Əli Məmmədov*) 115
"Birinci nəğmə"dən (*tərc. edəni Hüseyn Kürdoğlu*) 119
"Üçüncü nəğmə"dən (*tərc. edəni Tofiq Hacıyev*) 119
"Dördüncü nəğmə"dən (*tərc. edəni Ağacavad Əlizadə*) 120

Kvint Horasi Flakk 125

Vergiliyə (*tərc. edənlər: Sərəstan Əliyev, Süleyman Məmmədov*) 127
Poeziya haqqında (*tərc. edəni Ayaz Cəfərov*) 128
Liqurinə (*tərc. edəni Aydın Abdullayev*) 128
Qızqaçıran Paris (*tərc. edəni Əhməd Qurbanov*) 129
Favna (*tərc. edəni M.Zeynalov*) 130
Banduziya bulağı (*tərc. Ə.Əliyev*) 130
Xloyaya (*tərc. edəni Aydın Abdullayev*) 131
Abidə (*tərc. edəni Aslan Aslanov*) 131
Dialoq (*tərc. edəni Aslan Aslanov*) 132
Pizonlara məktub (*tərc. edəni Ağacavad Əlizadə*) 134

Ovidi Nazon 146

Qoca Skifin hekayəsi (*tərc. edəni Ə.Ələsgərov*) 148
Birinci məzəmmət (*tərc. edəni Ağacavad Əlizadə*) 149
Orfey və Evridika (*tərc. edəni Yaşar Qarayev*) 152

ROMA ƏDƏBİYYATININ "GÜMÜŞ DÖVRÜ"

Lüssi Anney Seneka 156

İmperator Klavdinin küdüləşməsi (*tərc. edəni Firudin Ağayev*) 158
Fedra (*tərc. edəni Əli Məmmədov*) 166

Petroni 202

"Satirikon" əsərindən parçalar (*tərc. edəni Həmid Kərimov*) 205

Fedr 217

Qurbağa və öküz (*tərc. edəni Firudin Ağayev*) 219
Dişində ət aparan it (*tərc. edəni Firudin Ağayev*) 219
Tülkü və üzüm (*tərc. edəni Firudin Ağayev*) 219

Dessim Yuni Yuvenall 220

Satira (*tərc. edəni Şamil Salmanov*) 222

Publi Korneli Tassit 226

Yalançı Roma imperatoru (*tərc. edəni Əlibəy Hüseynov*) 228
Tiberinin xarakteristikası (*tərc. edəni Əlibəy Hüseynov*) 229
Messalina (*tərc. edəni Əlibəy Hüseynov*) 230
Klavdinin ölümü (*tərc. edəni Əlibəy Hüseynov*) 233
Neronun və Poppeyanın romanı (*tərc. edəni Əlibəy Hüseynov*) 234

Apuley 236

"Qızıl eşşək" romanından parçalar (*tərc. edəni Firudin Ağayev*) 239

Əsatiri, əfsanəvi, tarixi, ədəbi, coğrafi adlar 252

ANTİK ƏDƏBİYYAT ANTOLOGİYASI

İKİ CİLDDƏ
II CİLD

"AVRASİYA PRESS"
BAKI-2006

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piri*

Kompyuter səhifələyicisi: *Allahverdi Kərimov*

Kompyuter operatorları: *Maral Rəisqızı*
Asifə Əfəndi

Korrektor: *Tofiq Qaraqaya*

Yığılmağa verilmişdir 12.04.2006. Çapa imzalanmışdır 02.08.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 16,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 101.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

LI6(0)
A79